# QARABAĞ

# SUALLAR VƏ FAKTLAR



## QİSMƏT

## BAKI - 2005

BBK.5.2

Məsləhətçi və ön sözün müəllifi: Nedim KAYA

Editor, Bədii və texniki redaktor: Halil Öztürk

Nəşriyyatın direktoru: Zahid Məmmədrzayev

Redaktor: Alpay Əhmədov

"Qarabağ: Suallar və Faktlar", "Qismət" nəşriyyatı. Bakı, 2005. 156 səh. (şəkilli) Bu kitab Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mövzusunda Azərbaycanın mövqeyini açıqlamaq məqsədi ilə Azərbaycan gənclərinin təşəbbüsü ilə Azərbaycan və Türkiyə xanımlarının maliyyə dəstəyi ilə hazırlanmışdır.

BBK.5.2

0502000000
M-085-28-05

İSBN 9952-29-057-8

© Qismət, 2005

# ÖN SÖZ

XIX əsrin qanlı münaqişələrindən biri olan "Dağlıq Qarabağ" problemi artıq 14 ildir ki, həll olunmamış qalır. Bu illər ərzində çoxlu qanlı hadisələr, siyasi dəyişikliklər baş vermişdir. Əvvəllər bir bölgədə milli zəmində baş vermiş narazılıq kimi qələmə verilən problem böyüyərək genişlənmiş və iki dövlət arasında müharibəyə çevrilmişdir. Nəticədə Azərbaycan torpaqlarının 20%-ə yaxın ərazisini Ermənistan qoşunları işğal edib. Həm Ermənistandan, həm də Dağlıq Qarabağdan və işğala məruz qalmış ətraf yeddi rayondan qovulmuş qaçqın və məcburi köçkünlərin sayı bir milyona çatmış, münaqişədə 20 minə yaxın azərbaycanlı şəhid edilmiş, minlərlə ev, məktəb binaları, təsərrüfat sahələri və mədəniyyət ocaqları dağıdılmışdır.

Qeyd etmək lazımdır ki, erməni işğalı heç də on və ya iyirmi ilin ərzində aparılan siyasətin nəticəsi olmayıb. Təkcə Dağlıq və Aran Qarabağ deyil, həmçinin yüz ildən çox bir dövr ərzində tarixi Azərbaycan torpaqlarının işğalı və ya qanunsuz olaraq Ermənistana birləşdirilməsi həm millətçi erməni təşkilatlarının, həm də iri dövlətlərin əvvəlcədən düşünülmüş, ardıcıl davam etdirilən siyasətlərinin nəticəsində baş vermişdir.

Dənizdən-dənizə qədər olan ərazini əhatə edən "Böyük Ermənistan " yaratmaq ideyasının müəllifləri bu ideyanı bir çox dövlətin ərazisində yaşayan yüz minlərlə erməninin düşüncəsinə yeridə bilmiş və onu özlərinin milli siyasətlərinə çevirmişlər. Dağlıq Qarabağ hadisələri qızışdırılandan indiyədək məsələlərə birtərəfli mövqedən yanaşılmış, çox zaman da informasiya vasitələri ilə yanlış məlumatlar yayılmışdır. O zamanlar qapalı Sovet rejiminin ideologiyasına uyğun olaraq məlumatlar geniş yaydmırdı və çox zaman da obyektiv olmurdu. Bunun nəticəsində də dünyaya yaydan informasiyalar içərisində daha çox ermənilərin mənafeyinə uyğun gələn məlumatlara üstünlük verilirdi. Bu da Azərbaycan haqqında birtərəfli fikir formalışdırılmasına səbəb olmuşdur. Həmin illər ərzində daxili və xarici amillər də bu sahədə obyektiv, gerçək fikir formalaşdırmağa mane olmuşdur. Lakin son on il ərzində bu sahədə yetərincə dəyişikliklər baş vermişdir. Artıq Azərbaycan diplomatiyası xeyli fəallaşmış və mövcud ideoloji sədləri yarmağa nail olmuşdur. Azərbaycan diplomatiyasının son on ildə apardığı məqsədyönlü siyasət nəticəsində, müxtəlif səviyyəli siyasi dairələrdə bu münaqişə ilə bağlı obyektiv fikir formalaşmağa başlamışdır.

Ərazisinin böyük bir hissəsinin işğalı ilə üzləşən Azərbaycan üstəlik bəzi super-güclər tərəfindən təcavüzkar Ermənistam iqtisadi blokadaya almaqda günahlandırılmışdır ki, bu da iqtisadi cəhətdən çətinlik çəkən Azərbaycanı daha da ağır duruma salmışdır. Təbii ki, bu da uzun illər həyata keçirilən yanlış siyasətin və həm də bu siyasətin tərkib hissəsi olan erməni təbliğatının nəticəsində baş vermişdir. Son zamanlar gerçəkliklərin ortaya çıxarılması yönündə görülən işlər Azərbaycana münasibətin xeyli dəyişdiyini göstərir.

Təqdim olunan "Qarabağ: Suallar və Faktlar" kitabında Qarabağ problemi bir neçə aspektdə təhlil edilir və oxucularda geniş təsəvvür yaratmağa cəhd göstərilir. Bu kitab hər şeydən öncə xarici vətəndaşlar üçün nəzərdə tutulmuşdur. Yazarlar da, ekspertlər də konkret faktlara əsaslanaraq, problemi tarixi, mədəni, hüquqi və konfliktoloji aspektlərdən təhlil etməyə çalışmışlar.

Belə bir kitabın yazılması ideyası Azərbaycan və Türkiyə gənclərinin, xüsusilə xanımlarının birgə səyləri nəticəsində meydana gəlmişdir. Azərbaycanın strateji maraqlarına cavab verən bu kitabın aparıcı xarici dillərə tərcümə edilməsi və bir çox ölkələrdə yayımlanması nəzərdə tutulur. Təqdim olunan kitab çox mürəkkəb bir mövzuya həsr olunduğuna görə, təbii ki, onun mütəxəssislər arasında geniş müzakirəsinə ehtiyac duyulur.

***"Qarabağ: Suallar və Faktlar"*** kitabının nəşrində öz mənəvi və texniki dəstəyini göstərən şəxslərə və təşkilatlara, xüsusən kitabın ilk versiyasını oxuyaraq, əlavə məlumatlar verən tarixçi, akademik Tofiq Köçərliyə, millət vəkili, şair və publisist Sabir Rüstəmxanlıya, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nəşriyyat şöbəsinin müdiri Çingiz Əlioğluna, həmin Nazirliyin Abidələrin Qorunması və İstifadəsi şöbəsinin müdiri Rizvan Bayramova, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları f.e.d. Alxan Bayramoğluna və prof Teymur Əhmədova, Azərbaycan Respublikası Təhsil Nazirinin müavini, t.e.d. İradə Hüseynovaya, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru prof Arif Abbasova və Konstitusiya Məhkəməsinin əməkdaşı Xaqani Məmmədova dərin təşəkkürlərimizi bildiririk.

Ümid edirəm ki, bu kitab Qarabağ hadisələrinin əsl mahiyyətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına kömək edəcək.

***Nedim Kaya***

# QARABAĞ TARİXİ

## Qədim zamanlardan müasir dövrədək

**YAQUB MAHMUDOV**

**Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor**

**KƏRİM ŞÜKÜROV**

**Bakı Dövlət Universiteti, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti, tarix elmləri namizədi**



Şuşa qalası (qaynaq: Газ, Иллюстрация, Т.7 СПБ., 1861, No: 167).

### *1. Qarabağ sözünün etimologiyası necədir?*

Qarabağ sözünün izahında qeydə alınmış "Arsax" sözündən başlamaq qanunauyğundur[1]. Arsax tanınmış Azərbaycan dövləti olan Albaniyanın əyalətlərindən biri olmuş Qarabağın dağlıq və Mil düzünün bir hissəsini əhatə etmişdir. Azərbaycan toponimika elmində Arsaxın etimologiyası xüsusi tədqiqat obyekti olmuşdur. Prof. M.Ə. Seyidov "Qarabağ-Arsaq-Arşaq toponiminin etimologiyası haqqında qeydlər" məqaləsində apardığı elmi araşdırma nəticəsində yazmışdır: "Arsaq... Arşaq" türk dillərində "igid", "Sak kişisi" deməkdir. Saqlar isə Orta Asiyada və Azərbaycanda yaşamış türkdilli xalqdır. Digər bir tədqiqatçı C.Cəfərov "Arsaq sözünün etimologiyası" məqaləsində bu problemi hərtərəfli təhlil edərək, belə nəticəyə gəlmişdir ki, Ərsak sözü Ərtoğrul, Ərdahan, Ərdəbil, Əraz (Araz), Ərak (Ərax) və s. sözlərin əvvəlkindən ər ilə həm mənşə, həm də mənaca bir kökdən ibarət olmaqla yanaşı, sırf türkmənşəli sözdür. Qarabağ (qara+bağ) söz birləşməsinin qədim tarixə malik olması şübhəsizdir. Lakin bu söz birləşməsinin konkret coğrafi ərazini bildirməsi və yeni məna kəsb etməsi üçün müəyyən vaxt lazım gəlmişdir. Qarabağ adı təxminən VII əsrdən işlənilmişdir. O, əvvəllər konkret məkanı bildirmiş, sonra isə geniş coğrafi əraziyə aid edilmişdir. Müqayisə məqsədilə qeyd edək ki, bu hal Azərbaycan üçün xarakterikdir: Naxçıvan şəhəri-Naxçıvan bölgəsi və i.a. kimi Qarabağın da ilk zamanlar şəhər adı olması fikri vardır. Coğrafiyaşünas-toponimist R.Yüzbaşova görə Araz çayının qırağında Qarabağ şəhəri olmuşdur. O, yazır: "Bu şəhərin XVII əsrin birinci yarısına qədər mövcud olması haqqında dəqiq kartoqrafik məlumat əldə edilmişdir. XVII əsrin birinci yarısında alman səyyahı Adam Olearinin (1603-1671) tərtib etdiyi "İran səltənəti" adlı xəritədə Qarabağ yaşayış məntəqəsi 39° şimal en dairəsi ilə 82° 20 şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir... Zənn edildiyinə görə, həmin şəhər XVII-XVIII əsrlərdə baş vermiş müharibələr nəticəsində dağılıb məhv olmuşdur".



Azıxantropun aşağı çənə sümüyü. Fraqment.

Qarabağın yer adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir, çünki belə halda qara sözünün rəng mənası Qarabağı tam izah edə bilmir. Ona görə də qara sözünün mənaları üzərində düşünmək lazım gəlir. R.Yüzbaşov bu problemlə əlaqədər yazmışdır: "Son zamanlarda Azərbaycan toponimikası sahəsində aparılmış işlər nəticəsində qaranın bir neçə mənası müəyyən edilmişdir, onlardan biri də qalın, (six) deməkdir. Buna əsasən, demək olar ki, Araz çayının qırağındakı Qarabağ şəhəri son dərəcə bağlı-

[1] Təqdim olunan işin xarakteri nəzərə alınaraq, burada istifadə olunan qaynaq və ədəbiyyatlara xüsusi istinad nəzərdə tutulmamışdır. Bununla birgə müəlliflər ciddi əhəmiyyətini nəzərə alaraq, sonda bəzi ədəbiyyatın qısa siyahısını verməyi zəruri hesab etmişlər.

bağatlı olduğundan belə adlandırılmışdır". Başqa bir fikrə görə "Qarabağ termini xalq və bağ, böyük bağ, səfalı bağ və s. mənası kəsb edir". Müqayisə üçün qeyd edək ki, Azərbaycanda tərkibində Qara sözü olan digər yer (Qarayazı, Qaraçöp, Qaradağ, Qarakənd və b.) və şəxs (1300 illliyi qeyd olunmuş "Kitabi-Dədə Qorqud" dastanında Salur Qazanın qardaşı Qarabudaq və s.) adları vardır. Beləliklə, göründüyü kimi Qarabağ etimologiyası etibarilə sırf Azərbaycan gerçəkliyini və dilinin qayda-qanunları ilə elmi izah olunur.

### *2. Qarabağın tarixi-coğrafi ərazisi haradır?*

Bu sualın cavabı bu gün də əhəmiyyətli olub, "Dağlıq Qarabağ probleminin" dərk edilməsi üçün mühüm rola malikdir. Qarabağ xanının vəziri olmuş Mirzə Camal Cavanşir (1773-1853) “Qarabağ tarixi” (1847) əsərində bu məsələdən bəhs edərkən yazır: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər-Araz çayıdır. İndi (Sınıqkörpü) Qazax, Şəmşəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə "Krasnı mosf, yəni (Qırmızı körpü) adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq, gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə-Y.M., K.Ş.) sərhədi Kür çayına qədər-Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatar. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır". Rusiya işğalı və müstəmləkəçiliyinin ilk dövründə Qarabağın ərazisi və sərhədlərinin belə olması onunla təsdiq olunur ki,



Bürünc fiqur. Tunc dövrü. Ermitaj, Rusiya F. S.Peterburq.

1) bu faktı bilavasitə Qarabağın idarəsilə məşğul olan dövlət adamı yazır;
2) bu fakt yalnız təcrübə ilə deyil, qaynaqlarla da əsaslandırılır. Mirzə Camalın mövqeyinin doğruluğunu göstərmək üçün qədim tarix kitablarına istinad etməsi təsadüfi deyil. Bu faktlar Qarabağın qədim zamanlardan Azərbaycanın tarixi bölgəsi olduğunu sübut edir.

### *3. Qarabağ tarixinə dair ən qədim məlumat hansıdır? Quruçay mədəniyyəti nədir, onun dünyada yeri necədir?*

Qarabağ nəinki Azərbaycanın, eləcə də dünyanın ən qədim tarixə malik olan diyarlarından biridir. Bu ərazidəki Azıx mağarasında qədim insanın yaşayış məskəni aşkar edilmişdir. Bu yaşayış məskəni Qarabağın Aralıq dənizi və Şərqi Afrika ilə birlikdə insanlığın ilk vətəni olduğunu söyləməyə əsas verir. Azıx mağarasının tədqiqatçısı M.Hüseynov yazmışdır: "Azıxda öyrənilmiş çaydaşı alətləri mədəniyyətləri Şərqi Afrikanın Olduvay (Oldovvay-Şimali Tanzaniyada dərə, yaşı 2 mln. il olan ən qədim primat tapılmışdır-Y.M.K.Ş)

mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Eyni zamanda alətlərin hazırlanmasında fərqli cəhətlər də vardır ki, bu da Azığın alt çöküntülərindən aşkar olunmuş əmək alətlərini Quruçay mədəniyyəti adlandırmaq imkanı vermişdir... Son tədqiqatlara görə Quruçay mədəniyyətinin yaşı 1.5milyon il hesab olunur".

***4. Qarabağda tapılmış qədim insan-Azıxantropun qalıqları hansı dövrə aiddir? Onun insanın meydana gəlməsi tarixinin öyrənilməsində rolu nədən ibarətdir?***

1968-cı ildə Azıx mağarasının aşel [ilk paleolit, Fransadakı Saint-Asheul [Sent Aşel yaşayış yerinin adından götürülmüşdür] təbəqəsindən Azıxantrop "[Avropanın ilk sakinləri" (Paris) xəritəsinə daxil edilmişdir] adlandırılan insanın çənə sümüyü tapılmışdır. Azıx adamının 350-400 min il əvvəl yaşadığı güman olunur. Azıxantrop dünya üzrə insanın təkamül prosesinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

***5. Qarabağın Yaxın Şərqlə qədim iqtisadi və mədəni əlaqələri hansı faktlarla təsdiq olunur?***

Qarabağda mustye mədəniyyəti [orta paleolit, m.ə. 100-40 min ili əhatə edir. Fransadakı Le Moistier (Le Mustye) mağarasının adından götürülmüşdür] daha çox Tağlar mağarası ilə təmsil olunmuşdur. Qarabağın arxeoloji cəhətdən öyrənilməsinin davam etdirilməsi burada mezolit "orta daş dövrü" və eneolit "mis-daş dövrü" dövrlərinin də geniş inkişafını müəyyənləşdirə bilər. Eneolit (m.ə.VI-IV min), tunc və ilk dəmir dövründə (m.ə. IV min. Ortaları və ı min. əvvəlləri) Qarabağın həyatında böyük dəyişikliklər baş vermişdir. Son tunc və ilk dəmir dövrü (m.ə. XIII-VII əsrlər) Xocalı-Gədəbəy mədəniyyəti adı almışdır. Bu dövrə aid Xocalı qəbristanlığı arxeoloji abidəsindən üstündə Assuriya çarı (Şimali Mesopotomiyada qədim dövlət; m.ə. VIII əsrin II yarısı-VII əsrin I yarısında öz qüdrətli çağına çatmışdı) Adadnirariyə aid mixi yazılı əqiq muncuq tapılmışdır. Bu və digər müvafiq tapıntılar bölgənin Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələrini təsdiq edir.

***6. Azərbaycanın dövlətçilik tarixi nə vaxtdan başlanır?***

Təsərrüfat və mədəni həyatın inkişafı, etno-siyasi proseslər nəticəsində Azərbaycanda beş min il bundan əvvəl ilk dövlət birlikləri yaranmağa başlayır. Sonralar Azərbaycanın cənubunda mərkəzləşdirilmiş Manna dövləti (m.ə. IX-VI əsrlər) mövcud olmuşdur. Manna Assuriya və Urartu (m.ə. IX-VI əsrlər) ilə mübarizədə müstəqilliyini qorumağa nail olur.

***7. Şimali Azərbaycan torpaqları Urartu dövlətinin işğalına məruz qalmışdırmı? Bu dövrdə Cənubi Qafqazda erməni etnosu var idimi?***

Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ ərazisi Urartunun işğallarından kənarda qalmışdır. Bu dövrdə, ümumiyyətlə, Cənubi Qafqazda erməni etnosu yox idi. Kollektiv monoqrafiyanın müəllifləri Cənubi Qafqazın siyasi tarixindən bəhs edərkən qeyd edirlər ki, Urartunun əsas ərazisi SSRİ-nin (1922-1991-ci niər) sərhədlərindən kənarda yerləşirdi. Qədim və orta əsrlər Ermənistanın böyük hissəsi də Ermənistan SSR-in (1920-1991-ci illər) hüdudlarından uzaqda idi. Urartu dövlətinin varlığına son qoyan Midiya dövləti (m.ə. 672-550) zamanı vəziyyət dəyişdi. Midiya Cənub-Şərqi Qafqazı özünə tabe etdi. Bu vəziyyət Əhəmənilər dövründə də (m.ə. 550-330) davam etmişdi.

***8. Azərbaycanda Atropatena və Albaniya dövlətləri nə vaxt yarandı? Bu dövrdə Qarabağ hansı dövlətin tərkibində idi?***

Makedoniyalı İsgəndər (m.ə.336-323) Əhəməni dövlətini dağıtdıqdan sonra Azərbaycanın şimalında siyasi proseslər keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bunun nəticəsi idi ki, M.İsgəndərin qısa müddətli hakimiyyətindən sonra onun ölümü ilə əlaqədar imperiyası da parçalandı və Azərbaycanın cənubundakı Atropatena dövləti ilə birlikdə şimalda Albaniya dövləti yarandı (Son dövrlərdə Azərbaycan tarixçiləri Atropatenaşünaslıq və Albanşünaslığı yeni elmi əsərlərlə zənginləşdirmiş, uzun zaman erməni müəlliflərinin inhisarında olan bu sahələrin inkşafına böyük töhfələr vermişlər. Onları burada xüsusi olaraq sadalamağa ehtiyac görmədik.-Y.M., K.Ş.). M.ə.IV əsrdə və sonralar Atropatena Azərbaycanın şimalında da ərazilərə malik idi və bu zaman Qarabağ ərazisinə daxil olan torpaqların bir qismi ona tabe idi. Atropatena ilə eyni zamanda təşəkkül tapan Albaniya dövləti təxminən m.ə.IV-m. VIII əsrin başlanğıcında mövcud olaraq, min ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyuk rol oynadı. Qarabağ Albaniyanın tərkibinə daxil idi. Bu dövlət öz tarixi torpaqlarının qorunması və saxlanması uğrunda misilsiz mübarizə apardı və bəzi istisnalarla buna nail ola bildi. F. Məmmədovanın bütövlükdə Albaniya dövləti, o cümlədən onun tərkib hissəsi olan Qarabağın tarixi əyalətlərinin "Sakasena, Otena (Uti), Orxistena (Arsaq), Araksena və s". ərazisi və sərhədlərini tarixi dinamikada əks etdirdiyi 6 xəritə də bu fikri təkzibedilməz şəkildə təsdiq edir.

Qarabağın tarixi əyalətləri Albaniyaya məxsus olduğu kimi, burada yaşayan etnoslar (uti), sovdey, qarqar və başqaları da alban mənşəli olmuşdur.

***9. Ermənilərin Cənubi Qafqaza miqrasiyası nə vaxt başlanıb? Onun xarakteri necə idi? "Böyük Ermənistan" ideyasının mahiyyəti nədir?***

Ermənilərin Cənubi Qafqaza gəlişi təxminən m.ə. II əsrdə genişlənir. Ermənilərin regiona daxil olması ilə onların təcavüzkarlıq fəaliyyəti intensivləşir. Bu işğallar nəticəsində yaradılmış uydurma dövləti ermənilər "Böyük Ermənistan"

adlandırır və işğal edilmiş bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirlər. Romanın m.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə erməni əfsanəsi puça çıxır, onlar Romanın vassalına çevrilir. Bu vəziyyət IV əsrədək davam edir. Belə olduğu halda ermənilərin Albaniyanın tarixi torpaqlarının məhz Ermənistanın tərkibi kimi qələmə verməsi əsassızdır. Halbuki, ermənilərdən fərqli olaraq, Albaniya müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun sərhədləri daxilində idi. Tədqiqatçının yazdığına görə "mənbələrin tədqiqi və I-IV əsrlərdəki gerçəkliklərin öyrənilməsi bizi əmin edirki, Albaniyanın cənub sərhəddi Araz çayı boyunca keçmişdir”.

***10. İlk orta əsrlər dövründə Qarabağın əhalisinin etnik mənsubiyyəti necə dəyişdi?***

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin (VII əsrin 30-cu illəri - 1258-ci il) işğalları və bunun nəticəsində Albaniya çarlığının ləğvi ilə baş verir. Ərəb işğallarınadək Qarabağın tarixi ərazisi etnik baxımdan eyni kökdən olduğu halda, bu dövrdə ərəblərin Azərbaycan üçün faciəvi siyasəti nəticəsində dağlıq hissədə ermənilərin dini hegemonluğunun təmin edilməsi etnik sahədə də özünü göstərdi: tarixi Arsax bölgəsi əhalisinin qriqorianlaşdırılması və erməniləşdirilməsi baş verdi. (Bu prosesiəhn səbəbləri, gedişi və erməni-ərəb əməkdaşlığının mahiyyəti və b. problemlər, onun tarixi ədəbiyyatda əksi akad. Z.Bünyadov tərəfindən xüsusi tədqiqat obyekti olmuşdur - Y. M.,K.Ş.). Erməni tarixçisi S.T. Yeremyanın yazdığına görə VIII əsrin əvvəlləri üçün “ermənilər alban vilayətləri Arsaxın və Utinin böyük bir hissəsinin əhalisini artıq assimilasiya etmişdilər”. Təbii ki, qriqorianlaşdırmaya nisbətən erməniləşdirmə uzun proses olmalı idi. Ona görə də akad. Z.Bünyadov S.T.Yeremyanın "VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir hissəsi kimi baxılırdı və bu zaman Arran vilayətindən Sünik, Arsax, Uti və başqaları erməniləşdirildi" fikrinə etiraz edərək yazır: İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqorianlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqorianlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri o qədər də doğru deyildir, çünki Arran vilayətində Sünik vilayəti və Arsaxın xeyli hissəsi XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir.

Bu fikir bir daha təsdiq edir ki, Qarabağın bu hissəsində yaşayan ermənilər lap əvvəldən erməni olmamış, sonradan erməniləşdirilmişdir. Populyasiyanın etnogenezi və onun qarşılıqlı əlaqəsi haqqında informasiya verən və müasir elmi nailiyyətlərə əsaslanan odontoloji tədqiqatlar da bu mövqedədir. Təsadüfi deyil ki, Ərəb xilafəti parçalandıqdan sonra Sünik və Arsax-Xaçın knyazlıqları yarandı. Azərbaycan tarixində (yeddi clddə, II cild) deyildiyi kimi, "XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Smbatın ölümü ilə kəsilmiş oldu. XII əsrin sonu - XIII əsrin

əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı İ.A. Orbelinin (1887-1961) [SSRİ EA akademiki, Ermənistan EA akademiki və onun ilk prezidenti, Ermitajın direktoru olmuşdur və s. - Y.M., K.Ş.] sözləri ilə “qədim Albaniyanın bir hissəsi” idi. Kirako Qandzaketsinin (XIII əsr) yazdığı kimi, "onların (albanların - Y.M., K.Ş) rəislərinin əksəriyyəti erməni dilini bilirdi". Qafqazşünas V.L.Veliçko da bu fikri təsdiq edərək yazırdı ki, Qarabağın "erməni adlarıdırılan sakinləri 3-4 əsr bundan əvvəl erməniləşdirilmişdir.

Bu proseslərin baş verdiyi IX-XIII əsrin əvvəlləri, xüsusilə Atabəylər-Şirvanşahlar dövrü (XII-XIII əsrin əvvəlləri) Azərbaycanın qüdrətinin xeyli artdığı bir vaxt idi. Atabəylər faktiki olaraq Azərbaycanı siyasi cəhətdən birləşdirmişdir. Xaçın knyazlığı Mehranilərə mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatmışdı.

Dövrün narrativ və epiqrafik abidələrində o, "Xaçın ölkələri knyazı", "Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı", “Albaniya hökmdarı” və bu kimi titullarla anılır. Onun zamanında Alban memarlığının ən mühüm əsərlərindən olan Gəncəsər (Qanzasar) monastırı tikilir.




Qarabağ XIII-XIV əsirlərdə (Qaynaq: Piriyev. V.Azərbaycanın tarixi coğrafiyası. B., 2002, s. 104).

### *11. XIII-XIV əsrlərdə hansı hadisələr baş vermişdir? Qarabağın Azərbaycan torpaqları kimi əhəmiyyəti nədə idi?*

Monqolların birinci yürüşü zamanı (1220-1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231-1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının (1239-1256), sonra isə Hülakülər dövlətinin (1256-1357) tərkibində olur. Qarabağın bu dövr tarixi haqqında məlumat nisbətən əhatəlidir və yaxşı öyrənilmişdir. Daha bir mühüm yenilik - Qarabağ söz birləşməsinin terminləşməsi və konkret coğrafi ərazini bildirməsilə əlamətdar olmuşdur. Ona görə də Qarabağ adı ilk dəfə XIII əsrdə işlənib dedikdə, məhz bu nəzərdə tutulur. Bu dövrün tədqiqatçısı V.Piriyev yazır: "Arran Qarabağı" adı ilk dəfə Rəşid əd -Dinin "Came ət-təvarix" əsərində 1284-cü ilin hadisələrinin şərhi ilə əlaqədar xatırlanır. Onun fikrincə bu dövrdə Qarabağ Arranın daxilində dağlıq və dağətəyi sahələri birləşdirən vahid ərazidən ibarət idi. XIII-XIV əsrlərdə Qarabağ Hülakülər dövlətinin siyasi tarixində mühüm rol oynayır. V.Piriyev qeyd edir ki, "Monqol hökmdarlarının daima Qarabağda qışlamaları bir sıra dövlət səviyyəli hadisələrin burada baş verməsinə səbəb olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, monqol hökmdarlarından ikisi (Qazan xan və Arpa xan) Səltənət taxtına Qarabağda çıxmış, ikisi isə (Arqun xan və Əbu Səid) Qarabağda vəfat etmişdir. XIII-XIV əsrlərdə də Qarabağ tarixi Azərbaycan torpağı, əhalisi isə əsasən türklərdən ibarət idi.

### *12. Qarabağda məlikliklər necə yarandı? Onların erməni mənşəli olması doğrudurmu?*

XV əsrdə də Qarabağ Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) kimi Azərbaycan dövlətlərinin tərkibində idi. XV əsr müəllifi Hafiz Əbru (1430-cu ildə vəfat edib) Qarabağı "Qarabağe Azərbaycan" (Azərbaycan Qarabağı) kimi işlədib. Lakin Qaraqoyunlular dövründə sonrakı tarixi şəraitdə özünü xüsusi göstərən bir hadisə diqqəti cəlb edir. Azərbaycan tarixində (yeddi cilddə, III cild) qeyd edildiyi kimi, "XV əsrdə alban Həsən-Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan "Məlik" titulu aldı (Tarixi ədəbiyyata görə "məlik" anlayışı sahibkar, hakim və b. kimi mənalarda işlənmişdir. Bu titul həm müsəlman, həm də erməni feodallarına veirlirdi. Çar I Nikolayın 1846-cı il reskripti ilə ali silk hesab olunmuşdu - YM., K.Ş.) Sonralar Cəlalilər nəsli beş muxtar alban feodal knyazlığına - məlikliyinə (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq məlikliyinə) parçalandı. Erməni tarixçiləri məliklərin erməni mənşəli olduqlarını sübut etməyə çalışaraq XVII-XIX əsrlərdə İrəvandan, Sünikdən və Qafandan olan məlik nəsillərini nümunə kimi irəli sürürlər. Lakin məlumdur ki, bu məliklərin hamısı Arsaxdan-Qarabağdan çıxmışlar".

***13. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövləti dövründə Qarabağın rolu necə idi?***

Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) mərkəzləşdirmə siyasəti həyata keçirilməyə başladı. XVI əsrin 30-50-ci illərində Azərbaycan torpaqlarının mərkəzləşdirilməsi başa çatdı, bununla birgə Səfəvi dövləti regionun ən qüdrətli dövlətlərindən birinə çevrildi. Belə olduğu halda ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün olan məsələ deyildi. Əksinə, həmin dövrdə Azərbaycanın etnik və siyasi sərhədləri daha aydın şəkil alır. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi. Bəylərbəylik iki əsrə yaxın dövr ərzində Ziyadoğlular sülaləsi idarə etmişdi. Belə mərkəzləşmə şəraitində məlikliklər tamamilə onlara tabe idi.

***14. Necə oldu ki, Qarabağ Osmanlı imperiyası sisteminə keçdi? Bu dövrdə Qarabağın inzibati-ərazi bölgüsü və əhalisinin etnik tərkibi necə idi?***

Osmanlı dövləti ilə Səfəvi dövləti arasında aparılan müharibə 1590-cı ildə sülh müqaviləsi ilə başa çatdı. Müqaviləyə görə digər Azərbaycan torpaqları ilə birgə Qarabağ Osmanlı dövlətinin tərkibinə keçdi. Osmanlıların bu torpaqlarda apardıqları müfəssəl dəftərlər Gəncə-Qarabağ bəylərbəyliyinin inzibati-ərazi bölgüsü haqqında aydın təsəvvür yaradır. 1593-cü ilin məlumatına görə Gəncə - Qarabağ əyaləti 5 sancaq, 36 nahiyəyə bölünürdü. Əyalət əhalisinin etnik tərkibində də türk əhalisi üstün olmuşdur. Müfəssəl dəftərin məlumatına görə əyalətin adı dəftərə düşmüş əhalisinin 61 faizi müsəlman, 39 faizi isə qeyri-müsəlman olmuşdur.

***15. XVIII əsrin birinci rübündə Azərbaycanın zəifləməsi nə ilə nəticələndi?***

Səfəvi hökmdarı Şah Abbas (1587-1629) Azərbaycan torpaqlarını yenidən Səfəvi dövləti sisteminə qaytardı. Onun varisləri dövründə Səfəvi dövləti zəifləməyə başladı. Səfəvi dövlətinin zəifləməsi XVIII əsrin I rübündə Azərbaycan torpaqlarının İran, Rusiya və Osmanlı dövlətləri arasında bölüşdürülməsi ilə nəticələndi.

***16. I Pyotrun erməni faktorunun rolunu artırmaqda məqsədi nə idi?***

Azərbaycan torpaqlarının bölüşdürülməsi Rusiyanın fəal köməklik göstərdiyi ermənilərin siyasi cəhətdən aktivləşməsinə səbəb oldu. Bu işdə rus çarı I Pyotrun erməni xalqına 1724-cü il 10 noyabr tarixli əlahəzrət fərmanı mühüm rol oynadı. Fərman Rusiyanın erməni xalqını himayəyə götürməsini elan etdi, faktiki olaraq isə imperiyanın regional siyasətində erməniləri öz alaltısına çevirdi. Bu məqsədlə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə böyük önəm verilirdi. Görkəmli rus tarixçisi S.M.Solovyov (1820-1873) yazmışdır ki, "Pyotr işğal olunmuş ərazilərin Rusiyanın əlində möhkəmləndirilməsi üçün orada

xristian əhalisinin artırılması və müsəlmanların azaldılmasını ən vacib vasitə hesab edirdi. Biz gördük ki, imperator birbaşa ermeniləri göstərirdi".

### *17. Azərbaycan torpaqlarının bölüşdürülməsindən sonra Qarabağın taleyi necə oldu? Bu zaman inzibati-ərazi bölgüsü və əhalinin etnik tərkibi necə idi?*

Bu dövrdə Gəncə-Qarabağ torpaqları Osmanlı imperiyasının tərkibinə keçdi. Həmin dövrdə tərtib olunan Osmanlı dəftərləri azərbaycanlıların bölgənin əsas əhalisi olduğunu sübut edir. Hesablamalara görə 1727-ci ildə Gəncə - Qarabağ əyalətində 122 min nəfərədək əhali olmuşdur. Onun 80,3 min nəfərini (66 %) azərbaycanlılar, 37,8 min nəfərini (31%) ermənilər, 3,7 min nəfərini (3,1 %) kürdlər təşkil etmişdir.

### *18. Necə oldu ki, Qarabağ xanlığı meydana gəldi? Pənahəli bəyin tarixi xidməti nə oldu?*

Qarabağ xanlığının banisi Azərbaycanın görkəmli dövlət xadimlərindən biri olmuş Pənahəli bəy Cavanşir idi. O, Qarabağın Sarıcalı kəndində anadan olmuşdu. Mirzə Camal yazırdı: "Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında Pənahəli bay Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hərişdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadir Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərindəki İran-Türkiyə savaşı nəzərdə tutulur - Y.M., K.Ş.) Şücaət göstərmiş Pənah xanı da öz yanına apardı". Lakin Muğan qurultayından (1736) sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, əhalini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy "Şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737-1738-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutarkən onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin mümkün olmadı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənah xanı harda tapsalar, tutub şahın hüzuruna göndərsinlər, şahın əmri ilə Pənah xanın ailəsini və qohum-qardaşını çox incidib, cərimə etdilərsə də fayda vermədi".

Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy şah qulluğundan boyun qaçırıb müxalifətə keçmişdi. Nadir şahın öldürülməsindən sonra (1747) Qarabağ torpaqlarında müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığı yarandı.

### *19. Pənah xan Qarabağ xanlığını möhkəmləndirmək üçün hansı tədbirlər gördü?*

Pənah xanın bu sahədə ilk tədbirlərindən biri Nadir şahın sürgün etdiyi Qarabağ əhalisini geri qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını gücləndirdi.

Qarabağ xanlığı yarandığı zaman burada Tabriz, Ərdəbil, Gəncə, Şamaxı kimi şəhərlər yox idi. Halbuki, belə siyasi-iqtisadi mərkəzlərin olması xanlıqların gələcək inkişafı üçün çox mühüm idi. Yeni müdafiə qurğuları və şəhərlərin salınması Pənah xanın hərbi-siyasi işlərlə yanaşı, dəyərli quruculuq uğuru sayılmalıdır.

Bu sahədə ilk addımlardan biri 1748-ci ildə Bayat qalasının tikilməsi oldu. Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Tabriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələrilə birlikdə gəlib Bayat qalasında yerləşdilər.

Pənah xanın müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyəti onun rəsmən tanınması ilə nəticələndi. Mirzə Camal yazır: "Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci il (1748-ci il olmalıdır – Y.M., K.Ş.) ildə Adil şahın Pənah xana xan adı verilməsi və Qarabağ hakimliyi vəzifəsinə təyin edilməsi haqqında imzaladığı fərman qiymətli xələt, qızıl yəhərli at və qaş-daşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı". Adil şahın fərmanı, əslində gecikmiş bir sənəd idi. Həqiqi "hakimlik" şah fərmanından əvvəl, ondan asılı olmadan qazanılmışdı.

Pənah xanın "Qarabağ hakimi" kimi tanınmasında Şəki xanlığının Qarabağ üzərinə uğursuz yürüşü müəyyən yer tutur. Şəki xanı Hacı Çələbi 1748-ci il Bayat yürüşündən sonra bildirmişdi: "Pənah xan bu vaxtacan sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq”. Və ya "Pənahəli özünü xan elan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim". Çələbi xanın xalq içərisində zərb-məsələ çevrilmiş bu sözləri Adil şahın fərmanından daha çox gerçək gücə malik idi. Əhməd bəy Cavanşir yazır: "...Bu qalibiyyətdən (Bayat döyüşündən – Y.M., K.Ş.) sonra Pənah xanın igidliyi haqqında dillərə düşən dastan o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz olaraq onun təbəəliyinə tabe etdirdi”.

"Bayat savaşı" bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini üzə çıxardı. Ona görə də yeni qala salınması tələb olunurdu. Mirzə Adıgözəl bəy yazırdı: "Pənah xan Şah bulağı adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarsu (meydan - Y.M., K.Ş.) və hamamlar tikdirdi. Bu işləri 1165-ci ildə bitirərək oranı özünə məskən etdı”. Onun da müdafiə qüdrəti zəif olduğundan xanlığın mərkəzi Azərbaycanın qədim yaşayış mərkəzlərindən olan Şuşaya köçürüldü. Şuşa Azərbaycanın siyasi, iqtisadi və mədəni mərkəzlərindən biri kimi yeni yüksəliş dövrünə qədəm qoydu.

### *20. Qarabağ məlikliklərinin rolunun artması nə ilə əlaqədar idi?*

Sonuncu Səfəvi hökmdarı III Abbası (1732-1736) yıxaraq, hakimiyyətə gələn Nadirin (1736-1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyliyinə qarşı cəza tədbirləri Qarabağ məliklərinin mövqeyini müvəqqəti ola raq gücləndirdi və onların separatizminə təkan verdi. Rus tarixçisi P.Q. Butkov (1775-1857) da Nadir şahın ermənilərə diqqəti artırmasını, hər bir məliyi təsdiq etməsini və bilavasitə şah həzrətlərindən asılı vəziyyətə saldığını qeyd etmişdir.

### *21. Xanlıq dövründə Qarabağ məlikliklərinin vəziyyəti necə idi?*

Məliklər məsələsinə 12-ci sualda toxunulmuşdur. Xanlıq dövründə məlikliklər məsələsinə yenidən diqqət artırılmışdı. Bunu nəzərə alan tarixçi Mirzə Adıgözəlbəy məlikliklər haqqında ətraflı məlumat əldə etmiş və onların şərhini vermişdir (Baxın: Qarabağnamələr. Birinci kitab, səh. 36-37). Mirzə Adıgözəl bəy məlikliklər haqqında yazır: "Bu mahallardan:

Birincisi Dizaqdır. Məlikləri Məlik Yeqan adlanır. O Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkincisi - Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq, gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncü - Xaçındır. Məlikləri Həsən Cəlalyan övladıdır. Onlar riyasət gəlinınə gözəllik verib (hökmran olmuşlar). Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra bu mahalın müstəqil bir məliki olmamışdır. Axırda mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub Qarabağ vilayətindən bütün sahələrini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı Məlik Mirzə xan... bu əbədi dövlət məmurlarının əmri ilə məliklik sikkəsini... adına kəsdirdi. Ondan sonra da oğlu Allahverdi və nəvəsi Məlik Qəhrəman... məliklik bayrağını göylərə qaldırdılar.

Dördüncü - Çiləbörd mahalıdır. Məlikləri Məlik Allahquludur. Əsilləri Mağavizdən gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Çermux qalasını (Çiləbördün müxtəsər adıdır - Y.M., K.Ş.) özlərinə məskən, sığnaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük bir şöhrət qazanmışlar... Nadir şah... ona sultanlıq rütbəsi və xələti verdi...

Beşinci - Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu məliklik etmişdi. Sonralar məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur."

Buradan məliklər içərisində müəyyən dəyişikliklər baş verdiyi aydın olur. Həmin dövrə aid məlumatı şərti olaraq cədvəl 21-də verilmişdir.

### *22. Məlikliklərə "erməni dövlətçiliyinin" qalığı kimi baxmaq olarmı?*

12, 20 və 21-ci suallara cavablardan aydın olduğu kimi, belə yanaşma heç bir tarixi fakta əsaslanmır və kökündən yanlışdır. Gəlmə məliklər Qarabağda mahal başçılığını ələ keçirdikdən sonra, kiçik də olsa, heç bir dövlət birləşməsi yarada (buna əmin olmaq üçün dövlətin əlamətini yada salmaq lazımdır) bilməmişlər. Onlar bir-birindən ayrı olan, çox zaman isə bir-birilə çəkişmədə olan mahal başçıları kimi qalırdılar. Tarixçilikdə olan fikrə görə, "məliklər Qarabağda feodal dağınıqlığının güclənməsini istəyən qüvvələri təmsil edirdi". Məliklərin separatçılığı xanlıqda və bütün ölkədə gedən mərkəzləşdirmə işinə mane olur, yadelli qüvvələrin Qarabağ xanlığına hücumunun həyata keçirilməsində iştirak etməklə onun müstəqilliyini pozurdu.

### *23. Qarabağ məliklərinin separatçı fəaliyyətinin səbəbi nə idi? Nəyə görə bu, xanlıq üçün təhlükə idi? Ona qarşı aparılan mübarizə hüquqi-siyasi baxımdan necə qiymətləndirilə bilər?*

Pənah xan gücləndikcə məliklərin pozuculuq işi artırdı. Bunun qarşısının alınması hərbi-siyasi baxımdan zəruri bir işə çevrildi. Belə olmasa, tarixən yaranmış olan "Aran Qarabaği" nın və ya Qarabağ bəylərbəyliyinin ərazi-inzibati bütövlüyü itirilə bilərdi. Buna görə də məlikliklərin separatizmini qırmaq üçün görülən iş etnik konflikt olmayıb, Qarabağ xanlığının müstəqilliyi uğrunda mübarizə idi.

Xəmsə məliklərindən Pənah xanın hakimiyyətini birinci olaraq tanıyan Məlik Şahnəzər oldu. Bu, Məlik Şahnəzərin qızı Hürzətlə İbrahimxəlil ağanın nigah bağlaması ilə yoluna qoyuldu.

Xaçın məliyi Ulubab Ballıqayada məğlub edildikdən sonra Pənah xanın hakimiyyətini tanıdı. Dizaq, Çiləbörd, Talis məliklərinin düşmənçilik siyasəti isə bir neçə il sürdü. Əhməd bəy Cavanşir yazır: "Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dizaq məliyi Yegan öz oğulları və qohumları ilə bitlikdə kəskin müqavimət göstərdikdən sonra onların bir hissəsi qırılmış, bir hissəsi isə islam dinini qəbul etmişdi... Çiləbördməliyi Allahqulu Sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşdü. Onun qardaşı Məlik Hətəm Talışın beşinci məliyi Məlik Usubla ittifaq bağlayıb uzun müddət öz obalarını Pənah xan dəstələrinin hücumlarından müdafiə etmiş, lakin Mardakert kəndində uğradıqları məğlubiyyətdən sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Cermux qalasına çəkilmişdir. Bir ilə qədər qalada qaldıqdan sonra, nəhayət, öz ailələri ilə birlikdə qürbət ellərdə nicat axtarmalı olmuşdular. Lakin onlar bununla öz siyasi fəaliyyətlərini bitirmədilər. Belə ki, sonralar onların həm özləri və həm də övladları (birincinin oğlu Məlik Məcnun) daim Qarabağa hücumlar edirdilər...". Pənah xanın məlikləri özünə tabe etmək yolunda qazandığı uğurlara baxmayaraq, İbrahim xan atasının mübarizəsini davam etdirməli oldu.

Qarabağ məliklərindən dizaqlı Yesay, çiləbördlü Məclum və gülüstanlı Bəyləryan İbrahim xana tabe olmaqdan imtina etdilər. Vərəndəli Məlik Şahnəzər və xaçınlı Mirzə xan isə İbrahim xanın hökmranlığını qəbul edərək, onun yaratdığı vətənsevər qüvvələr birliyinə qoşulmuşdular.

Müttəfiqlər 1781-ci ildə Tuğ qalasını mühasirəyə aldılar. Məlik Yesay təslim oldu, burada hakimiyyət Məlik Bahtama keçdi. Lakin tezliklə o dönük çıxdı.

***Cədvəl 21***

| Qarabağ məliklikləri | | |
|---|---|---|
| Məlikliyin adı | Qarabağa gəlişi | |
| | Nə vaxt | Haradan |
| Xaçın | XVIII yüzildə yaranmışdır | Yerli |
| Vərəndə | 1603 | Göyçə mahalı |
| Dizaq | XVIII yüzilin əvvəlləri | Lori vilayəti |
| Gülüstan (Talış) | XVIII yüzilin əvvəlləri | Şirvan, Qəbələ sultanlığının Nic kəndi |
| Çiləbörd | 1637 | Zəngəzur (Sünik) |

***24. Məlikliklərin separatçılıq fəaliyyətinin arxasında hansı xarici qüvvələr maraqlı idi?***

Faktlar göstərir ki, burada I Pyotrun siyasətini davam etdirən Rusiya əsas yer tuturdu. Rusiya 1773-cü ildən İbrahim xanla onun hakimiyyətinə tabe olmaqdan boyun qaçıran məliklər arasındakı mübarizəyə qarışmağa başladı. Rusiya burada həmin məliklərin köməyi ilə "xristian dövləti” yaratmağa çalışırdı. Rusiyanın siyasətində həlledici şəxslərdən olan Q.A. Potyomkin (1739-1791) İbrahim xanı devirmək və Qarabağda müstəqil erməni əyaləti yaratmaq, yaxud İbrahim xanı ermənilərdən olan hökmdarla əvəz etmək haqqında fikirlər irəli sürmüşdür. İbrahim xan yüksək diplomatik bacarığı ilə düşmənçilik edən məlikləri Şuşaya toplaya bildi. Sənədlər əsasında onların Qarabağ xanlığına xəyanət etdiyini sübuta yetirərək onları həbsə aldırdı. (kursiv bizimdir- Y.M., K.Ş.)

Məlik Məclum və Abov Şuşa həbsxanasına salındı, Məlik Bahtam isə günahlarına görə Ərdəbil xanına verildi. Məliklərin müttəfiqi Gəncəsər monastrının katolikosu İohannes qardaşı ilə tutulub cəzalandırıldı.

Lakin Şuşa həbsxanasındakı məliklər qaça bildilər. Tiflisə gələrək Qarabağ xanlığına qarşı burada hazırlanmış qəsdi Kartli-Kaxet Çarı II İrakli (1762-1798) və Rusiya canişini polkovnik S.D. Burnaşovun (1743-1824) köməyilə yerinə yetirməyə girişdilər. Düşmənlər Gəncəyə yaxınlaşdılar. Lakin 1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması bu "xaç yürüşü"nün dayandırılmasına səbəb oldu. İbrahim xan müstəqil Qarabağ xanlığının bütövlüyünü qoruyub saxlaya bildi.

İranda hakimiyyət uğrunda mübarizədə qalib gələn Ağa Məhəmməd Qacar (1795-1797) 1795-ci ilin yayında Qarabağ xanlığına hücum etdi. Şuşanın 33 günlük mühasirəsi uğursuz olduğundan Tiflis üzərinə yeridi. Rusiya hökmdarı II Yekaterinanın (1762-1796) göstərişi ilə V. Zubovun (1771-1804) komandanlıq

etdiyi rus qoşunları 1796-cı ildə Azərbaycana hücum etdi. II Yekaterinanın ölümü ilə V. Zubov da Azərbaycandan geri çağrıldı. 1797- ci ildə Qacar yenidən Qarabağa hücum etdi, Şuşanı tutdu, lakin burada öldürüldü.

XVIII yüzilin sonları- XIX yüzilin başlanğıcında beynəlxalq aləmdə və regionda mövcud olan vəziyyət Rusiyanın işğalçılıq fəaliyyətini gücləndirdi, 1801-ci ildə Gürcüstan imperiyaya birləşdirildi. Azərbaycan torpaqları uğrunda mübarizə başladı, Car-Balakən (1803) və Gəncə xanlığı (1804) işğal olundu.

***25. Qarabağ xanlığı ilə Rusiya arasında bağlanmış Kürəkçay müqaviləsinin məzmunu və mahiyyəti necə idi?***

İbrahim xan belə bir vəziyyətdə Rusiya qoşunlarının komandanı P.D. Sisyanovla (1802-18O6) Kürəkçayda müqavilə bağladı. Müqavilə 11 maddədən ibarət idi. Müqaviləyə görə xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul edilirirdi (I maddə); xanlıq xarici siyasət hüququndan məhrum edilir, daxili işlər isə onun ixtiyarında qalırdı (IV maddə); Şuşada rus qoşunları yerləşdirilirdi (VI maddə); çar xəzinəsinə 8 min çervon pul verilməli idi (VIII maddə) və s. Ermənilərin iddiasının əksinə olaraq, Qarabağ xanlığı məhz müsəlman - Azərbaycan torpağı kimi Rusiyaya birləşdirilmişdi. 1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi. Xan hakimiyyətinin hələ 17 il də (1805-1822) saxlanılması müəyyən strateji məqsəd daşıyırdı.

***26. Çar Rusiyası tərəfindən Qarabağ xanlığının işğalından sonra onun siyasi həyatı və inzibati-ərazi bölgüsündə hansı dəyişikliklər baş vermişdir?***

Kürəkçay müqaviləsinin bağlanması Qarabağı və İbrahim xanın həyatını xilas etmədi. O, 1804-1813 cü illərdə davam edən Rus-İran müharibəsinin gedişində qəddarcasına qətlə yetirildi. İbrahim xanın qətli (1806) Rusiyanın heç bir hüquqa məhəl qoymadığını nümayiş etdirirdi. Belə bir şəraitdə xanlığa keçən Mehdiqulu xanın hakimiyyəti möhkəm (1805-1822) deyildi. Çar hökuməti xanlığın ərazisində möhkəmlənmək məqsədi ilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəiflətməyə, əksinə ermənilərin üstün rolunu təmin etməyə çalışırdı. Xanlıq ləğv edildikdən (1822) sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, burada da komendant idarə üsulu yaradılmış və Hərbi-müsəlman dairəsinin (mərkəz Şuşa) tərkibinə daxil edilmişdi. Bu dövrdə əslən erməni olan general-leytenant V.Q.Mədətov (1782-1829) Qarabağda sözün əsl mənasında erməni-Rusiya müstəmləkə sistemi yaratmışdı. Çar hökuməti 1830-cu il üsyanlarının təsiri nəticəsində Cənubi Qafqazda inzibati-hərbi islahat (1840-CI ii 10 aprel) keçirmişdi. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrilmiş və Kaspi vilayətinə (mərkəz Şamaxı) tabe edilmişdi. Bununla da Qarabağ anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.

1846-cı il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına (1859-cu ildən Bakı) tabe edildi. 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilir. Şuşa qəzasının ərazisində Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil olunur. Bununla Şuşa qəzası da vahid inzibati-siyasi idarəsini itirir. Belə bir inzibati-ərazi bölgüsü ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar açdı.

***27. Çarizm ermənilərin Şimali Azərbaycana köçürülməsi siyasətini necə hazırladı?***

Çar Rusiyasının Şimali Azərbaycan torpaqlarını işğalı onun erməniləşdirilməsi ilə bərabər gedirdi. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu hal daha ardıcıl və məqsədli xarakter alır. İrandan köçürülmə müqavilənin XV maddəsilə təsdiq olunurdu. Həmin maddədə göstərilirdi ki, "Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökümət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün biril vaxt verilir. Daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yeni işğal olunmuş ərazilərə köçürülməsi həyata keçirilməyə başlayır. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri də Qarabağ torpaqları idi.

***28. Ermənilərin Qarabağa köçürülməsi əhalinin etnik tərkibində hansı dəyişikliklər yaratdı?***

Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı A.P. Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunan"Təsvir"də əksini tapmışdır. Hələ bu sənədin tərtibinə qədər (1805-1822) Qarabağdakı erməniləşdirmə siyasətinə baxmayaraq, onun aparıldığı zamanda belə burada əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. "Təsvir"ə görə Qarabağ əyalətində olan 20.095 ailədən 15.729-u (78,3%) azərbaycanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), - 4366-sı (21,7%) erməni (421-i

şəhərdə, 3.945-i kənddə) idi. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və b.) meydana gəlməyə başlamışdı. (Ermənilər sonralar köçürülmə şərəfinə Qarabağda abidələr ucaltmış, lakin Azərbaycana ərazi iddiaları zamanı, yəni 1988-ci ildən sonra onları dağıtmışdılar - Y.M., K.Ş.). 1828-1830- cu illər arasında Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birgə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı. XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin bütövlükdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi. N. Şavrov məhz buna görə yazırdı (1911) ki, Zaqafqaziyadakı 1,3 mln. ermənінin 1 mln-dan çoxu gəlmə idi.

Artıq 1916-cı ildən Qarabağda (xanlıq sərhədləri daxilində) əhalinin təxminən 51 % - i azərbaycanlı, 46%-i isə erməni idi. Ermənilərin Qarabağın dağlıq hissəsində məskunlaşdırılması daha geniş hal almışdı.

***29. Çarizmin dəstəyi ilə ermənilər Şimali Azərbaycanın siyasi və iqtisadi həyatında necə möhkəmləndi? Bunun nəticələri nədən ibarət oldu?***

Ermənilərin inzibati-idarə sistemində möhkəmlənməsi, köçürülmə prosesində sayının mexaniki surətdə artırılması onların iqtisadi potensialının möhkəmləndirilməsilə müşayiət olunurdu. Ermənilər çarizmin hərtərəfli dəstəyi və yaradılan əlverişli şərait nəticəsində Qarabağın iqtisadi həyatında da möhkəmlənə bildilər.

Ermənilərin Şimali Azərbaycanda nail olduqları iqtisadi potensial 1872-ci ildə Bakıda neftli torpaqlar üzərində iltizam sisteminin ləğvi zamanı aşkara çıxdı. Neftli sahələrin hərracı prosesində azərbaycanlılar cəmi 5%, ermənilər isə 50% - dən çox torpaq sahəsi almışdı. Bakıda fəaliyyət göstərən 167 neft şirkətindən 55 iri və orta şirkət ermənilərə məxsus idi və s. Ermənilərin mədəni - təhsil səviyyəsinin yüksəldilməsi üçün də hərtərəfli şərait yaradılmışdı.

Beləliklə, bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Qarabağda inzibati- siyasi, sosial-iqtisadi və mədəni həyatda geniş imkanlar əldə edən ermənilər "Böyük Ermənistan" ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Həmin ideyanın əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbaycan torpaqlarının yerli əhalisini məhv etmək və ələ keçirməkdən ibarət idi. Ermənilərin 1890-cı illərdən Osmanlı dövlətində qiyamları uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzi Şimali Azərbaycana keçdi.

### *30. Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti Qarabağda necə həyata keçirildi?*

Ermənilər 1905-ci ildən tarixə "erməni-müsəlman davası" adı ilə daxil olan qanlı qırğın törətdilər. Ermənilərin azərbaycanlılara qarşı faktiki soyqırım siyasəti Qarabağda daha faciəli şəkil aldı. Məşhur Azərbaycan yazıçısı M.S. Ordubadi (1872-1950) "Qanlı illər" adlı əsərində (1911) bu hadisələri təkzibedilməz faktlarla araşdırmışdır. Lakin 1905-1906-cı illərdə törətdikləri qırğınlar da erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsilə yaranan tarixi şəraitdən yenidən istifadə etməyə cəhd etdilər. 1915-ci ildə Osmanlı dövlətinə qarşı yeni qiyamlarda da uğursuzluğa düçar olan ermənilər, əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək, azərbaycanlılara qarşı soyqırımı davam etdirməyə başladılar. Əvvəlcə çar hökümətinin devrilməsi (1917, fevral), sonra isə Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ilə (1917, oktyabr) Zaqafqaziyada yaranan anarxiya şəraitində uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşevik güruhu ilə birləşərək, azərbaycanlılara qarşı soyqırımın yeni dövrünü başladılar. 1918- ci ilin mart soyqırımı azərbaycanlılara böyük zərbə vurdu. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə (1918-1920) Azərbaycan tarixində yeni dövr başladı.

### *31. Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin Milli siyasətinin əsas tendensiyası özünü nədə göstərırdi?*

1918-ci il may ayının 28-də təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra Azərbaycan xalqı yeni müstəqil dövlətini yaradır. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ərazisinin ilk cizgiləri istiqlaliyyət bəyannaməsində elan edilmişdi. Onun birinci maddəsində deyilirdi: “I. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər. Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüqüqlu müstəqil dövlətdir". Sonrakı sənədlərdə AXC ərazisini 114 min kv. km. (mübahisəsiz 96 min kv. km.) müəyyən etmişdi. Onu 20 dövlət, o cümlədən dünya birliyi 1920-ci ilin yanvarında de-fakto tanımışdı. AXC ölkə xalqları haqqında elan etdiyi mühüm müddəanı da öz varlığı dövründə ardıcıl şəkildə həyata keçirdi. Buna əmin olmaq üçün qanunverici orqanın-parlamentin tərkibinə nəzər salmaq kifayətdir. "Azərbaycan parlamentinin yaradılması haqqında” 1918-ci il 19 noyabr qanununa görə parlamentdə ermənilərə 21, ruslara 10 yer ayrılmışdı.

### *32. AXC-nin Qarabağda siyasəti necə idi?*

Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisinin hüquqi-siyasi cəhətdən əsaslandırılmış xəritəsini nəşr etdirmişdi. AXC Qarabağın bütün tarixi ərazisini Respublikanın ayrılmaz tərkib hissəsi hesab edir və burada siyasi hakimiyyətinin bərqərar edilməsinə çalışırdı. Ermənistan "Ararat respublikası da Qarabağa iddia irəli sürürdü. AXC hököməti bu iddianı rədd edirdi. AXC parlamentinin sədri Ə.M.

Topçubaşov Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il 18 noyabr tarixli İstanbul söhbətində bildirmişdi: "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu, elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir. Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq. AXC hökuməti ölkənin bütün bölgələri kimi Qarabağın da sosial-iqtisadi və mədəni yüksəlişi üçün tədbirlər həyata keçirmişdi. Lakin Ermənistan hökuməti burda soyqırım siyasətindən əl çəkmirdi.

***33. AXC ermənilərin Qarabağda törətdikləri soyqırımının qarşısını almaq üçün hansı tədbirlər gördü?***

Ermənilər Qarabağda hakimiyyətə nail olmaq üçün əvvəllər başladıqları qırğınları AXC dövründə də davam etdirirdilər. (Bu barədəki faktlar haqqında arxiv materiallarından ibarət xüsusi toplu nəşr etdirilmişdir. Baxın: Azərbaycan belgelerində ermeni sorunu (1918-1920), Ankara, 2001 və b.) Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq, 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı. X.Sultanov həmin vəzifəyə təyin edildi. Ermənistan (Ararat) respublikasının xarici işlər naziri S. Tiqranyan Qarabağ general-qubernatorluğu yaradılmasına etirazını bildirmişdi, lakin AXC hökumətinin cavabında bu etiraz əsassız hesab olunmuş və həmin ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması göstərilmişdi. İngilis komandanlığı AXC hökumətinin bu siyasətini müdafiə etmişdi. Qarabağ general-qubernatorluğu burada sülh yaradılması üçün qətiyyətli tədbirlər görmüşdü. Qarabağın erməni əhalisi də hökumətin bu siyasətinə tərəfdar olmuşdu. Qarabağ erməni kəndli qurultayı (1919, avqust) "Müvəqqəti saziş" qəbul etmişdi.

***34. Ermənilərin AXC daxilində separatçı faaliyyəti özünü nədə göstərirdi və bunun nəticəsi nədən ibarət oldu?***

1919-cu ilin sonları - 1920-ci ilin yazında Zəngəzurda ermənilər tərəfindən silahlı basqın və qırğınlar törədildi.

Onlar Gavanşir qəzasının dağətəyi kəndlərinə basqınlarla bərabər, 1918-ci ilin yaz-yay aylarında düzənlik hissənin müsəlman əhalisinə qarşı da zorakılıq tətbiq edirlər. Bu problemin tədqiqatçısı yazır ki, "ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururlar. Hətta iş o yerə çatır ki, aran kəndlərində içməli su belə çatışmır”.

Qarabağın digər qəzası-Cəbrayılda da ermənilər dinc əhaliyə hücum edirdilər. 1918-ci ilin dekabrında ermənilərin Cəbrayıl qəzasının azərbaycanlı kəndlərinə hücumları genişlənmiş, 1919-cu ilin əvvəllərində daha dağıdıcı xarakter almışdı.

Şuşa qəzası və Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı.

AXC dövründə Şuşada ermənilərin ən xəyanətkar çıxışlarından biri 1920-ci il martın 22-də Novruz bayramı günü baş verdi. Ermənilərin hücumunun əksər yerdə dəf edilməsinə baxmayaraq, onlar Əsgəran qalasını işğal edə bildilər. Lakin AXC burada öz suveren hüquqlarını tezliklə bərpa etdi.

Beləliklə, ermənilərin Qarabağda apardığı separatçı və işğalçı mübarizə 1920-ci il aprel istilası ərəfəsində dövlətin Şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin süqutunu sürətləndirdi.

### *35. Dağlıq Qarabağ (DQ) anlayışı necə yarandı?*

Relyefinə görə Qarabağ aran və dağlıq Qarabağa bölünürdü. Tanınmış qafqazşünas M.A. Skibitskinin oğlu A. Skibitski "Qafqaz böhranı" adlı məqaləsində yazır: "Qarabağ xanlığının bütöv dağlıq hissəsi o vaxt Dağlıq Qarabağ adlanırdı. Şərqdə Qarabag dag silsiləsi, Qərbdə isə Zəngəzur dağları arasındakı torpaqlar, habelə Yuxarı Qarabağla, aran yeri olan Aşağı Qarabağı bir-birindən ayıran Qarabag yaylası həmin yerə aid idi". Aydın olduğu kimi, çar Rusiyası tərkibində Qarabağın ərazisi müxtəlif inzibati bölgülərə məruz qaldığından Qarabağ anlayışı inzibati-siyasi mənasını itirir. AXC dövründə (1918-1920) Qarabağ anlayışı yenidən belə bir məna kəsb edir. Vaxtı ilə Zaqafqaziya ölkə komitəsinin Dağlıq Qarabağda məsul nümayəndəsi olmuş S. Şaduns 20 dekabr 1922-ci ildə yazırdı ki, Daşnaksütyun" partiyası Şuşanın türklərə təslimi ilə yalnız ermənilər tərəfindən məskunlaşan dağlara qalxır məhz burada bu dövrdə özlərini beynəlmiləlçi adlandıran sosial-demokratlarla Dağlıq Qarabağ hökuməti təşkil edilir. Əgər "Daşnaksütyun" partiyası türklərlə döyüşdən yayına bilirsə, tezliklə elə bu Dağlıq Qarabağın kəndlilərinin təkidilə bu hissə aran hissəsi ilə birləşdirilməli olur və bütün Qarabağ Müsavat hökumətinə (AXC hökumətinə olmalıdır - Y.M., K.Ş.) tabe edilir. Daşnaklar Ermənistanda hakimiyyəti ələ aldıqdan sonra yenidən Dağlıq Qarabağ uğrunda mübarizəyə girişirlər.

Bu zamandan Dağlıq Qarabağ, yalnız coğrafi deyil, siyasi maraq da kəsb etməyə başlayır. Bolşeviklər Azərbaycanda hakimiyyəti ələ aldıqdan sonra bu anlayışın inzibati-siyasi mənası bərpa edilir, Azərbaycan-Ermənistan münasibətləri və ona müdaxilə edən Rusiyanın leksikonunda əsas anlayışlardan birinə çevrilir. Lakin Dağlıq Qarabağın coğrafi baxımdan əhatə dairəsində dəyişiklik baş verir. Yenə A. Skibitskinin yazdığına görə"... Qarabağ yaylası 1923-cü ildə muxtariyyət almış və Muxtar Dağlıq Qarabağ Vilayəti və ya Azərbaycanın yeni sərhədləri daxilində qısaca olaraq Dağlıq Qarabag adlanmışdır".

***36. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra DQ-yə münasibət necə idi?***

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarlari Soveti (XKS) yaradıldıqda fövqəladə komissarlar da təyin olunmuşdu. A.N. Karakozov (1890-1938) DQ üzrə fövqəladə komissar təyin olunmuşdu. Azərbaycan Sovet hökümәti 1920-ci il 30 apreldə Ermənistana hökumət notasında Zəngəzur və Qarabağın qoşunlardan təmizlənməsini tələb edirdi. May ayında Qarabağda Sovet hakimiyyətinın qurulması elan olunmuşdu.

***37. Ermənistanda Sovet hakimiyyətinin qurulması Azərbaycan SSR-in DQ - yə münasibətində dəyişiklik yaratdımı? "Nərimanov bəyannaməsi"-nin mahiyyəti nədən ibarətdir?***

Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, yeni sovet dövlətlərinin sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin bu sahədəki fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. RK (b) P MK Siyasi Bürosu Qafqaz Cəbhəsi Hərbi-inqilabi şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu. Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə birgə, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif edilməsi tutarlı şəkildə sübut edilmişdir. Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi.

Ermənistan İnqilab Komitəsi isə 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkildiyini bildirirdi, lakin Qarabağı əldən vermək istəmirdi.

Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində DQ yenidən gündəmə gəldi. Qafqaz Bürosu 3 iyun 1921-ci ildə Dağlıq Qarabağın Ermənistana məxsus olduğunun Ermənistan hökumət Bəyannaməsində göstərilməsi barədə qərar qəbul etdi. Ermənistan XKS isə 12 iyunda bunu dekretləşdirdi. İşlərin belə gedişi Azərbaycanı təmin edə bilməzdi. AK (b)P MK Siyasi Bürosu və Təşkilat Bürosunun AK (b)P MK katibi Q. Kaminskinin (1895-1938) sədrliyilə keçirilən 27 iyun iclasında Tiflisdə komissiyanın işi ilə əlaqədar Azərbaycanın Ermənistanla sərhədi haqqında məsələ müzakirə edildi. Bu iclasda 5 maddədən ibarət qərar qəbul olundu. İlk dəfə burada DQ-yə bəyan edilən öz müqəddəratını təyin etməyə Azərbaycanın baxışı ifadə olundu. "3. Məsələnin (DQ haqqında - Y.M., K.ş.) yeganə həlli erməni və müsəlman kütləsinin Sovet quruculuğu işinə geniş cəlb edilməsi (yol. Nərimanovun Bəyannaməsindən aydın olduğu kimi) ola bilər". Problemin həlli haqqında Siyasi Büro və Təşkilat Bürosunun fikrinin Tiflisə çatdırılması Nərimanova həvalə edildi. Nərimanovun Tiflisdə olan Azərbaycan Mərkəzi

İcraiyyə Komitəsinin (MİK) sədri M.H.Hacıyev və M.D.Hüseynovla elə həmin gün birbaşa xəttlə danışığı oldu: "Nərimanov: Deyin ki, bu Siyasi və Təşkilat Bürosunun fikridir. Əgər onlar mənim bəyannaməmə istinad edirlərsə, bəyannamədə hərfən belə deyilmişdir:

Dağlıq Qarabağa tam, azad, öz müqəddəratını təyin etmə hüququ verilir.

Hüseynov: Yaxşı. Hər şeyi çatdıraram. Hər halda deyim ki, bizim qərarımız, şübhəsiz, çox soyuq qarşılanacaqdır".

Yenə həmin gün Hüseynov bu barədə QB-yə məlumat verdi. Bu məsələ üzrə QB-nin fövqəladə plenumunu çağırmaq, Nərimanov və Myasnikyanı Tiflisə dəvət etmək qərara alındı.

***«RK (b) P MK Qafqaz Bürosu plenumunun axşam iclasının protokolundan***

***İştirak edirlər:*** ***4 iyul 1921-ci il***

***RKP MK üzvü Stalin, Qafbüronun üzvləri;*** Orconikidze, Maxaradze, Kirov, Myasnikov, Nazaretyan, Oraxelişvili və Fiqatner. Komsomolun Qafbürosunun katibi Breytman, Gürcüstan MK üzvləri: Çindadze, Mdivani ve Svanidze.

| ***Dinlənildi:*** | ***Qərar verdilər:*** |
|---|---|
| 5. Qarabağ məsələsi, hansı ki, bu məsələnin müzakirəsində iki fikir aşkar oldu və aşağıdakı məsələlər səsə qoyuldu: | Lehinə səs verdilər. Nərimanov, Maxaradze, Nazaretyan Əleyhinə: Orconikidze, Myasnikov, Kirov, Fiqatner |
| a/ Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq. | Lehinə səs verdilər. Nərimanov, Maxaradze |
| b/ Bütün Qarabağda, bütün erməni və müsəlman əhalisinin iştirakı ilə ümumxalq rəy sorğusu keçirmək. | Lehinə səs verdilər. Orconikidze, Myasnikov, Fiqatner, Kirov |
| v/ Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək. | Lehinə səs verdilər. Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan<br><br>***Qərara alındı:*** |
| q/ Yalnız Dağlıq Qarabağda b.s. ermənilər arasında rəy sorğusu keçirmək. | Dağlıq Qarabağ Ermənisatının tərkibinə daxil edilsin, yalnız Dağlıq Qarabağda rəy sorğusu keçirilsin. |
| 6. Qarabağ məsələsinin Azərbaycan üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, yol. Nərimanov buna həlledici qərar verilməsi üçün məsələnin RKPMK-ya keçirilməsinin zəruri hesab edilməsi barədə təklif etdi. | Qarabağ məsələsinin ciddi fikir ayrılığına səbəb olmasını nəzərə alaraq, RKP MK Qafbürosu onun qəti olaraq həll edilməsi üçün RKP MK - ya keçirilməsini zəruri hesab edir. |

Qarabağ məsələsi haqda səsvermədə yol. Oraxelişvili iştirak etmədi. RKP MK Qafbürosunun katibi Fiqatner.»

- *Stalin (Çuqaşvili) İosif Vissarionoviç(1879-1953) - həmin dövrdə millətlərin işləri üzrə xalq komissarı (1917-1922) idi; Orconikidze Qriqori Konstantinoviç (Serqo) (1886-1937); Maxaradze Filipp İeseyeviç (1868-1941) - Gürcüstan HİK-nin sədri; Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu (1870-1925) - Azərbaycan XKS-nın sədri (1920-1922); Kirov (Kostrikov) Sergey Mironoviç (1886-1934); Myasnikov (Myasnikyan) Aleksandr Fyodoroviç (1886-1925) - Ermənistan HİK-nin sədri; Nazaretyan Amayak Markaroviç (1889-1937) -1920-1922-ci illərdə QB-nun katibi, Gürcüstan HİK-nin və К (b) P MK-nın üzvü; Oraxelişvili İvan (Mamiya) Dmitriyeviç (1881-1937) -1921-ci ilin martından Gürcüstan HİK-nin üzvü, К (b) P MK-nın katibi və XKS sədri; Fiqatner Yuri Petroviç (Yakov İsaakoviç) (1889-1937) - 1921-ci ilin martından OB-nin katibi//

Гражданская война и военная интервенция в СССР. Энцимопедия М.,1983

***RK (b) P MK Qafqaz Bürosu plenumunun iclas protokolundan***

***İştirak edirlər:*** ***5 iyul 1921-ci***

MK üzvü Stalin, Qafbüronun üzvləri: yol. Orconikidze, Kirov, Oraxelişvili, Fiqatner, Nərimanov, Myasnikov, ASSR Xalq, Xarici İşlər Komissarı Hüseynov.

| ***Dinlənildi:*** | ***Qərar verdilər:*** |
|---|---|
| 1. yol. Orconikidze və Nazaretyan əvvəlki Plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar | Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyindən və yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ ASSR tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibində saxlanılan, inzibati mərkəzi Şuşa ş. olmaqla geniş vilayət muxtariyyəti verilsin.<br><br>Səs verirlər - 4 lehinə, 3 bitərəf.<br><br>Azərbaycan MK-ya tapşırılsın ki, sonradan R KP MK Qafbürosunun təsdiqinə verməklə muxtar vilayətin sərhədlərini müəyyən etsin.<br><br>RKP MK Qafbürosunun Rəyasət Heyətinə Dağlıq Qarabağın Fövqəladə Komitəsinə namizəd haqqında Azərbaycan və Ermənistan MK ilə aparması tapşırılsın.<br>Azərbaycan MK tərəfindən Dağlıq Qarabağın muxtariyyət həcmi müəyyən edilsin və təsdiq üçün MK Qafbürosuna təqdim edilsin. |
| ***RKP MK Qafbürosunun Katibi*** | ***Fiqatner*** |

***38. Dağlıq Qarabağa muxtariyyət verilməsi və Azərbaycanın tərkibində saxlanması haqqında Qafbüro iclaslarının qərarları necə qəbul edilmişdir?***

QB plenumunun iclası 1921-ci il iyulun 4 və 5-də Tiflisdə keçirildi. Xüsusi əhəmiyyətini nəzərə alaraq, QB-nin 4 iyul axşam və 5 iyul iclas protokolundan çıxarışların tərcüməsinə diqqət verək (protokollardan çıxarışlara baxın).

Burada bir məsələyə də diqqət yetirilməlidir. 5 iyul qərarı ilə DQ-nin muxtariyyətləşdirilməsində AK (b) P MK-ya həlledici rol ayrılmışdı. Görünür, 1921-ci ilin iyulunda Kirovun AK (b) P MK rəhbərliyinə gətirilməsində bu amil də mühüm rol oynamışdı. Məhz Kirov faktiki olaraq Azərbaycanda rəhbərliyə keçdikdən sonra DQ-nin muxtariyyətləşdirilməsinə rəsmi münasibət dəyişdi və bu proses iki ilədək ləngidi.

4 və 5 iyul iclaslarında Stalinin təzyiqinin nədən ibarət olması faktlarla təsdiq olunmur, SSRİ-nin yaradılması (1922, 30 dekabr) ərəfəsindəki mübarizədə özünün "muxtariyyətləşdirmə" planı ilə çıxış edən Stalinin sosialist dövlətinin federativ quruluşunun Lenin ideyasını həyata keçirməsi absurd görünür. Ona görə də məsələ daha dərin və qlobal şəkildə nəzərdən keçirilməlidir:

1) Mərkəz QB-nin timsalında hələ SSRİ-nin yaranmasından, Azərbaycan və Ermənistan SSR-in İttifaq dövlətində birləşməsindən əvvəl praktik olaraq, sərhəd məsələsinə müdaxilə ilə səlahiyyətli tərəf kimi çıxış etdi. DQ üçtərəfli məsələyə çevrildi;

2) QB bu "hüququndan" istifadə edərək, Azərbaycanın DQ barəsində elan etdiyi öz müqəddəratını təyinetmə müddəasının təbii-tarixi şəkildə yerinə yetirilməsinə imkan vermədi, onu "geniş vilayət muxtariyyəti" kimi ifadə etdi;

3) 4 iyul qərarı ilə Azərbaycana (yəni, DQ Ermənistana verilə bilər!), səhəri gün isə bu məsələyə qayıtmaqla Ermənistana təsir göstərmək (yəni, DQ-nın Azərbaycanın tərkibində qalması təsdiq edilə bilər!) və Mərkəz üçün əlverişli mövqeni təmin etmək istəyirdi, buna da (yeni, DQ-yə muxtariyyət verilməsinə) nail oldu. Beləliklə, QB plenumunun 5 iyul qərarından sonra DQ ətrafında hadisələr yeni istiqamət aldı: QB Mərkəz üçün əlverişli qərarı təmin edib, onun reallışdırılması uğrunda təzyiqə başladı, Azərbaycan SSR ayrılmaz tərkib hissəsi olan DQ-yə məcburi şəkildə muxtariyyət verilməsilə yeni şəraitlə qarşılaşdı. Ermənistan isə DQ ətrafında QB və Azərbaycanın münasibətlərini kəskinləşdirməyə, DQ-nin muxtariyyətləşdirilməsilə onun işlərinə qarışmaq imkanlarından istifadə edərək, DQ-yə olan iddialarını həyata keçirməyə çalışdı.

Bu məsələlər kompleks şəkildə nəzərdən keçirilməlidir.

***39. DQ-nin muxtariyyətləşdirilməsinin əsas hadisələri hansılardır?***

DQMV-nin yaradılmasının prinsipial məsələlərini müəyyən etmək üçün əsas hadisələri mənsubiyyət Üzrə Sinxron şəklə gətirək. (Sinxron cədvələ baxın). Cədvəl ilə tanışlıq göstərir ki:

1) hadisələrin gedişi iki mərhələyə ayrılır: RK (b) P MK Qafqaz Bürosunun (QB:1920, aprel-1922, fevral) 5 iyul 1921-ci il tarixli qərarınadək və qərardan DQ-nin muxtariyyətləşdirilməsinədək;

2) DQ-nin muxtariyyətləşdirilməsi ətrafında hadisələr, əsasən, Azərbaycan (1-ci və 2-ci sütunlar) və QB, sonra isə ZÖK (5-ci sütun) arasında cərəyan edir, Ermənistan isə faktiki olaraq bu hadisələrdən kənarda qalır. Bu faktlar DQ və onun muxtariyyətləşdirilməsi ətrafındakı hadisələri yenidən nəzərdən keçirməyi, DQMV-nin yaradılmasının obyektiv tarixini bərpa etməyi tələb edir.

### *40. Kirovun muxtariyyətləşdirməyə münasibətində dəyişikliyin səbəbi nədi?*

5 iyul qərarı qəbul edildikdən sonra Azərbaycan rəhbərliyi tərəfindən onun həyata keçirilməsinə birmənalı yanaşmaq olmaz. Azərbaycan MİK-in Rəyasət Heyətinin 19 iyul iclasında Nərimanovun Tiflis səfərinin yekunları bəyənilmiş, AK (b) PMK Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul iclasında Qarabağın Konstitusiyasının hazırlanması üçün komissiya yaradılmışdı. Azərbaycan MİK Rəyasət Heyətinin 19 iyul, AK (b) P MK Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul iclaslarında və qeyd olunan qərarların qəbulunda Kirov da iştirak etmişdi. AK (b) P MK Siyasi Bürosu və Təşkilat Bürosunun 26 sentyabrda bilavasitə Kirovun sədrliyilə keçirilən iclasda onun mövqeyinin əksinə dəyişdiyini görürük. İclasda iştirak edən 9 nəfərdən (Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov) 7 nə-fər QB-dən DQ-nin ayrılması haqqında qərarın yenidən nəzərdən keçirilməsini xahiş etməyi qərara alır, yalnız 2 nəfər - Nərimanov və Bünyadzadə QB-nin qərarının qısa müddətdə yerinə yetirilməsinə tərəfdar çıxır. Bu məsələ üzrə materiallar toplamaq üçün komissiya yaradılır. AK (b) P MK Təşkilat Bürosu üzvlərinin iştirakı ilə Qarabağın məsul işçilərinin 21 oktyabr konfransına rəhbərlik edən Bünyadzadə də Kirovun mövqeyinə keçir. Belə ki, həmin iclasda DQ-nin muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunmurdu.

Beləliklə, məhz Kirovun rəhbərliyilə DQ-nin müqəddaratını təyin etməsinə yeni münasibətin yarandığı ortaya çıxır. Bu təsadüfi deyildi. Kirov nəinki öz şəxsi mövqeyinə, hətta QB-nin DQ-ni Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını etiraf etmək əvəzinə ona məcburi muxtariyyət verilməsi haqqındakı qərarının və onun qısa müddətdə həyata keçirilməsi zərurətinin yanlış olduğunu yəqin etmişdi.

DQ-yə muxtariyyət verilməsi dekretləşdiriləndən 4 ay keçdikdən sonra belə AK(b)P MK Rəyasət Heyətinin 8 oktyabr 1923-cü ildə Kirovun sədrliyilə keçirllən iclasında MK-nın DQ-nin muxtar vilayət kimi ayrılması haqqında qərarın əhali, xüsusilə, türklər (azərbaycanlılar - KM., K.Ş.) arasında populyarlaşdırılmasının başa çatmadığı etiraf olunurdu.

Ona görə də bu məsələ ətrafında Kirovun mövqeyi və ona təsir edən amillər xüsusi araşdırılmalıdır. Əgər 4 iyul iclasının protokolundan çıxarış nəzərdən

keçirilsə, o zaman Kirovun Qarabağı Azərbaycanın hüdudlarında saxlanmasının əleyhinə (5, a), Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə daxil edilməsinin lehinə (5, v) səs verdiyi aydın olar.

DQ-nin muxtariyyətləşdirilməsinin Zaqfederasiya və SSRİ-nin yaradılması uğrunda genişlənən hərəkatla paralelləşməsinə baxmayaraq, onun həyata keçirilməsindəki problemlər məsələnin AK(b) P-nin irəli sürdüyü şəkildə yenidən baxılması əvəzinə, 1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında Orconikidzenin sədr seçildiyi RK(b)P ZÖK-i 5 iyul qərarının qəbul edilməsində olduğu kimi, reallaşdırılmasında da inzibati-amirlik üsullarına əl atılması ilə nəticələndi.

### *41. DQ-nin muxtariyyətləşdirilməsi Azərbaycana necə qəbul etdirildi?*

QB 5 iyul qərarının Azərbaycana qəbul etdirilməsi üçün təzyiqə başlayır. Bu, iki yol ilə həyata keçirilirdi. Bir tərəfdən Azərbaycan rəhbərliyi qarşısında tələb qoyulur, digər tərəfdən DQ-nin idarəsi xüsusi göndərilən erməni kadrları ilə möhkəmləndirilərək, Azərbaycanın təsirinin zəiflədilməsinə cəhd edilirdi. ZÖK-nin 27 oktyabr 1922-ci il iclasında AKP MK-ya 5 iyul qərarının həyata keçirilməsi təklif edilmiş, Karakozovun İcraiyyə Komitəsinin sədri təyin edilməsi, Şadunsun məsul işə göndərilməsi üçün AK(b)P MK-ya ezam edilməsi qərara alınmışdı. AK(b)P MK-nın 15 dekabr iclası ZÖK-nin qərarını icra üçün qəbul etmiş, Azərbaycan SSR XKS yanında DQ işləri üzrə Mərkəzi Komissiya (Kirov, Mirzəbekyan, Karakozov) və 7 nəfərdən ibarət Komitə (1922,15 dekabr-1923,24 iyul) təşkil etmişdi. Buna baxmayaraq, Azərbaycana təsir davam etdirilmişdi. Dekabrın 22-də Zaqfederasiyanın İttifaq Soveti DQ-ın muxtariyyətləşdirilməsinin sürətləndirilməsi haqqında qərar qəbul etmişdi.

SSRİ-nin yaradılmasından sonra ZÖK-nin tələbləri daha qəti şəkil alır. 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi ZÖK-nin plenumunun gündəliyinə daxil edilir. İyulun 1 -də AK(b)P MK Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin 3 gün ərzində MK-ya təqdim edilməsini qərarlaşdırır. Bu qərar da ZÖK-ni təmin etmir. ZÖK-nin plenumunun iclası iyunun 27-də Şaduns və Karakozovun məruzəsi əsasında DQ-nin bir ay müddətində muxtar vilayət kimi ayrılmasını AKP MK-ya həvalə edir. İyulun 1-də AK(b)P MK Rəyasət Heyətinin iclası Kirovun sədrliyilə Qarabağ haqqında məsələni dinləyərək, 6 bənddən (a-e) ibarət qərar qəbul edir. Azərbaycan MİK-nə DQ-ni muxtariyyətləşdirmək (Rəyasət Heyətinin adından), ondan mərkəz Xankəndi olmaqla "Muxtar Qarabağ vilayəti" yaratmaq təklif olunur. Hüdudlarla bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev (sədr), üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradılır və s.

İyulun 4-də Azərbaycan Sovetləri MİK-i də eyni məzmunlu qərar qəbul edir. Azərbaycan Sovetləri MİK-i iyulun 7-də M. B. Qasımov (1879-1949) və Ə. M. Xanbudaqovun (1893-1937) imzası ilə "Dağılq Qarabağ muxtar vilayəti

yaradılması haqqında" dekret verir. Dekret preambula, dörd bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, AK(b) P MK-nın qərarı ilə dekretin adı arasında fərq vardır, çünki sonra Qarabağın aran və dağlıq hissəsini bir yerdə ayırmaq əvəzinə, yalnız DQ-ni ayırmaq qərara alınmışdı. Dekretin Muxtar Dağlıq Qarabağ vilayəti adlandırılması diqqəti cəlb edir. Lakin sonralar o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır (işdə dolaşıqlıq yaratmamaq üçün biz də bu ənənəni davam etdirmək məcburiyyətindəyik, amma onu ilk rəsmi sənədlərdə qeydə alınmış mənada qəbul edirik - KM., K.Ş.). Dekret ciddi hüquqi sənəddən daha çox, primitiv məzmunu ilə fərqlənir. Preambulada tarixi xronologiya pozulur, faktlar təhrif olunur, DQ-nin muxtariyyətləşdirilməsi zərurəti kifayət qədər əsaslandırılmır. Dekretin birinci bəndində "1. Образовать из армянской части (?) Нагорного Карабаха автономную область, как составную часть (?) АССР, с центром в местечке Ханкенди" hüquqi-siyasi tenrifə yol verilir. Azərbaycan torpaqlarından DQMV yaradılması və onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi əvəzinə, müxtəlif cür izah (şərh) olunan ifadələr işlədilirdi. Üçüncü bənddə isə Sovetlər qurultayı çağırılmasınadək, Müvəqqəti İnqilab Komitəsi yaradılır. Bu da vilayətin erməni rəhbərliyinə daha geniş hüquqlar verirdi və s. AK(b) P MK Rəyasət Heyətinin 16 iyul iclasının qərarı ilə Şuşa şəhəri DQMV tərkibinə daxil edilmişdi. DQMV üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edilmişdi. DQMV haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olunmuşdu.

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə etnik cəhətdən parçalanmış və o, Qarabağın dağlıq hissəsində məskunlaşmış ermənilərə muxtariyyət verilməsinə məcbur edilmişdi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin muxtariyyətləşdirilməsi və onun ətrafında yaranan məsələlərə münasibət Kirovun AK(b) P-nın VI qurultayında (1924,5 may) yekunlaşdırılmışdır. Onun DQ-nin muxtariyyətləşdirilməsinə olan şübhə və inamsızlığı hər cümlədə hiss olunur. O, demişdir ki, bu məsələni biz, nəhayət (!) həll etdik və şübhəsiz (!) tamamilə düzgün iş gördük. Bu məsələni, əsasən, yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə (?!) yoxdur. Məhz belə bir şübhə Kirov üçün aydın idi!

### *42. Ermənistanın DQ-nin muxtariyyətləşdirilməsinə münasibəti necə oldu?*

Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan KP MK QB-nin 5 iyul qərarının onu təmin etmədiyini bildirmiş və DQ-yə iddiasını davam etdirməyə başlamışdı. Lakin sonra QB-nin ona hədiyyə etdiyi DQ-nin muxtariyyətləşdirilməsini məqsədinə uyğunlaşdırmağa başlamış, DQ uğrunda mübarizə belə bir formula almışdı: DQ-nin muxtariyyətləşdirilməsindən onun Azərbaycanın idarəsi altından çıxarılmasına - DQ-nin Ermənistana birləşdirilməsinə. Bu formulanın əsasında DQ və onun

ətrafında erməni şovinizminin gücləndirilməsi dururdu. İş o yerə çatmışdı ki, RK (b) P-nin XII qurultayında (1923,17-25 aprei) K.Radek Azərbaycanda erməni şovinizmindən (aprelin 23-də) bəhs etmişdi. İ.Stalin isə ona qarşı çıxmışdı. Adətən QB-nin 5 iyul qərarından bəhs etdikdə Stalinlə barışa bilməyən erməni müəllifi burada onun sözlərindən gen-bol iqtibas verir. Bu, həmin partiya qurultayıdır ki, orada Leninin "Qurultaya məktub"u oxunmuş və orada Stalinin obyektiv xarakteristikası verilmişdi. XII qurultayda seçilmiş MK üzvlərinin repressiyası da məlumdur. Ona görə də K.Radekin çıxışı ilə əlaqədar məsələlər də yenidən tədqiq olunmalıdır.

Stalinin timsalında müdafiə olunan ermənilər niyyətlərini gizlətmədilər. Şaduns 13 iyunda ZÖK-ə yazırdı ki, bu muxtar vilayət (DQ - Y.M., K.Ş.) bilavasitə ZÖK-lə bağlı olmalıdır.

Zaqfederasiyanın rəhbərləri problemin belə alternativ, daha ağıllı həllinə getmədilər, - deyən erməni müəlliflərinin Ermənistanın fəaliyyətinin əsas formulası haqqında söylənənləri təsdiq edir.

### *43. Dağlıq Qarabağın muxtariyyətləşdirilməsi Qarabağın tarixi-coğrafi vahidliyinə necə təsir göstərdi?*

1920-1923-ci illərdə baş verən proseslər nəticəsində keçmiş Qarabağ xanlığının tərkibinə daxil olan ərazilər tarixi-coğrafi vahidliyini itirdi. Azərbaycanın 1917 və 1921-ci il kənd təsərrüfat siyahıya almalarının materialları əsasında nəşr edilmiş yaşayış məskənləri siyahısında 15 qəza göstərilir. Qarabağ ərazisində Cəbrayıl (Karyagin), Cavanşir, Qubadlı (keçmiş Zəngəzur qəzasının bir hissəsi), Şuşa qəzaları ayrılır. Göründüyü kimi, bu mərhələdə Zəngəzur qəzasının bölüşdürülməsi əksini tapır, digər qəzalar isə həlòlik əvvəlki ərazilərində qalır. DQMV-nın təşkili nəticəsində Cavanşir, Şuşa və Qubadlı qəzalarının bəzi yaşayış məskənləri ənənəvi inzibati bölgüsündən ayrılaraq onun tərkibinə verildi. Nəticədə yeni inzibati bölgü aparmaq tələbi meydana gəldi. Bu məsələ DQMV əsasnaməsini hazırlayan komissiyanın iclasında müzakirə edilmişdi. Aran Qarabağın idarə forması və inzibati bölgüsünə dair 3-cü məsələ üzrə belə bir qərar çıxarılmışdı: Tərkibinə Cavanşir qəzasının aran hissəsi, Şuşa, Qubadlı və Karyagin qəzalarının daxil olduğu Aşağı Qarabağ vilayət icraiyyə komitəsi yaratmaq, ona RSFSR-in quberniya icrakomları haqqında 1923-ci il əsasnaməsini tətbiq etmək, Aran Qarabağ vilayətinin rayonlaşdırılmasını Az. MİK yanında Xüsusi komissiyaya həvalə etmək. Bu iclasda Kürdüstanın idarə forması və inzibati bölgüsi haqqında 4-cü məsələ də müzakirə olunur. Buradan aydın olduğu kimi, DQMV yarandığı dövrdə Aran Qarabağın da xüsusi bir inzibati-ərazi vahidində birləşdirilməsi fikri olmuşdu. Lakin qısa bir müddət sonra bu fikir dəyişmişdi. Az MİK sədri Qasımov XKS sədrinin müavini M. Quliyev və daxili işlər naziri İ. Sviridovun imzaladığı Azərbaycan Sovetləri MİK-nin 1923-cü il 6 avqust tarixli əmrinə əsasən DQMV yaradıldıqdan sonra Qarabağın qalan hissəsindən Ağdam, Cəbrayıl və Kürdüstan

qəzaları yaradılmışdı. Həmin sənədə görə Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları ərazilərinin tərkibi, mərkəzləri, qəza icrakom sədrləri və b. məsələlər müəyyənləşdirilmişdi, Qubadlı qəzası isə ləğv edilmişdi.

Azərbaycan Mərkəzi Statistika idarəsi Azərbaycan SSR-də həyata keçirilən bu və digər inzibati-ərazi bölgülərini nəzərə alaraq, 1921-ci il kənd təsərrüfat siyahıya almasının materialları əsasında onların ərazisinin sahəsi, əhalisinin milli tərkibi və b. məsələlər üzrə hesablamalar aparmışdı. Həmin hesablamalara görə, Qarabağın tarixi ərazisindən (xanlığın sərhədləri üzrə) Azərbaycan SSR tərkibində DQMV - 4.160,5 kv.km. Cəbrayıl qəzası - 4.268,5 kv.km., Ağdam qəzası - 4.135,4 kv.km., Kürdüstan qəzası - 3.432,4 kv.km., (cəmi 15.996,9 kv. km.) qalmışdı. Sonrakı inzibati-ərazi bölgüləri prosesində Zəngəzur qəzasının Azərbaycan SSR tərkibində qalan hissəsində (əvvəlcə Qubadlı, sonra Kürdüstan qəzası) müəyyən dəyişikliklərlə Zəngilan (0,7 min kv.km.), Qubadlı (0,8 min kv.km.), Laçın (1,8 min. kv.km.) rayonları təşkil olundu. Ağdam və Cəbrayıl quberniyalarının ərazisində isə Ağdam (1, 1 min. kv.km.), Bərdə (1,0 min.kv.km.), Ağcabədi (1,8 min. kv.km.), Tərtər (0, 4 min.kv. km.), Cəbrayıl (1,0 min.kv.km.) rayonları yaradılmışdı.

### *44. Dağlıq Qarabağın ərazisi və inzibati bölgüsü necə müəyyənləşdirildi?*

İndiyə qədər Dağlıq Qarabağın muxtariyyətləşdirilməsindən bəhs edilərkən demək olar ki, onun ərazisinin inzibati-bölgü tarixinin ən mühüm hadisələrinə diqqət verilməmişdir. Təhlil göstərir ki, Dağlıq Qarabağ muxtar vilayətinin ərazisi elmi-coğrafi deyil, volyuntarist prinsip əsasında, yəni, ermənilərin sayca üstün olduğu lokal əraziləri muxtar qurum adı altında birləşdirilməklə təşkil olunub. (Müqayisə üçün qeyd edək ki, bu prinsipi əsas götürməklə dünyanın əksər ölkəsi və ya iri şəhərində kompakt yaşayan hər hansı gəlmə əhalinin inzibati-siyasi qurumunu təşkil etmək mümkündür. Belə ki, Nyu-Yorkda Çin məhəlləsi əsasında çinlilərə, yaxud müvafiq qaydada yaponlara muxtariyyət tələb etmək olar - Y.M., K.Ş.). İş o yerə çatmışdı ki, Kəlbəcərə məxsus Ağdaban, Fizuliyə məxsus Yuxarı Veysəlli kəndləri DQMV-nin sərhədləri daxilində qalmış, inzibati tabeçilik dəyişdirilmişdi. Dağlıq Qarabağ muxtariyyətinin Əsasnaməsini hazırlayan komissiyanın qərarına görə, onun tərkibinə 170-dən çox yaşayış məskəni verilmişdi. Azərbaycan Mərkəzi Statistika İdarəsi 1924-cü ilə aid məlumatında həmin məskənlərin sayının 200-dən çox olduğunu göstərmişdi. Q.Koçaryan familiyalı erməni isə 1925-ci ildə nəşr edilmiş kitabçada bu məskənlərin sayının 215 olduğunu bildirmişdi. Bu faktlar Dağlıq Qarabağ muxtar vilayətinin ərazisinin rəsmi sənədlərin əksinə olaraq genişləndirildiyini və yeni yaşayış məskənləri hesabına əhalisinin sayı və etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirildiyini sübut edir.

DQMV yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-volost-kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü:

***1.*** **Dizak rayonu.** Bu rayonun tərkibində 5 volost (Hadrut, Tug, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi;

***2. Vərəndə rayonu.*** Bu rayonun tərkibində 5 volost (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi.

***3. Şuşa rayonu.*** Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi;

***4. Xaçın rayonu.*** Bu rayonun tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi.

***5. Ceraberd rayonu.*** Bu rayonun tərkibində 4 volost (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi. Yeni inzibati-ərazi bölgüsi həyata keçirilərkən DQMV-da dəyişiklik baş verir. 1930-cu ilin avqustunda DQMV ərazisi yenə də 5 rayona: 1. Ceraberd; 2. Martuni; 3. Stepanakert; 4. Dizaq; 5. Şuşa ayrılır.

Göründüyü kimi, Vərəndə Martuni adlandırılır, Xaçının ərazisi isə Stepanakertə aid edilir. 1939-cu il avqustun 17-də Ceraberd Mardakert, Dizaq isə Hadrut adlandırılır. 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə Şuşaya vurulur. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilir, onun ərazisi Stepanakert rayonuna verilir. Lakin N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra inzibati-bölgüdə yeni dəyişiklik baş verir. 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunur. 1978-ci ildə Stepanakert rayonu əsasında Əsgəran rayonu təşkil edilir. SSRİ-nin dağılmasınadək DQMV-nin inzibati-ərazi bölgüsü belə idi.

***Cədvəl 45/1***

***Prof Y.Barseqova görə DQMV əhalisinin guya təbii artımına əsaslanan Şişirdilmiş və faktiki (siyahıya almalar üzrə) əhalisinin müqayisəsi***

| *İllər* | *Ermənilər* | | *Azərbaycanlılar* | |
|---|---|---|---|---|
| | Faktiki say | Hesablama sayı | Faktiki say | Hesablama sayı |
| 1921 | 128.060 | 128.060 | 7.594 | 7.594 |
| 1939 | +132.800(3,6%)[x] | 208. 317(38,5%) | 14.100(46,1%) | 9. 875(23,1%) |
| 1959 | -110.100(20,6%) | 375. 667(44,5%) | 18. 000(21,7%) | 15.803(37,5%) |
| 1970 | +121.100(9,1%) | 517.223(27,45) | 27. 200(33,8%) | 22. 315(29,2%) |
| 1979 | +123.100(1,6%) | 620. 238(16,6%) | 37. 200(26,9%) | 27. 176(17,9%) |
| 1989 | | 731. 959(15,3%) | | 32. 548(16,5%) |

Qaynaq: Барсегов Ю.Г. Право на самоопределение-основа демократического решения межнациональных проблем. К проблеме Нагорного Карабаха. Ереван, 1989,с. 101

[x] Əvvəlki dövrə nisbətən artma +; - azalma. (Hesablama bizimdir).

*Cədvəl 45/2*

| *Ermənilərin Ermənistanda və Y.Barseqovun Hesablamalarına görə DQMV-də şişirdilmiş orta sıxlığı* | | | |
|---|---|---|---|
| *İllər* | *Ermənistanın orta sıxlığı* | | |
| | *Ermənistanda (Faktiki)* | *DQMV-də (Y.Barseqovun hesablamasına görə)* | |
| | | *Cəmi* | *Ermənistanla müqayisədə fərq* |
| 1921 | - | 29,1 | - |
| 1926 | 25 | - | - |
| 1937 | 33,8 | - | - |
| 1939 | 35,6 | 47,3 | + 11,7 |
| 1959 | 52,1 | 85,4 | + 33,3 |
| 1970 | 74,1 | 117,5 | + 43,4 |
| 1979 | 91,4 | 141 | + 49,6 |
| 1989 | 103,4 | 166,4- | + 63 |

Qaynaq: Всесоюзная перепись населения 1926 г. Закавказская СФСР.Т.Х1У. М., 1929, с. 11-13; Вестник статистики, 1990, №7, с.77; "Правда" от 2 июня 1939 г; Итоги Всесоюзной переписи населения 1959 г. Армянская ССР. М., 1963, с.11, 102-103; Численность и состав населения СССР. По данным Всесоюзной переписи населения 1979 г. М., 1984; Ходжабекян В.Е. Армянская Советская Социалистическая республика // Население союзных республик. М., 1977, с.278

### *45. Ermənilər DQMV əhalisinin say dinamikasının dəyişməsini necə təhrif edir?*

DQMV-nin tarixində ən çox saxtalaşdırılan məsələlərdən biri onun əhalisinin say dinamikası və etnik tərkibi ilə bağlı olan məsələdir. Bu barədə erməni müəlliflərinin mövqeyini əyani göstərmək üçün prof. Y.Barseqovun təqdim etdiyi bir cədvələ nəzər yetirək. (Cədvəl 45/1)

Y.Barseqov oxucunu çaşdırmaq üçün yalnız mütləq rəqəmləri verir, şərhin daha aydın olması üçün nisbi rəqəmlərə ehtiyac vardır. Cədvələ belə hesablamalar əlavə etdikdə onun nə dərəcədə absurd olduğu aşkara çıxır. Bu hansı məntiqə uyğundur ki, 1921-1939-cu illər arasında ermənilərin faktik artımı 46,1% olduğu halda, hesablamalarla 38,5%-ə qaldırılsın, azərbaycanlılarda isə faktik artım 46,1% olduğu halda, 23,1%-ə endirilsin. Belə yanaşma bilərəkdən həqiqətin təhrifinə yönəlib və elə kobud şəkildə həyata keçirilib ki, bu oxucunu ələ salmaqdan başqa bir şey deyildir! Biz isə problemi elmi məcraya yönəltmək üçün belə bir hesablamaya müraciət edək.

Y.Barseqovun hesablamalarının qeyri-elmiliyi elə bir dərəcəyə çatır ki, adından da aydın olduğu kimi, 4,4 min kv. km-lik dağlıq ərazidə ermənilərin orta

sıxlığı üçün astronomik rəqəmlər irəli sürür! Beləliklə, erməni müəllifləri tarixi elə təhrif edirlər ki, həqiqəti aşkar etmək xeyli dərəcədə müşkül bir işə çevrilir.

### *46. 1926-1988-ci illərdə DQMV əhalisinin say dinamikası necə dəyişmişdir?*

DQMV əhalisinin say dinamikasının real vəziyyəti aşağıdakı kimi olmuşdur. (Cədvəl 46)

SSRİ-nin dağılması ərəfəsində keçirilən 1989-cu il əhali siyahıya almasının nəticələri dövrün təsirinə məruz qalmasına baxmayaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi həmin siyahıya almanın materialları əsasında DQMV-nın etnik xəritəsini çap etdirmişdir. Həmin xəritədən aydın olduğu kimi, 1989-cu il Sovet əhali siyahıya almasının yekunlarına görə DQMV-nin 187,8 min əhalisinin 145,4 mini (77%) erməni, 40,3 mini (21,5%) azərbaycanlı olmuşdu.

Göründüyü kimi, 1939-1979-cu illərdə əhali siyahıya almaları üzrə DQMV əhalisi içərisində azərbaycanlıların sayı müəyyən dərəcədə artmışdı. Bu azərbaycanlıların öz torpaqlarına bağlılığı və onların içərisində təbii artımın üstün olması ilə bağlı olmuşdu. Ermənilər isə əksinə, bütün dünyada miqrasiyaya meylli xalq kimi tanınmış və onların təbii artımı aşağı olmuşdu. 1989-cu il əhali siyahıya alması ərəfəsində ermənilərin vilayət əhalisinin etnik tərkibini süni şəkildə azaltmaq cəhdləri azərbaycanlıların sayının aşağı göstərilməsinə səbəb olmuşdu.

Rəsmi sovet əhali siyahıya almalarının (1988-ci il istisna olmaqla) nəticələrinə əsaslanan bu cədvəl real vəziyyəti daha doğru əks etdirir və onların şübhə altına alınmasına əsas yoxdur.

***Cədvəl 46***

***1926-1988-ci illərdə Azərbaycan SSRİ DQMV-nin əhalisinin say dinamikası***

| *İllər* | *Əhalisini sayı, min nəf.* | *Əvvəlki dövrə görə artım* | | *Dövr ərzində orta illik artım, fazilə* |
|---|---|---|---|---|
| | | *Min nəf.* | *Faizlə* | |
| 1926 | 125,3 | - | - | - |
| 1939 | 150,8 | 25,5 | 20,4 | 1,45 |
| 1959 | 130,4 | -20,4 | -13,5 | -0,7 |
| 1970 | 150,3 | 19,9 | 15,3 | 1,3 |
| 1979 | 162,2 | 11,9 | 8,1 | 0,85 |
| 1988 | 182,4 | 20,2 | 12,5 | 1,3 |

Qaynaq: Самед-заде З. Нагорный Карабах: неизвестная правда (О некоторых аспектах социально-экономического и демографического развития репюна). Баку, 1995, с. 31

### *47. DQMV əhalisinin etnik tərkibi necə olmuşdur?*

Bu barədəki məlumatları cədvəldə görmək olar. (Cədvəl 47)

| DQMV əhalisinin etnik tərkibi (əhali siyahıya almaları üzrə; min nəfərlə) | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1939 | | 1959 | | 1970 | | 1979 | |
| | Mütləq | % | Mütləq | % | Mütləq | % | Mütləq | % |
| Bütün əhali | 150,8 | 100 | 130,4 | 100 | 150,3 | 100 | 162,2 | 100 |
| Ermənilər | 132,8 | 88,1 | 110,1 | 84,4 | 121,1 | 80,6 | 123,1 | 75,9 |
| Azərbaycanlılar | 14,1 | 9,4 | 18,0 | 13,8 | 27,2 | 18,1 | 37,3 | 23,0 |
| Ruslar | 3,2 | 2,1 | 1,8 | 1,4 | 1,3 | 0,9 | 1,3 | 0,8 |

Qaynaq: Достижения Нагорного Карабаха в девятой пятилетке. Стат. сб. Степанакерт, 1976, с.8, Самед-заде 3. Указ.соч., с.31

### *48. Azərbaycan SSR DQMV-nin siyasi və sosial - iqtisadi inkişaf səviyyəsi necə olmuşdur?*

DQ-nin bir tərəfdən Azərbaycanın tərkibində saxlanması, digər tərəfdən isə muxtar vilayət statusu əldə etməsi onun sosial-siyasi və iqtisadi inkişafı üçün müstəsna şərait yaratdı. Təəssüf ki, 1980-cı illərin sonlarında istər erməni ideoloqları, istərsə də onları dəstəkləyənlər bunu açıq-aşkar inkar etməyə cəhd göstərdilər. Lakin faktlar faktlığında qalır. DQMV-nin Azərbaycanın tərkibində nail olduqları Vilayət Statistika idarəsinin Stepanakertdə (indi Xankəndi - Y.M., K.ş.) nəşr etdirdiyi statistik məcmuələrdə əksini tapmışdır. Sonralar məhz həmin Stepanakert bu nəşrlərə göz yummağa çalışacaq. Halbuki, onlara göz yummaq deyil, daha diqqətlə yanaşmağa böyük ehtiyac vardır. Statistik məcmuələrdən biri muxtar vilayətin yaranmasından keçən 40 il ərzində (1923-1963) mədəniyyət, iqtisadiyyat, səhiyyə və s. sahələrdəki vəziyyət barədə yazır: İnqilaba qədər (1917-ci il, oktyabr – Y.M., K.Ş.). Dağlıq Qarabağda orta ixtisas təhsili müəssisələri, kütləvi kitabxanalar, teatrlar yox idi. Şuşa şəhərində yalnız üç xüsusi mədəni-maarif müəssisəsi və bir xüsusi kinoteatr var idi. Hazırda DQMV-də min nəfər şagirdin təhsil aldığı beş xüsusi orta təhsil müəssisəsi vardır. 930 min nüsxədən çox kitab fondu olan 164 kitabxana fəaliyyət göstərir. Kütləvi kitabxanalardan 150-si kənd yerlərindədir, onların kitab fondu 630 min nüsxəyə çatır. Stepanakert şəhərində M. Qorki adına Erməni Dövlət dram teatrı, Dövlət mahnı və rəqs ansamblı vardır. Vilayətdə 176 klub müəssisəsi vardır... Dağlıq Qarabağ elmi müəssisələrə də malikdir... DQMV-nin yaranmasının ilk günündən ana dilində (erməni dilində) "Sovetakan Karabax” qəzeti çap olunur. Kənd təsərrüfatından bəhs olunarkən DQ-nin xış diyarından traktor və kombayn diyarına çevrildiyi təsdiq olunur. 1963-cü ilin əvvəllərində DQ-nin kənd təsərrüfatında 1,4 min ədəd traktor, 224 kombayn, 670 yük avtomabili və minlərlə digər müasir kənd təsərrüfatı maşınının olduğu göstərilir. 40 il ərzində DQMV-nın sənaye potensialının reallaşdırılmasında da xeyli iş görülmüşdü. 1940-cı ilə nisbətən 1962-ci ildə bütün sənayenin ümumi məhsulu 341%, elektrik enerjisi 945 % və sairə

artmışdı. 1960-cı illərin ortalarından sonra da vilayətin sosial-iqtisadi həyatı dinamik inkişaf etmişdi. 1965-1987-ci illərdə bütövlükdə Azərbaycan SSR, o cümlədən onun Naxçıvan MSSR və DQMV-ı üzrə iqtisadi və sosial inkişafa dair göstəricilərin müqayisəsi muxtar vilayətin vəziyyətini əyani göstərir. Buradan aydın olur ki, 1987-ci ildə hər 10 min nəfərə sənayedə çalışanların sayı respublika üzrə 686, Naxçıvan MSSR üzrə 387 olduğu halda, DQMV-də 657 olmuşdu. Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulları müvafiq olaraq 588, 501 və 692 (!) idi və i.a. Sosial inkişafa dair göstəricilərə gəldikdə isə bu rəqəmlər nəinki Azərbaycan SSR, hətta Ermənistan SSR və bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli fərqlənirdi. Hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat Ermənistan SSR-də 86,2, Azərbaycan SSR-də 97,7 oldugu halda, DQMV-də 101,7 idi və s. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin DQMV-nin sosial-iqtisadi inkişafına dair 1988-ci il 24 mart tarixli qərarın preambulasında da vilayətin sosial və iqtisadi inkişafda nailiyyətlər əldə edilməsi qeyd olunurdu.

Azərbaycan onun tərkib hissəsi olan DQMV-nin sosial-iqtisadi vəziyyətinə dair faktları olduğu kimi geniş ictimaiyyətin müzakirəsinə çıxarmaqdan çəkinməmiş, əksinə mövcud vəziyyətin daha da aydınlaşdırılmasında maraqlı olmuşdu. Buna görə də 1988-ci ilin gərgin mart günlərində Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda "DQMV-nin iqtisadiyyatı: problemlər və perspektivlər" mövzusunda "dəyirmi stol" təşkil edilmiş, onun materialları çap olunmuşdu. Ona görə də orada toxunulmuş faktları burada sadalamağa ehtiyac görmürük. Yalnız həmin "dəyirmi stol"da SSRİ EA-nın akademiki, "əsas fondlar, kapital qoyuluşu və yeni texnikanın iqtisadi səmərəliliyi" problemi üzrə elmi şuranın sədri T.S.Xaçaturovun müzakirələrin sonundakı çıxışına diqqəti yönəltmək istəyirik. O, demişdir: "Həmkarlarımla Dağlıq Qarabağın məhsuldar qüvvələrinin daha da inkişafına dair məslələr üzrə fikir mübadiləsi etmək mənim üçün çox xoş oldu. Etiraf edim ki, mən bu məsələ üzrə kifayət qədər tam informasiyaya malik deyildim və bizim söhbətimiz bu boşluğu müəyyən qədər doldurmağa imkan verdi (kursiv bizimdir – Y.M., K.Ş.). Göründüyü kimi, akademik T.S.Xaçaturov belə mühüm məsələdə kifayət qədər informasiyası olmadığını etiraf edir. Belə olduğu halda, digərlərindən bəhs etməyə dəyərmi?! Əslində isə Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda mübarizədə erməniləri kifayət qədər informasiya deyil, informasiyasızlıq təmin edirdi.

### *49. Ermənilər Sovet dövründə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün hansı addımları atmışlar?*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQ-yə muxtariyyət verildikdən sonra da istər DQ, istər Ermənistan, istərsə də bu hüdudlardan kənarda ermənilər separatçılıq fəaliyyətini dayandırmadılar. Erməni siyasətçilərin sükut etdiyi dövrdə yazıçılar, şairlər və başqa zümrədən olanlar strateji məqsədin daşıyıcısına çevrildi.

Tanınmış erməni yazıçısı M. Şaqinyan (1888-1982) DQ-nin muxtariyyətləşdirilməsindən az sonra Dağlıq Qarabağ adlı kitabça (1927) çap etdirir. Bu kitabçada tarixi həqiqət açıq-aşkar təhrif edilir. Ümumittifaq oxucusuna tendensiyalı məlumat verir. "Нагорный Карабах страна армянская." (с.3); "Нагорный Карабах - феодальная область, дворянский кусочек (?) Армении" (с.5) və i.a.).

1920-30-cu illərdə istədiklərinə nail ola bilməyən ermənilər 1941-1945-ci illər müharibəsindən sonra yenidən fəallaşdılar. 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK katibi Qr. Arutyunov İ. Stalinə müraciət edərək, Azərbaycan SSR-nin DQMV-nin Qarabağ vilayəti kimi Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı. Həmin müraciətin mətni ÜİK (b) P MK-nin katibi G.M. Malenkov tərəfindən 1945-ci il 28 noyabrda Azərbaycan K(b) PMK-nin birinci katibi M. Baığrova göndəirlir. Malenkov Ermənistan K(b)P MK-nin fikri ilə əlaqədar onun rəyini bildirməsini təklif edir. Bağırov bununla əlaqədar 1945-ci il dekabrın 10-da cavabını Moskvaya bildirir. Bağırov cavabında yazırdı:

"Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutyunov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:

Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.

1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.

1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil edilmişdir.

Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğının nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi, Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.

1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-yə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi

İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-yə bitişik olmamışdır və hazırda da bitişik deyildir.

Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri - DQMV-nin hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhəhərindən birinə çevrilməsidir.

Azərbaycan SSR-nin bütün all təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.

Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri - Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.

Bununla belə biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-yə verilməsinə razı deyilik.

Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.

Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan,Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.

Eyni zamanda, ÜİK(b)P MK-nin nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-nin Azərbaycan respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcədə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı.

ÜİK(b)P MK-dən yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:

Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar.

Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda, cəmi 9.000 gürcü-ingiloyun yaşamasına baxmayaraq, biz bu məsələyə baxılmasına etiraz

etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-nin, demək olar, yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-yə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Və nəhayət biz, Dağıstan SSR-nin keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyasının tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-yə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-nin tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin doqquz ayını Azərbaycan ərazisində keçirir.

Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.

Bu cavab bir sıra tədqiqatçıların diqqətini cəlb etmiş və onun barəsində müəyyən mülahizələr söylənmişdir. Lakin buna yenidən qayıtmağa və bəzi yeni fikirlər üzərində dayanmağa ehtiyac vardır:

1) O zamankı partiya bürokratiyası şəraitində Malenkovun təklifi kimi mürəkkəb məsələyə qısa müddətə cavab verilməsi diqqəti cəlb edir. Bu göstərir ki, belə bir təklif Azərbaycan K(b)P MK üçün gözlənilməz olmamışdır.

2) Mətnin siyasi, elmi-tarixi və tekstoloji təhlili də zəruridir. Bunların üzərində ləngimədən bir vacib süjetin üzərində dayanaq. Buradan aydın olur ki, bəzən iddia olunduğu kimi, Azərbaycan rəhbərliyi belə bir problemdən heç zaman qaçmamış, əksinə, ən yüksək səviyyədə onun müzakirəsinə və konkret təkliflərlə çıxış etməyə hazır olmuşdur və s. Məhz belə bir əsaslandırılmış mövqe Moskvanı Azərbaycana təzyiqdən çəkindirmişdi. Lakin Ermənistan SSR bununla kifayətlənməmiş, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən deportasiyasına nail ola bilmişdi.

Lakin ermənilər bununla da separatçılıq fəaliyyətindən əl çəkmək istəmirdilər. 1960-cı illərdə anti Türkiyə kampaniyasının gücləndiyi şəraitdə yenidən bu problem ortaya atılmışdı. 1965-ci ildə DQ-nin Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin imzaladığı petisiya Moskvaya təqdim edilmiş, bunun əsasında Sov. İKP MK katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı. Ermənilər belə hesab edir ki, buna M.Suslov mane olmuşdu. SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışmışdılar. Lakin H.Əliyevin dövründə (1969-1982) bu problemin kritik həddə çatmasına yol verilməmişdi.

1984-cü ildə İrəvanda Z.Balayanın "Oçaq" kitabının çap edilməsi, Qarabağın tarixinə və bu gününə dair təhriflər ehtirasları yenidən qızışdırdı. Bu əhval-ruhiyyə M.S.Qorbaçov tərəfindən elan edilən aşkarlıq və yenidənqurma xətti ilə meydana gəlmiş şəraitdə sovet dövləti rəhbərliyində böyük dəstək qazanaraq yeni mərhələyə qədəm qoydu.

***50. DQMV və Qarabağın aran hissəsinin inkişaf səviyyəsi necə olmuşdur?***

Əvvəlki tarixi dövrdə Qarabağ vahid təbii - coğrafi region kimi iqtisadi və siyasi inkişafına görə oxşar olub bir-birini tamamlayırdı. Lakin DQ-nin muxtariyyətləşdirilməsi ilə vəziyyətdə dəyişiklik əmələ gəldi.

DQMV onun üçün yaradılmış müstəsna şəraitdə inkişaf etmiş aqrar-sənaye bölgəsi oldu. Qarabağın aran rayonları və digər rayonlar DQMV-nin xammal bazasına çevrilməyə başladı. DQMV ətrafındakı rayonlar, əsasən, pambıq istehsalı ilə məşğul olmağa istiqamətləndi, emaledici sənaye sahələrinin inkişaf səviyyəsi də geri qalmaqda idi. Bütün bunlar DQMV-də həyat səviyyəsinin Qarabağın digər rayonlarına nisbətən yüksək olmasına səbəb oldu. Kurort - istirahət mərkəzlərinin də DQMV-də yerləşməsi aran rayonları əhalisinin yay dövründə ora yönəlməsini şərtləndirirdi. Bu da külli miqdarda vəsaitin DQMV büdcəsinə daxil olmasına səbəb olurdu. Regionda yeganə ali məktəb-Pedoqoji institut da DQMV-nin mərkəzi Stepanakertdə idi.

DQMV-nin tarixi Qarabağın ərazisində əldə etdiyi iqtisadi üstünlük muxtar vilayət statusunun siyasi üstünlüyü ilə müşaiyət olunurdu. Aran rayonları DQMV-yə nisbətən sovet idarə sisteminin təzyiqlərinə daha çox məruz qalırdı.

Bütün bunlar Dağlıq Qarabağ ermənilərinin etnik eqoizmini artırır, azərbaycanlılara qarşı həqarətə çevrilirdi. Beləliklə, 1905-1906 və 1918-1920-ci illərdə olduğu kimi, ermənilər daha yaxşı təşkil olunurdu. Bu amillər başqa şərtlərlə birgə, sonralar DQMV ətrafındakı digər rayonların ermənilər tərəfindən işğalında həlledici faktorlardan oldu.

***51. Ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün yeni cəhdləri nə vaxt yarandı? Bu proses necə həyata keçirildi?***

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qarşı iddiaları böyük strateji planın tərkib hissəsi idi. Ona görə də əlverişli şərait yaranan kimi onun reallaşdırılması uğrunda mübarizə başlayırdı. SSRİ-də 1985-ci ildə M.S.Qorbaçovun hakimiyyətə gəlməsilə dövlət siyasətində həyata keçirilmiş dəyişikliklər və s. erməni separatçılarının fəallaşmasına səbəb oldu. Tezliklə, sovet dövlət rəhbərliyinin bu işlərdə onları müdafiə etdiyi aydın oldu. 1987-ci ilin noyabrında Qorbaçovun komandasına daxil olan iqtisadçı-akademik A.Aqanbekyan Parisdə Qarabağ haqqında bəhs edərək bu barədə təklif verdiyini, yenidənqurma və demokratiya şəraitində bu problemin həllini tapacağına ümüd etdiyini bildirdi. Əvvəllər gizli fəaliyyət göstərən erməni "Qarabağ Komitəsi", onun DQMV-dəki təşkilatı "Krunk" (Duma) açıq işə keçdi, "Miatsum" (Birləşmə) hərəkatı formalaşdırıldı. Bu hərəkat geniş miqyasa malik olub, Ermənistan, DQMV, Moskva hakimiyyəti, SSRİ və dünya ermənilərinin potensialını əhatə edirdi. Hadisələr 1988-ci ilin fevralından daha təcavüzkar məcraya yönəldi. Fevral

günlərində İrəvanda və Stepanakertdə mitinqlər dalğası başladı. Fevralın 20-də DQMV Sovetinin sessiyası vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət etdi. Bu fakt ermənilərin 1945-ci ilin noyabrı ilə müqayisədə taktikanı dəyişdirməsini göstərirdi. Onlar II Dünya müharibəsindən ötən dövr ərzində siyasi-təbliğat işi ilə dünya ictimaiyyətinin düşüncəsinə də təsir edə bilmişdilər. Ona görə bu dəfə iddialarını bağlı qapılar arxasından meydanlara çıxarmaq yolunu tutdular. Təəssüf ki, bütün əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın siyasi rəhbərliyi və geniş ictimaiyyət ermənilərin taktikası qarşısında yenə də hazırlıqsız oldu. Fevralın 24-də Əsgəran rayonunda ermənilər tərəfindən iki azərbaycanlı gəncin öldürülməsi, 19 nəfərin yaralanması da ermənilərin planlarına qarşı düşünülmüş siyasi xətt hazırlanmasına səbəb olmadı. Fevralın sonlarında artıq Azərbaycanın böyük sənaye şəhəri olan Sumqayıtda ermənilərin yuxarı təbəqəsi və SSRİ Dövlət Təhlükəsizlik orqanlarının iştirakı ilə qəsdlər törədildi. Sumqayıt hadisələrinin mahiyyətinin aşkarlanması özünü çox gözlətmədi. Tezliklə, bu hadisədən Ermənistan azərbaycanlılarına və DQMV-nin Azərbaycan SSR tərkibində qalmasına qarşı istifadə edilməsinə başlandı. "Azərbaycan respublikası. 1991-2001" kitabında göstərildiyi kimi "Martın 10-dan İrəvandan cənubda Mehmandar azərbaycanlı kəndinin 4 sakini qətlə yetirildi. Martin 25-də Ararat rayonunun azərbaycanlı kəndlərində 100-dən çox ev talan edilib yandırıldı, əhalisi qovuldu. Mayın ortalarında İrəvan yaxınlığındakı Azərbaycan kəndlərinə yenidən basqın edildi...".

### *52. Sovet dövlət rəhbərliyi Ermənistanı necə dəstəklədi? Erməniləri şirnikləndirmə siyasəti hansı nəticələr verdi?*

Erməni separatizminin genişləndiyi şəraitdə Sov. İKP MK və Sovet hökumətinin vəziyyətin real qiymətləndirilməsində maraqlı olmaması da aydın şəkildə üzə çıxdı. "1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında” 1988-ci il 24 mart tarixli qərar bilərəkdən məsələnin separatçılıq aktını pərdələməyə yönəlmişdi. Belə bir dəstək ermənilərin təcavüzkarlığını daha da artırırdı. Nəhayət, Moskva DQMV-ni Azərbaycan SSR-in tərkibindən çıxartmaq istiqamətində yeni addım atdı. SSRİ Ali Soveti Rəyasət Heyyəti 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-nin DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında” qərar qəbul etdi. Lakin Xüsusi İdarə Komitəsinin fəaliyyətinə qarşı xalqın demokratik mübarizəsi noyabrın 28-də onun ləğvi ilə başa çatdı. Bunun əvəzində Təşkilat Komitəsi yaradıldı. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək dekabrın 1-də Dağlıq Qarabağın birləşdirilməsi haqqında antikonstitusion qərar qəbul etdi. Bununla vəziyyət daha da kəskinləşdirildi. Belə şəraitdə əvvəllər olduğu kimi Azərbaycana qarşı sui-qəsd hazırlandı. Bu dəfə əsas hədəf kimi Bakı seçilmişdi. Sovet dövləti Bakıda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə qanlı qırğın törətdi. Bu qırğın nəticəsində Bakı və digər rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs

olundu, itkin düşənlər oldu. 20 yanvar qırğını Azərbaycan xalqının iradəsini qıra bilmədi, əksinə, respublikanın istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizəni gücləndirdi. 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Ali Sovet bəyanat qəbul etdi, oktyabrın 18-də isə dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olundu. Ermənilər də yaranmış vəziyyətdən istifadə edərək siyasi təşkilatlanmanı davam etdirirdilər. 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ Respublikası" elan edilmişdi. Azərbaycan Respublikası həmin qurumu tanımaqdan imtina etmiş, noyabr ayının 26-da isə DQMV-nin statusu ləğv olunmuşdu. 1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə post sovet məkanında yeni geopolitik şərait əmələ gəldi. Ermənistan faktiki olaraq Azərbaycana qarşı müharibəyə başladı.

### *53. Ermənistan Dağlıq Qarabağda işğalçı planını necə həyata keçirməyə başladı?*

1988-ci il fevral hadisələrindən sonra DQMV və Ermənistan erməniləri Dağlıq Qarabağın ələ keçirilməsi uğrunda silahlı mübarizəyə başlamışdılar. "Azərbaycan Respublikası. 1991-2001" kitabında qeyd edildiyi kimi "Saqqallılar" adlandırılan bu başı-pozuq qüvvələr nəinki Daqlıq Qarabağ, hətta onun ətrafındakı rayonlarda olan azərbaycanlı yaşayış məskənlərinin əhalisi içərisində qorxu və vahimə yaradır, onları bu yerləri tərk etməyə məcbur edirdi. Bu işdə SSRİ Silahlı Qüvvələrinin Ermənistan və DQMV-də yerləşən hissələri onlarla əlbir hərəkət edirdi. SSRİ-nin dağılmasından sonra, 1917-ci ilin fevralında çar hökumətinin yıxılması ilə meydana gələn şəraitə bənzər vəziyyət əmələ gəldi. Sovet ordusu sıralarında qulluğ edən erməni zabitləri və keçmiş sovet hərbi hissələri azərbaycanlılara qarşı birləşdilər. Əvvəlcə Dağlıq Qarabağın azərbaycanlı yaşayış məskənlərinin işğalı başlandı. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri tutuldu, Xocalı və Şuşanın mühasirəsi sıxıldı. Azərbaycan ordusunun Daşaltı əməliyyatı uğursuz oldu. Ermənilər fevralın ortaları əməliyyatı uğursuz oldu. Ermənilər fevralın ortalarında Qaradağlı kəndini ələ keçirdilər. Beləliklə dağlıq Qarabağın kənd və qəsəbələri işğal edildi.

### *54. Ermənistanın Xocalıda törətdiyi hadisələr nə üçün soyqırım adlanır, onun itkiləri və dünya soyqırımları tarixində yeri necədir?*

Müasir hüquqi-siyasi anlamda soyqırım (genosid) dedikdə, irqi, milli, etnik və ya dini mənsubiyyətə görə əhalinin bütöv bir qrupunun fiziki cəhətdən məhv edilməsi başa düşülür. Eməni silahlı qüvvələrinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törətdikləri vəhşiliklər bu kriteriyalara uyğundur. Xocalı DQMV-nin mərkəzi Stepanakentdən (Xankəndindən) 14 km. şimal-şərqdə yerləşirdi. Azərbaycanın qədim tarixə malik olan yaşayış məskənlərindəndir. Xocalı-Gədəbəy mədəniyyətinin (tunc dövrü) mərkəzlərindəndir. 1988-ci ildə erməni separatizmi yeni mərhələyə qədəm qoyduqda, Xocalı rayon mərkəzinə

çevrilmiş, ermənilərin işğalçı fəaliyyətləri qarşısında qalaya çevrilmişdi. Ona görə də erməni silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı polku ilə birləşərək, müasir tarixin ən faciəli hadisəsini - Xocalı genosidini törətdilər. Genosid prosesində 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 6 ailə isə bütünlüklə məhv edildi. Ermənistanın azərbaycanlılara qarşı Xocalı soyqırımı məqsədi, həyata keçirilməsi vasitələri və miqyasına görə nasistlərin İkinci dünya müharibəsi illərində törətdikləri soyqırımlar ilə bir sırada yer alır. Lakin onun 1992-ci ildə törədilməsi xüsusi diqqəti cəlb edir. Dünya sivilizasiyasına ermənilərin vurduğu sağalmaz yara kimi xarakterizə olunur.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, genosidin beynəlxalq cinayət olmasına baxmayaraq, indiyədək Xocalı soyqırımını törədənlər layiqli cəzalarını almamışlar. Bu, olduqca təhlükəli və yolverilməz bir haldır. Bu cəzasızlıq yeni-yeni faciələrə yol aça bilər.

### *55. Ermənistanın işğalı davam etdirməsi və onun Azərbaycan üçün ağır nəticələri nədən ibarət oldu?*

Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və onun xalqına qarşı çevrilmiş müharibəsi, Azərbaycan hökumətinin qəti hərəkət etməməsi onun nüfuzdan düşməsini sürətləndirdi. 1992-ci ilin martında respublikanın rəhbəri A.Mütəllibov istefa verdi. Yaranmış hakimiyyət boşluğu Azərbaycan Respublikasının müdafiə qabiliyyətini daha da zəiflətdi. Bunun nəticəsində 1992-ci ilin mayında Şuşa düşmənlər tərəfindən işğal edildi. Bununla da faktiki olaraq ermənilər Dağlıq Qarabağın ərazisini ələ keçirə bildilər. Növbəti addım Dağlıq Qarabağı Ermənistanla birləşdirən Laçın rayonunun işğalı oldu. Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin (1992, may-1993, iyun) 1992-ci ilin iyununda keçirdiyi hərbi əməliyyatlar bəzi uğurlarla nəticələnsə də az sonra vəziyyət yenə kəskinləşdi. 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. İyun ayında Azərbaycanda siyasi böhran baş verdi. H.Əliyev hakimiyyət başına gəldi. Ermənistan Azərbaycana qarşı müharibəni davam etdirərək, 1993-cü ilin iyul-oktyabr ayları arasında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdi (Cədvəl 56) "Azərbaycan Respublikası. 1991-2001" kitabında göstərildiyi kimi “Ermənilər torpağı viran qoymaq” taktikasına əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər şikəst olmuşdu. Qaçqın və məcburi köçkünlərin sayı milyonu keçmişdir. Rəsmi məlumata görə, erməni işğalçıları tərəfindən 4.861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani, amansız rəftar edir, qui kimi işlədir, təhqir edir, alçaldırdılar".

## *56. Ermənistan Azərbaycanın hansı torpaqlarını işğal edib?*

Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsinin gedişində işğal olunmuş torpaqlara dair məlumatlar Cədvəl 56/1-də ümumiləşdirilmişdir. Bu cədvəlin təhlili Ermənistanın işğalçı döv-lət kimi antibəşəri mövqeyini sübut edir, dünya birliyində belə bir dövlətə yer olmadığını göstərir. O da aydın olur ki, hərbi-strateji baxımdan işğalçı Ermənistanın mövqeyi möhkəm deyil və Azərbaycan hərbi yol ilə torpaqlarını azad etməyə qadirdir.

***Cədvəl 56***

***Ermənistanın təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan torpaqları, onun Azərbaycan və Ermənistan ərazisinə nisbəti.***

| ***İşğal olunan ərazi*** | ***İşğal tarixi*** | ***İşğal olunan ərazilərin sahəsi*** | | |
|---|---|---|---|---|
| | | ***Mütləq kv.km.*** | ***Azərbaycana nisbətən, %-lə*** | ***Ermənistana nisbətən, %-lə*** |
| Qağlıq Qarabağ, o cümlədən Şuşa | 1988-1992<br>1992, 8 may | 4,400<br>289 | 5,08<br>0,33 | 14,77<br>0,97 |
| Dağlıq Qarabağ ətrafındakı rayonlar, o cümlədən | 1992-1993 | 8.810 | 10,2 | 29,5 |
| Laçın | 1992, 18 may | 1835 | 2,12 | 6,16 |
| Kəlbəcər | 1993, 2 aprel | 1936 | 2,24 | 6,50 |
| Ağdam | 1993, 23 iyul | 1094 | 1,26 | 3,67 |
| Cəbrayıl | 1993, 23 avqust | 1050 | 1,21 | 3,5?. |
| Füzuli | 1993, 23 avqust | 1386 | 1,60 | 4,65 |
| Qubadlı | 1993, 31 avqust | 802 | 0,93 | 2,69 |
| Zəngilan | 1993, 29 oktyabr | 707 | 0,81 | 2,37 |
| ***Cəmi*** | | ***13.210*** | ***15,25*** | ***44,33*** |

Cədvəldən göründüyü kimi, Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan toфaqlarının 20 faizi - Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, Dağlıq Qarabağdan 60 min nəfər, digər ətraf rayonlardan isə 600 min nəfərdən çox soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburən köçkün düşmüşdür.

Bundan başqa respublikamızın Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağcabədi, Ağdam, Ağstafa, Füzuli, Tərtər, Goranboy, Gədəbəy, Qazax və Tovuz rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərədək soydaşımız Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində öz daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalmışdır.

Beləliklə, hazırda Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkün vardır.

Hərbi təcavüz respublikamızın 900 yaşayış məntəqəsinin, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km. avtomobil yollarının, 160 körpünün, 23 min km. su və 15 min km. elektrik xətlərinin dağıdılmasına səbəb olmuşdur. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektlərini xüsusi qəddarlıqla məhv etmişlər. Ələ keçirdikləri ərazilərdə onlar 22 muzeyi və 4 rəsm qalereyasını, tarix əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmışlar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuş, 44 məbəd və məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4.6 milyon kitab və misilsiz əlyazma məhv edilmişdir.

***57. BMT Dağlıq Qarabağ üzrə hansı qətnamələri qəbul edib?***

BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ üzrə 4 qətnamə - 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsinin tələb edilməsinə baxmayaraq, bu tələblər yerinə yetirilməmişdir. (bax: III, sual 7; IV, sual 8)

***58. Azərbaycan hökuməti Emənistanın işğalçı siyasətinə qarşı hansı tədbirlər gördü?***

Ermənistanın işğalçı müharibəsinə qarşı mübarizədə Azərbaycanın hərbi iqtisadi və insan qüvvələrinin səfərbər edilməsinə böyük ehtiyac var idi. Bu məqsədlə H.Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət etdi, ciddi hərbi-təşkilati tədbirlər həyata keçirildi. Bunun nəticəsində cəbhədə dəyişikliklər etmək mümkün oldu. Noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırıldı. "Azərbaycan ordusu müvəffəqiyyətli əməliyyatlar nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi düşməndən təmizlədi. Hücumu genişləndirib, Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Gəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzlıq, Qasımbinəsi, Yanşaqbinə,Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələrini azad etdi. Çiçəkli dağı və b. strateji yüksəklikləri ələ keçirdi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsini nəzarət altına aldı. Döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycanın müharibədə dönüş yaratmaq, işğal olunmuş vətən torpaqlarını azad etmək sahəsində əldə etdiyi uğurlar, nəinki Ermənistanı, həmçinin ona dəstək verən anti Azərbaycan qüvvələri ciddi təşvişə saldı. Ermənistanın hərbi cəhətdən möhkəmləndirilməsi, silahlandırılması, bölgədə irticaçı qüvvəyə çevrilməsi xətti davam etdirildi. Azərbaycan Respublikası belə bir şəraitdə 1994-cü il mayın 8-də Bişkek protokolunu imzaladı, mayın 12-də isə cəbhədə atəşkəsə nail olundu.

***59. Ermənistanın Dağlıq Qarabağda işğalçı rejim qurduğu hansı faktlarla təsdiq olunur?***

Ermənilərin Qarabağ uğrunda işğalçı mübarizəsi DQMV-də siyasi hakimiyyətin zəbt edilməsi ilə başlanmışdı. Qanuni hakimiyyət orqanlarının səlahiyyətlərini mənimsəmək üçün tədbirlər görüldü. Onlar öz fəaliyyətlərinə üzdəniraq hüquqi don geyindirməyə çalışırdılar. Bu məqsədlə DQMV əhalisi nümayəndələrinin qurultayı adlandırılan toplantı keçirilir. Onun qeyri-qanuni, hətta qeyri-obyektiv olması azərbaycanlıların orada iştirak etməməsilə təsdiq edilir. 1989-cu il avqustun 16- da Milli şura yaradılır. Bu şura DQMV-nin Azərbaycandan qoparılması işinə rəhbərlik edir, Təşkilat Komitəsinin qanuni fəaliyyətinə maneçilik törədir. 1991-ci ilin sentyabrında isə artıq oyuncaq "Dağlıq Qarabağ Respublikası" yaradılması elan edilir. Azərbaycanın DQMV-nin statusunu ləğv edərək burada ümumrespublika idarə üsuluna keçməsi həmin qurumun qeyri-qanuniliyini bir daha sübut edir.

Ermənistanın mövqeyindəki hiyləgərlik də ortaya çıxır. O, bir tərəfdən DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edir, digər tərəfdən isə "DQR"-in tanınmasına çalışır. "DQR"-də hakimiyyət orqanlarına legitim xarakter vermək üçün seçkilər keçirilir və s.

"DQR" mahiyyət etibarı ilə işğalçı rejim kimi çıxış edir. O bu cür rejimlərdə olduğu kimi, Ermənistan və Rusiyanın köməyi ilə yaradılan və silahlandırılan hərbi qüvvələrə arxalanır. Bu rejim özünü "DQR" adlandırdığı halda faktiki olaraq, tarixi Qarabağın böyük bir hissəsini işğal altında birləşdirmişdir. Təkcə bu fakt DQMV-nin ərazisindən kənarda olan torpaqların hazırki vəziyyətini kifayət qədər aydın şəkildə ifadə edir.

"DQR" Azərbaycan torpaqlarını işğal prosesində azərbaycanlılara qanlı divan tutmuş, əhalinin qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olmuş, beləliklə, bu torpaqlarda etnik təmizləmə aparılmışdı. Bunun nəticəsində Azərbaycanın işğal olunmuş torpaqlarında ermənilərin monoetnik hakimiyyəti bərqərar edilmişdi.

Diyarın iqtisadi vəziyyəti də işğal şəraitini əks etdirir. Dağlıq Qarabağın iqtisadi potensialına zərbə vurulmuş, hələ sovet hakimiyyəti dövründə meydana gəlmiş mafioz qüvvələr arasında bölüşdürülmüş, Ermənistanın xammal bazasına çevrilmişdir. Keçmiş DQMV-nin sərhədlərindən kənarda işğal olunmuş rayonların iqtisadiyyatı daha ağır vəziyyətə düçar olmuşdur. Mövcud iqtisadi potensial qarət edilmiş və tamamilə sarsıdılmışdır. Kənd təsərrüfatına yararlı torpaqların becərilməməsi öz təsirini göstərmişdir. "Əkilib-becərilməyən torpaqlarda yabanı bitkilər zəngin olduğundan vəhşi heyvanlar, ziyanverici həşəratlar həddən artıq çoxalır. Onlar ətraf ərazilərə, o cümlədən qonşu rayonlara yayılaraq təsərrüfatlara böyük ziyan vururlar". İşğal altındakı torpaqlarda olan azərbaycanlılara məxsus tarixi abidələr vəhşicəsinə talan edilmiş və dağıdılmışdır.

Bir tərəfdən Qarabağda aparılan hərbi əməliyyatlar, digər tərəfdən mövcud işğal rejimi ekologiyaya da ağır zərbə vurmuşdur. "Ermənilər hazırda Şuşa mağarası, Şuşanın qala divarları, Şuşada görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Füzulidə Şah Abbas karvansarayı, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və s. yaşayış məskənlərində olan mədəni-tarixi abidələrimizi tamamilə dağıtmış, Qarabağ ərazisindəki qədim Alban kilsələrini silah anbarlarına çevirərək yararsız hala salmışlar. İşğal olunmuş ərazilərdə 43-ə qədər hidrometeoroloji müşahidə məntəqələri məhv edilmişdir ki, bütün bunlar YUNESKO və ümumdünya Meteoroloji təşkilatının prinsiplərinə ziddir".

"DQR"-nın işğal olunmuş ərazilərdən narkotiklərin becərilməsi, istehsalı və tranziti kimi istifadə etməsi haqqında Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin məruzəsində ətraflı məlumat verilmişdir. Bu ərazilərdə beynəlxalq və erməni terror təşkilatlarının bazaları olması haqqında da faktlar mövcuddur.

Qarabağın işğalından sonra bütün şirnikləndirici siyasətə baxmayaraq, həmin torpaqları ermənilərlə məskunlaşdırmaq səyləri süquta uğradıqda, üzdəniraq "DQR" daha hiyləgər yollara əl atmağa başladı. PKK ilə aparılan danışıqlar nəticəsində İraq kürdlərinin işğal olunmuş ərazilərə köçürülməsi tədbirləri görülməyə başladı. 2003-ci ilin aprelində ABŞ və müttəfiq qüvvələrin İraqa qarşı müharibəsi ərəfəsi və dövründə orada yaşayan ermənilərin Qarabağda yerləşdirilməsi ideyası ortaya çıxdı. ABŞ Dövlət Departamenti buna ciddi etirazını bildirdi. Kürdlərin İraqdakı mövqeyindəki dəyişikliklər də kürdlərin Qarabağa köçürülməsi üzrə erməni - PKK iş birliyini pozdu. Bu, həmin torpaqların sahibi olan azərbaycanlıların tarixi hüquqlarının bir daha təsdiqi idi.

Qarabağda erməni işğal recimi getdikçə bütün dünyada da etiraz doğurmaqdadır. Təsadüfi deyil ki, beynəlxalq aləmdə böyük qüvvə və təsir dairəsi ilə fərqlənən ermənilər bütün cəhdlərə baxmayaraq, bu oyuncaq qurumun tanınması sahəsində heç bir irəliləyişə nail ola bilməmişlər. Əksinə, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar öz sənədlərində Azərbaycan ərazisinin işğalı faktını təsbit etmişdir.

### *60. Dağlıq Qarabağ probleminin həlli sahəsində Azərbaycan hökuməti hansı tədbirlər görmüşdür?*

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və onun ətrafında cərayan edən hadisələr dərin tarixi köklərə malik olmasına baxmayaraq, AXC və Sovet dövründə bütün kəskinliyi ilə ortaya çıxmışdı. Sovet dövrünün (1920-1991 -ci iiiər) son mərhələsində (1988-1991-ci illər) bu iddialar hərbi-siyasi və təcavüzkar xarakter almışdı. Lakin Sovet dövləti Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və DQMV ermənilərinin separatçılıq fəaliyyətinə bir mənalı qiymət verib, onları qətiyyətlə aradan qaldırmaq yolu tutmadı. Əksinə, bu məsələ üzrə ikili standarta əsaslanan, problemin mahiyyətinə zidd olan və onu həll etmək

qabiliyyətinə malik olmayan qərarlar qəbul edildi. Sov. İKP və SSRİ Nazirlər Sovetinin 1988-ci il 24 mart, SSRİ Ali Soveti Rəyasət heyətinin 20 iyul tarixli və b. qərarları bu qəbildən idi. Məhz bunun nəticəsində problem SSRİ daxilində həll edilə bilmədi, Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən hadisələr isə SSRİ-nin dağılması faktorlarından birinə çevrildi. Beləliklə, həmin problemin həlli Sovet dövlətinin yaratmış olduğu ağır bir irs kimi müstəqil Azərbaycan dövlətinə keçdi. Lakin bu dövrdə SSRİ-nin dağılması ilə dünya siyasətində yeni geopolitik durum meydana gəlmişdi. Azərbaycan və Ermənistanın nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edilməsi başlanmışdı. Hər iki respublika 1992-ci il yanvarın 30-31-də ATƏM-ə (1995-ci ilin yanvarından ATƏT), martın 2-də isə BMT-yə qəbul olunmuşdu. Belə bir şəraitdə vaxtilə sovet dövlətinin inhisarında olan Dağlıq Qarabağ probleminin həlli beynəlmiləl xarakter kəsb etməyə başlamışdı. 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurasının fövqəladə iclasında (Helsinki ş.) münaqişənin tənzimlənməsi üçün Minsk qrupu yaradıldı.

1992-ci ilin martından ATƏM və BMT problemin həllində birlikdə fəaliyyət göstərirdi. Ermənistan silahlı qüvvələrinin 1992-ci ilin mayında Şuşa və Laçını işğalı ilə Minsk qrupunun fəaliyyəti mürəkkəbləşirdi, 1993-ci ilin aprelində Kəlbəcərin işğalı ilə də eyni vəziyyət yarandı. Belə bir şəraitdə BMT-nin 822 saylı (1993-cü il 30 aprel) qətnaməsi qəbul edildi. Minsk qrupu həmin qətnamənin həyata keçirilməsi üçün müəyyən tədbirlər gördü, lakin 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyət dəyişikliyi və Ağdamın işğalı vəziyyəti dəyişdi. ATƏM-in rolu azaldı, əksinə BMT bir-birinin ardınca daha üç qətnamə (853, 874, 884) qəbul etdi. ATƏM-in bu vəziyyəti Budapest sammitinə qədər (1994-cü ilin sonları) davam etdi.

Qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlar beynəlxalq praktikaya uyğun olaraq qapalı şəkildə aparılmış, mətbuat qısa informasiyalarla kifayətlənmişdir. Yalnız Azərbaycan Respublikası Milli Məclisinin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin müzakirəsinə həsr edilmiş 2001-ci il 23 fevral tarixli iclasında bəzi ciddi açıqlamalar müyyən aydınlıq yaratmışdır.

H.Əliyev həmin iclasda çıxışında demişdir: "1992-ci ildə ATƏT-in Minsk qrupu yaranıbdır və Birləşmiş Millətlər təşkilatı bu məsələni ATƏT-in himayəsinə veribdir. ATƏT də Minsk qrupu və Minsk konfransı yaradıbdır. Minsk qrupuna 12 dövlət daxildir. Nəhayət, 1994-cü ildə ATƏT-in Budapeşt sammitində biz vəziyyəti dəyişdirdik. Yəni bir az qanuna saldıq 1994-cü ilin dekabrında Budapeştdə biz, birincisi, Minsk qrupunun sədrlik məsafəsini müəyyənləşdirdik, ikincisi də, orada ilk dəfə qərar qəbul olundu ki,ATƏT-in sülhməramlı qüvvələri yaransın və saziş əldə olunarsa, buraya, bizim bölgəyə hansısa bir ölkənin yox, ATƏT-in sülhməramlı qüvvələri daxil olsun. Biz nəzərdə tuturduq ki, sülhməramlı

qüvvələr bu bölgədə marağı olmayan ayrı-ayrı ölkələrin nümayəndələrindən ibarət olacaqdır. Bu da çox əhəmiyyətli bir qərar idi. Biz buna nail ola bildik.

1996-ci ilin dekabrında keçirilən Lissabon sammitində də müəyyən irəliləyişlər əldə olundu. Milli Məclisinin 2001-ci il fevral iclasında qeyd edilmişdir ki, Lissabon zirvə görüşü zamanı Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən tanınmış və müdafiə olunmuşdur. Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupunun yeni formatda yaradılması müvəqqəti olsa da onun fəaliyyətinə bir canlılıq gətirmişdir.

Bu öz əksini Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təkliflər irəli sürməsində göstərmişdi. ATƏT-in Minsk qrupunun irəli sürdüyü təkliflər, həmin təkliflərə Azərbaycan və Ermənistanın münasibətləri də ətraflı təhlil olunmuşdur. "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli sazif adlanan birinci sənəd 1997-ci il iyun ayının 11-də tərəflərə təqdim olunmuşdur. "Həmin sənəd daha çox paket həlli kimi tanınır və bir paketdə birləşdirilən iki anlaşmadan ibarətdir. Anlaşmalardan birincisi silahlı münaqişənin dayandırılmasına, ikincisi isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə həsr olunmuşdur. Bu sənədə Ermənistan tərəfinin etiraz etdiyindən 1997-ci il sentyabrın 19-da "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında" adlı ikinci bir sənəd təklif olunmuşdu. Bu sənəd münaqişənin mərhələli həllini nəzərdə tuturdu.

"Mərhələli həll planı digər iki təkliflə müqayisədə Azərbaycan tərəfindən daha məqbul hesab olunmuşdu" Erməni tərəfinin etirazını əsas tutan Minsk qrupu həmsədrləri dekabrın 2-də mərhələli həll planında dəyişiklik etmiş, Dağlıq Qarabağı münaqişə tərəfi kimi tanıtmağa cəhd göstərmişdi. "Azərbaycan həmin versiyanı qəbul etmədiyini, yalnız 19 sentyabr tarixli layihə əsasında danışıqlara başlamağın mümkün olduğunu bildirdi."

1998-ci ilin noyabrında münaqişənin həllinə dair üçuncü və sonuncu təklif irəli sürülmüşdü. Bu təklif "ümumi dövlət" adı ilə tanınır. Azərbaycanın mənafeyinə zidd olduğuna görə qəbul edilməmişdir. Bundan sonra ATƏT-in Minsk qrupu həmsədrləri heç bir təkliflə çıxış etməmişdir. Bununla birgə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün 1999 -cu ilin aprelindən hər iki respublika prezidentlərinin birbaşa dialoqları təşkil olunmağa başlamışdır. H.Əliyev Minsk qrupunun təklifləri və birbaşa dialoqlara dair məsələyə yekun vuraraq demişdir: "Aparılan bütün bu danışıqlardan, Minsk qrupunun verdiyi təkliflərdən mənə bir şey aydındır ki, bunlar Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tamam müstəqillik vermək istəyirlər. Minsk qrupunun bütün təkliflərindən bu görünür, başqa bir şey yox. Biz də buna razı olmamışıq və razı ola bilmərik". Azərbaycan Prezidentinin mövqeyinə gəldikdə o aşağıdakı kimi ifadə olunmuşdur: "Azərbaycan Prezidenti indiyə kimi keçirilən bütün danışıqlarda konstruktiv mövqe tutaraq, problemin digər yollarla deyil, ancaq sülh yolu ilə həll olunmasına

tərəfdar çıxmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində qarşılıqlı güzəştlərlə Dağlıq Qarabağ ermənilərinə dünyada mövcud olan və təcrübədən keçmiş ən yüksək status verilməsinə razı olduğunu bildirib".

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkisi zamanı qalib gələrək Azərbaycan Respublikasının yeni dövlət başçısı seçilmiş İlham Əliyev bütün sahələrdə olduğu kimi, Qarabag probleminin həllində Heydər Əliyev siyasətini davam etdirəcəyini bəyan etmişdir. Həmin dövrdən keçən vaxt ərzində bu sahədə müəyyən addımlar atılmışdır. Azərbaycan dünya ictimaiyyətinin diqqətini bir daha bu məsələyə cəlb etmək üçün problemin BMT Baş Assambleyasında müzakirəsinə nail olmuşdur. Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarovun çıxışında Ermənistanın işğal olunmuş ərazilərdəki beynəlxalq hüquqa zidd fəaliyyəti faktlarla göstərilmiş, müvafiq tədbirlər görülməsi əsaslandırılmışdır.

Qeyd etmək lazımdır ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli Azərbaycanın elmi, ictimai-siyasi fikrində də geniş yer tutur. (bax: III, sual 2,3; IV, sual 9,10,11)

## *İstifadə edilmiş ədəbiyyatın siyahısı*

### *Azərbaycan dilində*

Azərbaycan Respublikası. 1991-2001. Bakı 2001
Axundov N. Qarabağ salnamələri. Bakı 1989
Azərbaycan tarixi Yeddi cilddə. I-VII cildlər. Bakı 1998-2003
Bünyadov Z.Azərbaycan V1I-IX əsrlərdə. Bakı 1989
Cəfərov C. Aksaq sözünün etimiologiyası // Qarabağ dünən, bu gün və sabah. Bakı 2002
Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı 2000
Xəlilov X.D. Qarabağın etnik tarixindən / V Azərbaycan SSR EA xəbərləri. Tarix, fəlsəfə, hüquq. 1988, N3, s. 41-44
Köçərli T. Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə), Bakı 2002
Qarabağnamələr. Birinci və ikinci kitablar. Bakı 1989-1991
Qeybullayev Q. Qarabağ (Etnik və siyasi tarixinə dair), Bakı 1990
Seyidov M.Ə. Qarabağ, Aksaq-Aksaq toponiminin etimiologiyası haqqında qeydlər // Azərbaycan filologiyası məsələləri Bakı 1983
Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı 2002
Hüseynov M., Azıx mağarası, nəşr ili və səbifə göstərilməmişdir.

### *Rus dilində*

Авалов Е.А. Архитектура города Щуша. Баку 1977
Алиев И. Нагорный Карабах: История факты, события. Баку 1989

Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 го 1802 гг. В 3-х чч. СПБ 1869
Величко В.Кавказская дело и междуплеменны вопросы. Баку 1990
Глицка С.Н Описание переселения армян азербайджанских в предель Росии. Баку 1990
Гасанов Т. Тяжелые социально-экономические последствия окедации Арменией территорий Азербайджана, Баку, 2004
Грибоедов А.С. Запинка о переселении армян из Персии в наши области Соч,1-II, лч, 1971
Карабах: очерки истории и культуры. Баку 2004
Колониальная политика российского царизма в Азербайджана в 20-60.х годох XIX В 2-х чч. ч. 1-2 М-Л 1937
Мамедова Ф. Политическая история и историческая география.
Кафказской Албании (III.до.н.э-VIII в.н.э) Баку 1986
Новосельцев А.П. Краткий очерк политической истории древного Закавказья // История крестьянство СССР.т-1 М 1987
Описания Карабахской провинции, составленное в 1823г. Тбилис 1866
Эзов Г.А Сношения Петра Великого с армянским народом. Док СПБ, 1898
Еремян С.Т Экономика и социальный строй Албании III –VIII вв очерки истории СССР. М, 1985
К истории образования Нагорно-Карабахский автономной облати Азерб. СССР
Документы и материалы. Баку 1989.

# QARABAĞIN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİ

**QASIM HACIYEV**

**Azərbaycan MEA Tarix İnstitutu Qarabağ Tarixi Şöbəsinin Müdiri**



Qarabağda tağlı körpü

### *1. Qarabağ ərazisində maddi-mədəniyyət izləri haradan və nə vaxtdan başlanır?*

Qarabağ dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx, Tağlar düşərgəsi insanlarının yaşadığı ərazidə mövcud olan, Şelldən əvvəlki mədəniyyətin daşıyıcılarının tarixini davam etdirən tarixi-coğrafi ərazidir. Qarabağ ərazisi poleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının tunc və dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir.

Arxeoloji qazıntılar nəticəsində Qarabağ bölgəsində aşkar edilmiş, daş dövrünün ilk mərhələlərini özündə əks etdirən Azıx və Tağlar abidələrinin tədqiqi burada daş dövrünün bütün mərhələlərindən keçdiyini göstərir. Məlum olur ki, dünyanın ən qədim paleolit düşərgələrindən biri olan Azıx mağarası insanın əmələ gəlməsi, onların həyat tərzi barədə qiymətli məlumatlar əldə edilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Azıx mağarasının ən qədim (V-X) təbəqələrindən aşkar olunmuş materiallar cəmiyyət tarixinin ilkin çağına - Şell (Fransa ərazisində) mədəniyyətindən əvvəlki dövrünə aiddir. Azığın ilk sakinləri əvvəlcə Quruçay dərəsində yaşamış, sonralar mağaraya gələrək özləri ilə daş gətirmiş və onlardan müxtəlif alətlər hazırlamışlar. Azıx düşərgəsindən toplanmış həmin materiallar kompleksi tədqiqatçılar tərəfindən "Quruçay mədəniyyəti" adlandırılmışdır (1,2 milyon il bundan əvvəl-700 il əvvəl). Azıx sakinlərinin hazırladıqları ilk əşyalar çapacaqlar, qazıyıcı və deşici alətlərdən ibarətdir. Azığın ən qədim dövr materialları Olduvey (Şərqi Afrika) mədəniyyəti ilə oxşardır. Əzəmətli Azıx mağarasının divarlarını çoxlu təbii stalaktik formalar bəzəyir ki, bunlardan sonralar orta əsr Azərbaycan memarlığında da geniş istifadə edilmişdir.

Qarabağın daş dövrünə aid olan maddi mədəniyyət nümunələri sadə primitiv olduğu, məhdud bir ərazidə yayıldığı halda ondan sonra gələn, Tunc dövrünə aid Kür-Araz mədəniyyəti nümunələrinin daha geniş ərazidə yayıldığı izlənilir. Kür-Araz mədəniyyəti abidələri ümumi Qafqaz miqyasında daha geniş əraziləri əhatə edir. Kür-Araz mədəniyyətinin izlərinə bütün Cənubi Qafqazda, İranın şimal-şərqində, Şərqi Anadoluda, Dağıstanda, Çeçen-İnquşetiyada və b. yerlərdə təsadüf edilir. Qarabağ ərazisində aşkar edilmiş Kür-Araz mədəniyyətini səciyyələndirən maddi mədəniyyət qalıqları ilə zəngin olan Meynətəpə, Uzuntəpə, Şortəpə, Xaçbulaq, Xankəndi və Qaraköpəktəpə abidəsi bu sıradandır. Həmçinin Günəştəpə, Xantəpə, Şomulutəpə, Üzərliktəpə Qarabağ ərazisinin həmin mədəniyyətin ilk ocaqlarından biri olduğunu göstərir. Bu mədəniyyətə ətrafı qala divarı ilə möhkəmləndirilmiş şəhər tipli yaşayış yerləri və siklop tipli istehkamlar daxildir.

Qarabağın ən qədim dövrə aid abidələrindən biri olan Qaraköpəktəpədə (Füzuli) 3 metr qalınlığında mədəni təbəqədən çay daşlarından inşa edilmiş möhtəşəm müdafiə səddi və digər tikili qalıqları aşkar edilmişdir. Abidədən boz,

qara rəngli basma naxışlı qablar və az da olsa monoxrom boyalı qablar, həmçinin iy başlıqları, muncuqlar, daş alətlər, gildən düzəldilmiş kiçik fiqurlar tapılmışdır.

Qarabağ ərazisinin son tunc və dəmir dövrünə aid Xocalı-Gədəbəy mədəniyyəti arxeoloji abidələri də böyük bir qrup təşkil edir. Qarabağ ərazisinin Qızılburun, Üzərliktəpə və s. kimi abidələrdən aşkar edilmiş maddi-mədəniyyət nümunələri göstərir ki, burada tunc dövrünə aid olan həndəsi motivdə, heyvan və quş rəsmləri ilə naxışlanmış polixrom və monoxrom boyalı qablar istehsal edilmişdir. Gözəl sənət nümunəsi olan Azərbaycan boyalı qablarının əksəriyyəti Yaxın Şərq, xüsusilə Göytəpə (İran), Təpəhisar (Türkiyə) tapılmış boyalı qablar ilə bir səviyyədə durur.

Qarabağ ərazisində mövcud olan bu maddi mədəniyyət abidələri Qarabağın tarixi keçmişini əks etdirməklə bərabər, orada yaşamış, insan qruplarının, tarixi inkişafı prosesini izləməyə imkan verir. Bu inkişaf özünü insan məskənlərinin forma və quruluşca dəyişməsində, habelə insan həyatının təkamülünü əks etdirən digər daha yeni, daha mükəmməl maddi mədəniyyət nümunələrinin meydana çıxmasında göstərir.

### *2. Qarabağ ərazisində maddi mədəniyyət nümunələri dini ideologiyanın yaranmasında hansı rolu oynamışdır?*

Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr - Xocalıdakı dolmenlər, Xankəndindəki kromlexlər, eləcə də Qarabağın müxtəlif yerlərindən aşkar edilmiş antik dövrə aid daş qutu qəbirlər həmin dövrün ideologiyasını-mənəvi düşüncə tərzini əks etdirən maddi mədəniyyət nişanələridir.

Üzərində epiqrafik nişanələr və yazılar olan daş və digər abidələrin Qarabağda geniş yayılması orada insan cəmiyyətinin həyatındakı mədəni prosesi, daxili dinamikanı izləməyə imkan verir.

İlk növbədə Qarabağda aşkar edilmiş sadə tikinti materiallarını yeni formalı və bədii tərtibatlılarının əvəz etdiyinin şahidi oluruq. Belə materiallara Qarabağdan (Bərdə, Ağdam, Füzuli, Xankəndi, Şuşa və s.) aşkar edilmiş künclərində qoç başı təsvir olunmuş kapitel və sütun altlıqları, daş heykəllər, fallos formalı daşlar aiddir. Onların oxşarları Azərbaycanın digər abidələrindən (Şamaxı, Qəbələ, Mingəçevir, Təzəkənd) də aşkar edilmişdir. Həmin mədəniyyətin kimlərə məxsus olduğunu müəyyənləşdirmək istəsək xatırlamalıyıq ki, arxeoloqlar e.ə. VI-III əsrlərə aid Beyləqan, Ağcabədi, Bərdə, Yevlax, Tərtər və Qarabağın dağlıq ərazisində xeyli skif kurqanları aşkar etmişlər ki, bunlar da qədim sak tayfalarına məxsus maddi nişanələrdir.

Qarabağın müxtəlif yerlərində aparılmış qazıntı işləri zamanı xeyli daş alətlər-kirkirə, su dəyirmanı daşları və d. aşkar edilmişdir. İnsanın müqəddəs saydığı çörəyin istehsalında istifadə edilmiş həmin daş alətlər Qarabağ ərazisində çox yayılmışdır. Bu nümunələr həmin dövr üçün səciyyəvi məişət əşyaları olmaqla, tariximiz üçün maddi mədəniyyət nümunələridir. Burada bir məsələni xatırlatmaq

lazımdır ki, dünyada cəmisi iki yerdə mövcud olan çörək muzeyindən biri Qarabağın mərkəzi şəhərlərindən olan Ağdamda yaradılmışdı. Həmin muzeydə çörəyin istehsalı üçün lazım olan hər cür alət və avadanlıqlar toplanmışdı. Bu muzey hər bir tamaşaçıya müqəddəs torpağa, vətənə və çörəyə bağlılığı, mədəniyyətə rəğbəti əxs etdirirdi. Muzeydə uzaq əsrlərdən qalmış, daş yaddaşlara çevrilmiş daş alətlər çoxluq təşkil edirdi. Təəssüf ki, bu muzey Ağdamın işğalı zamanı ermənilər tərəfindən dağıdıldı.

Maraqlıdır ki, Qarabağ ərazisində daşla bağlı xeyli ayin və mərasim qaydaları yaranmışdır. Məsələn, ölünün başının altına daş qoyulması, ölünün daşdan düzəldilmiş tabutlarda dəfni, ölünün gözü qarşısına hər hansı daş alətin və ya sadəcə bir daşın qoyulması müşahidə edilmişdir.

Qarabağda daş hələ də nicat, bərəkət, şəfa və s. rəmzi kimi istifadə olunur. Qarabağda cənazəni götürərkən, yerinə daş qoyurlar ki, həmin ruh daşda qalsın. Bunlar qədim azərbaycanlıların daşa inamları ilə bağlıdır. Yuxarı Qarabağın Vəng kəndində sürüşkən daş deyilən qayanı öpüb, bir neçə dəfə üstündən sürüşürlər ki, sağalsınlar.

### *3. Qarabağda dini-mənəvi amillərin qarışması hansı nəticələrə gətirmişdir?*

Qarabağ ərazisində müxtəlif dövrlərdə müxtəlif dinlər biri digərini əvəz etmişsə də bunlar öz tarixi-etnik torpağına bağlı olan avtoxton bir xalqın tarixi taleyində baş verdiyindən dinin özü və dini inamlar dəyişmiş, xalq isə bir qayda olaraq adət-ənənə özəlliyini, milli xüsusiyyətini saxlamışdır.

Qeyd etmək lazımdır ki, bu, həmişə və hər yerdə eyni olmamışdır. Zaman və dövranın təsirindən asılı olaraq, müxtəlif həyat tərzi, dini ideologiya mövcud olmuş, bununla əlaqədar mədəniyyətin fərqli xüsusiyyətləri meydana çıxmışdır. Azərbaycanın digər ərazilərindən fərqli olaraq, Qarabağda dini ayrılığın davam etməsi bölgədə sonralar böyük dəyişikliklərin yaranmasına gətirib çıxarmışdır. Qarabağın dağlıq ərazisində kompakt yaşayan və xristianlıq dini ideologiyasına sitayiş etməkdə davam edən avtoxton albanların xristian olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülmüşdür. Qarabağda yerləşdikdən sonra ermənilər həmin ərazinin tarixi mədəniyyətinə sahib çıxmağa, onları özününküləşdirməyə başlamışlar. Bu saxtalaşdırmanı gürcü tarixçisi A.Çavçavadze "Ermənilər və Qan Ağlayan Daşlar" kitabında qeyd etmişdir. Onlar yerli xristian albanları qriqoryanlaşdıraraq, assimliyasiya etmiş hayklar (ermənilər) adlandırmış, ərazini isə "hayk ölkəsinin bir hissəsi" hesab etmişlər. Vaxtilə gəlib sığındığı Azərbaycan torpaqlarını "Şərqi Ermənistan" adlandıraraq, həmin əraziləri tarixi vətənləri, doğma mədəniyyət məskənləri kimi tarixi uydurmalarla mənimsəmək fikrinə düşmüşlər.

Bu məsələyə aydınlıq gətirmək üçün bir qədər qədimə müraciət edək. Qarabağ ərazisində xristianlıqdan əvvəlki dinlər xalqın ayrı-ayrı qruplarını əhatə

etmiş, insanlar biri digərindən az ya çox dərəcədə fərqlənən müxtəlif dini ideologiyalara sahib olmuşlar. Xristianlığın qəbul edilməsi və ölkədə (Albaniyada) rəsmi dövlət dininə çevrilməsi bir sıra tarixi proseslərin baş verməsi ilə nəticələnmişdir. Xristianlıq dini özündən əvvəlki dinlərdən bir çox cəhətləri ilə fərqləndiyinə görə yeni proseslərin yaranmasına səbəb olmuşdur. Eranın əvvəlində Yaxın və Orta Şərqdə yayılmağa başlayan xristianlıq Avropada və digər yerlərdə hökmran din kimi möhkəmlənərək, yayılma prosesi keçirdiyi bir dövrdə ilk orta əsrlərdən etibarən Cənubi Qafqazda da özünə yer tutmuşdur.

Qeyd etmək lazımdır ki, Sovetlər dövrünün elmi ədəbiyyata daxil edilmiş bir fikrin - Cənubi Qafqazda xristianlığın ilk dəfə ermənilər tərəfindən qəbul edilməsi və onların vasitəsilə yayılması fikrinin özünü doğrultmadığı da diqqətdən qaçmamalıdır. Belə ki, guya xristianlığı Albaniyadan (şimali Azərbaycan, yəni indiki Azərbaycan Respublikasının ərazisi) Əvvəl ermənilər qəbul etmiş, Albaniya və İberiyada da yaymaqda əsas vasitəçi rolu oynamışlar. Belə bir uydurmanı yaymaqda o məqsədi güdürlər ki, ermənilər guya Cənubi Qafqazda gedən proseslərin həmişə önündə olmuşlar. Bundan çıxış edərək Azərbaycan ərazisindəki xristian (Alban) abidələrini ermənilərə məxsus abidə kimi qələmə verirlər. Əslində onların bu fikri elmi ictimaiyyət tərəfindən qəbul edilmir. Ciddi alimlər tərəfindən bu fikrin yanlış, əsassız olduğu dəfələrlə bəyan edilmişdir (İ.Əliyev, R.Göyüşov, T.Məmmədov, F.Məmmədova, D.Axundov, G.Məmmədova, A.Qarəhmədova). Əslində xristianllğm Cənubi Qafqazda rəsmi din kimi ilk dəfə Albaniyada qəbul edildiyi (IV əsrdə) məlumdur.

Elmi tədqiqat belə bir məntiqi nəticə çıxarmağa imkan verir deyək ki, bütpərəstlikdən tanrıçılığa, zərdüştlüyə, onlardan da xristianlığa keçən xalqa bu dinlər heç vaxt zorla qəbul etdirilməmişdir. Eləcə də xristianlıqdan müsəlmanlığa keçid zorla həyata keçirilməmişdir. Məlum olduğu kimi, bu dinlərin biri digərindən mütərəqqi hesab edildiyinə görə baş vermişdir. Ancaq burada bəzi məsələləri ayrıca qeyd etmək lazımdır. Bu da ondan ibarətdir ki, Qarabağ ərazisində tarixən bütün dinlərə rəğbətlə yanaşılmışdır. Alban xristianlığının Cənubi Qafqazdakı mərkəzlərindən biri Qarabağın qədim və mərkəzi şəhəri Bərdə olmuşdur. Həmçinin xristian dini cərəyanları arasında gedən mübarizədə (Yaqubilik hərəkatı, alban katolikosu Bəkirin fəaliyyəti) İdeoloji fikir cərəyanı da Bərdədə cəmləşmişdi.

Xristianlığın mövcud olduğu, lakin tam möhkəmlənmədiyi bir yerdə yeni meydana çıxmış islam dininin Albaniyada qəbul edilməsi mütərəqqi hal sayılırdı. Bu, hər şeydən əvvəl, İslam dininin yüksək mənəvi məna kəsb etməsi ilə bağlı idisə, ikincisi ölkənin paytaxtı, beynəlxalq iqtisadi, ticarət mərkəzlərindən biri olan Bərdə şəhərinin dünyada baş verən proseslərlə sıx bağlı olması ilə əlaqədar idi.

### *4. Qarabağın şəhərsalma və bədii tərtibat özəlliyi varmı ?*

Əvvəlcə onu qeyd etmək lazımdır ki, abidələrin salamat qalanı az miqdarda olsa da, həmin abidələr və tikinti qalıqları alban xristian və ondan sonrakı

müsəlman Şərqi tipində yaranmış tikililərin həmin dövrün tikinti mədəniyyəti, memarlıq və incəsənətini müqayisə etməyə imkan verir.

Qarabağda aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif tikinti materialları - daş sütun altlıqları, kapitellər, kirəmitlər və s. antik dövr şəhərsalma mədəniyyətini dərk etməyə əsas verir. Bu zaman Qədim Parfiya tipindən miras qalmış dairəvi və Roma ənənəsinə uyğun düzbucaqlı tiplər davam etdirilmişdir.

Qarabağın ən qədim şəhərlərindən olan Bərdə şəhəri antik dövrdə formalaşmış, ilk və inkşaf etmiş orta əsrlər dövründə müəyyən inkişaf yolu keçmiş, şəhər mədəniyyətinin mühüm xüsusiyyətlərini şəhərsalma mədəniyyətini, şəhər əhalisinin məişət səviyyəsini, bütün sənət növlərinin inkişafını özündə əks etdirmişdir. Həmçinin maddi mədəniyyət nümunələrinin formalaşmasına və incəsənətin inkişafının reallaşmasına səbəb olmuşdur.

Həndəsi və nəbati naxışlarla bədii gözəllik verilmiş sadə quruluşlu binalar həmin dövrün mədəni irsini əks etdirən maddi mədəniyyət nümunələridir. Belə naxışlardan təkcə tikintidə deyil, həmçinin məişət əşyalarının hazırlanmasında və toxuculuqda da istifadə edilmişdir.

Qarabağ ərazisində hələ erkən orta əsrlərdə geniş istehsalına başlamış ipək məhsullarının rənglənməsi və naxışlanması zamanı formalaşmış bəzək motivləri xalq tərəfindən təkmilləşdirilərək, son dövrlərə qədər yaşadılmışdır. Hətta bu mədəniyyət ənənəsi inkişaf etmiş orta əsrlərin bədii sənət tarixinin formalaşmasında mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Nizami Gəncəvi öz əsərlərində əlvan ipək parçalar üzərindəki şəkillərdən bəhs etmişdir.

Onu da qeyd etmək lazımdır ki, müəyyən dövrlərdə dəbdə olan tovuz quşu rəsmləri əsrlər keçdikcə öz keçmiş mənasını itirmiş və nəhayət, sadələşərək Şərq aləmində ən geniş yayılmış "buta" ornamentinə çevrilmişdir. Tovuz quşu rəsmlərinin türk dilli xalqlarda başlıca omament motivinin olduğunu hələ XII əsrdə böyük Azərbaycan şairi Nizami Gəncəvi də qeyd etmişdir. Şair "İsgəndərnamə" poemasında Nüşabənin Bərdədəki sarayını təsvir edərkən bir neçə dəfə ipək parçalar üzərinə salınmış tovuz quşu rəsmlərindən və onların sırf türk xalqlarına xas olduğundan bəhs edir.

Bu motivlər sonralar Qarabağ xalçalarına tətbiq edilmişdir. Tarixçi Həmdullah Qəzvini rəngarəng Qarabağ (Bərdə) xalçalarının dünya bazarlarında şöhrət qazanması barədə məlumat verir.

### *5. Qarabağda maddi mədəniyyətin inkişafında sənətkarlığın nə kimi rolu olmuşdur?*

Cəmiyyətin inkişafı da maddi nemətlər istehsalının səviyyəsi ilə ölçülürsə, bu baxımdan həmin tarixi faktlara və arxeoloji tapıntılara eyni aspektlərdən yanaşmaq lazımdır. Qarabağ ərazisindən arxeoloji qazıntılar zamanı aşkar edilmiş metal əmək alətləri müxtəlif tarixi-axeoloji dövrlərə aid olan balta, xış ucluğu, çəkic, oraq, bel, yaba, bıçaq, dəhrə, kirkid, çəki daşı, bucaq, mıx, biz və digər

kəsici, deşici və yonucu alətlərdən ibarətdir ki, onların istehsalı sənətkarlıq baxımından daha yüksək qiymətləndirilir. Həmin materialların hər biri digər xarakterik tipi ilə bərabər, həm də maddi mədəniyyət nümunəsidir.

Qarabağın müxtəlif yerlərində aparılmış arxeoloji qazıntı işləri zamanı müxtəlif dövrlərə aid külli miqdarda şüşə məmulatı ilə rastlaşırıq. Antik dövrdən son orta əsrlər dövrünə qədər olan bütün təbəqələrdən şüşə məmulatı aşkar edimişdir. Təsnifatına görə piyalə, qədəh, duzqabı, boşqab, kuzə, bərni tipli süfrə qablarından; bundan başqa konusvari əşya, qıf, kolba, kiçik həcmli ətriyyat və dərman qablarından, asma, muncuq, üzük, qolbaq kimi müxtəlif növ bəzək əşyalarından ibarətdir. Bərdədə, Amarasda, Govurqalada şüşə istehsalı üçün xeyli faktiki material, şüşə qalıqları və hətta istehsal alətləri aşkar edilmişdir. Onların tədqiqi göstərir ki, Qarabağın sənətkarlıq tarixində şüşə istehsalının xüsusi yeri vardır. Qarabağın şüşə sənətkarları şüşə məmulatı istehsalının müxtəlif üsullarından - qəlibdə tökmə, qəlibdə üfürmə və sərbəst üfürmə üsullarından geniş istifadə etməklə bədii və texnoloji cəhətdən üstün olan məmulatlar istehsal etmişlər.

Qarabağda mis, qızıl, gümüş və qalaydan istifadə etməklə müxtəlif növ zərgərlik məmulatı istehsal etmişlər. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qiymətli metallardan düzəldilmiş üzük, bilərzik, sırğa, düymə və s. kimi bəzək əşyaları zərifliyi və gözəlliyi ilə seçilir.

Nizami Gəncəvi "İsgəndərnamə" poemasında yazırdı:

"Nazənin qızlara vuruldu bəzək,
Düzüldü sıraya yüz əlvan çiçək.
Müşkin kəməndlərə düzüldü gövhər,
Daş-qaşa büründü ipək geyimlər".

İran, Çin və Hindistanın zərgərlik məmulatı dünyanı dolaşan vaxtlarda Qarabağda hazırlanan zərgərlik məhsullarının da öz yeri olmuşdur.

Azərbaycanın çox yerində olduğu kimi, Qarabağda da yunun, ipəyin və pambığın istehsal olunduğu bir yerdə toxuculuğun meydana gəlməsi və inkişafı labüd idi. Azərbaycan xalçaları istehsal olunduğu yerin bədii ənənəsindən, xammalından (yun, ipək, pambıq və s.) asılı olaraq müxtəlif kompozisiyalı bəzəklərə malik olmuş, müxtəlif üsullarla toxunmuşdur.

Rəng çalarları və naxışlarının orijinallığı ilə seçilən, bədii və texnoloji xüsusiyyətlərinə görə üstün olan Qarabağ xalça növünün bu gün də dünya şöhrətli olması həmin mədəniyyət ənənəsinin öz təsirini saxlaması ilə şərtlənir.

Qarabağda palaz, kilim və xalı toxuculuğu xüsusi yer tutmuşdur. XVIII əsrdə Qarabağda maddi mədəniyyəti əks etdirən dekorativ incəsənət növləri arasında aparıcı yer tutan xalçaçılıq məhsulları-xovlu (xalça, xalı, gəbə) və xovsuz (palaz, kilim, cecim, sumağı, zili) xalçalar geniş yayılmışdır. Qarabağın xovlu

xalçaları naxışlarının incəliyi və rənglərin zənginliyi ilə fərqlənirdi. Qarabağda toxunmuş süjetli kompozisiyalı xovsuz xalçalar Azərbaycan xalçalarının ən gözəl nümunələrindəndir.

Qarabağ xalçaları öz şöhrətini günümüzədək saxlamışdır. Qarabağ xalçaları qrupuna aid olan xalçalar adları və naxışları ilə seçilir. Qarabağ xalçaları Bərdə, Ağcabədi xalçaları adı altında birinci qrupa, Şuşa xalçaları adı altında ikinci qrupa, Cəbrayıl qrupu adı altında 3-cü qrupa ayrılır.

***Bərdə qrupuna*** "Bərdə", "Xanqərvənd", "Aran", "Qoca", "Çələbi", "Buynuz", "Dəryanur", "Açma-yumma", "Şabalıd buta", "Balıq" xalçaları, Ağcabədi xalçalarına "Lənbərən", "Ləmpə" və "Xantirmə" daxildir.

***Şuşa qrupuna*** "Malıbəyli", "Ləmpə", "Bağçada-güllər", "Bulut", "Saxsıdagüllər", "Nəlbəki gül", "Gül yaylıq", "Muncuq" və "Zərməxmər" aiddir.

***Cəbrayıl qrupuna*** "Xanlıq", "Qaraqoyunlu", "Qubadlı", "Kürd", "Qasımuşağı", "Bəhmənli", "Muğan", "Talış" xalçaları daxildir.

Qarabağın xalça sənəti XVIII əsrin ikinci yarısından etibarən Şuşa şəhərində mərkəzləşmiş, burada daha geniş miqyasda inkişaf etməyə başlamışdır.

Qarabağ xalçaçılıq sənətində qədim ənənə intensiv olaraq davam etdirilmişdir. 1886-cı ildə Şuşada olmuş gürcü tədqiqatçısı Zedgenidze yazmışdır: "Demək olar ki, bütün xalçalar azərbaycanlı ailələrdə istehsal olunur. Ermənilər xalça toxumağı onlardan öyrənməlidirlər".

### *6. Qarabağın xristian abidələrinin əsas əlamət və xüsusiyyətləri nədən ibarətdir?*

Qarabağ ərazisində arxeoloji abidələrdən başqa xeyli yerüstü xristian abidələri tədqiq edilmişdir. Onlar çiy kərpic, çay daşı, əhəngdaşı və sonralar kərpiclə tikilmiş məbədlərdən ibarətdir. Bu növ abidələrin tikintisinə ilk orta əsrlərdən başlanmış, orta əsrlərdə də davam etdirilmişdir. Belə abidələrə Qarabağın Bərdə, Ağcabədi, Ağdam, Füzuli, Ağdərə ərazisində, habelə Laçın və Kəlbəcərdə rast gəlinmişdir. Bu məbədlərdən ən məşhuru Qanzasar, Amaras və Yelisey məbədləridir. Onu da qeyd etmək lazımdır ki, albanlara məxsus xristian abidələri Azərbaycanın digər ərazilərində də (Qəbələ, Naxçıvan, Mingəçevir, Şamaxı) mövcuddur.

Ermənilərin iddialarına baxmayaraq, həmin abidələrin alban mənşəli olduğu və həmçinin ermənilərlə heç bir bağlılığı olmadığı dəfələrlə sübut edilmişdir.

"Dağlıq Qarabağ ərazisində ermənilər sözsüz gəlmə elementdirlər” fikrinin müəllifi tanınmış tarixçi alim akademik İ.H.Əliyev tarixi-arxeoloji və antropoloji tədqiqatlara əsasən bu fikrə gəlmişdir.

Akademik qeyd edir ki, "bunu tarixi xarakter məsələlərinin həlli işində mühüm vasitə olan Fonocoğrafiya tədqiqatları (Odontologiya) birmənalı şəkildə sübut edir". Belə ki, Qarabağın dağlıq hissəsində (Dağlıq Qarabağ ərazisində) yaşamış qədim insanların diş-çənə sümüklərinin analizi nəticəsində öyrənilmişdir

ki, orada tarixən yaşamış insanlarla indiki ermənilərin heç bir etnik bağlılığı yoxdur. Həmin analizlərin nəticəsində sübuta yetirilmişdir ki, Qarabağın qədim sakinləri indiki azərbaycanlıların əcdadlarıdır. Deməli, ermənilərin Qarabağ ərazisindəki abidələrə iddiaları əbəsdir.

Qarabağ abidələrinin ermənilərə məxsusluğuna aid gətirilən yeganə fakt bu abidələr üzərindəki yazılardır, lakin bu hal həmin abidələrin etnik məxsusluğunu sübut etmək işində əsas ola bilməz. Əvvala məlumdur ki, orta əsrlər boyunca Avropa ölkələrində latın dili elmi dil olmuşdur. İkincisi, elmi ədəbiyyatda məlumdur ki, Albaniya ərazisi I-VI əsrlərdə Arşaki, VII-VIII əsrin əvvəllərinədək Mehrani sülalələrinin hakimiyyəti altında olmuşdur. Həmin dövrdə alban yazısı və alban-arran dili hökm sürürdü. Burada erməni dilinə nə ehtiyac, nə də yer var idi. Abidələrin üzərindəki erməni yazıları isə bir qayda olaraq sonradan, saxtalaşdırmaq məqsədilə qoyulmuş izlərdir.

Erməni tarixşünaslığında artıq çoxdan belə bir nöqteyi-nəzər var ki, Dağlıq Qarabağ ərazisi Ermənistanın ayrılmaz hissəsidir. Bu planlı və "məqsədəyönlü" tədbirin əsası keçən yüzillikdə erməni alimləri (M.Çamçiyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və b.) tərəfindən qoyulmuşdur. Bütün erməni şərqşünas tarixçiləri indiyəcən həmin mövqelərdən çıxış edirlər.

Bu regionun əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq mənşə, dil və mədəniyyət etibarı ilə min illərlə Böyük Qafqazla Araz arasında yaşamış müxtəlif yerli türk və digər Qafqaz etnik qurumları ilə sıx surətdə bağlı olmuşdur.

Qarabağda erməni elementinin miqdarca xeyli dərəcədə artması 10 minlərlə xarici ermənilərə sığınacaq (XIX əsrdə), sonralar isə Sovet hökuməti dövründə muxtariyyət verilməsi ilə bağlıdır. Məlum məsələdir ki, XIX əsrə qədər Dağlıq Qarabağda heç bir zaman o qədər də çox erməni etnik kütləsi olmamışdır. Bunu Dağlıq Qarabağda Ağdərənin Marağa kəndində Qarabağa ilk 200 ailənin (iranın Marağa şəhərindən) köçürülməsi şərəfinə 1978-ci ildə ermənilərin özlərinin qoyduqları abidə də əyani şəkildə sübut edir.

### *7. Qarabağ ərazisində alban məbədlərinin tikinti memarlıq xarakteri ilə dini ideologiyanın bağlılığı varmı?*

Heç də sirr deyil ki, Qarabağ ərazisində müxtəlif dinlərin mövcud olması insan cəmiyyətinin ictimai həyatına böyük təsir göstərmişdir. Bu təkcə insanların məişətində, mənəvi dünyasında deyil, şəhərsalma üslubunda, ictimai və dini binaların, tikinti komplekslərinin quruluşu və planlaşdırılmasında müəyyən rol oynamışdır. Bu baxımdan Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da xristianlıq və müsəlmanlığın mövcud olması və biri digərini əvəz etməsi tikinti mədəniyyətində özünü göstərmişdir.

Qeyd etmək lazımdır ki, III-VII əsrlərin memarlığının özünəməxsus xüsusiyyətləri var idi. Bu dövrdə Albaniyada şəhər quruculuğu geniş vüsət almış,

yaşayış və sitayiş təyinatlı binalar tikilmiş, suvarma qurğuları və körpülər inşa edilmişdir.

Qarabağ ərazisində (Dağlıq Qarabağda Amaras, Ağdamda Govurqala və s.) və Albaniyanın digər yerlərində (Qax rayonu Qum kəndi, Qəbələ rayonu Böyük Əmidli kəndi, Mingəçevir) xeyli alban xristian abidəsi inşa edilmişdir. Ağcabədi bölgəsinin Təzəkənd yaşayış məntəqəsindəki üçnefli bazilikalar baxımından üç cüt sütundan ibarət olan bina, Bərdə şəhərində aşkar olunmuş üç yarım dairəvi apsidalı, üçnefli bazilika formasına malik məbəd aşkar edilmişdir.

Bu baxımdan Qarabağın dağlıq hissəsində olan Ağoğlan monastırı alban kilsəsi (Xocavənd kəndi, Sos kəndi) iri bazilika tikilisi də maraq doğurur. Bazilika Ağoğlan çayının sol sahilində "Müqəddəs" dərədə tikilmişdir və Amaras adlanan qədim şəhər yerinin mərkəzində yerləşir. Bu abidə dəfələrlə yenidən qurulmuş, təmir olunmuş, lakin onun ilkin formaları əsasən qalmamışdır. Albaniya baziliklərinin yeni tipinin formalaşmasını göstərən Ağoğlan kilsəsi V əsrin sonu - VI əsrin əvvəlinə aid edilir.

Erkən orta əsr tarixçilərinin məlumatına görə Albaniya hökmdarı Mömin III Vaçaqan kilsələrin tikilməsinə böyük diqqət yetirirdi. Müqəddəs Yelisey məbədi kompleksi bu tikililər arasında xüsusi yer tutur.

Qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasında erkən xristianlıq dövründə sitayiş təyinatlı tikililərin daha geniş yayılmış tipi birnefli bazilikalar meydana çıxmışdır. Uzunsov, kümbəzsiz məbədlər Albaniyanın ən erkən kilsə binaları olmuşdur. İndiyədək bu tipə aid olan abidələrdən yalnız altısı öyrənilmişdir. Həmin abidələrdən 4-ü Mingəçevirdə, biri Xotavəng monastır kompleksində (Kəlbəcər rayonunda) digəri isə Govurqala (Ağdam rayonunda) adlı qədim şəhər yerində aşkar edilmişdir.

Govurqalada (Ağdam bölgəsinin Sofulu kəndində) aşkar edilən məbəd VI-VII əsrlərə aid edilir.

1970-ci ildə Bərdə şəhərində aparılmış arxeoloji qazıntılar zamanı uzunluğu 11 metr, eni 6 metr olan, sütunları daş və kərpiclə tikilmiş, qalın divarlı VII əsrə aid məbəd aşkar edilmişdir. Həmin abidə M.Kalankatlının "Albaniya tarixində" qeyd etdiyi Cavanşirin "Bərdədə iki il müddətinə (tikdirdiyi) böyük bir kilsə" hesab edilir.

İlk orta əsr şəhər tipli ən möhtəşəm yaşayış məskənlərindən biri sayılan və xarabalığı indiki Ağdam rayonunun Boyəhmədli kəndi ərazisində yerləşən Govurqala abidəsidir. Govurqala ilk orta əsr şəhər tipli yaşayış məskənləri şəhərlərlə kənd yaşayış məskənləri arasında keçid mövqeyi tutan abidədir. Govurqalada ağ daşdan inşa edilmiş xristian (aiban) məbədi onun memarlığını xarakterizə etmək üçün ən yaxşı nümunədir. Abidənin şərq hissəsində xüsusi otaqdan ibarət olan mehrab ellipsvaridir. Tədqiqatçılar məbədin dörd qapısı olduğunu aşkar etmişlər. Döşəmə hamar yonulmuş daşlarla örtülmüşdür.

Məbəddən daş sənduqə qəbiri aşkar olunmuşdur. Sənduqənin qapağı üzərindəki yazıdan aydın olur ki, burada Alban hökmdarı Hammamın qardaşı dəfn edilmişdir.

Govurqaladan daha bir neçə yaşayış binasının qalıqları üzə çıxarılmışdır. Dördkünc formalı bu binaların bünövrəsi çay daşından, üst hissəsi isə ağ daşdan hörülmüşdür.

Govurqala Alban hökmdarlarının yay iqamətgahı kimi şöhrət qazanmış Aluen şəhərinin qalıqları hesab edilir. Aluen şəhəri orta əsrlərdə Bərdədən Dəbilə (Dvin) gedən ticarət yolu üstündə yerləşirdi. Burada onu da qeyd etmək lazımdır ki, xristianlığın Albaniyada rəsmi dövlət dini kimi qəbul edildiyi vaxtdan etibarən məişət arxitekturası cəhətdən yeni formalar meydana çıxmışdır. IV-VII əsrlər tikinti mədəniyyəti xristian arxitekturası tipində yaradılmışdır. Həmçinin digər müxtəlif dini təsirlərin mövcud olması da tikintilərin və məişət əşyalarının formalarında özünü göstərmişdir.

Tədqiqatlar göstərir ki, Albaniya ərazisində meydana çıxmış şəhərlər Azərbaycana və onun yerli sakinlərinə məxsus olmuş, antik dövrdə bütpərəstlik və atəşpərəstlik, ilk orta əsrin əvvəlki yüzilliklərində xristianlıq dövrünə uyğun olan memarlıq üslublarında müxtəlif tikililər yaradılmışdır. Qarabağda antik dövr şəhər tikintilərinin əsas atributlarından olan tikinti materialları, kapitel və sütun altlıqlarının aşkar edilməsi, həmçinin həmin maddi mədəniyyət nümunələrinin digər şəhər tipli arxeoloji abidələrdən tapılmış nümunələrlə oxşarlığı qədim və geniş yayılmış mədəniyyət əlaqələrinin mövcudluğundan xəbər verir.

Qarabağda istehsalat ocaqları, Alban və Pəhləvi yazıları, daş bütlər, şüşəəritmə və dulus kürələri və müxtəlif tip qəbiristanlıqlar qazılıb öyrənilmişdir (Füzuli, Ağdam, Ağdərə, Xankəndi). Bundan başqa, müxtəlif dövrlərə aid və şəhərlilərin ictimai həyatında mühüm yeri olan, üzərində yazı və xüsusi işarələr həkk edilmiş daş bütlər və heykəllər aşkar edilmişdir. Həmin bütlərin antik və ilk orta əsrlər dövründə daha çox yayıldığı da məlumdur.

Qarabağda daş bütlər əsasən Füzuli, Ağdam, Tərtər və Bərdə ərazisindən tapılmışdır. Daş bütlər ölçülərinə görə gil bütlərdən fərqlənir. Onlar əsasən adam boyda düzəldilmişdir. Bu bütlərdən qəbirlərin üstünü örtərkən, daş kimi istifadə edildiyindən bəzi yerlərdə yığılıb bir yerdə basdırıldığından arxeoloji qazıntılar zamanı aşkara çıxmışdır (Füzuii rayonu Araz Yağlıvənd kəndi).

Həmin dövrün maddi mədəniyyətini əks etdirmək baxımından metaldan düzəldilmiş əşyalar da maraqlıdır. IV-V əsrlərə aid metal əşyalar özlərinin texniki baxımından kamilliyi, süjet və üslubca yerli və qərb (Roma və Bizans) bədii vasitələrinin harmonik tətbiqi ilə fərqlənir. Tədqiqatçıların fikrinə görə, əsyalara yeni keyfiyyət verən bu tətbiq alban incəsənəti məhsullarını qonşu Sasani, İbervəs, məmulatlarından da ayırır.

Moisey Kalankatlı Cavanşirin sarayını təsvir edərkən yerli mədəniyyət və incəsənət üslublarından necə istifadə edilməsi barədə məlumat verir: "O künbəzdən tutmuş kandaradək hər yeri naxışlarla bəzətdirdi, divarlara başdan-başa ipək

parçalar çəkdirdi, kainatın ziyasını (yəni Cavanşiri) qoruyub saxlayan yataq otağının qapısını qümüşə tutdurdu, üzərində oyma naxışlar açmağı əmr etdi".

Sankt-Peterburq şəhərinin Ermitaj muzeyinin eksponatı üzərində alban hökmdarı Cavanşirin təsviri olan 35,6 sm hündürlüyündə tunc buxurdanı tədqiqatçılar yerli sənətkarların məhsulu kimi qəbul etmişlər.

Beləliklə, Qarabağ ərazisində aşkar edilmiş arxeoloji materiallar, başqa sözlə, maddi mədəniyyət nümunəsi olan irili-xırdalı bütün əşyalar - tikinti materialları, məişət əşyaları, süfrə qab-qacaqları, bəzək əşyaları hər biri həm özünün istehsal olunması baxımından, həm də onların üzərindəki müxtəlif qliptik, teoreftik təsvirlərin, naxışların həkk olunması baxımından üstünlüyü insanların həyatında özünə yer tutmuş qədim mədəniyyətin xarakterik cəhətləri, səviyyəsi və inkişaf xüsusiyyətlərini özündə əks etdirir.

Məlum olur ki, Albaniya dövlətinin yaranması dövrünə xas olan maddi mədəniyyət nümunələri, xüsusilə də incəsənət daha qədim dövrlərin incəsənətindən doğduğuna baxmayaraq, yeni tarixi şəraitlə bağlı olaraq, mədəniyyəti yeni keyfiyyətlərlə zənginləşdirmişdir. Bu dövrün incəsənəti tarixdə ilk dəfə dini təsəvvürlərin zəncirini qırmış, sənətə yeni, dünyəvi və nikbin xüsusiyyətlər gətirmişdir.

### *8. Qarabağ ərazisindəki Alban abidələrini ermənilərin özlərininki hesab etməyə əsası vardırmı?*

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazı erməni millətinin qədim torpağı hesab edən bir çox erməni “tarixçiləri” uzun müddət Sovetlər dövründəki xristian təəssübkeşliyindən istifadə edərək, bütün alban xristian abidələrini "erməni abidələri" kimi qələmə verməyə çalışmışlar. Hətta (guya qədim mənbələrdən istifadə edərək), Kür və Araz çayları arasındakı ərazilərin "qədim erməni torpaqları" olduğunu "sübut etməyə" səy göstərmişlər. Halbuki, ermənilər nəinki sözügedən ərazidə, ümumiyyətlə, Qafqazda son dövrlərdə heç vaxt kompakt şəkildə məskun olmamışlar. Ermənilərin həmin ərazidə tarixi mədəniyyət izlərinin olması da uydurma fikirdir.

Azərbaycan ərazisində müxtəlif tipli və müxtəlif dövrlü abidələr saxlanmışdır. Həmin Alban abidələrinin tarixi-arxeoloji və memarlıq cəhətdən tədqiqi xristianlığın bir sıra mühüm xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Albaniyanın xristianlıqla əlaqədar olan maddi mədəniyyət abidələrini memarlıq abidələri, nişan daşlar, qəbir abidələri, kilsə avadanlığı, epiqrafik abidələr və s. kimi müxtəlif qrupa bölünür.

Tədqiqatlara əsasən demək olar ki, Albaniyada Şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf etmişdir. Alban xristianlığının ilk dövrü üçün xarakterik kilsə tikintisi uzunsov ibadət zalı olan bir nefli məbədlərdən ibarət olmuşdur. Bu məbədlərin uzunsov ibadət zalının şərq qurtaracağında yarımdairəvi

mehrab hissəsi yerləşirdi. Bu növ məbədlərin üstü iki qatlı sadə daşla örtülürdü. Belə məbədlərə Ağdamda, eləcə də Kəlbəcər və Mingəçevirdə təsadüf edilmişdir.

VI-VIII əsrlərdən başlayaraq geniş sahəli bazilikalar tikilməyə başlanmışdır. Bu məbədlər plan quruluşuna görə əvvəlkilərdən əsaslı surətdə fərqlənir. Belə ki, bazilikalar qərb-şərq istiqamətdə tikilməklə, onun şərq hissəsi yarımoval formalı apsida ilə tamamlanır və bu hissə məbədin mehrabına çevrilirdi. Bazilikaların geniş zalı sıra sütunlarla bir neçə hissəyə - nefə bölünürdü. Ümumi ansambla uyğun olaraq hər nefin şərqində yarımkümbəz formalı çıxıntılar düzəldilirdi. Ortadakı çıxıntı göstərilən iri mehrab, yan çıxıntılar isə cəbbəxana rolu oynayırdı.

Baziliklərin üst örtüyü də fərqlənirdi. Onların orta hissəsinin künbəzləri çıxıntı ilə tamamlanırdı. Baziliklərin qərb tərəfində, binanın tavanında xüsusi sütunlar üzərində zəngxanalar qurulurdu.

Albaniyanın xristianlıq tikinti üslubunda "dairəvi məbədlər" deyilən xüsusi memarlıq da geniş yayılmışdır. Albaniyanın xristian memarlığının ən kütləvi forması sovmələrdir. Sovmələr karvan yollarının kənarlarında kiçik ibadətgah rolundan əlavə, həm də memorial tikililərdir. Albaniya ərazisində həm mehrabsız, həm mehrablı sovmələrə təsadüf edilir. Sovmələrin divarları bir qayda olaraq, zəif naxışlara malik nişan daşlarla bəzədilir. Ən mürəkkəb quruluşlu tikililər bir qayda olaraq monastırlarda olurdu. Təxmini hesablamalara görə, ilk orta əsrlərdə Albaniyada 30-dan çox monastır olmuşdur. Bunların bir qismi Qarabağ ərazisində idi.

Qeyd etmək lazımdır ki, Qarabağda məqsədyönlü şəkildə, müxtəlif üsullarla erməniləşdirmə siyasəti yeridilməsi başlanmışdır. Bu, həm də özünü maddi mədəniyyət abidələrinin yox edilməsində və dəyişdirilməsində göstərmişdir. Əvvəllər köçüb yerləşdikləri ərazilərdə alban-xristian abidələrini məhv etməklə izini itirməyə çalışan ermənilər sonradan bunun fayda verməyəcəyini başa düşərək, özününküləşdirməyə təşəbbüs göstərmişlər. Belə ki, bütün alban abidələrini, xaçları, məbədləri ermənilərinki kimi qələmə vermiş, bunun izi ilə həmin abidələrin yerləşdiyi yeri isə tarixi erməni ərazisi elan etmişlər. Hansı ki, alban abidəsi ilə erməni abidəsi tamamilə fərqlidir. Yuxarıda şərhini verdiyimiz alban məbədlərinin özüəməxsus xüsusiyyətləri buna sübutdur.

Alban xaçları da erməni xaçlarından əsaslı şəkildə fərqlənir. Tədqiqatlar sübut etmişdir ki, Qafqaz Albaniyasının erkən xristianlıq incəsənətinin meydana çıxması və inkişafı tamamilə orijinal, özünəməxsus yolla getmişdir. Burada söhbət üzərində xristianlığa qədər mövcud olmuş dini-ayinlərin simvolikası əks olunmuş xristian və müsəlman qəbirləri və Qafqaz Albaniyasının yazılı abidə daşlarından gedir. Alban xaç daşları üzərindəki obrazlar çoxlu yüzilliklər keçdiyinə görə əvvəlcə iki, sonralar üç din hakimiyyəti altında toplanmış, harmonik olaraq yüzlərlə mümkün yazılı daşların üzərində əks olunmuş ayin simvolikasıdır. Buradan aydın olur ki, bütün özünəməxsus, orjinal və köklü fərqi olan xaçdaş, başdaş və nişandaş erməni xaçından fərqlidir.

Xaçobrazlı Alban xaçdaşlarında dekorativ tərtibatlar qovuşur. Xaçdaşlarda başlıca cəhət odur ki, onlar təkcə xaç deyil, məqsədli bədii icra olunmuş yazılı daş obrazdır. Öz mənasına görə bu xaçlar xristianlığa qədərki dini ayinlərlə bağlıdır və həyat ağacının - xaçın təsvirinə yaxınlaşır. Bütpərəst qəbirüstü yazılı daşların qanunauyğunluqlarının açılması Albaniyanın xristian xaçdaşı və müsəlman başdaşıların xarakterini izləməklə müəyyənləşir.

Qarabağdakı alban xaçdaşları bir sıra mühüm lokal cizgiləri, bütün Alban yazılı daşlarının üzərində xristianlığa qədərki inamlar və kainat qüvvələrinin yerləşməsi ilə dini-bədii qanunlara tabe edilmiş özünəməxsus qrup təşkil edir. Alban xaçı xristianlığa qədərki inamların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Onun bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş, işıq və məhsuldarlıq simvolu kimi əks olunmuşdur.

Beləliklə, tədqiqatlar Qarabağın maddi və mənəvi mədəniyyətinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir.

### *9. Qarabağ ərazisindəki mədəniyyətin Alban mədəniyyətinə aid olmasını göstərən əsas faktlar nədən ibarətdir?*

Yazılı mənbələr Qafqaz Albaniyasının dili və yazısı haqqında şübhə edilməz sübutlar saxlamışdır. Albaniyada V əsrin başlanğıcında alban əlifbası icad edilmiş və yazıda işlənməyə başlanmışdır. Erkən Alban ədəbiyyatı əlverişli tarixi şəraitdə təşəkkül tapmış, müstəqil Alban dövlətinin mövcud olduğu Alban Arşakilərinin və onları əvəz edən Böyük Alban hökmdarları - Mehranilərin hakimiyyəti, Alban kilsəsinin fəaliyyəti dövründə inkişaf etmişdir.

Dövrün Alban ədəbi ənənələrinə aid olan Moisey Kalankatlının "Albanların tarixi", VII əsr şairi Davdəkin "Elegiya"sı, Alban hüquqi mənbələri olan kilsə qanunları (488-ci il Aquen və 705-ci il Bərdə məclisinin qanunu) bizə yetişmiş narrativ mənbələrdir.

Bu mənbələr sırasında Moisey Kalankatlının I-X əsrlər Albaniyası və albanların tarixinə həsr etdiyi əsərinin əhəmiyyəti olduqca böyükdür. "Albanların tarixi" Azərbaycanın tarixi coğrafiyasını və etonogenezini, ictimai-iqtisadi, siyasi, ideoloji və eləcə də mədəni tarixini öyrənmək baxımından çox əhəmiyyətlidir.

Moisey Kalankatlı qüdrətli Alban hökmdarı Cavanşirin müasiri idi. Məhz bu dövr Albaniyanın siyasi və mədəni dirçəliş dövrü sayılırdı. Hərbi istedadı, müdrik və çevik siyasəti ilə Albaniyanı öz əzəli hüdudlarında - cənubda Araz çayından şimalda Dərbəndədək olan ərazidə birləşdirən və bərpa edən, müstəqil daxili və xarici siyasət yeridən Alban kilsəsinin müstəqilliyini qoruyub saxlayan Cavanşir, şübhəsiz, xüsusi yazılı abidədə öz dövrünün inikasını görmək arzusu ilə Moisey Kalankatlıya "Albanların tarixi" kitabını yazmağı sifariş vermişdir.

Bu hələ əsrin əvvəllərində istifadə edilmiş Alban əlifbasının yeni forması və rəsmi yazılarda işlənməsi hesab edilir. Alban yazıları olan əşyaların həm Qarabağ ərazisinin bir çox abidələrində tapılması, eləcə də çox da uzaqda olmayan Mingəçevirdən aşkar edilməsi yazı mədəniyyətinin özəlliyi haqqında tutarlı məlumatdır.

***10. Qarabağın maddi mədəniyyəti ilə mənəvi mədəniyyətinin əlaqəsi necə mülahizə edllir ?***

Maddi mədəniyyətin yaradıcısı olan insanların malik olduğu cəmiyyətin inkişafı nəticəsində mənəvi mədəniyyət yaranır. Mənəvi mədəniyyət özündən əvvəl yaradılmış maddi mədəniyyətin ənənələrindən bəhrələnir, biri digərini tamamlayır.

Qarabağın tarixinə dair məlum olan yazılı mənbə məlumatları və arxeoloji qazıntılarla öyrənilən abidələr - qala və digər tikinti qalıqları, tikinti materialları, həmçinin yerüstü - tarix və mədəniyyət abidələri maddi mədəniyyət tarixinin dərk olunmasında mühüm rol oynayır.

Antik mənbələrin Qarabağın qədim ərazisində - Uti və Arsakda qədim şəhərlərin mövcudluğu barədə verdiyi məlumatı, Bərdədə, Govurqalada (Ağdam), Qaraköpəktəpədə (Füzuli), Ergi yaşayış yerində (Ağdam) və s. aparılmış arxeoloji tədqiqatlar təsdiq edir. Təəssüf ki, indi həmin şəhər tipli abidələrin əksəriyyəti erməni işğalı altında olduğuna görə dağıdılmışdır.

Qarabağın ən qədim şəhərlərindən yalnız biri bünövrəsi antik dövrdə (e.ə.m əsr) qoyulmuş Bərdə şəhəri intensiv şəkildə həyatını davam etdirir. Qarabağın bir çox şəhərləri orta əsrdə yaranmışdır. Həmin şəhərlərin sırasına Tərtər, Ağdam, Ağdərə, Xocavənd, Şuşa, Xankəndi, Füzuli, Cəbrayıl, Ağcabədi daxildir.

***11. Qarabağın mənəvi mədəniyyət irsinin yaranması hansı ənənətərlə bağlıdır?***

Azərbaycanda (Albaniyada) ilk orta əsrlərdə (V əsr) qarqar dilində 52 hərfdən (erməni yazısı 32 hərfdir) ibarət müstəqil alban yazısı meydana gəlmişdir. Albaniya dövlətinin mövcud olduğu dövrdə alban əlifbası, alban yazısı zaman-zaman müxtəlif maneələrin törənməsinə, haqqında müxtəlif ünsürlərin uydurmalar yaratmasına baxmayaraq, xalqımızın tarixi abidələri olaraq, mənsub olduğu xalqın adı ilə bağlı şəkildə tanınır.

V əsrdə alban hökmdarları Bərdədə əyan uşaqlarına təhsil vermək, bilik öyrətmək üçün məktəblər açmışdılar. Moisey Kalankatlı bildirir ki, Albaniya hökmdarı (III Vaçaqan - 487-510) "təhsil vermək üçün müəllimlər topladı, kahinlərin və digər təbəqədən olanların uşaqlarını həmin məktəblərə cəlb etdirdi".

Həmin mənbədə Bərdədə yaradılmış məktəblər və təhsil şəraiti haqqında bildirilir: "Vaçaqan əmr etdi ki, cadugərlərin, sehrbazların, bütpərəst kahinlərin,

ağlayanların uşaqlarını yığıb məktəbə göndərsinlər və orada onlara dini ayinləri öyrətsinlər.

O, oğlan uşaqlarına əmr etdi ki, hamı birlikdə onun Rustak kəndinə toplansın, onlar üçün təqaüd ayırıb məktəb müdiri təyin etdi və xristianlığı öyrənməyi onlara əmr etdi. O, kəndlərə gələndə, tez-tez məktəblərə gedər, sehrbaz və bütpərəst kahinlərin uşaqlarını öz ətrafına toplayar, onu əhatə edən camaatın içərisində bəziləri əllərində kitab, başqaları isə yazı lövhəsi tutub dayananlara əmr edərdi ki, ucadan bir-birinə oxusunlar və belə hallarda o qədər sevinərdi ki, böyük bir xəzinə tapsa idi, o qədər sevinə bilməzdi".

Albaniyada xristianlığın geniş təbliğ edilməsi üçün ölkəyə gətirilmiş dini kitablar alban dilinə tərcümə edilmiş, alban əlifbası ilə yazılmışdır. Məşhur yunan şairi Homerin "İliada" və Vergilinin "Eneida" əsərləri də alban dilinə tərcümə edilmişdir. Təəssüf ki, alban dilində olan həmin yazılardan heç biri gəlib bizə çatmamışdır.

Alban katolikosluğu Bərdəyə köçürüldükdən sonra Albaniyanın bütün vilayətlərində yerləşən ruhanilər və digər rütbəli din xadimləri oraya toplaşaraq, vaxtaşırı müəyyən dini və digər mənəvi problemləri həll etməklə məşğul olurdular. Mənbələrin verdiyi məlumata görə, həmin dövrdə Albaniyada xeyli xristian məbədi var idi. Bununla əlaqədar olaraq, dini qanunların icrasına və təbliğatına nəzarət və rəhbərlik Bərdədə təşkil edilirdi.

Alban katolikosu Viro Bərdənin mənəvi mədəniyyət tarixində dünyəvi və dini fəaliyyətinə, eyni zamanda şəxsi keyfiyyətlərinə görə tanınmışdı. Onun müxtəlif dilləri bilməsi, elmə, biliyə xidmət edən işlərlə məşğul olması, səlis, aydın nitqə, fəlsəfi biliyə yiyələnməsi və digər elmi biliklərdən xəbərdar olması "Albanların tarixi" əsərində xüsusi qeyd edilmişdir.

Alban hökmdarı Cavanşirin hakimiyyəti dövründə təhsilin, elmin və mədəniyyətin inkişafına xüsusi fikir verilmişdir.

Cavanşir mədəniyyətin inkişafına geniş şərait yaratmışdır. O, alimləri, şairləri, memarları, mahir sənətkarları öz sarayına toplamış, ölkənin, o cümlədən Qarabağ bölgəsinin qədim şəhəri Bərdənin inkişafına nail olmuşdur. Bərdə Cavanşirin hakimiyyəti dövründə siyasi baxımdan əhəmiyyətli bir şəhərə çevrilmiş, eyni zamanda iqtisadi və mədəni cəhətdən inkişaf etmişdir.

Azərbaycan tarixinin qədim dövrünün öyrənilməsində ən mötəbər və qiymətli yazılı mənbə olan, "Albanların tarixi" kimi qiymətli əsər də Cavanşirin hakimiyyəti dövründə yazılmağa başlamışdır. Həmin əsərin müəllifi Qarabağ ərazisində yaşamış, onun ictimai-iqtisadi və mədəni tarixi haqqında dəyərli məlumatları qələmə almışdır. Həmin əsər vaxtı ilə alban dilində yazılmış, sonra başqa dillərə tərcümə edilmişdir.

Alban hökmdarı Cavanşirin ölümünə ağı üslubunda şer həsr etmiş Dəvdək alban dilində yazmış ilk şairlərdən hesab edilir.

Ey ilahi kəlamları xəlq eyləyən ulu Tanrı,
Özün nəğmə-ağı söylə, yad et bizim hökmdarı.

Elə nəğmə-ağı qoş ki, bu əvəzsiz itki üçün
Gözümüzdən gecə-gündüz axsın odlu göz yaşları.

Otuzdan artıq bənddən ibarət olan bu şer yüksək bədii zövqlə yazılmışdır.

Alban kilsəsinin, alban kilsə məclislərinin 488-ci il Aquen və 705-ci il Bərdə qurultayının kanonik qərarlarını da alban tarixi-ədəbi ənənələrinin nümunələri sırasına daxil etməklə mənəvi tarix nümunələrinin məzmununun geniş olduğunu görə bilərik.

Bərdədə alban katolikosu Bəkirin zəngin kitabxanası olmuşdur. Həmin kitabxana erməni qriqoryan təriqəti tərəfdarlarının satqınlığı nəticəsində Tərtər çayına atdırılmaqla məhv edilmişdir.

### *12. Qarabağ ərazisində müsəlmanlığın qəbulu və yaranması hansı mənəvi mədəniyyət irsi doğurmuşdur?*

İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Çox keçmədən ölkənin hər yerində, o cümlədən Qarabağın qədim şəhəri-Arranın anası sayılan Bərdə şəhərində keçmiş dini ibadətlərə son qoyuldu. Yeni və mütərəqqi olan islam bütün dinləri üstələdi.

Xilafət hökmranlığı möhkəmləndikcə Bərdədə elmi və bədii kitablar, ümumiyyətlə, bütün əsərlər ərəb dilində yazılmağa başlanmış, xristian məktəblərini müsəlman mədrəsələri əvəz etmişdir. Çox yerdə məscid kompleksləri tikilmiş, Yaxın Şərq ölkələrində olduğu kimi, şəhər yeni üslubda yenidən qurulmağa başlanmışdı.

Xilafətin genişlənməsi və inkişaf etməsi ilə əlaqədar olaraq, ictimai, siyasi məsələlərin həll edilməsində yeni elmi biliklərin meydana çıxmasına zərurət yaranmışdı. Quran, sünnə, icma və qiyas müsəlman hüququnun əsasını təşkil etmişdi.

Həmin dövrdə “Bərdəi”, “Qarabaği” təxəllüsü ilə tanınmış onlarla mütəfəkkir yetişmiş, onların adı, şəxsiyyəti və yaradıcılığı haqqında məlumatlar tarixə çevrilmişdir. Təəssüf ki, onların əsərlərinin çoxu müxtəlif səbəblərdən itmiş, bizə gəlib çatmamışdır.

Azərbaycanda ictimai mühitin dəyişməsi mənəvi mədəniyyətdə də öz əksini tapmışdır. Siyasi sahədə mövcud olan vəziyyətin qeyri sabitliyinə və kəskinliynə baxmayaraq, həmin dövrdə iqtisadiyyat inkişaf etmiş, elm, ədəbiyyat və incəsənət əsl tərəqqi dövrü keçirmişdir. Həmin dövrdə müsəlman ölkələrində dini elmlərə üstünlük verilsə də, fəlsəfə, məntiq, riyaziyyat, astronomiya, musiqi və s. elmlərin inkişafına da diqqət yetirilmişdir. Elm öyrənmək istəyənlər Şərqin mədəniyyət mərkəzlərində fəaliyyət göstərən görkəmli mütəfəkkirlərdən təhsil almışlar. Orta

əsr mənbələrində onların adları, təhsili, yaradıcılığı, nüfuzlu müəllimləri və şagirdləri haqqında məlumat verilir.

İslam dininin əhatə etdiyi şəhərlərdən ərəb dilini bilən, elmə, mədəniyyətə və incəsənətə marağı olan şəxslər Şərqin mədəniyyət mərkəzlərinə gedir, təhsil və biliklərini artırır, bəziləri geri - öz vətənlərinə qayıdır, bir çoxu isə ya təhsil aldığı şəhərdə qalır, ya da başqa müsəlman ölkələrinə gedib fəaliyyət göstərirdilər. Mənbələrdə Yaxın Şərqi və Orta Asiyanın iri mədəniyyət mərkəzlərində - Bağdadda, Qahirədə, Dəməşqdə, Nişapurda, Şaşda (Daşkənddə) fəaliyyət göstərmiş bir çox qarabağlının adı çəkilir.

Mənbələrin verdiyi məlumata görə, tanınmış bir çox bərdəli alim hüquqa, fəlsəfəyə, dilçiliyə və digər elmlərə dair qiymətli əsərlər yaratmışlar. Tarixi faktdır ki, islamın yayıldığı Yaxın və Orta Şərq ölkələrində alimlərin yetişməsində Azərbaycan - qarabağlı mütəfəkkirlərin də xüsusi xidməti olmuşdur. Məsələn, (913-cü ildə) Əbülqasım Bətrani Misirdə Məhəmməd ibn Zeyd Bərdəinin mühazirələrini dinləmişdir. Məhəmməd ibn Zeyd ibn Yədəhdəvayh əl-Heysəm əl-Bərdəi ilk təhsilini Bərdədə almış, sonra Misirə gedərək uzun müddət orada yaşayıb, işləmişdir.

Səyyah və hədisçi Məkki ibn Əhməd Bərdəi (...?-965), xaricilər təriqətinin görkəmli nümayəndələrindən olan Əbu Bəkr Məhəmməd ibn Yəhya Hilali əl-Bərdəi, Dəməşqdə və Xilafətin başqa mərkəzlərində tanınmış hədis bilicisi Səid ibn Əmr Əbu Osman əl-Bərdəi daha məşhur olmuşdur.

Mənbələrdə "Hənəfilik" cərəyanının Azərbaycandakı nümayəndələrindən olmuş Əbu Səid Əhməd ibn Hüseyn Bərdəinin də adı çəkilir.

IX əsrdə yaşayıb, fəaliyyət göstərmiş Əbubəkr Məhəmməd ibn Abdullah Bərdəi, Əhməd ibn Ömər Əbül-Həsən əl-Bərdəi mötəbəralimlərdən olmuşdur.

Orta əsr qaynaqlarında IX-X əsrlərdə yaşamış hədisçi, fəqih Məhəmməd ibn Xalid Bərdəinin (...?-938) sufilərin sırasında Səid ibn Qasim Bərdəinin, Əbu Əli Hüseyn ibn Süfvan ibn İshaq ibn İbrahim Bərdəinin, Şərq ölkələrinin məşhur sufilərindən olmuş Əli ibn Əbdüləziz Bərdəinin (...?-997) adı çəkilir.

Qaynaqlarda XIII əsrdə sufilik cərəyanı tərəfdarı şair Şeyx İbrahim ibn Şihabəddin Gülşəni Bərdəi, XIV əsrin sonu - XV əsrin əvvəllərində yaşamış məhşur filoloq Sədullah əl-Bərdəi, ictimai xadim Abbas Bərdəi, XIV əsrdə dövrünün siyasi işlərində fəal iştirak etmiş, natiq və dövlət xadimi, filosof, ilahiyyatçı və hüquqşünas Qazı Məhiyyədin Bərdəi Bağdadda yaşamış Əbu-bəkr Əhməd ibn Harun Bərdici əl-Bərdəi, məşhur alim Əbu Bəkr Əbdüləziz ibn Həsən Bərdəi haqqında maraqlı məlumatlar verilir.

Bunlarla yanaşı, qeyd etmək lazımdır ki, həyatının çox hissəsini Qarabağda keçirmiş, əslən İsfahanlı (XV-XVI əsrlər) olan Fəzli Zeynalabdin xeyli müddət Bərdə və Arran hakimi Peykər xanın xidmətində olmuş, erkən yaşlarından tarixə böyük maraq göstərmişdir.

Sarı Aşıq Qarabağda yaşayıb, aşıq şerləri və bayatıları ilə çox tanınmışdır.

"Kitabi-tarixi-Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzani, "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərinin müəllifi Rzaqulu bəy Mirzə Camal oğlu, "Tarixi-cədidi-Qarabağ" əsərinin müəllifi Mirzə Rəhim Fəna, "Əhvalati-Qarabağ" əsərinin müəllifi Baharlı, "Şuşa şəhərinin tarixi" əsərinin müəllifi Həsən ixfa Əlizadə, "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları" əsərinin müəllifi Həsənəli Qaradabaği kimi tarixi, ədəbi-bədii, publisist əsərlərin müəllifləri qarabağlıdırlar.

Beləliklə, Şərq ölkələrinin çox hissəsini bürümüş müsəlman dünyasında məşhur olan elm adamlarının, ədiblərin sırasında Qarabağın müxtəlif bölgələrindən tanınmış mütəfəkkirlərin olması Qarabağın mənəvi mədəniyyət tarixinin tərəqqi dövrünü səciyyələndirir, mədəni həyatının ən parlaq, çiçəklənmə dövrünü anlamağa imkan verir. Bununla yanaşı, demək olar ki, qədim bünövrə üzərində təməl tapmış yüksək mədəniyyət Qarabağda mədəni inkişafın iki xarakterik xüsusiyyəti ilə özünü göstərmişdir. Qədim maddi mədəniyyətin yaradıcısı olan xalq həmin ənənələr üzərində mənəvi mədəniyyətin yaranması və inkişafına nail olmuş, bu mərhələlərin dinamik inkişafı ilə müşaiyət olunan mədəni səviyyə yaratmışdır.

***13. İnkişaf etmiş, son orta əsrlərdə və yeni dövrdə Qarabağın maddi mədəniyyətində nə kimi yeniliklər meydana çıxmışdır?***

Qarabağ ərazisində müsəlmanlıq dövründə çoxlu sayda məscid və minarələr inşa edilmişdir. Bununla bərabər burada xristian kilisiləri və digər dini məbədlər də saxlanmışdır. Yazılı mənbələrdə Bərdə şəhərində müsəlman məcidləri ilə yanaşı xristian (alban) kilsələrinin də göründüyü qeyd edilir. Buna Qarabağın müxtəlif yerlərində son dövrlərədək saxlanmış alban-xristian kilsələri əyani faktdır.

XI-XII əsrlərdə memarlığın əsas istiqamətlərini əks etdirən Şirvan-Abşeron, Naxçıvan-Marağa məktəblərinin geniş yayıldığı dövrdə Arran (Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirmişdir.

Memarlıq və şəhərsalma, dekarativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamışdır. Bu zaman epiqrafik abidələr də çoxalmışdır.

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam və s. inşa edilmişdir. Ağdamda imarətlər, Pənah xana və nəslinə aid kümbəzlər tikilmişdir.

Qarabağ xanlığının mərkəzi Şuşada yaşayış evlərinin, ictimai tikililərin interyerində divar naxışlarının gözəl və tipik nümunələri yaradılmışdır.

Füzuli bölgəsində Şeyx Babı Yaqubun (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki XIV əsrə aid edilən türbələr, Cəlal türbəsi (h.t.1307), Şeyx İbrahim türbəsi (XVII əsr), Əhməd Sultan türbəsi, Horadiz kəndindəki Cümə

məscidi, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında usta Şahbənzər tərəfindən tikilmiş (1314-cü il) 12 künclü türbə, Ağdam Cümə məscidi (1870), Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Kərbəlayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli "İmamzadə" məscidi (1868-ci il), Şuşa şəhərində Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarası, Culfalar məscidi, Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr) də tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir.

Şuşa şəhərində inşa edilmiş səkkiz bucaqlı türbə Azərbaycanda memorial tikililərin əsas növünü təşkil edirdi. Şuşa hal-hazırda işğal altında olduğuna görə həmin abidələrin taleyi indi dəqiq məlum deyil.Bərdədəki Bəhmən Mirzə türbəsi də XIX əsrə məxsus abidədir. Bəhmən Mirzə "Şükürnameyi-Şahənşah" və "Təzkireyi-Məhəmmədşah" əsərlərinin müəllifidir.

### *14. Qarabağın mənəvi mədəniyyətində son dövrlərdə hansı yeni əlamət və xüsusiyyətlər meydana çıxmışdır?*

Əvvəla onu qeyd etmək lazımdır ki, Qarabağ son orta əsrlərdə bir-birini əvəz edən müxtəlif adlı dövlətlərin tərkibində olmaqla öz tarixi ənənəsini saxlamış, mədəni həyatını davam etdirmişdir. XI-XII əsrlərdə bütün müsəlman şərqində olduğu kimi, Azərbaycanda, o cümlədən Qarabağda mədəniyyət, elm və ədəbiyyat yüksək inkişaf səviyyəsinə çatmışdı. Sonrakı dövrlərdə də Qarabağ mədəni mərkəz rolunu itirməmişdir.

Orta əsrlərin dəhşətli müharibələri ilə əlaqədar olaraq Qarabağ mədəniyyəti də böhranlı vəziyyətə düşmüşdür. Lakin sonrakı dövrlərdə Qarabağda mədəni həyat yenidən dirçəlmişdir. Qarabağ xanlığı dövründə bir çox qalalar tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmışdır.

XVIII əsrdə Qarabağın mərkəzi şəhəri Şuşada Qarabağ xanlığının baş vəziri şair Molla Pənah Vaqif və öz şerləri ilə Qarabağın mənəvi həyatını əks etdirən şerlər müəllifi şair Molla Vəli Vidadi yaşayıb fəaliyyət göstərmişlər.

Qarabağlı Mir Möhsün Nəvvab (1833-1918) öz dövrünün qabaqcıl, elmi və ədəbi-bədii yaradıcılığın müxtəlif sahələrində geniş fəaliyyət göstərən ziyalılarından idi. O, həm şair və ədəbiyyatçı, rəssam və xəttab, həm də dövrünün görkəmli maarifçisi, alimi və sənətkarı olmuşdur. O, “Məclisi Fəramuşan” adlı şairlər məclisinin təşkilatçısı və rəhbəri olmuş, Qarabağ şairlərinə həsr etdiyi "Təzkireyi Nəvvab", klassik şərq musiqisi haqqında "Vüzuhul-ərqam", astronomiya elminə aid “Kifayət-ül-Ətfal” və s. elmi və ədəbi-bədii əsərlər yazmışdır.

Qarabağ Azərbaycan ədəbiyyatının görkəmli ədibləri olan Qasım bəy Zakir, Xurşudbani Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov və Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi görkəmli mütəfəkkirlərin vətənidir.

Qarabağ xanının iqamətgahı Şuşa şəhəri Azərbaycan musiqisinin beşiyi, həmçinin saz-söz sənətinin ocaqlarından biri olmuşdur. Şuşa şəhəri Qarabağın konservatoriyası kimi tanınmışdır. Qarabağda aşıq-şairlər, - Xəstə Qasım, Valeh, Haqverdi, Məmmədağa, Şamil, Qəmbər, Nəcəfqulu, Abbasqulu, həmçinin hikmətli söz ustası, hazırcavablığı ilə tanınmış Abdal Qasım kimi yaradıcı şəxslər olmuşdur. Məşhur müğənnilər - Hacı Hüsü, Kərbəlayi Hüsü, Abdulbagi Hilalov, Ələsgər Fərzəliyev, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, peşəkar musiqiçilər - Sadıqcan, Ata Bağdaguloğlu, Qurban Pirimov kimi musiqiçilərin Qarabağın musiqi mədəniyyəti tarixində xüsusi yeri vardır. Qarabağ dünya mədəniyyəti tarixinə ensiklopedik biliyə, yüksək istedada malik olan və müsəlman aləmində operanın banisi Üzeyir bəy Hacıbəyov kimi dahi, Zakir Bağırov, Fikrət Əmirov, Zülfüqar Hacıbəyov, Süleyman Ələskərov, Əşrəf Abbasov, Soltan Hacıbəyov, Əfrasiyab Bədəlbəyli və Niyazi kimi böyük bəstəkarlar bəxş etmişdir.

Qarabağ təkcə Azərbaycan musiqi aləmində deyil, bütövlükdə Şərq dünyasının çox yerində tanınmış, həmçinin Qərb dünyası musiqi meydanlarına ayaq açmış, öz milli xüsusiyyətlərinə görə səs salmış "Qarabağ şikəstəsi", "Rast, "Seygah", "Cahargah" kimi muğamların, "Sarı gəlin" və "Apardı sellər saranı" kimi qədim mahnıların ana vətənidir. Qarabağda XIX-XX əsrlərdə bu muğam və mahnıların Zabul Qasım, Seygah İslam, Xan Şuşinski kimi məşhur ifaçıları olmuşdur.

Mən aşiqəm Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Öz taleyini Qarabağsız təsəvvür edə bilməyən bir qarabağlinin (İran şahına ərə verilmiş Qarabağ xanının qızı Ağabəyim Ağa) ah-naləsi ilə bağlı yaranıb tarixə çevrilmiş bu misralar da hər bir qarabağlının içindən gələn, vətənə, elə, obaya bağlı məhəbbət hissinin təzahürüdür.

### *15. Qarabağ abidələrinin bu günkü taleyi necədir?*

Yuxarı Qarabağ ərazisində yerləşən qədim tarixi abidələrimizin taleyi dəfələrlə təhlükə altında qalmışdır. Onların qorunub saxlanmasında az-çox imkanın olduğu dövrdə ermənilərin törətdiyi təxribatların qarşısını almaq çətin olduğu halda müharibə başlanan ərəfədə abidələrin qeydinə qalmağa imkan belə olmadı. Muzey eksponatları və kitabxanaların köçürülməsinə imkan verilmədi. Bundan istifadə edən erməni millətçiləri tarixi varlıqlarımızı məhv edərək izini itirmək planlarını həyata keçirdilər. Ermənilər beynəlxalq aləmdə "genosidə məruz qalmış xalq" kimi yalanlar, uydurmalar yaydıqları halda özləri Qarabağda əsl genosid həyata

keçirdilər. XX əsrin ən böyük faciəsini - Xocalı faciəsini törətdilər. Ermənilər rus hərbi birləşmələri ilə birlikdə Xocalı əhalisinin bir hissəsini vəhşicəsinə məhv etdikdən, qalanını didərgin saldıqdan sonra ulu əcdadlarımızın tarixi yaddaş rəmzi olan məşhur Xocalı qəbiristanlığını texnika vasitəsilə darmadağın etdilər. Mənfurlar Xocalıda və Şuşada bu vandalizmi ifrat dərəcəyə çatdırdılar. Azərbaycan mütəfəkkirlərinin heykəllərini avtomat güllələri ilə deşik-deşik edərək təhqir etdilər. Şuşa muzeylərini dağıtdılar.

Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası ermənilərin hərbi sursat anbarına çevrildi. Xalqımızın tarixi yadigarı olan Yelisey məbədi, Həsənriz məbədi və digər abidələrdə alban yazıları məhv edildi. Həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdıldı. Yelisey məbədində saxlanmış Alban hökmdarı III Vaçaqanın qəbri və sovməsindəki yazı tamamilə məhv edildi.

Vaxtı ilə ermənilər Qarabağ ərazisində gizlində həyata keçirdiklərini (abidələrə öz adını yazmaq planlarını) açıq-aşkar şəkildə həyata keçirmək üçün "geniş imkan" əldə etdilər. Tarixi, arxeoloji abidələrin yanında öz şəkillərini çəkdirib arxivlərə qoyan erməni fotoqraflarının "uzaqgörən" fəaliyyətlərini indi başqa şəkildə, həm də asanlıqla həyata keçirirlər. Azərbaycanın Qarabağ bölgəsinin tarixi abidələrinin şəkillərini özlərininki kimi kitabça və jurnallara daxil edib, utanmadan dünya ölkələrinə yayırlar.

# ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ

**Prof. h.e.d., KAMİL SƏLİMOV**
**Bakı Dövlət Universiteti, hüquq fakültəsi,**
**kriminalistika kafedrasının müdiri**



***1. Danışıqların başlandığı dövrdən etibarən Qarabağ münaqişəsinin tənzimlənməsində hər hansı bir nailiyyət əldə olunub mu?***

Məlumdur ki, dünya dövlətləri tərəfindən Qarabağ münaqişəsinin həllində müxtəlif səylər göstərilir, bir sıra təşəbbüslər irəli sürülür, müəyyən layihələr maliyyələşdirilir və ya onlara dəstək verilir. Son zamanlar daha da fəallaşmış əsas istiqamət məsələnin siyasi həllinə yönəldilmişdir. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeganə əldə edilən nailiyyəti 12 may 1994 - cü ildə atəşkəs haqqında tərəflər arasında bağlanan razılaşmanı hesab etmək olar. Lakin 10 il ərzində qüvvədə olan bu razılaşma bəzi qüsurlara malikdir ki, onlar da danışıqlar prosesinin lap əvvəlindən münaqişə tərəfləri arasında olan fikir ayrılığı və ziddiyyətlərin dərinləşməsi üçün zəmin yaradır.

***2.12 ildən artıqdır ki, ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi ilə məşğuldur. Nə üçün bu qrupun fəaliyyəti sayəsində indiyə qədər real nəticə əldə edilməmişdir?***

Bizdə artıq elə bir təsəvvür yaranıb ki, Minsk qrupunun həmsədrlərinin rolu konflikti öncədən dondurmaq olub, halbuki onlar bu qədər müddət ərzində münaqişənin tam aradan qaldırılması üçün real və səmərəli tədbirlər həyata keçirməli idilər.

Məsələyə bu cür yanaşmanın əsas səbəbi vasitəçi dövlətlərin Cənubi Qafqaz regionunda özlərinin birinci dərəcəli geosiyasi problemləri ilə bağlı arzularınının reallaşdırmasındadır. Əsas səbəblərdən biri də odur ki, Qarabağ probleminin həlli Minsk qrupu çərçivəsində böyük dövlətlərin diplomatik səyləri də daxil olmaqla "neqativ sülh"ün əldə edilməsinə istiqamətlənən prosesləri nəzərdə tutur. "Neqativ sülh" münaqişə zonasında hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutur. Lakin “neqativ sülh” konfliktin həll edilməsi üçün yetərli deyildir. Bu cür sülh böyük siyasi prosesin vacib bir hissəsidir və bəzən ənənəvi diplomatiya, həmçinin Minsk qrupunun fəaliyyəti həmin prosesin gedişatına az təsir göstərir və belə hal müəyyən nailiyyətin əldə olunmasına imkan vermir.

Lakin unutmaq olmaz ki, "pozitiv sülh" məfhumu da mövcuddur. Təəssüflə qeyd etmək lazımdır ki, Minsk qrupu bu cür sülhü qəbul etmir. "Pozitiv sülh" regionda "neqativ sülh"lə müşahidə olunan proseslərin məhdudlaşdırılmasına yönələn hərbi münaqişənin daxili və struktur səbəblərinin və şərtlərinin aradan qaldırılmasını nəzərdə tutur. Bununla bağlı qeyd etmək lazımdır ki, Minsk qrupu müstəqil institut kimi çıxış etmir: vasitəçilərin atdığı hər bir addıma sanksiya verilir və sözsüz ki, həmsədr ölkələr olan Rusiya, ABŞ və Fransa tərəfindən həyata keçirilir.

Əslində Minsk qrupu yaranan gündən Dağlıq Qarabağa aid olmayan cürbəcür siyasi oyunlar oynayan, daha çox Cənubi Qafqaz regionunun müasir geosiyasi proseslərini öyrənən bir mərkəzə çevrilmişdir. Həmsədr dövlətlər Minsk qrupu vasitəsi ilə özlərinin geosiyasi məqsədlərini həyata keçirməyə çalışaraq, bu

və ya digər məsələlər üzrə konkret siyasi qərarlar müəyyənləşdirirlər. Bu səbəbdən Rusiya, ABŞ, Avropa İttifaqı və NATO-nun (üstəlik İran və Türkiyə arasında mövcud olan regional ziddiyyətləri də əlavə etsək), strateji maraqlarının toqquşması elə bir mürəkkəb və çoxaspektli şəraitin yaranmasına gətirib çıxarmışdır ki, artıq Dağlıq Qarabağla bağlı hər cür danışıqlar böyük geosiyasi krizisə gətirib çıxarmışdır. Adı çəkilən dövlətlər üçün öz növbəsində beynəlxalq təşkilatlardan Avropa strukturlarından, indiki halda Minsk qrupunun köməyindən istifadə etmək sərfəlidir, çünki bu cür birgə tədbirlər ümumi məsuliyyətin bölünməsinə gətirib çıxarır, bu isə məsuliyyəti hər hansı bir müəyyən dövlətin üzərinə qoymaqdan daha münasibdir.

***3. Belə vəziyyətdə Minsk qrupu müvəffəqiyyət əldə etmək üçün konkret olaraq nə etməlidir?***

Belə düşünülür ki, vasitəçilər başqa istiqamətdə hərəkət etməlidirlər, mübahisə ilə nəticələnən daxili problemlərə daha ciddi fikir verməli, mübahisələri ilkin mərhələdə tənzimləməlidirlər. Çünki müəyyən yollardan və diplomatik üsullardan vaxtında istifadə etmək, münaqişə vəziyyətinə vaxtında təsir göstərmək irimiqyaslı böhranın inkişafının qabağını alır. Minsk qrupu "qoruyucu mexanizm" qurmaq, münaqişəni ilkin mərhələdə aşkar etmək üçün şərait yaratmaq, həmçinin regiondakı hərbi-siyasi vəziyyətin gərginləşməsinin qabağını almaq və bunun üçün daha səmərəli tədbirlər görmək imkanına malik olduğu halda, bu imkanlardan lazımınca istifadə etmədi. Bundan əlavə, öz dövlətlərinin adından istifadə edən Minsk qrupunun vasitəçiləri əvvəldən qalib və məğlub olan tərəfləri nəzərdə tutan qarşıdurma yolunu seçərək "neqativ sülh"ə can atırlar. Üstəlik vasitəçi dövlətlər münaqişə tərəfləri arasında olan ziddiyyətləri aradan qaldırmaq əvəzinə, daha çox regionda geosiyasi rəqabət çərçivəsində, öz nüfuzları ilə bağlı problemlərini həll edirlər. Beləliklə, regionda bu gün üçün mövcud olan mürəkkəb geosiyasi şəraitdə "pozitiv sülh" əldə edilməzsə, "neqativ sülh" də asanlıqla pozula bilər. Bu isə hər halda hərbi əməliyyatların yenidən başlanmasına təkan verər. Bu prosesin sonu olmaya bilər və Dağlıq Qarabağ ətrafında yaranan böhran vəziyyəti buna sübutdur. Məlumdur ki, Dağlıq Qarabağda sürən 10 illik "neqativ sülh"ün hər zaman pozulmaq təhlükəsi var. Bunun səbəbi münaqişə tərəflərinin dünya dövlətlərinin səylərinə baxmayaraq, "pozitiv sülh"ü əldə edə bilməməsidir. Minsk qrupu daha öncədən təcavüzkar və zərərçəkən tərəflər arasında balans rolu oynayaraq, problemə düzgün yanaşmayaraq, ciddi səhvlərə yol verdi. Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyasının qeyri-ardıcıllığı ilk növbədə nizamlanma prinsiplərinin, həmçinin problemin həllinə böyük kömək göstərə bilən əsas beynəlxalq hüquqi normaların sistem şəklində olmaması ilə bağlıdır. Hazırki zamana qədər Qarabağ probleminin həllində siyasi prinsiplərə üstünlük verən Minsk qrupunun diplomatları, nadir hallarda məsələnin müəyyən hüquqi aspekti olmasını qeyd edirlər. Vasitəçilər diqqətlərini problemin siyasi aspektlərinə

yönəldərək, bu problemdən istədikləri kimi istifadə edirlər. Aydın olur ki, Minsk qrupunun üzvləri və xüsusilə həmsədrləri problemlə bağlı öz mövqelərini dəyişməsələr, gələcək on ildə də məsələnin qəti həllini gözləmək olmaz. Unutmaq olmaz ki, bu gün tərəflər arasında sülh haqqında yox, atəşkəs haqda zəif razılaşma var. Nəzərə alsaq ki, atəşkəs rejimi tez-tez pozula bilər, onda Minsk qrupunun üzvləri üçün məsələyə dair ciddi və qlobal yanaşması zərurəti meydana çıxır. İrəli sürülən fikirlər ATƏT-in Minsk qrupunun Rusiya üzrə həmsədri olmuş diplomat V. Kazimirovun rəyi ilə də üst-üstə düşür. Bununla belə, qeyd etmək lazımdır ki, Kazimirov məsələyə bir qədər başqa cür yanaşır. Rusiya diplomatı Ermənistanın münaqişəyə müəyyən "aidliyini" qeyd edərək, nisbətən yaxın zamanda hər iki tərəf üçün balanslaşdırılmış güzəştlər təklif edir ki, bu da onun fikrincə, məsələnin həllində minimal irəliləyiş üçün zəmin yaradır. Bu günün reallığı belədir. Görünür ki, bu reallıq Rusiyanın və ola bilsin Minsk qrupunun digər həmsədrlərinin Azərbaycana dair rəsmi mövqeyini əks etdirir. Güman ki, Dağlıq Qarabağ münaqişəsində hər iki tərəfin "eyni dərəcədə məsuliyyət daşıdığını" iddia edən ATƏT-in Minsk qrupu qəsdən münaqişənin birbaşa təşəbbüskarı olan Ermənistanı məsuliyyət daşımaması üçün şərait yaradır və onun münaqişədə olan rolunu yalnız "maraqlı tərəf" statusuna endirir. Burada əvvəldən məsələyə hüquqi deyil, siyasi spektrdə baxılması aydın olur. Nə qədər paradoksal olsa da, Ermənistan özü də bu cür mövqenin saxlanılmasında maraqlıdır. Bu faktı mərhum prezident H. Əliyev jurnalistlərlə görüşündə qeyd etmişdir: "Münaqişədə Ermənistanın rolunu təyin etmək mümkün deyil. Lazım olan şəraitdə Ermənistan bəyan edirki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycana qarşı milli-azadlıq mübarizəsi aparırlar və bunun Ermənistana heç bir aidiyyatı yoxdur. Digər bir vəziyyətdə isə xüsusilə, daxili siyasi həyatımızda Ermənistan münaqişədə birbaşa iştirakını inkar etmir".

Problemlərin sayının artması heç də onların real həllindən qaçması demək deyildir. Əksinə, bu vəziyyət Qarabağ ətrafındakı mövcud vəziyyətdən çıxış yolları tapmağı və qlobal mənada geosiyasi dönüş etməyi zəruri edir. Sözsüz ki, çıxış yollarından biri güc təsirlərindən istifadə etməkdir. Məhz münaqişə zonasında işğal olunmuş əraziləri azad etmək üçün hərbi əməliyyatların başlanması tələb olunur. Bu konteksdə prinsip etibarilə münaqişənin həlli üçün güc vasitələrini bir üsul kimi mümkün olan vasitələr sırasından istisna etmək olmaz. Sülh vasitələri səmərəli olmazsa, qanun çərçivəsində güc vasitələrinin istifadəsinə bəraət qazandırmaq mümkündür. Hüquqi baxımdan məsələnin Minsk qrupundan alınaraq yenidən BMT-nin səlahiyyətinə qaytarılması da mümkündür.

***4. Güc vasitələrini konkret olraq necə təsəvvür etmək olar? Buna müharibə adı vermək olarmı?***

Taktiki nöqteyi-nəzərdən münaqişənin tənzimlənməsinin müxtəlif variantı ola bilər. Güc vasitələrinin müxtəlif formaları mövcuddur. Məsələn, terrorist

qrupları və separatçı "liderləri yaxalamaq, "sülh dəhlizləri" yaratmaq və münaqişəni törədən şəraitə təsir edə bilən sülhməramlı qüvvələrin müdaxiləsi buna aid ola bilər. Lakin söhbət ərazi bütövlüyünün bərpasından gedərsə, əməliyyatı başlamaq çox asandır. Gec-tez iki qonşu dövlət arasında əldə ediləcək sülhə və həmçinin müharibəyə mütləq hazır olmaq lazımdır. Belə olan halda bir sıra dövlətlərin, və güman ki, Rusiyanın Ermənistana maddi-texniki və başqa yardımları da nəzərə alınmalıdır. Ermənistanla ümumi sərhədi olan başqa bəzi ölkələr də ona öz köməyini əsirgəməyəcək.

Həmçinin unutmamaq lazımdır ki, Azərabycanın hər bir hərəkəti dünya ictimaiyyəti tərəfindən rəsmi Yerevanın interpretasiyasında Dağlıq Qarabağda yaşayan erməni azlıqlarına qarşı növbəti türk genosidi kimi qiymətləndiriləcək.

Hadisələr bü cür cərəyan edərsə, böyük Qərb dövlətləri Avropa strukturlarından əlavə Rusiyanın davranışının nə cür olacağı aydındır. Rusiya onun keçmiş prezidenti B. Yeltsinin 1992 - ci ildə qurduğu ssenarini təkrar edə bilər. O zaman Moskva hökuməti Azərbaycanı dəmiryol və avtomobil blokadasına salmışdı ki, bunun ərazilərin itirilməsində böyük rolu olmuşdur. Digər tərəfdən, Azərbaycan Gürcüstanda yaranmış mürəkkəb şəraitdə onun ərazisinə keçən və Qərbə çıxışı olan dəniz və avtomobil kommunikasiyalarından mütəmadi olaraq istifadə edə bilməsi sualı meydana çıxır.

Bir daha qeyd etmək lazımdır ki, Azərbaycan rəsmiləri ən yüksək səviyyədə bu münaqişəni sülh yolu ilə həll etmək niyyətində olduqlarını bildirir və bu istiqamətdə bütün addımlarını atacaqlarını qeyd edirlər. Bununla belə, onlar öz çıxışlarında qeyd edirlər ki, sülh yolu münaqişənin ədalətli həllində nəticə verməzsə, Azərbaycan işğal olunmuş ərazilərini öz silahlı qüvvələrinin keçirdiyi əməliyyatlar vasitəsilə azad etməyə məcbur olacaq.

### *5. Konkret nailiyyətlər əldə etmək üçün nə etmək lazımdır?*

Əsas məsələ odur ki, Azərbaycan öz problemlərini həll etmək üçün siyasi dayaq və beynəlxalq hüquqi sanksiyalar əldə etməlidir. Hər şeydən öncə, Dağlıq Qarabağda beynəlxalq cinayət baş verməsinin etiraf olunması zəruridir. Bununla bağlı, əvvəlcə Dağlıq Qarabağda baş verən cinayət xarakterli aksiyalar beynəlxalq hüquq pozuntusu kimi yox, beynəlxalq cinayət kimi qiymətləndirilməlidir. Əslində söhbət burada Ermənistanın Azərbaycana qarşı aşkar təcavüzünü sübut edən, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozan Ermənistan Respublikasının qanunverici və icraçı orqanlarının qərarlarının analizinin zəruriliyindən gedir. Bununla birgə marionet "Dağlıq Qarabağ ordusu"nun qanunsuz hərbi dəstələrinin hərəkətlərinin terrorçu və millətçi-separatçı xarakter daşımasına hüquqi qiymət verilməlidir. Ermənistanın qanunverici və normativ aktlarının analizi və həmçinin "Dağlıq Qarabağ ordusunun fəaliyyətinin qiymətləndirilməsi bizə beynəlxalq strukturların nəinki Ermənistanın təcavüzünü

etiraf etməsini, hətta ona qarşı siyasi və iqtisadi sanksiyaların həyata keçirilməsi üçün hüquqi əsası olduğunu deməyə imkan verir.

Bu gün beynəlxalq strukturların Ermənistanı təcavüzkar kimi tanıması ona və qondarma Dağlıq Qarabağ ordusuna qarşı siyasi və iqtisadi sanksiyaların tətbiq etmələrini zəruri edir. Bu, Azərbaycana Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonların azad olunması üçün güc vasitələrindən istifadə etməyə imkan verir. Faktiki olaraq, söhbət güc təsirlərinin vasitəsilə humanitar aksiyaların həyata keçirilməsindən gedir. Biz hüquqi kvalifikasiya problemini təfsilatı ilə açıqlamaq fikrində deyilik. Bütün ssenarilərin inkişafında xüsusi rol oynayan bir faktoru qeyd etmək istərdik. Əgər tərəflər arasında sülhün tənzimlənməsi baş tutmazsa, hərbi əməliyyatlar başlayıb və dayanarsa, Azərbaycan və Erməni millətindən olan qaçqın və məcburi köçkunlərin öz torpaqlarına qaytarılması və onların təhlükəsizliyini təmin etmək zərurəti yaranarsa, beynəlxalq sülhməramlı qüvvələrin münaqişə zonasına daxil olması məsələsi aktuallaşar.

Əlavə olaraq, bir çox ölkələrin xarici siyasətlərinin ayrılmaz hissəsini təşkil edən münaqişələrin hər inkişaf mərhələsində onların tənzimlənməsi üzrə beyənlxalq nəzarət təcrübəsini də dərindən araşdırmaq lazımdır. Bununla bağlı, ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində tamamilə yeni bir strategiya hazırlamalıdır. Məsələn, müasir beynəlxalq hüquq praktikasında münaqişəni müəyyən edən elementlər mövcuddur: münaqişənin qabağının alınması, onun idarə olunması, həlli və onun transformasiyası bura aid ola bilər. Sadaladığımız elementlər isə öz növbəsində münaqişənin meydana gəlməsi və inkişafının müxtəlif mərhələləri ilə bağlıdır. Ermənistanın Azərbaycana qarşı apardığı siyasətinin destruktiv elementlərini və separatçı rejimin "Dağlıq Qarabağ ordusu"nun vasitəsilə həyata keçirdiyi və onun beynəlxalq cinayət kimi qiymətləndirilə bilən fəaliyyətini nəzərə alaraq, Azərbaycanın BMT-dən "aralıq vəziyyət" kimi bir mövqeni xahiş etməsi zəruridir. Bu "aralıq vəziyyət" müasir beynəlxalq təcrübədə "sülh proseslərinin həyata keçirilmə tədbirləri" və ya "sülhə məcburetmə tədbirləri" adlandırılır. Bu tədbirlər münaqişənin təşəbbüskarının razılığı olmadan həyata keçirilir və BMT-nin sülhməramlı kontingenti çərçivəsində güc aksiyalarından istifadə edilməklə reallaşır.

***6. Göstərilən beynəlxalq təcrübədən hansı misalları çəkə bilərsiniz?***

ABŞ-nın liderliyi ilə BMT üzvləri olan dövlətlərin koalisiyasının 1991-ci ildə Küveyti İraq təcavüzündən azad etmək uğrunda apardığı hərbi əməliyyatları buna ən yaxşı misal ola bilər.

Sülhün qorunub saxlanması hərbçilərin sülhməramlı fəaliyyətlərini, konkret olaraq tənzimləmə prosesini asanlaşdırmaq məqsədilə hərbi kontingentin genişlənməsini nəzərdə tutur. BMT TŞ - nın bu prosesi asanlaşdıra bilən və Ermənistanı zəbt olunmuş torpaqları azad etməyə məcbur edən 4 qətnaməsi mövcuddur.

### *7. BMT tərəfindən qəbul olunmuş qətnamələrin əsas məğzi nədədir?*

Yuxarıda göstərilən əsaslardan başqa BMT TŞ-nın qəbul etdiyi 4 qətnamə antiterrorist əməliyyatların keçirilməsində beynəlxalq sanksiya sayıla bilər.

BMT TŞ-nın 3205 iclasında qəbul olunmuş 822 saylı (aprel 1993-cü il) qətnaməyə görə Kəlbəcər rayonundan yerli erməni qüvvələrinin və həmin sənədin birinci bəndinə görə isə Azərbaycanın digər zəbt olunmuş əraziləri tərk etməsi tələb olunur.

BMT TŞ-nın 259-cu iclasında qəbul olunmuş 853 saylı (iyun, 1993-cü il) qətnaməyə əsasən münaqişədə iştirak edən erməni işğalçılarının tez bir müddətdə hərbi əməliyyatları dayandırması, Ağdam və başqa zəbt olunmuş rayonların ərazisindən qəti surətdə çıxarılması tələb olunur.

BMT TŞ-nın 3292 iclasında qəbul olunmuş 874 saylı (oktyabr, 1993 - cü il) qətnaməyə əsasən bir daha erməni qüvvələrinin zəbt olunmuş ərazilərdən çıxarılması zəruriyyəti təsdiq olunur.

BMT TŞ - nın iclasında qəbul olunmuş 884 saylı (noyabr, 1993-cü il) qətnamə Dağlıq Qarabağ ermənilərini Azərbaycan Respublikasının Zəngilan rayonu, Horadiz şəhəri və digər zəbt olunmuş əraziləri azad etməyə çağırır.

Beləliklə, bu gün yuxarıda adı çəkilən BMT sanksiyalarına uyğun olaraq, Azərbaycanın işğal altında olan ərazilərində antiterrorist əməliyyatlar keçirməyə hüququ var, bu da Dağlıq Qarabağın azad olunması uğrunda ilk mərhələ ola bilər. (bax: I, sual 57; IV, sual 8)

### *8. Ermənistanın hərəkətlərini necə qiymətləndirmək olar?*

Şübhəsiz ki, Ermənistan bu münaqişədə birbaşa təcavüzkardır. Bundan əlavə Ermənistan həmçinin dövlət terrorizmi siyasəti yürüdür. Məlum olduğu kimi, beynəlxalq ictimaiyyət tərəfindən bu cür hərəkətlər pislənilir. Xüsusilə, BMT - nin baş Assambleyası özünün 27 - ci sesiyasında 30/34 saylı qətnamə qəbul edərək, beynəlxalq terrorizmi pisləmiş, özünün 39 - cu sesiyasında isə qəbul edilmiş 35/159 saylı qətnamədə "Digər suveren dövlətlərin siyasi - ictimai quruluşunu poza bilən dövlətlərin hər hansı bir hərəkəti və dövlət terrorizmi siyasətini aparmasının yol verilməzliyi" bəyan edilirdi. Dövlət terrorizmi ilə mübarizə siyasəti problemi 9 dekabr 1994 - cü ildə qəbul olunmuş "beynəlxalq terrorizmi aradan qaldırmaq tədbirləri" bəyannaməsində öz əksini tapmışdır. Bu sənədin 2.1 bəndində qeyd olunur ki, dövlətlər BMT nizamnaməsinin məqsəd və prinsiplərini əsas tutaraq, digər beynəlxalq hüquq normalarına uyğun olaraq, başqa dövlətin ərazisində terror aktlarını törətməkdən qaçmalı, bu aktlara dəstək və köməkdən imtina etməli və həmçinin öz ərazilərində belə hallara imkan verən, onları belə aktlara həvəsləndirən hallara qətiyyətlə etiraz etməlidirlər.

Sonradan analoji mövqe öz əksini 1994 - cü ildə qəbul edilən "Beynəlxalq terrorizmi aradan qaldırma tədbirləri" bəyannaməsini tamamlayan bəyannamədə öz əksini tapmışdır. Bu sənəddə yenidən dövlət terrorizmi siyasəti pislənmişdir.

Ermənistan Respublikasının dövlət terrorizmi təcrübəsi faktını nümayiş etdirən misalları gətirmək üçün uzağa getmək lazım deyil.

1. Ermənistan SSR - nin Ali Soveti 15 iyun 1988 - ci ildə Azərbaycan Respublikası Dağlıq Qarabağ muxtar vilayətinin Ermənistan SSR-yə birləşdirmək haqda qərar qəbul etmişdir (1988, 11 saylı qərar, səh. 156- 157).

2. Bununla birgə, suveren dövlət statusu aldıqdan sonra da indiki Ermənistan Ermənistan SSR-nin hüquqi varisi kimi məlum anti-konstitusion qərarı ləğv etməmişdir.

3. Bundan əlavə, hələ də Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır. Maraqlı burasındadır ki, erməni tərəfi mövzu ətrafındakı söhbətlərdən boyun qaçırır.

4. Daha sonra Ermənistan etiraf edir ki, Dağlıq Qarabağın iqtisadiyyatını və dövlət strukturlarını özünə tabe etmişdir.

5. Başlıcası budur ki, o, Dağlıq Qarabağdakı silahlı münaqişədə iştirak edir, bu regiona terrorçu qruplar və hərbi birləşmələr göndərir, həmçinin yerli erməniləri silahla və hərbi texnika ilə təmin edərək, onlara hər cür kömək göstərir.

6. Ermənistan Dağlıq Qarabağda özünün daimi ordu birləşmələrini saxlayır.

7. Belə bir faktora fikir verək. BMT TŞ - nın adı çəkilən 4 qətnaməsində Ermənistan Respublikası Qarabağ münaqişəsində maraqlı tərəf kimi təqdim olunur. Qəbul olunan bütün qətnamələrdə BMT TŞ dünya dövlətlərini Dağlıq Qarabağa silah və hərbi sursat göndərməkdən imtina etməyə çağırır. 11 noyabr 1993 - cü il tarixli 884 saylı qətnamənin 2-ci bəndində "Ermənistan hökumətinin Qarabağ ermənilərinə təsiri"ndən və bu "iştirakçı qüvvələrə hərbi kampaniyanı davam etdirmək üçün heç bir vasitə ilə kömək etməmək" zəruriyyətindən danışılırdı.

Beləliklə, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Ermənistanın Azərbaycana qarşı apardığı dövlət terrorizmi siyasətinin əlamətləri birbaşa olaraq qeyd edilir. Belə düşünülür ki, bu sübutları təcili ümumiləşdirib, beynəlxalq təşkilatlara və yaxud BMT - yə müvafiq sənədlərlə müraciət etmək lazımdır ki, beynəlxalq ictimaiyyət Ermənistanı təcavüzkar dövlət kimi tanımaqla bərabər, dövlət terrorizmi siyasətini həyata keçirən dövlət kimi qəbul etsin. Məsələnin müsbət həlli olarsa, Ermənistan avtomatik olaraq, bu cür dövlətlərin siyahısına daxil olacaq və bu da dərhal beynəlxalq təşkilatlar tərəfindən ona qarşı "iqtisadi və siyasi" sanksiyaların tətbiqinə gətirib çıxaracaq.

Bu məsələdə beynəlxalq terrorizmlə bağlı BMT - nin və Avropa Şurası Xüsusi Komitəsinin, həmçinin beynəlxalq terrorizmlə bağlı Beynəlxalq Hüquq Assosasiyasının çərçivəsində fəaliyyət göstərən Beynəlxalq Terrorizmlə Mübarizə Komitəsinin qüvvəsindən və imkanlarından daha fəal istifadə etmək lazımdır.

Bu mənada həmçinin dünya dövlətlərinin beynəlxalq hüquq prinsipləri çərçivəsində Ermənistana və "Dağlıq Qarabağ ordusuna qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq etmələri mümkün sayıla bilərdi. Şübhəsiz ki, bu fəaliyyət

müxtəlif taktiki vasitələr, güc aksiyalarından başlayaraq, siyasi tədbirlərə, iqtisadi təzyiqdən sosial-mədəni proqramlaradək olan sahəni əhatə edə bilər.

### *9. Mövcud vəziyyətin bu cür olmasının əsas səbəbi nədədir?*

Münaqişənin həlli yollarının siyasi aspektlərinə toxunmayaraq, hadisələrin hüquqi qiymətləndirilməsində əsas olan və buna uyğun olaraq problemin beynəlxalq hüquq mexanizmi çərçivəsində həll edilməsini təmin edən vahid konsepsiyanın olmamasını qeyd etmək istərdik. Bu haqda vahid konsepsiya yoxdur. Dağlıq Qarabağ hadisələri maraqlı tərəflərin vasitəsilə yaradılan süni xaos nəticəsində cərəyan edirdi. Bir-birini nəinki tamamlamayan, hətta ziddiyyət təşkil edən müxtəlif bəyanatlar və qərarlar qəbul olunurdu. Böyük təəssüflə qeyd etmək lazımdır ki, ölkənin parlamenti qarşıdurma tərəfləri haqqında heç bir qərar qəbul etməmişdir. Hər şeydən əvvəl Ermənistanın və separatçı rejimin münaqişədə rolu və onların hər ikisinin münaqişədə qarşılıqlı münasibətləri müəyyən olunmalıdır.

Dağlıq Qarabağ münaqişəsinin təşkilatçıları hər bir məsələdə özlərinin "ağıllı" təkliflərini irəli sürürlər. Bu təkliflər Azərbaycan tərəfindən qətiyyən qəbul olunmur, lakin təəssüf ki, beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir. Bu səbəbdən Dağlıq Qarabağda və onun hüdudlarından kənarda olan vəziyyəti bir daha araşdırmaq və ilk növbədə Dağlıq Qarabağda hüquqi nöqteyi-nəzərdən Azərbaycana qarşı hansı qüvvələrin çıxış etdiyini müəyyən etmək zəruridir.

***1-ci versiya.*** Ermənistanın hüquqi aspektdən Dağlıq Qarabağda olan fəaliyyətinin ilkin mövqeyi. Azərbaycan münaqişə dövründə Ermənistanın onun ərazisinin bir hissəsini zəbt etmə mövqeyində dayanmışdır. Bu faktın sübuta ehtiyacı yoxdur. Ermənistan rəsmi səviyyədə birmənalı olaraq, münaqişədə öz marağı olduğunu bəyan etmişdir. Ermənistanın müstəqil Azərbaycana qarşı hərəkətlərinin beynəlxalq təşkilatlar - BMT və bir çox başqa dövlətlər tərəfindən təcavüz aktı kimi qiymətləndirilməməsi heyrət doğurur. Əksinə, bəzi dövlətlərin Ermənistanın "dərdinə şərik olması", ona köməyi və dəstəyi nəzərə çarpır. Məsələn, Fransa parlamenti erməni genosidini tanımış, ABŞ, Rusiya və başqa dövlətlərin də qanunverici orqanlarında məsələ bu cür qoyulur. Bu vəziyyətdən çıxış yolu nədədir? Azərbaycan BMT və Avropa Şurasının üzvü olaraq bu münaqişənin həll edilməsi istiqamətində nə əldə edə bilər? Heç bir faktı nəzərə almayaraq, indiyə qədər Azərbaycan hökumətinin səylərinə baxmayaraq, BMT və beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın Azərbaycana qarşı təcavüzü rəsmiləşdirilməmişdir.

1.1. Azərbaycan Ermənistan tərəfindən edilən təcavüz aktını vaxtında sübut edə bilməmişdir, çünki Dağlıq Qarabağ ərazisində və onun ətrafında Ermənistanın daimi qoşunlarının yerləşməsini sübut edən dəlillər kifayət qədər əldə yox idi. Bu vəziyyətin səbəbi 1992-1993 - cü illər ərzində Azərbaycanın bu prosesi nəzarətdə saxlamasının mümkün olmamasıdır.

1.2 "DQR"-in nümayəndələri Dağlıq Qarabağ və onun hüdudlarından kənarda Ermənistanın daimi qoşunlarının olmamasını rəsmi bəyan edirlər. Onlar münaqişədə Dağlıq Qarabağ ordusunun iştirakını təsdiqləyirlər.

1.3 Azərbaycan tərəfi tez-tez xatırladır ki, Ermənistanın təcavüz aktı BMT TŞ-nın 4 qətnaməsində öz əksini tapmışdır. Qəbul olunan bu qətnamələrin mətnlərini diqqətlə nəzərdən keçirsək, Azərbaycana qarşı təcavüz faktı qeyd edilmir. Məsələn, 11 aprel 1993-cü il tarixli 822[1]-li qətnamədə Azərbaycan və Ermənistan arasındakı münasibətlərin pisləşməsi qeyd olunur. Bu sənəddə Ermənistan Respublikasının qeyri-nizami qoşunlarının və yerli erməni qüvvələrin Kəlbəcər rayonunun ərazisinə müdaxiləsi təsdiq olunur.

- BMT TŞ-nın 3259-cu iclasında 29 iyul 1993 tarixdə qəbul olunan 853 nömrəli qətnamədə erməni işğalçı qüvvələrinin Ağdam rayonu ərazisindən çıxmasının zəruriliyi qeyd olunur, lakin bu sənəddə Ermənistanın qeyri-nizami dəstələrinin iştirakı barədə heç bir məlumat verilmir.

14 oktyabr, 1993-cü il tarixli 874[1]-li qətnamədə yenidən işğal olunmuş ərazilərin azad edilməsi zərurəti təsdiq olunmuşdur.

11 noyabr, 1993-cü il tarixli 874[1]-li qətnamədə Zəngilan rayonu və Horadiz şəhərinin işğalı, dinc əhaliyə qarşı hücum faktı ilə bağlı Qarabağ ermənilərindən əraziləri boşaldılması zərurətindən söhbət gedir.

Beləliklə, BMT Dağlıq Qarabağın və ondan kənar ərazilərin Ermənistanın qeyri-nizami qoşunları tərəfindən deyil, Dağlıq Qarabağın silahlı dəstələri tərəfindən işğalını təsdiqləyir, bu da münaqişənin hüquqi tənzimləmə mexanizminin müəyyənləşməsində vacib bir məqamdır. Əgər söhbət ermənilərin silahlı dəstələrindən gedirsə, (söhbət Dağlıq Qarabağ ordusundan gedir), o zaman bu münaqişə ölkədaxili münaqişə kimi qiymətləndiriləcək. Əgər Dağlıq Qarabağ ərazisi Ermənistanın nizami silahlı qoşunları tərəfindən işğal olunması hüquqi cəhətdən təsdiq olunarsa, münaqişə beynəlxalq və ölkələrarası münaqişə kimi qiymətləndiriləcəkdir.

### *10. Bu məsələdə Ermənistan Respublikasının mövqeyi necədir?*

Ermənistan Respublikası bu məsələdə müxtəlif mövqeli rol oynayır. Ermənistan bütün diplomatik forumlarda, kütləvi informasiya vasitələrində rəsmi olaraq, Dağlıq Qarabağ hərbi münaqişəsində özünün birbaşa iştirakını inkar edir və hətta bu ölkənin prezidenti R. Köçəryan Azərbaycan və Ermənistan Avropa Şurasına daxil olan zaman keçmiş prezident L. Ter-Petrosyanın mövqeyindən çıxış edərək demişdir ki, Azərbaycan ərazisində Ermənistanın nizami qoşunları yoxdur və ən əsası da odur ki, Dağlıq Qarabağ problemi Azərbaycanın daxili problemidir.

Azərbaycan da Qarabağ ermənilərinin "DQR" ordusunun silahlı birləşmələrində iştirakını inkar etməməlidir. Azərbaycan Qarabağda yaşayn bütün millətlərə mənsub olan, Azərbaycan vətandaşlarının hamısına hörmətlə yanaşır, lakin bununla birgə onlara qarşı hər növ silahlı qeyri-qanuni terrorçu birləşmələrlə

barışmaz mübarizə aparır. Münaqişənin müxtəlif mərhələlərində azərbaycanlılar silahlı dəstələrə müxtəlif adlar vermişlər; döyüşçü-bandit dəstələri, cinayətkar elementlər, millətçi separatçılar və s. Erməni tərəfi isə onları Dağlıq Qarabağ vətəndaşlarının milli azadlığı uğrunda və öz müqəddəratını həll etmək hüququ naminə milli azadlıq hərəkatı kimi təqdim edirlər. Bu hüququ onlar BMT nizamnaməsinin 1-ci maddəsinin 2-ci paraqrafı ilə əsaslandırırlar. Bu məsələ ilə bağlı Ermənistan Azərbaycan ərazisində keçirilən silahlı əməliyyatlarda özünün birbaşa iştirakını inkar edərək, Qarabağ ermənilərinə yardım faktını boyunlarına alır. Erməni liderləri və onların ideoloqları cinayətkar hərəkətlərinə bəraət qazandırmaq üçün Dağlıq Qarabağdakı terrorçu fəaliyyəti milli-azadlıq hərəkatı kimi qiymətləndirməyə çalışırlar. Hərçənd ki, ermənilər artıq millət kimi formalaşmışlar, öz suveren dövlətlərini qurmuşlar, lakin onlar bu faktın üstündən keçirlər.

Bir millətin nümayəndələri suveren dövlət yaratmışsa, onun başqa bir dövlətin ərazisində kütlə şəklində yaşasa da, həmin ərazidə yeni müstəqil dövlət yaranması faktının dünyada heç bir analoqu yoxdur.

### *11. Millətlərin öz müqəddəratını təyin etmək hüququ prosesində mövcud olan terrorçu zorakılıq nə dərəcədə BMT Nizamnaməsinə və başqa beynəlxalq sənədlərə uyğundur?*

Bu problem son zamanlara qədər BMT tərəfindən birmənalı həll olunmamışdır və bundan münaqişənin təşəbbüsçüləri istifadə etmişlər. Ümumiyyətlə, BMT-nin tutduğu mövqe dünyada mövcud olan ziddiyyətləri əks etdirir və bu hal terrorizmə olan münasibətdə də öz aktuallığını saxlayır. Burada ənənəvi olaraq, Şimal - Cənub və Qərb - Şərq arasında olan ziddiyyətləri qeyd etmək lazımdır. Beləliklə, ictimai rəyin təkamülünə baxmayaraq, əsas ziddiyyətlər qalır və BMT orqanlarının vəzifəsi onları zəiflətmək və aradan qaldırmaqdır. Bu proses ənənəvi vasitələr, yəni beynəlxalq dialoq yolu ilə həyata keçə bilər. Əlbəttə, 2001-ci il 11 sentyabrda ABŞ - da baş verən hadisələrdən sonra BMT terrorizmlə mübarizəsini daha da gücləndirmişdir və bu istiqamətdə daha məqsədyönlü və sərt mövqe tutmuşdur. Bu haqda müxtəlif dövlətlərin liderləri rəsmi bəyanat verirlər. Əsas aktların şərhində meydana gələn önəmli ziddiyyətlərin biri - ərazi bütövlüyü və "öz müqəddəratını təyin etmə" prinsipləri arasında olan nisbililikdir. Məhz bu hal, xüsusilə, millətlərin "öz müqəddəratını həll etmə hüququ" prinsipi öz terrorçu zorakılıqlarını beynəlxalq hüquqi cəhətdən əsaslandıran millətçi hərəkatların liderləri tərəfindən istifadə edilir. Öz növbəsində ərazi bütövlüyü prinsipi suveren dövlətlər tərəfindən terrorçu zorakılığına qarşı və dövlətin ərazisinin qoparılmasına yol verməmək üçün istiadə olunur. BMT Nizamnaməsinin 1-ci maddəsinin 2-ci paraqrafına əsasən bu təşkilatın məqsədlərindən biri millətlərin bərabər hüquq və öz müqəddəratını həll etmə prinsiplərinə hörmət edərək, öz aralarında qarşılıqlı dostluq münasibətlərini qurmaqdır. Həmin sənədin

55-ci maddəsi isə bu prinsipi beynəlxalq iqtisadi və sosial əməkdaşlıq üçün əsas kimi qiymətləndirir.

Bununla belə, qeyd etmək lazımdır ki, əvvəldən bərabər hüquq və "öz müqəddəratını təyin etmə" prinsipləri adı altında BMT Nizamnaməsində ayrılma hüququ yox, özünü idarəetmə hüququ başa düşülürdü. 14 dekabr 1960-cı il müstəmləkəçilikdən azad olmuş dövlətlərə müstəqillik verən bəyannamə "öz müqəddəratını təyin etmə" prinsipinin daha geniş şərhini vermişdir. Dünya dövlətləri həmin bəyannamənin 2-ci maddəsində müəyyən etdilər ki, "bütün xalqlar öz müqəddəratını təyin etmək hüququna" malikdirlər. Bu fakta əsaslanaraq, onlar özlərinin siyasi statusunu müəyyən edir və iqtisadi və mədəni inkişaflarına nail olurlar. Həmin sənədin 6-cı maddəsi bu hüquq üçün məhdud bir çərçivə müəyyənləşdirir. Bütövlükdə və ya qismən olaraq, hər hansı bir dövlətin ərazi bötövlüyünə qəsd etmə və yaxud milli birliyi pozmaq cəhdləri BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə uyğun gəlmir. Qeyd olunan faktlar sonrakı beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. "İqtisadi, sosial və mədəni hüquqlar haqda beynəlxalq pakt" (1966), "Dövlətlər arasında dostluq və əməkdaşlığa dair beynəlxalq hüquq prinsiplərinin bəyannaməsi" (BMT Baş Assemleyasının qətnaməsi nömrə 2625 (XXV), 1970, 1999-cu ildə Vyana şəhərində keçirilən Ümumdünya Konfransında qəbul olunan bəyannamə və proqram).

Vyana bəyannaməsinin 2-ci maddəsinin 3-cü bəndindən aydın olur ki, "öz müqəddəratını təyin etmə" hüququ heç də hər hansı bir suveren dövlətin ərazi bütövlüyünü tam və qismən və siyasi birliyini poza bilən əməl kimi şərh oluna bilməz. Məhz bu fakta əsaslanaraq, dünya dövlətləri ardıcıllıqla həm milli qanunvericilik, həm də beynəlxalq hüquq çərçivəsində terrorizmin müxtəlif formaları ilə mübarizə aparmaqda davam edir. Adı çəkilən sənədlərdə terrorizm və təcavüzkar separatizm dövlətlərin suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə təhlükə yaradan bir zəncirin halqaları kimi səciyyələndirilir. Məsələn, 24 oktyabr 1970-ci ildə BMT Nizamnaməsinə uyğun olaraq, Baş Assembleya tərəfindən qəbul olunan "Dövlətlər arasında dostluq və əməkdaşlığa dair beynəlxalq hüquq prinsiplərinin bəyannaməsində" ərazi bütövlüyü və ərazi toxunulmazlığı anlayışları çox mühüm və bütün beynəlxalq münasibətləri tənzimləyən beynəlxalq hüquq prinsipi səviyyəsinə qaldırılmışdır.

9 dekabr 1994-cü ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş "beynəlxalq terrorizmi aradan qaldırma tədbirləri haqda bəyannamə"də bu prinsip öz əksini tapmışdır. Adı çəkilən sənəd terrorizmlə mübarizədə əməkdaşlığı tənzimləyən, sonradan qəbul olunan sənədlər üçün beynəlxalq hüquqi aktın bazası rolunu yerinə yetirir. Bu bəyannamədə ilk dəfə olaraq, əsası dözümsüzlük və ya ekstremizmdən ibarət olan terrorizmdən danışılır. 17 dekabr 1996-cı ildə BMT Baş Assambleyasının qətnaməsi (151/20) ilə qəbul olunan və beynəlxalq terrorizmi aradan qaldırmaq tədbirləri (1994) haqda bəyannaməni tamamlayan bəyannamədə

esktremist xarakterli terrorizmin dövlətlərə və onların ərazi bütövlüyünə təhlükə yaratmasından bəhs olunur.

Bu konteksdə söhbət açdığımız konvensiyada dövlətlərə məsləhət olunur ki, razılaşmaları bağlayarkən və onları həyata keçirərkən, terrorizmlə əlaqəli olaraq cinayətkarların təhvil verilməsi siyasi cinayət kimi qiymətləndirilməsin. Çünki hansı motivlərdən asılı olmayaraq, onlar şəxslər üçün fiziki təhlükə mənbəyidir.

16 dekabr 1997 - ci ildə 52/162 saylı qətnamə ilə BMT Baş Assambleyası tərəfindən "bomba terrorizmi" ilə mübarizə haqda beynəlxalq konvensiya və həmçinin 9 dekabr 1999 - cu il 54/108 saylı qətnamə ilə həmin qurum tərəfindən "terrorizmin müəyyənləşdirilməsi haqqında" beynəlxalq konvensiya preamblualarının ilk abzasında qeyd olunur ki, BMT üzvü olan dövlətlər təntənəli və qəti surətdə bütün terrorizm aktları və üsullarını pisləyir, onlara bəraət qazandırmağı cinayət sayırlar.

Harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, həmçinin dövlət və xalqlar arasında dostluq münasibətlərinə xələl gətirən və dövlətlərin ərazi bütövlüyünə təhlükə yaradan terrorist aktlar kəskin tənqid olunur.

BMT TŞ - nın 19 oktyabr 1999- cu ildə 1269 nömrəli qətnaməsi ilə beynəlxalq terrorizmlə bağlı xüsusi müzakirələrdən sonra (Rusiya Federasiyası tərəfindən hazırlanmış) kəskin və birmənalı şəkildə bütün dövlətlərin əməkdaşlığının zəruriyyəti təsdiq olunur. Bu qətnaməyə görə bütün dövlətlər öz ərazilərində qanuni vasitələrlə terror aktlarının hazırlanmasını və maliyyələşdirilməsini aradan qaldırmalı, terror törətməkdə günahkar sayılan şəxslərə sığınacaq verməməli, kim tərəfindən törədilməsindən asılı olmayaraq, terrorizmin bütün formaları məhv olunmalıdır.

BMT-nin terrorizmə qarşı mübarizə fəaliyyətini araşdırsaq, görərik ki, ABŞ-da 11 sentyabr 2001-ci ildə baş verən irimiqyaslı faciədən sonra BMT tərəfindən bütün dünyaya meydan oxuma kimi qiymətləndirilən bu hadisələrin qarşısının alınması ilə bağlı təşkilatın mövqeyi daha da sərtləşmişdir. Beləliklə, BMT qəbul etdiyi qətnamələri ilə (1269,19 oktyabr, 1999 - cu il; 1368, 12 sentyabr, 2001 - ci il; 1373, 28 sentyabr, 2001 - ci il; 1377, 12 noyabr, 2001- ci il) terrorizmin bütün növ və üsullarını birmənalı şəkildə tənqid edir, onları cinayət əməli kimi qiymətləndirir və törətmə səbəblərindən asılı olmayaraq, bu aktları ittiham edir.

Yadasalmaq lazımdır ki, BMT-nin mövqeyinə uyğun olaraq, beynəlxalq terrorizm aktları onların maliyyələşdirilməsi, planlaşdırılması və hazırlanması, həmçinin bu aktlara olan dəstəyin müxtəlif formaları BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə ziddir.

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ ERMƏNİSTANIN TÖRƏTDİYİ BEYNƏLXALQ HÜQUQ POZUNTULARI

**VƏFAƏDDİN İBAYEV**

**Bakı şəhəri Suraxanı rayon məhkəməsinin hakimi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət idarəçiliyinin hüquqi təminatı kafedrasının baş müəllimi, hequq elmlər namizədi**



***1. Ermənistan dövlətinin azərbaycanlılarla bağlı etnik təmizləmə siyasətinin doğurduğu hüquq pozuntuları nələrdir?***

Ermənistan dövləti tərəfindən azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti SSRİ-nin yarandığı ilk illərdən başlanmışdır. Belə ki, Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə Azərbaycanda ermənilərin milli azlıqda olması probleminin öz həllini tapmasına baxmayaraq, həmin dövrdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılara muxtariyyət verilməməsi tarixi ədalətsizlik kimi qiymətləndirilməli idi. Qarabağın dağlıq ərazisində yaşayan 80 minlik erməni əhalisinə muxtariyyət verildiyi halda, həmin dövrdə Ermənistanın 580 min, həmçinin Gürcüstanda yaşayan 300 min azərbaycanlı əhalisinə muxtariyyət verilmədi.

Bundan sonra ermənilərin Azərbaycana qarşı millətçi - separatçı siyasəti aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

- Dağlıq Qarabağı Azərbaycan SSR-dən qoparmaq;
- Azərbaycan SSR-in ərazilərinə yiyələnmək;
- Ermənistan SSR-dən azərbaycanlıların köçürülməsinə nail olmaq.

Hazırda Ermənistan adlanan ərazilərdən etnik təmizləmə siyasətinin tərkib hissəsindən birini də Stalin dönəmində SSRİ-nin yeritdiyi siyasətin nəticəsi olan azərbaycanlıların 1948-1953-cü il deportasiyası təşkil edir. Məhz həmin illər ərzində 150 min nəfər azərbaycanlı Azərbaycana köçürüldü.

Ermənistanda həyata keçirilən etnik təmizləmənin yeni kütləvi dalğası SSRİ-nin süqutunun son illərinə təsadüf etdi. 1988-ci ilin qışından başlayaraq Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə başlandı. "Azərbaycanlılarsız Ermənistan" şüarı altında həyata keçirilən etnik təmizləmə nəticəsində Ermənistan hakim dairələrinin himayəsi və razılığı əsasında hazırkı Ermənistan adlanan dövlətin ərazisindən 40897 azərbaycanlı ailəsi, 185519 nəfər azərbaycanlı məcburi qaydada deportasiya edildi. Onların hamısı mənzil və əmlaklarından məhrum edildi.[1]

Bu, hələ 1988-ci il idi. Sonrakı illərdə bu siyasət davam etdirildi və artıq 1992-ci ilə qədər Ermənistanda yaşayan 250 min azərbaycanlı son nəfərədək öz doğma torpaqlarından qovuldu.

Kütləvi deportasiya insanların qətlə yetirilməsi və bədən xəsarəti alması ilə müşayiət olunurdu. Təkcə 3 gün ərzində - 1988-ci ilin noyabr ayının 27-dən 29-dək Ermənistan SSR-in Quqark, Spitak və Stepanavan şəhərlərində 33 nəfər azərbaycanlı öldürülmüşdü.[2] Ümumiyyətlə, Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən 1988-1989-cu illərdə Ermənistanda aparılan etnik təmizləmə dövründə 216 nəfər azərbaycanlı öldürülmüşdür. Onlardan 49 nəfər divan tutulmaqdan qorxub qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülmədən ölmüş, 35 nəfər uzun işgəncələrdən sonra öldürülmüş, 115 nəfər diri-diri yandırılmış, 16 nəfər güllələnmiş, 10 nəfər təhqirlərə dözməyib infaktdan ölmüş, 2 nəfər erməni həkimləri tərəfindən xəstəxanada öldürülmüş, 3 nəfər suda

boğulmuş, bir nəfər asılmış, bir nəfər əzablardan qurtarmaq üçün özünü öldürmüş, bir nəfər elektriklə öldürülmüş, iki nəfərin başı kəsilmiş, 29 nəfər qəsdən avtomobil altında saxlanılmaqla öldürülmüş, 3 nəfər xəstəxanada olarkən tibbi xidmət göstərilməməsi nəticəsində ölmüş, 8 nəfər oğurlanmış və xəbərsiz itkin düşmüşdür.[3] Həyatdan məhrum edilmiş azərbaycanlıların yeganə günahı onların azərbaycanlı olmaları idi. "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin 2-ci maddəsinə əsasən isə hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq bütün hüquq və azadlıqlara malik olmalıdır. Lakin yuxarıda göstərilənlər insan hüquq və azadlıqlarının pozulmasının adi halı deyildi. Əsrin əvvəllərindən başlayaraq plana uyğun surətdə azərbaycanlılara qarşı həyata keçirilən "etnik təmizləmə" idi.

Hərbi əsirlər, girovlar və xəbərsiz itkin düşən Azərbaycan vətəndaşlarının işləri üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının məlumatına görə Ermənistanın təcavüzü nəticəsində 4861 nəfər hərbi əsir, girov və xəbərsiz itkin düşənlərin siyahısına daxil edilmişdir. Onlardan 314 nəfəri qadın, 58 nəfəri uşaq və 255 nəfəri qoca adamlardır. Həmin kateqoriyadan olan şəxslərdən Ermənistan Respublikası və Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində 900 nəfərin, o cümlədən 39 qadın, 12 uşaq və 39 yaşlı adamın saxlanıldığı yer məlumdur. Qalan şəxslərin saxlanıldığı yer bəyan edilməmişdir. Bu isə həmin şəxslərin ağır fiziki əməyə cəlb edilməsinə, döyülməyə, işgəncəyə məruz qalmasına, həmçinin elementar tibbi yardımdan məhrum olmalarına imkan yaradır. Dövlət Komissiyasına 145 azərbaycanlı müharibə qurbanının əsirlikdə ölməsi faktı da məlumdur. 4 nəfər erməni əsirliyində olarkən məruz qaldığı təhqir və əzablara dözə bilməmiş, azadlıq əldə edəndən sonra həyatdan məhrum olmuşdur.[4]

Azərbaycanlıların əsirlikdə və girov saxlanılması İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 4-cü maddəsində nəzərdə tutulmuş "heç kəs kölə və ya asılı vəziyyətdə saxlanıla bilməz" müddəası ilə ziddiyyət təşkil edir. Bəyannamənin 5-ci maddəsində hər hansı şəxsin işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud ləyaqətini alçaldan münasibətə və cəzaya məruz qoyulmasının yolverilməzliyi öz əksini tapmışdır. Azərbaycanlılara qarşı törədilmiş işgəncə və qəddarlıqlar bu müddəaların tələblərinin kobud surətdə pozulmasına dəlalət edir. Bəyannamənin 13-cü maddəsində hər bir şəxsin sərbəst yaşayış yeri seçmək hüququna malik olması ifadəsini tapmışdır. Doğma evindən didərgin düşənlərin qışın soyuğu, yayın istisini çadırda keçirmələri onların yaşayış yeri seçmək hüququnun illərlə pozulmasına dəlalət edir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 900 yaşayış məntəqəsi dağıdılıb talan edilmiş, mülki əhalinin ümumi sahəsi 9 milyon $km^2$ olan mülkləri dağıdılıb yandırılmışdır. Dağıdılmış və əmlakı aparılmış yaşayış evlərinin ümumi dəyəri on milyardlarla dollar həcmindədir. Xəstəlik və epidemiya

nəticəsində qaçqınların məskunlaşdığı düşərgələrdə hər il qoca, qadın və uşaqlar həlak olur.[5]

Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsində göstərilir ki, hər bir dövlət onun ərazisi hüdudlarında və onun yurisdiksiyasında olan bütün şəxslərin bu Paktda elan olunmuş hüquqlarına heç bir cəhətdən, o cümlədən irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli, yaxud sosial mənşəyi, mülki vəziyyəti, yaxud digər hallar baxımından fərq qoyulmadan hörmət etməyi və onların təmin olunmasını öhdəsinə götürür. Paktın 27-ci maddəsində isə göstərilir ki, etnik, din və dil azlıqlarının mövcud olduğu ölkələrdə belə azlıqlara mənsub olan şəxslər həmin qrupun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad bəsləmək və onun ayinlərini icra etmək, eləcə də öz doğma dilindən istifadə etmək hüququndan məhrum edilə bilməz.[6] Lakin bu müddəaların tələbi Ermənistan tərəfindən tamamilə pozulmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistan Respublikasının silahlı qüvvələri, muzdur və erməni terrorçu qruplarının köməyi ilə 18 min nəfərdən çox azərbaycanlı öldürülmüş, 50 mindən artıq yaralanmış və əlil olmuş, bir neçə min nəfər xəbərsiz itkin düşmüşdür.[7] Məhkəməsiz edamlar, mülki əhalinin kütləvi güllələbaran edilməsi, götürülmüş girovların Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində məcburi qaydada ən ağır işlərdə işlədilməsi, döyülmə, işgəncə və başqa kobud, qeyri-insani rəftar adi hala çevrilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə həyata keçirilən "etnik təmizləmə"nin mülki əhalinin kütləvi surətdə tələf edilməsi, çoxsaylı dağıntılarla müşayiət olunması və nəticədə Azərbaycanda fövqəladə humanitar şəraitin yaranması hakimiyyət orqanları tərəfindən də dəfələrlə qeyd olunmuşdur.[8]

### *2. Ermənistanın azərbaycanlılara qarşı genosidi özünü nədə təzahür etdi?*

BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 2-ci maddəsinə əsasən genosid dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər başa düşülür:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.[9]

Ermənistan tərəfindən azərbaycanlılara qarşı genosid təkcə Ermənistan ərazisində deyil, eyni zamanda Azərbaycan ərazilərində də davam etdirildi. Bu da təsdiq edirdi ki, azərbaycanlılara qarşı soyqırım siyasəti Ermənistanın dövlət siyasətinin tərkib hissəsidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı törədilmiş ən amansız cinayətlərdən biri də 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə baş vermiş Xocalı genosidi idi. Həmin gecə Ermənistan Respublikasının silahlı qüvvələri öz havadarları və bir qrup muzdur dəstələri ilə birlikdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yerləşən Xocalı şəhərinə hücum edərək, heç bir günahı olmayan mülki əhalinin şəhəri tərk edə bilməmiş hissəsini qəddarlıqla qətlə yetirmişlər.[10] Şahidlər təsdiq edirlər ki, həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək uşaq və qoca güllələnmiş, bəzi meyitlərdə bir neçə xəsarət yerləri aşkar edilmişdir ki, onlardan biri yaxın məsafədən baş nahiyəsinə yetirilmiş odlu silah xəsarətləri olmuşdur. Bu da onu göstərir ki, yaralılar sonradan odlu silahla öldürülmüşdür. Bir neçə uşaq meyitinin qulaqları kəsilmişdir. Yaşlı qadının sifətinin sol yanağının dərisi soyulmuş, qoca kişinin qafa sümüyü çıxarılmışdır. İlk dəfə 28 fevral 1992-ci ildə hadisə yerinə vertolyotla gələnlər 500 metr radiusda ərazinin meyidlərlə örtüldüyünü görmüşlər.[11]

Xocalı sakini Canan Orucov çoxsaylı insan tələfatı, xüsusən qadın və uşaqların öldürülməsi barədə məlumat vermişdir. Onun 16 yaşlı oğlunu güllələmiş, 23 yaşlı qızını əkiz uşaqları ilə birlikdə və ikinci 18 yaşlı hamilə qızını girov götürmüşlər.

Səriyyə Talıbova adlı şəxs göstərmişdir ki, erməni döyüşçüsünün qəbri üstündə 4 nəfər mesxet türkünün və 3 azərbaycanlının başını kəsmişlər. Valideynlərinin yanında uşaqlara işgəncə vermiş və onları öldürmüşlər. Milli hərbi geyimdə olan azərbaycanlı əsgərin gözlərini oymuşlar.[12]

Xocalıda mülki əhalinin tələf edilməsinin planauyğun surətdə həyata keçirilməsini təsdiq edən faktlardan biri də odur ki, əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqularda qətlə yetirilmişlər. Xocalı icra hakimiyyəti başçısı Elman Məmmədovun məlumatına görə, Naxçıvanik kəndi ərazisində Xocalıdan qaçan əhali avtomat, pulemyot və başqa silahlardan güllələbaran edilmişdir.[13] Xocalılara qarşı həmin hərəkətlər ermənilərin niyyətinin məhz genosid cinayətini törətməyə yönəlmiş olduğunu göstərir.

Genosid cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu, genosid cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Genosid cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və iradə ilə diktə olunan əməllərdir. Həmin əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi,

əməlin genosid kimi tövsifi üçün kifayət deyildir. Burada cinayətkarın fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı olan konkret niyyətini ortaya çıxarmaq tələb olunur.[14]

Qabaqcadan xüsusi düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemyot və başqa silahlardan güllələbaran edilməsi məhz genosid niyyətini sübut edir. Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də göz qabağındadır. Xocalı sakini Sənubər Ələkbərova Naxçıvanik kəndində qadın, uşaq və qoca meyitlərindən yaranmış təpəni heç vaxt unutmayacağını bildirib. Həmin kənddə ermənilərin qurduğu pusquya düşdükdən sonra onun əri, iki qızı - Sevinc və Hicran öldürülmüş, özü isə yaralanmışdır. Orada 200 nəfər azərbaycanlı girov götürülmüşdür. Cəmil Məmmədov da girov düşmüş azərbaycanlılardan olmuşdur. Onun dırnaqlarını çıxarmış, təpiklə sifətinə xəsarət yetirmiş, nəvəsini isə ondan alıb götürmüş, anası və qızı xəbərsiz itkin düşmüşdür.[15] Qeyd olunduğu kimi, uşaqların zorla bir qrupdan alınıb başqa bir qrupa verilməsi də genosid cinayətinin obyektiv cəhətini təşkil edən əlamətlərdəndir.

Soyqırım hadisəsindən sonra cinayətin baş verdiyi yerdə olmuş fransız jurnalisti Can İv Yunet demişdir: "Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər".[16]

İzvestiya qəzetinin müxbiri V.Belıx göstərmişdir ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş, qafa sümükləri çıxarılmış, başları kəsilmiş meyitlərin şahidi olmuşdur.[17]

Moskva "Memorial" hüquq mühafizə mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatında göstərilir: "Qaçanlar ermənilərin pusqusuna düşmüş və güllələbaran edilmişlər... Dörd gün ərzində Ağdama 200 meyit gətirilmiş, onlarla meyitdə təhqirə məruz qalma əlamətləri olmuşdur. Dörd meyitin başının dərisinin soyulduğu və bir meyitin başının kəsildiyi qeydə alınmışdır. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) dövlət məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertlərin rəyi ilə müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin - qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurulmaqla öldürülmüşdür... Ağdamda sanitar qatar jurnalında qeydiyyatdan keçirilənlərin 598 nəfərində xəsarət və donma faktları müşahidə olunmuşdur. Orada diri adamın baş dərisinin soyulması faktı qeydə alınmışdır.[18]

Genosid cinayətinin olduğu kimi qiymətinin verilməsi və beynəlxalq hüquq normalarının tələb etdiyi kimi onu törədənlərin layiqli cəzalarını alması zəruridir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanında 1992-ci ilin fevral ayında ermənilərin Xocalı şəhər əhalisinə tutduğu divan Xocalı soyqırımı kimi qiymətləndirilmişdir.[19]

Erməni cəlladları tərəfindən Ermənistanda və Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş hərəkətlərin Konvensiyada nəzərdə tutulmuş əməllərə müvafiqliyi göz qabağındadır. Konvensiyanın 5-ci maddəsinə əsasən nəinki genosid törədilməsi, habelə genosidə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd və genosiddə iştirak etmək cəzalandırılmalıdır. Konvensiyanın əsasında duran prinsiplər BMT-nin Beynəlxalq Məhkəməsi tərəfindən beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır.[20]

Azərbaycan xalqı bu hüquq normalarının reallığa çevrilməsini gözləyir.

### *3. Münaqişə zamanı azərbaycanlılar işgəncəyə məruz qalmışdırmı?*

İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 5-ci maddəsində göstərilir ki, heç kəs işgəncəyə, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranışa və cəzaya məruz qalmamalıdır.

Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci maddəsində Ümumi Bəyannamənin mətninə "o cümlədən heç kəs azad iradəsini bildirmədən tibbi və ya elmi təcrübəyə məruz qoyulmamalıdır" ifadəsi də əlavə edilmişdir. BMT Baş Məclisi tərəfindən (10 dekabr 1984-cü il tarixli 39/46 saylı qətnamə ilə) qəbul edilmiş İşgəncələr və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə Konvensiyanın 1-ci maddəsinə əsasən "işgəncə" dedikdə, dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud onların təhriki və ya onların razılığı, ya da göz yumması ilə hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən məlumat, yaxud etiraf almaq, onu, yaxud başqa şəxsi törətdiyi, və ya törədilməsində şübhə edilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu, yaxud başqa şəxsi qorxutmaq və ya məcbur etmək, ya da hər hansı ayrıseçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən güclü fiziki, yaxud mənəvi ağrı və ya əzab yetirən hərəkətlər başa düşülür. Avropa insan hüquqları Konvensiyasının 3-cü maddəsində göstərilir ki, heç kəs işgəncələrə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalmamalıdır.

Avropa İnsan Hüquqları Məhkəməsi (İrlandiya Birləşmiş Krallığa qarşı) işi üzrə 18 yanvar 1978-ci il tarixli qərarında göstərilən üç anlayışı aşağıdakı kimi fərqləndirmişdir:

1. İşgəncə - ciddi və kəskin əzab doğuran, qəsdən törədilmiş qeyri insani rəftardır;
2. Qeyri-insani rəftar şəxsə güclü fiziki və mənəvi əzab yetirilməsidir;
3. Ləyaqəti alçaldan rəftar qurbanda qorxu hissi, ağrılar və onu alçalda, rüsvay edə və onun fiziki və ya mənəvi gücünü qıra bilən natamamlıq hissi yaratmağa yönəlmiş pis rəftardır.[21]

İşgəncə fövqəladə vəziyyət və ya silahlı münaqişə zamanı qadağan olunmaqla, işgəncədən müdafiə mütləq xarakter daşıyır.

1949-cu il Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar himayədə olan şəxslərə qarşı yönəlmiş zorakılıq aktlarını və müharibə vaxtı onlara işgəncə verilməsini qadağan edir.

1984-cü il BMT Konvensiyasına əsasən nəzarət mexanizmi kimi İşgəncə əleyhinə komitə yaradılmışdır. İştirakçı dövlət həmin Konvensiya üzrə öhdəliklərini həyata keçirməklə əlaqədar gördüyü tədbirlər haqqında mütəmadi olaraq Komitəyə məruzə təqdim etməlidir. Konvensiyaya əsasən Komitə pozuntuları tədqiq etmək və maraqlı iştirakçı dövlətin razılığı ilə müvafiq yerlərə baş çəkmək səlahiyyətlərinə malikdir. İşgəncələrin qadağan olunması öhdəliyinin pozulmasının tədqiqi işgəncə üzrə Xüsusi Məruzəçi tərəfindən də həyata keçirilir. Nəhayət, Konvensiya İşgəncə əleyhinə komitəyə dövlətlər və ayrı-ayrı şəxslər tərəfindən şikayətlərin verilməsi imkanını da nəzərdə tutur.

Beynəlxalq humanitar hüquq normalarına riayət olunmasının təmin edilməsi mexanizmi nisbətən zəifdir. İşgəncə tətbiq edildiyi hallarda hami dövlətlər və BQXK Cenevrə Konvensiyaları və Əlavə Protokolların iştirakçısı olan dövlətə təqdimat verə bilər. Lakin işgəncələrin qadağan olunmasına riayətin təmini üçün zəruri prosedur mövcud deyildir. Qeyd etmək lazımdır ki, I Əlavə Protokolun 90-cı maddəsi faktların müəyyən edilməsi üzrə Beynəlxalq Komissiyanın yaradılmasını nəzərdə tutur. Həmin Komissiya digər faktlar kimi işgəncələrin tətbiqi hallarını da tədqiq edə bilər. Lakin Komissiyanın fəaliyyəti üçün iştirakçı dövlətlərin qarşılıqlı razılığı tələb olunur.

Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollarda nəzərdə tutulan beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə cinayət təqibi konsepsiyasının inkişafında humanitar hüquq mühüm rol oynamışdır. "İşgəncə" sözü dörd Cenevrə Konvensiyasının hər birində ciddi pozuntu anlayışına daxil edilmişdir. Dövlət ciddi pozuntuları törətmiş və ya onların törədilməsinə əmr vermiş şəxslərin səmərəli cinayət cəzasına məruz qalması üçün zəruri qanunvericilik tədbirləri görməlidir. Tərəflər həmçinin ciddi pozuntu törətmiş və ya törətmək barədə əmr vermiş şəxsləri axtarmaq və məhkəmə məsuliyyətinə cəlb etməyi də öhdəsinə götürmüşdür. I-IV Cenevrə Konvensiyalarının müvafiq olaraq 49, 50,129 və 146-cı maddələrinə əsasən işgəncələrin fərdi cinayət məsuliyyəti doğurması, bu əməllərin Yuqoslaviya və Ruanda Beynəlxalq Cinayət Tribunalı yurisdiksiyasına daxil edilməsinə səbəb olmuşdur. Bundan başqa işgəncə Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə Cinayət Məcəlləsi layihəsinə daxil edilmişdir.

Ermənistan ərazisindən azərbaycanlıların deportasiya edilməsi eyni zamanda onların müxtəlif növ işgəncələrə, digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftara məruz qalması ilə müşayiət olunmuşdur.

Azərbaycanlıların doğma ev-eşiyini tərk edib getmələrini təmin etmək üçün isə Ermənistanın hakim dairələri məhz işgəncədən istifadə edirdilər. Yerli hakimiyyət və inzibati orqanların bilavasitə iştirakı və rəhbərliyi ilə işgəncələrə məruz qalan azərbaycanlılar haqsız ölüm və işgəncələrə tab gətirməyib, dədə-baba

yurdlarını tərk etməyə məcbur oldular. Bu cür vəhşiliklərə heç cür haqq qazandırmaq olmaz.

1984-cü il Konvensiyasının 2-ci maddəsinin 2-ci bəndində göstərilir ki, necə olursa-olsun, heç bir müstəsna hal - müharibə vəziyyəti və ya təhlükəsi, daxili siyasi qeyri-sabitlik, yaxud hər hansı digər fövqəladə şərait işgəncəyə bəraət qazandıra bilməz. Ermənistan ərazisindən azərbaycanlıların deportasiya edilməsi zamanı onların işgəncələrə məruz qalması ilə yanaşı, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı əsir düşənlərə və girov götürülənlərə qarşı da işgəncələrin tətbiq edilməsi barədə yüzlərlə faktlar məlumdur.[22] Bu işgəncələr müxtəlif kateqoriyalı şəxslərlə yanaşı, eyni zamanda vəzifəli şəxslər tərəfindən də tətbiq olunmuşdur. Belə ki, 1972-ci ildə Qax rayonunda anadan olmuş Milli Ordunun əsgəri Məhyəddinov Məhərrəm Zəngilan rayonunda əsir düşmüş və Ermənistan ərazisində əsirlikdə saxlanılmışdır. O, hər gün Qafan polis idarəsinin rəis müavini pod-polkovnik Qazmanov tərəfindən vəhşicəsinə döyülmüş, dəlilik dərəcəsinə çatdırılmış və sonra daxili orqanlara çoxlu qan sızmadan ölmüşdür.[23]

1993-cü ilin avqust ayında Ermənistan Respublikasının polis işçiləri tərəfindən Zakir Vəli oğlu Gürcüstanın Marneuli rayonu Kirovka kəndinin kənarına atılmış, o, Qazax rayonu xəstəxanasına çatdırılsa da, huşu özünə gəlməmiş ölmüşdür. Tədqiqat zamanı həkimlər müəyyən etmişlər ki, onun bədəni siqaretlə yandırılma nəticəsində əmələ gələn xəsarətlər, qançırlarla örtülmüşdür. Sağ əli və sol ayağının dırnaqları çıxarılmış, daxili orqanlarına xəsarət yetirilmişdir. O, aclıq və xəsarətlər nəticəsində ölmüşdür.[24]

1994-cü ilin may ayında Ermənistan Milli Təhlükəsizlik Baş İdarəsinin istintaq təcridxanasında saxlanılan hərbi əsir, Lerik rayonunda anadan olmuş Tofiq ölənə kimi işğəncəyə məruz qalmış, Rasim Məmmədov isə bu cür işgəncələrə dözməyib ağlını itirmişdir. Ermənistan Hərbi polis idarəsində saxlanılan Famil Rzaxanov son dərəcə ağır vəziyyətdə azad edilmişdir.[25]

### *4. Münaqişə zamanı mülki əhalinin hüquqlarının pozulması nədə ifadəsini tapmışdır?*

Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hər bir halda hörmətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən mülki əhalinin həyatına və fiziki toxunulmazlığına qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranış, onlara əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir.[26] Konvensiyanın 33-cü maddəsində isə nəzərdə tutulur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya

salmaq, onlara qarşı terror hərəkətləri, onların talan edilməsi və onlara qarşı repressiya qadağan edilir. Lakin Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhalinin aviasiya və artilleriya ilə bombalanması Dağlıq Qarabağdan 100 km uzaqda olan yaşayış məntəqələrində (Tovuz, Qazax, Ağstafa, Sədərək, Şərur, Başkənd və s.) də həyata keçirilmişdir.[27] Bu hərəkətlər məhz mülki əhalinin qorxuya salınması, onlara qarşı terror kimi qiymətləndirilməlidir.

Konvensiyanın 34-cü maddəsinə əsasən mülki əhalinin girov götürülməsi qadağandır. Lakin erməni cəlladları tərəfindən münaqişə zamanı mülki əhaliyə qarşı törədilmiş hərəkətlər onların Konvensiyanın tələblərinə qəti olaraq riayət etmədiklərinə dəlalət edir. Bunu yüzlərlə faktlar sübuta yetirir. Biz onların bir neçəsini misal gətirməklə erməni millətçiləri tərəfindən beynəlxalq humanitar hüquq normalarının pozulması faktlarını təsdiq etmək istəyirik.

Ermənistan Respublikası silahlı qüvvələri Beynəlxalq humanitar hüququn tələblərinə görə, 15 yaşına çatmamış uşaqlar silahlı münaqişələrdə iştiraka cəlb olunmamalıdır. I Protokolun 77-ci maddəsinin 2-ci bəndinə zidd olaraq uşaqlar silahlı münaqişələrdə iştirak edərsə onlar kombatant statusundan istifadə edirlər. Bu cür uşaqlar tutulduqda onlar hərbi əsir statusuna malik olur. Bununla belə onlar yenə də yaşlarına uyğun olaraq xüsusi mühafizədən istifadə etməlidirlər. Çünki Protokolun normaları münaqişədə olan tərəflərə ünvanlanmışdır və hərbi əməliyyatlarda iştirak etmək uşaqlar tərəfindən qanunların pozulması kimi qiymətləndirilə bilməz.[41]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı uşaqların müxtəlif əzab və məşəqqətlərə məruz qalması, onlarların BMT Baş Məclisinin 20 noyabr 1959-cu ildə 1386(XIV) saylı "Uşaq hüquqları Bəyannamə"si, BMT Baş Məclisi tərəfindən 1989-cu ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Konvensiya ilə müəyyən edilmiş hüquqlarının kobud surətdə pozulmasına dəlalət edir.[42]

Ermənistan silahlı qüvvələri tərəfindən heç bir günahı olmayan uşaqların qətlə yetirilməsi, onların girov götürülməsi və valideynlərindən ayrılması faktları saysız-hesabsızdır. 18 noyabr 1994-cü il tarixdə azərbaycanlı uşaqlardan 71 nəfərin erməni cəlladları tərəfindən girov götürülməsi faktı rəsmi qeyd olunmuşdur. Bu siyahıda yaşca ən kiçik olanlar 1992-ci ildə Kəlbəcər rayonunda anadan olmuş İlyasov Babək Həsən oğlu və Qurbanov Rövşən Firudun oğludur.[43]

Uşaqlara qarşı amansız rəftara başqa bir misal kimi üç yaşlı Şövqü Xəqani oğlu Əliyevin başına gətirilənləri göstərmək olar. Ermənistan Respublikası silahlı qüvvələri Ağdam rayonunu işğal edərkən minik avtomaşınında şəhərdən çıxmağa cəhd edən Əliyevlər atəşə tutulmuşdur. Gülləbaran nəticəsində bir nəfər qoca kişi və 8 yaşlı uşaq ölmüş, qalanları isə xəsarət almışlar. Üç yaşlı Şövqü Xəqani oğlu Əliyev çiynindən xəsarət almışdır. Xankəndidə erməni "həkimləri" uşağın çiyin sümüyünün üçdə birini sağ dirsəkdən yuxarı əzələ qatı ilə birlikdə çıxarmışlar. BQXK-nin köməyi ilə Şövqü Əliyev, onun ağır xəstə olan anası və nənəsi vətənə

qaytarılmışdır. Bakıda tibbi müayinədən sonra həkimlər belə nəticəyə gəlmişlər ki, uşağın sümüyünün əzələ qatı ilə birlikdə götürülməsinə heç bir ehtiyac olmamış, onun aldığı xəsarətin xarakteri bu cür əməliyyat aparılmasını tələb etməmişdir. Belə əməliyyatın aparılmasının transplantasiya məqsədi daşıdığı istisna olunmur.[44] Cenevrə Konvensiyalarının müdafiəsi altında olan şəxslərin sağlamlığının tələb etmədiyi halda, onu hər hansı tibbi proseduraya məruz qoymaq, həmçinin hər hansı tibbi, bioloji və ya başqa elmi təcrübəyə məruz qoymaq, hər hansı orqanının transplantasiya məqsədi ilə götürülməsi qadağandir (I CK mad.3,12; II CK mad.3,12; III CK mad.3, 13; IV CK mad.3, 32; I Protokol mad. 11). Nürnberq Tribunalının hökmlərində bu cür təcrübənin aparılması müharibə cinayəti kimi qiymətləndirilmişdir.[45]

### *5. Münaqişə zamanı yaralı və xəstələrin hüquqları necə pozulmuşdur?*

Cenevrə Konvensiyalarının mühafizəsi altında olan şəxslərin bir qrupunu yaralı və xəstələr təşkil edir. I Əlavə Protokol qəbul edilənə kimi Cenevrə Konvensiyalarına əsasən mülki və hərbi şəxslərdən olan yaralı və xəstələrin mühafizəsi müxtəlif qaydada həyata keçirilirdi. I Protokolun 8-ci maddəsinə əsasən bu fərq aradan qaldırılmış, bütün yaralı və xəstələrə münasibətdə vahid qayda müəyyənləşdirilmişdir. I Protokolun 10-cu maddəsində göstərilir ki, bütün yaralı və xəstələr hansı tərəfə mənsub olmasından asılı olmayaraq, hörmət və müdafiədən istifadə etməlidir. Bütün hallarda onlarla humanist rəftar edilməli, onlara qısa müddətdə tibbi xidmət göstərilməli və onlar vəziyyətlərinin tələb etdiyi qayğı ilə əhatə olunmalıdırlar. Yaralı və xəstələr arasında tibbi mülahizələrdən başqa heç bir fərq qoyulmamalıdır. Bu normalar ona dəlalət edir ki, yaralı və xəstələr hansı tərəfə mənsub olmalarından asılı olmayaraq ədalətsizlikdən və təhlükədən mühafizə olunmalı, rəqib tərəfə mənsub olmasına görə taleyin hökmünə buraxılmamalı və tibbi yardımsız qoyulmamalıdır. Lakin bu normaların tələbləri həm hərbi əsirlərə, həm də mülki əhaliyə münasibətdə ermənilər tərəfindən pozulmuşdur. Xəstə və yaralılara nəinki zəruri tibbi yardım göstərilməmiş, hətta əzab və işgəncələrə məruz qoyularaq məhv edilmişlər.

16 yaşlı Ofelya Quliyeva Ermənistan silahlı qüvvələri tərəfindən yaralı vəziyyətdə girov götürülmüş, vaxtında tibbi yardım almadığına görə onun yarası qanqrenaya çevrilmişdir. 3 iyun 1993-cü il tarixdə o, Armen adlı gözətçi tərəfindən yenidən avtomatla atəşə tutulmuş, qarnından və sağ əlindən yaralanmışdır. Nəticədə iki barmağı kəsilmişdir. 28 iyun 1994-cü il tarixdə Ofelya Quliyeva erməni hərbi əsirləri ilə dəyişdirilmiş və vətənə qayıtmışdır.[46]

Döyüş sursatının partlayışından ağır göz və qaş xəsarəti almış Babək İlyasova əsirlikdə heç bir tibbi yardım göstərilməmişdir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə o azad edilmişdir. Lakin vaxtında tibbi yardım almadığına görə B. İlyasov görmə orqanlarından məhrum olmuşdur.[47] Təcrübədə bu cür əməllər müharibə cinayəti kimi qiymətləndirilmişdir.[48]

1971-ci ildə Göyçayda anadan olmuş Azərbaycan Respublikası Milli Ordusunun əsgəri Mail Məmmədov 4 oktyabr 1992-ci ildə Xankəndi yaxınlığında yaralı vəziyyətdə əsir düşmüş, əvvəl Qarabağda saxlanmış, sonra isə Ermənistana aparılmışdır. Tibbi yardım göstərilməsi əvəzinə o, çəkic və avtomatın qundağı ilə döyülmüş, nəticədə sol pəncə və sol çiyin sümüyü sındırılmışdır. 7 oktyabr 1992-ci ildə onun sinəsinə qızdırılmış metalla xaç qoyulmaqla dağ vurulmuşdur. 1993-cü ilin fevral ayında onun vena damarına maye vurulmuş və nəticədə bu, onda allergiya yaratmışdır. M.Məmmədov 9 may 1993-cü il tarixdə erməni əsiri ilə dəyişdirilmişdir.[49]

I Protokolun 12-ci maddəsinə əsasən tibbi müəssisələr mühafizə edilməlidir və hücum obyekti ola bilməz. Ermənilər bu maddənin tələbinə də riayət etməmişlər. Ağdam ruhi əsəb xəstəxanasından 7 nəfər ağır ruhi əsəb xəstəsinin girov götürülməsi humanitar hüquq normalarının pozulmasına əyani sübutdur. Sonradan həmin xəstələrdən 3 nəfəri azad olunmuş, biri daimi işgəncələrdən ölmüş, 3 nəfəri isə hələ də girov kimi saxlanılır. Bu fakt eyni zamanda BMT Baş Məclisinin 20 dekabr 1971-ci il tarixli 2856 (XXVI) saylı qətnaməsi ilə elan edilmiş "Kəmağıl şəxslərin hüquqları haqqında” Bəyannamənin tələblərini də pozur. Orada göstərilir ki, kəmağıl şəxs digər şəxslərlə yanaşı maksimum dərəcədə həyata keçirilə bilən eyni hüquqlara malikdir.[50]

### *6. Münaqişə zamanı hərbi əsirlərlə rəftara dair normalara riayət olunmuşdurmu?*

Beynəlxalq humanitar hüquq normalarının himayəsi altında olanlardan bir qrupunu da hərbi əsirlər təşkil edir. Hərbi əsirlər ayrı-ayrı şəxslərin və ya hərbi hissələrin deyil, rəqib dövlətin hakimiyyəti altında olur. Ona görə hərbi əsirlə davranışa görə həmin dövlət məsuliyyət daşıyır (III CK, mad 12).

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə humanitar hüquq normalarının ermənilər tərəfindən dəfələrlə, kobud şəkildə pozulması faktları özünü müxtəlif aspektlərdə təzahür etdirmişdir. Bu cəhətdən "Hərbi əsirlərlə rəftara daif III Cenevrə Konvensiyası normalarının pozulması da istisna təşkil etmir. Konvensiyaya əsasən hərbi əsirlərlə humanist rəftar olunmalıdır. Əsirlik müddətində hərbi əsir özünün hərbi qulluqçu statusunu saxlayır. Bu onda ifadə olunur ki, onlar hərbi formalarını geyinə bilər, onlar öz zabitlərinə tabe olmaqda davam edir və hərbi əməliyyatlar qurtaran kimi dərhal repatriasiya olunmalıdır, yəni vətəninə qaytarılmalıdır. Lakin 1994-cü ilin may ayından atəşkəsin əldə edilməsinə baxmayaraq azərbaycanlı əsir və girovlar Ermənistanda saxlanılmaqda davam edir. Hərbi əsir və girovların repatriasiyasının əsassız gecikdirilməsi eyni zamanda I Protokolun 85-ci maddəsinin 4-cü hissəsinin "b" bəndinin tələblərinə də ziddir.

Azərbaycan Respublikası Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən əsir düşmüş 783

nəfərin əsirlikdə olması faktı Ermənistan tərəfindən aşkarlanmır. Son vaxtlar Henrix Byel Fondu Beynəlxalq Axtarış Qrupunun fəaliyyəti nəticəsində həmin şəxslərdən 6 azərbaycanlının əsirlikdə ölməsi müəyyənləşdirilmişdir.[51]

Hərbi əsirin ölümünə səbəb olan və ya onun həyatını təhlükədə qoyan hər hansı qeyri-qanuni akt və ya fəaliyyətsizlik III Cenevrə Konvensiyasının ciddi pozuntusu kimi qiymətləndirilir. Belə ki, heç bir hərbi əsir fiziki şikəstliyə və ya elmi və tibbi təcrübəyə məruz qoyula bilməz. Hərbi əsirlər hər cür zorakılıq aktları, qorxudulma, kütlənin təhqir və marağından kənar olmalıdır. Onlara qarşı repressali tətbiqinə yol verilmir. Hərbi əsirlər onların səhhətinin tələb etdiyi tibbi yardımla təmin olunmalıdır.

Hərbi əsirlər yaşayış üçün kifayət qədər yararlı şəraitdə və kifayət qədər qida ilə təmin olunmaqla saxlanılmalıdır.

Ümumiyyətlə, III Cenevrə Konvensiyası hərbi əsirlərin həyat və sağlamlığının mühafizəsinə, onların şəxsiyyətinin qorunmasına yönəlmiş və bunun üçün zəruri olan normaları nəzərdə tutmuşdur. Lakin Ermənistan tərəfindən bu normalar yerinə yetirilməmişdir. Ermənistan dövlətinin Cenevrə Konvensiyalarına qoşulmaqla orada nəzərdə tutulmuş öhdəliklərə əməl etməyi öz üzərinə götürməsinə baxmayaraq, faktlar göstərir ki, Ermənistan götürdüyü öhdəliklərə riayət etmir. Aşağıdakı misallar da bunu təsdiq edir:

7 may 1993-cü ildə girov götürülmüş, 1955-ci il təvəllüdlü, Kəlbəcər rayonu Bozlu kəndində anadan olmuş Mikayıl Abutalıbov göstərmişdir ki, əsirlikdə olarkən hər gün döyülmüş və təhqirlərə məruz qalmış, gücü çatmayan ağır fiziki işlərə məcbur edilmişdir. O, Ermənistanda əsirlikdə minlərlə qadın, qoca və uşağın olmasını təsdiq etmişdir.[52]

27 yaşlı Əbdüləzim Məmmədov Azərbaycanın Kərkicahan qəsəbəsində ayağından yaralanmış və əsir götürülmüşdür. O, 8 nəfər digər azərbaycanlı əsgərlə birlikdə əsir düşdükdən sonra bir saata kimi dindirilmiş, sonra bədənlərinin müxtəlif yerlərinə rezin dəyənək, təpiklə xəsarət yetirmişlər. Axırda isə boynuna şpritslə tanımadığı mayeni vurub həbsxanaya salmışlar. Bundan sonra o, hər gün həyətə çıxarılıb və müxtəlif alətlərlə döyülərək çox saylı xəsarətlərə məruz qalmışdır. Bir gün onun yarasını açıb alnına qanla xaç çəkmişlər. Yeni il gecəsi isə şaxtalı havada üzərinə soyuq su töküb islatmışlar. Tez-tez gözətçi itlərini üstünə buraxıb ona əzab vermişlər. Bədənində çoxsaylı xəsarət yerlərinin qalması da bunu sübut edir.[53]

Əbdüləzim Məmmədovla əsirlikdə 21 yaşlı Atakişiyev Fərhad Rəhman oğlu da olmuşdur. O, öldürüldükdən sonra meyiti Əbdüləzim Məmmədovun kamerasına qoyulmuşdur. Meyit bir neçə gün onun kamerasında qalmışdır. Məhkəmə-tibbi ekspertin rəyi ilə müəyyən edilmişdir ki, meyit üzərində aşağıdakı xəsarətlər olmuşdur:

a) alın sümüyünün basılmaqla sındırılması, hər iki çiyin və diz sümüklərinin qapalı sınığı, burun sümüklərinin sınıqları, hər iki çənədən bütün dişlərin travmatik çıxarılması, baş, bədən və ətraflarda 61 ədəd qançır;

b) qarın nahiyəsində daxili orqanları zədələməklə ikitərəfli açıq deşici xəsarət, boynun arxa hissəsində 8 nöqtə yarası (iynə iziəri), sol bilək yaraları;

s) budda iki ədəd dəlib keçən odlu silah yarası.

Müəyyən edilmişdir ki, "a" bədində göstərilən xəsarətlər bərk küt alətlə yetirilmiş, bilək yaraları və çiyində olan xəsarətlər itlərin dişləməsindən yarana bilərdi,

"b" qrupundakı xəsarətlər deşici alətlə yetirilmişdir,

"v" bəndindəki xəsarətlər isə odlu silahla yetirilmişdir.[54]

1936-cı il təvəllüdlü, Zəngilan rayonu Baharlı kənd sakini, 14 noyabr 1993-cü il tarixdə BQXK-nin vasitəçiliyi ilə azad olmuş Kamil Vəliyev 1993-cü ilin avqust ayında Zəngilan rayonu işğal edilərkən girov götürülmüş və Ermənistan ərazisində saxlanılmışdır. O, mütəmadi olaraq işgəncələrə məruz qaldığına görə eşitmə qabiliyyətini itirmişdir.[55]

Münaqişə zamanı azərbaycanlı əsirlərin çoxu zorakılıqla öldürülmüş, ya da qəsdən dözülməz şərait yaradılması nəticəsində ölmüşlər.

1973-cü il təvəllüdlü, Yevlax rayon sakini, Milli Ordunun əsgəri Bayram Əliyev 1992-ci ilin dekabr ayında Zəngilan rayonu ərazisində əsir düşmüş, əvvəl Qafan polis idarəsində saxlanılmış, sonra isə Yerevana aparılmışdır. O, təsdiq etmişdir ki, azərbaycanlı əsirlər işğəncələrə məruz qalmış, onları torpaq yeməyə məcbur etmiş, vəhşicəsinə döymüş, açıq yaraları siqaretlə yandırmış, şəxsiyyətlərini təhqir etmiş, yaralılara zəruri tibbi xidmət göstərilməmişdir. Təhqirlərə dözməyən əsirlərdən çoxu ölmüşdür. BQXK nümayəndələrinə şikayət etdiyinə görə Məhərrəm Məhyəddinov ölənə kimi döyülmüşdür. O, təsdiq etmişdir ki, Ermənistan ərazisində zorakılıq və təhqirlərə məruz qalan yüzlərlə azərbaycanlı girov vardır. B.Əliyev 1993-cü ilin oktyabr ayında azad olunmuşdur.[56]

1973-cü ildə anadan olmuş, Milli Orduya çağırılmamışdan əvvəl Bakı şəhərində yaşamış İlham Nəsirov üç yerdən xəsarət aldıqdan sonra əsir düşmüş, əvvəl Xankəndidə, sonra isə Yerevanda Arakelyanların ailəsində Azərbaycan ərazilərində döyüş əməliyyatları gedişində itkin düşmüş oğlanları Şaqenlə dəyişdirilməsi üçün saxlanılmışdır. Əsirlikdən azad olunmuş F.Yusifovanın dediyinə görə "sahibi" tərəfindən distrofiyaya çatdırılmış Nəsirov Ermənistan Respublikası Təhlükəsizlik Nazirliyinin 10 saylı xəstəxanasına yerləşdirilmişdir. Qospital rəisi S.Arakelyanın BQXK vasitəsi ilə alınmış 06/134 saylı, 24 noyabr 1993-cü il tarixli məktubundan görünür ki, Nəsirov 23 noyabr 1993-cü ildə Yerevan şəhərinin qarnizon qospitalında (v/Q 88865) adi distrofiya, kəskin kaxeksiya diaqnozundan ölmüşdür.[57]

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti azərbaycanlı hərbi əsirlərin güllələnməsi barədə məlumat vermiş

və bildirmişdir ki, onlar "qaçmağa cəhd edərkən öldürülmüşlər". Beynəlxalq humanitar hüquqa əsasən (Haaqa Əsasnaməsi, mad. 8, III CK, mad. 92) əsirin, hakimiyyəti altında olduğu dövlət, qaçmasının qarşısını almağa haqlıdır. Lakin qaçış baş tutmayanda hərbi əsir yalnız intizam xarakterli tənbehə məruz qala bilər. Hərbi əsirin qaçmağa cəhdə görə öldürülməsi beynəlxalq təcrübədə müharibə cinayəti kimi qiymətləndirilmişdir.[58]

Beynəlxalq Qırmızı Xaç Komitəsinin cidd-cəhdləri nəticəsində 23 mart 1994-cü ildə 10 nəfər hərbi əsirin meyiti Ermənistandan Azərbaycana gətirilmişdir. Onlardan ikisi müvafiq olaraq 28 iyun 1993-cü ildə, 23 noyabr 1993-cü ildə ölmüş, 8 nəfəri isə 29 yanvar 1994-cü ildə öldürülmüşdür. Azərbaycan Səhiyyə Nazirliyi "Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya elmi-təcrübi birliyin"də keçirilmiş ekspertiza zamanı Ermənistan Xarici İşlər Nazirliyinin əsirlərin qaçarkən güllələndikləri barədə mülahizələri tamamilə rədd edilmişdir. Ekspertiza ilə müəyyən edilmişdir ki, R.R.Ağayev, E.Q.Əhmədov, E.Ş.Məmmədov, F.Q.Quliyev, E.M. Əhmədov ölümündən qabaq işkəncələrə məruz qalmış, döyülmüş və gicgahından vurulmaqla öldürülmüşdür. B.A.Qiyasov qabaqdan yaxın məsafədən vurulmuşdur. R.R.Ağayevin, E.Ş.Məmmədovun, E.M. Əhmədovun qulaqları kəsilmişdir. R.R.Ağayevin daxili orqanlarından ürək, dalaq, qaraciyər yerində olmamış, bu da onların transplantasiya üçün istifadə edildiyini göstərir. İ.S.Nəsirovun meyiti müayinə edilərkən onda uzun müddət ac qalmaqdan kaxeksi əlamətləri aşkar edilmişdir. F. Q. Hüseynovun meyiti üzərində fiziki işgəncənin çoxsaylı əlamətləri aşkar edilmişdir.[59]

Azərbaycan ekspertlərinin məhkəmə tibbi rəyi Amerika Tibbi Ekspertlər Assosiasiyasının, Hüquqi və Sosial Təbabət Beynəlxalq Akademiyasının Rəyasət Heyətinin, "Həkimlər insan hüququ uğrunda" Britaniya təşkilatının üzvü, şotlandiyalı professor Derek Paunder tərəfindən təkrar müayinə zamanı təsdiq olunmuşdur.[60]

Bəzən azərbaycanlı əsirlərdən qisas almaq və buna qanuni don geyindirmək üçün Ermənistanda hərbi əsirlər məhkəmə qaydasında mühakimə olunur. Beynəlxalq humanitar hüquqda hərbi əsirlərin döyüşdə iştiraka görə mühakimə edilməsi qadağan olunur. Əslində vətəninin suverenliyi uğrunda mübarizə aparmış şəxslər qanuni müdafiə hüququ təmin olunmadan mühakimə edilirlər. Bu cür məhkəmə prosesindən biri Yerevanda keçirilmiş və iki nəfər azərbaycanlı əsir ölüm cəzasına, üç nəfər 15 il, üç nəfər isə 12 il müddətinə azadlıqdan məhrum edilmişlər. Azərbaycan tərəfi beynəlxalq təşkilatlar tərəfindən bu cür faktların tədqiqinə həmişə müsbət yanaşmış və bu sahədə öz səylərini göstərmişdir.[61] Azərbaycan dövləti hərbi əsirlərin məhkəmə məsuliyyətinə alınması faktları ilə əlaqədar dəfələrlə özünün etirazını bildirmiş, bu cür halların beynəlxalq hüquq normalarına zidd olduğunu qeyd etmişdir.[62]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı insan hüquqları və humanitar hüquq normaları tələblərinin pozulması faktları kifayət

qədər çoxdur. Bu cür halların qarşısının alınmasının yeganə yolu həmin hüquq pozğunluğunu törətmiş şəxslərin layiqli cəzalarını almasındadır. BMT Təhlükəsizlik Şurasının Ruanda barədə qətnaməsində göstərildiyi kimi, "hərbi tribunalların yaradılması cəzasızlıq ənənələrinə son qoymaq və insan hüquqlarının gələcək pozulmasının qarşısını almağa qabil olan mühüm tədbirdir".[63]

### *7. Münaqişənin doğurduğu qaçqın və məcburi köçkün probleminə görə cavabdehliyi kim daşıyır, problem necə həll olunmalıdır?*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin insan hüququ ilə bağlı aktual məsələlərindən biri də Azərbaycanda qaçqın və məcburi köçkünlər problemidir.

Son onilliklər ərzində dünyada baş verən proseslər nəticəsində qaçqınlar və məcburi köçkünlərin sayı sürətlə artmış və bu da problemin beynəlxalq hüquqi həllinə diqqətin artırılması zərurətini meydana çıxarmışdır. Respublikamızda səkkiz milyonluq əhalinin bir milyondan çoxunun qaçqın və məcburi köçkün vəziyyətində olması, bu problemin necə böyük çətinliklər doğurduğundan xəbər verir. Azərbaycanda bu qədər qaçqın və məcburi köçkün olmasının səbəbi Ermənistanın, erməni millətçi dairələrinin Azərbaycan Respublikasına, Azərbaycan ərazilərinə qəsd etmək məqsədilə başladıqları siyasi və hərbi əməliyyatların nəticəsidir. Azərbaycanda qaçqınların yaranması 1988-ci ildə Ermənistan dövləti tərəfindən "azərbaycanlılarsız Ermənistan" planının həyata keçirilməsi ilə başlandı. Hazırda Ermənistan adlanan ərazidə yaşayan azərbaycanlılara qarşı göstərilən təzyiq, təqib, ciddi təxribat və fiziki zorakılıqlar nəticəsində azərbaycanlılar doğma yurd-yuvasını tərk edib Azərbaycana köçdülər. Sonralar Azərbaycanın öz ərazilərində Ermənistan silahlı qüvvələrinin apardığı hərbi əməliyyatlar və Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi nəticəsində respublikamızda qaçqın və məcburi köçkünlərin sayı bir neçə dəfə artmış və hazırda bu rəqəm bir milyondan çoxdur.

Qaçqınlar problemi insan hüquqları problemi ilə o dərəcədə bağlıdır ki, onları biri-birindən ayırmaq mümkün deyildir. Əhalinin kütləvi köçməsinin əsas səbəbi elə insan hüquqlarının pozulmasıdır.

Qaçqınlar probleminin həlli ilk növbədə insan hüquqlarına riayət edilməsindən başlanılmalıdır. Belə ki, "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"də nəzərdə tutulmuş "heç kəs qanunsuz sürgünə məruz qala bilməz" (mad.9) hüququnun təmin olunması qaçqın probleminin yaranmasının qarşısını ala biləcək ən yaxşı vasitədir.

Fikrimizcə, Azərbaycanda qaçqınların əmələ gəlmə səbəbi məhz Ermənistanda hakimiyyət dairələrinin göstərişi ilə həyata keçirilən etnik təmizləmə olmuşdur. Çünki Ermənistanda yaşayan azərbaycanlılar dövlət və hakimiyyət orqanlarının təzyiqi və rəhbərliyi ilə doğma ev-eşiyindən qovuldular, onların Azərbaycana axını isə qaçqınlıq problemini yaratdı. Sonradan isə Ermənistanın

Azərbaycana ərazi iddiaları Azərbaycan dövlətinin öz daxilində-əvvəl Dağlıq Qarabağ ərazisində, daha sonra isə ətraf rayonlarda aparılan hərbi əməliyyatlar məcburi köçkün ordusunun yaranmasına səbəb oldu. Bu faktlar dəfələrlə Azərbaycan Respublikası tərəfindən verilmiş bəyanatlarda öz ifadəsini tapmışdır.[64]

Əgər Ermənistan dövləti onun ərazisində yaşayan azərbaycanlıların sürgünə məruz qalmamaq hüququnu təmin etmiş olsaydı, sözsüz ki, Azərbaycanda qaçqın problemi də yaranmazdı. Bu fikir BMTQAK-ın 1993-cü il müraciətində də öz əksini tapmışdır. Müraciətdə deyilir ki, "sürgün olunmamaq hüququ dövlətin öz vətəndaşlarını məcburi köçməkdən müdafiə etmək vəzifəsini nəzərdə tutuf.[65]

Qaçqının humanist münasibətə və müdafiəyə ehtiyacı vardır. Əgər adam, ailə və bütöv bir qrup öz yurdundan ayrılıb, başqa yerdə sığınacaq axtarırsa, deməli, onun başqa imkanı yoxdur. Qaçqına çevrilmək çox adam üçün özünümüdafiə imkanı tükəndikdən sonra qəbul edilən ağır qərardır. O, çox vaxt həyatın təhlükədə olduğu hallarda instinktiv cavab reaksiyası kimi meydana çıxır.

Etnik təmizləməyə və ya "mütəşəkkir qovulmağa məruz qalan adamlar çox vaxt təhlükə, təzyiq və hətta işgəncə, ölümlə üzləşməli olurlar. Məsələn, Ermənistandan silah gücünə qovulan azərbaycanlılar qısa müddətdə yaşadıqları evləri tərk etməyə məcbur edilmiş, qarlı qış günlərində dağlarda donmaqdan çəkinməyərək canlarını qaçmaqla xilas etməyə çalışmışlar. Bu cür hərəkətlər bir tərəfdən də qaçqınların əmlakına sahib olmaq məqsədilə qısa müddətdə həyata keçirilir.

Yaxın vaxtlardakı böhranların bəzilərində kütləvi köçmək təkcə silahlı münaqişənin nəticəsi deyil, həm də döyüşən tərəflərin məqsədi olmuşdur. Eyni zamanda Ermənistan dövləti də məhz bu məqsədi qarşısına qoymaqla Azərbaycana qarşı müharibəyə başlamışdır.

Beləliklə, qaçqınların və məcburi köçkünlərin problemini nizama salmaq, həmçinin hadisənin özünü aradan qaldırmaq, təkcə humanitar məsələ deyil. Bu, Yer üzündə daha dinc, rahat, təhlükəsiz həyat yaşamaq kimi qlobal vəziyyətin tərkib hissəsidir.

İki səbəbə görə həmin problemin həllinin tapılması zəruridir:

- humanitar səbəbə görə - doğma ocaqlarından ayrılmış adamların əzablarına son qoyulmalıdır;

- strateji səbəbə görə - dünya miqyasında əhalinin kütləvi köçməsi ilə əlaqədar onların təhlükəsizlik səviyyəsi yüksəldilməli və bu köçməyə səbəb olan qüvvələrin qarşısı alınmalıdır.

Qaçqın və məcburi köçkün olmaq çox şeyi itirmək deməkdir. Doğma yerləri tərk edərkən onlar illərlə qazandıqlarını tərk etməli olurlar. Bununla belə köçdükləri yerdə işlə təmin oluna bilmir, sosial cəhətdən son dərəcə ağır vəziyyətə düşürlər. Bütün bu itkilər sosial, psixoloji və hüquqi nəticələr doğurur.

Fikrimizcə, qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı dörd cəhətə diqqət yetirilməsi zəruridir:

- məcburi yerdəyişməyə bütövlükdə, qlobal nöqteyi-nəzərdən baxılmalıdır;

- insan hüquqları ilə qaçqınlar haqqında qanun arasında bağlılıq möhkəmləndirilməlidir;

- çalışmaq lazımdır ki, adamlar evlərini tərk etməyə məcbur olmamışdan əvvəl onların müdafiəsi təmin edilsin;

- qaçqınlar və məcburi köçkünlər üçün sığınacaq hüququ saxlanılmalıdır.

Böyük əhali kütləsinin etnik-təmizləmə, zorakılıq təhlükəsi altında olduğu bir dövrdə qaçqın və məcburi köçkünlərin problemi ilə təkcə humanitar təşkilatların məşğul olması kifayət deyildir. Bu problemin həlli eyni zamanda onu doğuran məsələlərin həllini tələb edir. Ona görə bu problemin həlli ilə məşğul olan qurumların fəaliyyəti BMT və digər beynəlxalq təşkilatların fəaliyyəti ilə qovuşur və məsələnin kompleks həllini tələb edir.

BMT-nin Qaçqınlar üzrə sabiq Ali Komissarı Sadako Oqata haqlı olaraq qeyd edir ki, "qaçqınlar problemi son nəticədə konkret adamların problemidir. Bu problem ancaq konkret təşkilat və regionlar onun həllinə vicdanla yanaşdıqda həll edilə bilər".[66]

İnsan hüquqlarının pozulması qaçqınlar axını yaratdığı kimi, eyni zamanda insan hüquqlarına hörmət onların geri - vətənlərinə qayıtmaları üçün də şərait yarada bilər. Buna nail olunmasının yolu isə insan hüquqlarının pozulmasına qarşı mübarizənin hərtərəfli genişləndirilməsi və bu hüquqların pozulmasında təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsidir. Bu nöqteyi-nəzərdən Yuqoslaviya və Ruanda hadisələri ilə əlaqədar Beynəlxalq Tribunalların yaradılması, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun qəbul edilməsi təqdirəlayiq hal hesab edilməlidir. Çünki bu cür tədbirlər son nəticədə insan hüquqlarının pozulmasının və deməli, qaçqınlar və məcburi köçkünlərin yaranmasının qarşısının alınmasına əhəmiyyətli təsir göstərəcəkdir.

BMT-nin 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqlarına dair Ümumdünya Sülh Konfransı göstərdi ki, insan hüquqlarının kobudcasına pozulması insanların miqrasiyasına səbəb olan mürəkkəb və çoxsaylı amillərdən biridir. Konfrans tələb etdi ki, beynəlxalq birlik problemə beynəlxalq həmrəylik ruhunda hərtərəfli yanaşma metodu işləyib hazırlasın. Bizcə, qaçqınlar və məcburi köçkünlər probleminə hərtərəfli yanaşma bu problemi yaradan əsas səbəblərin araşdırılmasını və insan hüquqları pozulmaq təhlükəsi altında olan adamların tam müdafiəsi üçün strategiyaların inkişafını əhatə etməlidir. Bu cür hərtərəfli yanaşmanın əsasını böhran vəziyyətlərinə çevik reaksiya verən mexanizmin yaradılması və insan hüquqları pozulanların tam müdafiəsini təmin etmək üçün etibarlı tədbirlərin hazırlanması təşkil edir. İmkan dairəsində qaçqınların və məcburi köçkünlərin hüquq pozulmalarından etibarlı şəkildə qoruna biləcəkləri yerlərə qaytarılması da nəzərdə tutulmalıdır. Beynəlxalq birlik bir çox hallarda insan hüquqlarının pozulması ilə qaçqınların artması arasında əlaqə olduğunu təsdiq etsə də, son vaxtlara qədər insan hüquqlarının pozulması hallarının aradan

qaldırılması üçün birgə səylər göstərilməmişdir. Lakin Kosovo hadisələri ilə əlaqədar NATO-nun həyata keçirdiyi tədbirlər bu sahədə Beynəlxalq birlik tərəfindən yeni addımlar atılmasını sübüt edir. Sözsüz ki, bu mexanizmin daha çevik və silahlı vasitələrdən daha az istifadə olunan, daha az dağıntı və maddi ziyana səbəb olan vasitələrinin axtarışı davam etdirilməlidir. Belə ki, BMT-nin İlkin Xəbərdarlıq İdarəsi qaçqınların və məcburi köçkünlərin artmasına səbəb olan insan hüquqları pozuntularının qarşısının alınması üçün vaxtında zəruri məlumatın toplanılmasında, bu axın gözlənilən dövlətlərə digər dövlətlər tərəfindən mərkəzləşdirilmiş qaydada təzyiq göstərmək məqsədilə onlardan ölkədəki mövcud vəziyyət haqqında xüsusi hesabat hazırlamağı tələb edə bilər. Həmçinin ayrı-ayrı dövlətlər cəza tədbirlərinin aparılması nəticəsində insanları doğma yurdlarından qaçmağa məcbur edən ölkələrlə ikitərəfli əlaqə yaradaraq bu cür halların qarşısının alınmasına çalışmalıdırlar.

İnsan hüquqlarının qorunmasını əsas amil hesab edən təşkilatlar, o cümlədən Avropa Şurası və digər beynəlxalq təşkilatlar insan hüquqlarının müdafiəsinə və bu sahədə qanunlara riayət olunmasına nəzarəti təşkil edib həyata keçirməlidirlər.

Çalışmaq lazımdır ki, insan hüquqlarını pozanlar keçmişdə olduğu kimi cəzasız qalmasınlar. Qanunu pozmuş hər bir məsul şəxs cəzasını almalıdır. Dövlətlər sayıq olmalı, insan hüquqlarının pozulması üçün şərait yarada bilən hər hansı yeni hadisəyə qarşı dərhal öz etirazlarını bildirməlidirlər.

Qaçqın və məcburi köçkünlərlə əlaqədar problemin həllinin ən düzgün və ədalətli yolu onların vaxtında vətəninə qayıtmasıdır. Bunun üçün isə ilk növbədə münaqişənin özü həll edilməlidir. Qaçqınlığı doğuran səbəb aradan qaldırılmadan qaçqın və məcburi köçkünlərin geri qaytarılması və yaxud onların köçməsinin qarşısının alınması problemin həlli deyil, əksinə hüquqların pozulması kimi qiymətləndirilməlidir.

Qaçqın və məcburi köçkünlərin repatriasiyası üçün ilkin şərt geri qayıtmanın könüllülüyü və təhlükəsiz şəraitdə həyata keçirilməsidir. Burada təhlükəsizlik anlayışı üç ünsürü nəzərdə tutur:

- hüquqi təhlükəsizlik (toxunulmazlığa, ayrıseçkiliyə, təqib və cəzaya məruz qalmamağa dövlət təminatı);
- fiziki təhlükəsizlik (silahlı hücumdan müdatiə, yolların minadan təmizlənməsi və s.);
- maddi təhlükəsizlik (torpaq və yaşayış üçün zəruri vasitələrə çatmaq imkanı).[67]

Beləliklə, qaçqın və məcburi köçkün problemi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. İlk növbədə adamların qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin qarşısı alınmalıdır. Bütün vasitələrdən istifadə olunaraq silahlı

münaqişələrin, insan hüquqlarının pozulmasının qarşısı alınmalıdır. Elə etmək lazımdır ki, artıq vətənini tərk etmiş adamlar vaxtında geri qayıtsın;

2. Azərbaycanda qaçqın və məcburi köçkünlər probleminin yaranmasına səbəb Ermənistan dövlətində insan hüquqlarının pozulması olmuşdur;

3. Ermənistandan azərbaycanlıların kütləvi şəkildə qovulması təkcə münaqişənin nəticəsi deyil, Ermənistan dövlətinin məqsədi olmuşdur;

4. Beynəlxalq hüquqi müdafiə nöqteyi-nəzərindən məcburi köçkünlərlə qaçqınlara fərq qoyulmamalıdır. Beynəlxalq yardım göstərilərkən hüquqi status deyil, adamların tələbatı əsas götürülməlidir;

5. Qaçqın və məcburi köçkünlüyün yaranması səbəbləri aydınlaşdırılmalı və bu vəziyyətin yaranmasında təqsirli olan dövlət və konkret vəzifəli şəxslər məsuliyyətə cəlb edilməlidir. Problemin məhz onların hesabına həllinə nail olunmalıdır;

6. Qaçqınlar və məcburi köçkünlər problemi ilə təkcə həmin sahə ilə məşğul olan qurumlar deyil, eyni zamanda BMT, ATƏT, NATO və digər bu kimi siyasi təşkilatlar, maliyyə təşkilatları, məsələn, Ümumdünya Bankı və s. məşğul olmalı və problemlə əlaqədar hərtərəfli humanitar yardım göstərilməsi məsələsi təmin olunmalıdır;

7. Qaçqınlar və məcburi köçkünlər problemi ölkənin digər problemləri ilə kompleks şəkildə həll edilməlidir. Çünki silahlı münaqişə, siyasi repressiya, kasıblıq, iqtisadi bərabərsizlik, məcburi mühacirət biri - birini müşayiət edir və gücləndirir;

8. Qaçqın və məcburi köçkün probleminin həllinin ən düzgün və ədalətli yolu onların vaxtında vətəninə qayıtmasıdır. Bunun üçün isə ilk növbədə münaqişənin özü həll edilməlidir.

### *8. Ermənistan dövlətinin məsuliyyəinin hüquqi əsasları nədir?*

Beynəlxalq hüquq normalarının pozulmasına görə dövlətin məsuliyyətini reallaşdıran orqanlar sistemi mövcud deyildir. Lakin bu o demək deyildir ki, beynəlxalq hüquq normalarını pozan dövlət cəzasız qalır və ya qalmalıdır. Dövlətin beynəlxalq hüququn subyekti kimi beynəlxalq hüquqi məsuliyyət daşıması heç bir şübhə doğurmur.

BMT Beynəlxalq Hüquq Komissiyasının işləyib hazırladığı Dövlətlərin məsuliyyəti haqqında maddələr layihəsinin 1-ci maddəsinə əsasən “dövlətin hər hansı beynəlxalq hüquqazidd əməli həmin dövlətin beynəlxalq məsuliyyətini doğurur”. Burada pozuntu törətmiş dövlətin məsuliyyətinin labüdlüyü prinsipi müəyyənləşdirilmişdir. Bu prinsip beynəlxalq hüquqda olduğu kimi, daxili hüquq üçün də səciyyəvidir. Layihənin 2-ci maddəsindən irəli gələn tələb ondan ibarətdir ki, beynəlxalq hüquqazidd əməl törətmiş hər bir dövlət beynəlxalq məsuliyyət daşımalıdır. Beynəlxalq humanitar hüquq normalarının pozulmasına görə dövlətin məsuliyyət daşıması bir çox beynəlxalq hüquqi sənədlərdə təsbitini tapmışdır. (30

avqust - 1 sentyabr 1993-cü ildə) Cenevrədə keçirilən silahlı münaqişə qurbanlarının müdafiəsi haqqında Beynəlxalq Konfrans təsdiq etdi ki, "beynəlxalq humanitar hüquq normalarını pozan dövlət, əgər buna əsas varsa, ziyanı ödəməlidir".

Keçmiş Yuqoslaviyadakı münaqişə ilə əlaqədar BMT Baş Məclisi qeyd etmişdir ki, "dövlət onun nümayəndələrinin öz ərazilərində və ya başqa dövlətin ərazisində törətdiyi insan hüquqlarının pozuntusuna görə məsuliyyət daşıyacaqdır".

Döyüşən dövlətlərin öz orqanlarının fəaliyyətinə görə məsuliyyət daşıması prinsipi ümumi şəkildə 1907-ci il IV Haaqa Konvensiyasının 3-cü maddəsində müəyyənləşdirilmiş və Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 91-ci maddəsində təsbitini tapmışdır. Bundan başqa, həmin prinsip Cenevrə Konvensiyalarında (III CK, mad. 12; IV, CK mad. 29) hərbi əsirlər və mülki şəxslərə münasibətdə törədilən əməllərlə əlaqədar xüsusi olaraq nəzərdə tutulmuşdur. Konvensiyalarda göstərilir ki, dövlət onun hakimiyyəti altında olan hərbi əsir və mülki şəxslərlə rəftara görə məsuliyyət daşıyır.

Silahlı qüvvələr dövlət orqanı olduğuna görə dövlət onların fəaliyyəti ilə əlaqədar məsuliyyət daşımalıdır. Hüquq pozuntusunu törətmiş şəxsin hərbi rütbəsi məsuliyyətin yaranmasında əhəmiyyət kəsb etmir. Beynəlxalq Hüquq Komissiyasının fikrincə, "təqsirkar" orqanın dövlət strukturundakı mövqeyi törədilmiş əmələ görə dövlətin məsuliyyətinə təsir göstərmir.[68]

Müharibə dövlətin iradəsi ilə həyata keçirilən xüsusi vəziyyət olduğu üçün müharibə zamanı silahlı qüvvələr tərəfindən törədilmiş beynəlxalq humanitar hüquq pozuntularına görə dövlət məsuliyyət daşımalıdır.

Dövlət təkcə özünün silahlı qüvvələrinin fəaliyyətinə görə deyil, hökumətin nəzarəti altında olmasa da, onun mənafeyi üçün fəaliyyət göstərən və heç bir cəzaya məruz qalmadan beynəlxalq humanitar hüquq normalarını pozan qeyri-nizami hərbiləşdirilmiş qrupların fəaliyyətinə görə də cavabdehlik daşıyır.[69] BMT-nin Sudan üzrə Xüsusi Məruzəçisi qeyd etmişdir ki, Uqanda hökumətini devirmək məqsədilə Sudanın ərazisində yerləşən qiyamçı qruplar tərəfindən insan hüquqları və ya humanitar hüququn pozulmasına görə Sudan cavabdehlik daşıyır.[70]

BMT Baş Məclisi keçmiş Yuqoslaviyadakı münaqişə ilə əlaqədar qeyd etmişdir ki, dövlət onun nümayəndələrinin həm öz ərazisində, həm də başqa dövlətin ərazisində törətdikləri insan hüquqlarının pozulmasına görə məsuliyyət daşımalıdır.

Dövlət beynəlxalq cinayət hüquq normalarını pozmağa görə məsuliyyət daşıyır. Dövlətin məsuliyyətinin beynəlxalq cinayət hüququ normalarını pozması əsasında yaranmasına baxmayaraq, onun məsuliyyəti cinayət hüquqi məsuliyyət deyildir. Beynəlxalq hüququn hər hansı normalarını pozmağa görə dövlət, ancaq beynəlxalq hüquqi məsuliyyətin subyekti ola bilər.[71] Dövlətin beynəlxalq hüquqazidd əməlləri özündə beynəlxalq cinayəti əks etdirdikdə, hər bir dövlət müəyyən edilmiş qaydalara riayət etməklə cinayəti törətmiş və ya törədən

dövlətdən özünün hüquqazidd davranışına son qoymağı və tam reparasiyanı təmin etməyi tələb etmək hüququna malikdir. Hər bir zərər çəkmiş dövlətin natura formasında restitusiya almaq hüququ da vardır. Beynəlxalq birliyin müstəqil üzvü kimi mövcudluğu, onun ərazi bütövlüyü və ya xalqının mühüm həyati maraqlarını təhlükə altına qoyması halı istisna olmaqla restitusiya məhdudlaşdırıla bilməz. Beynəlxalq cinayət törətmiş dövlətdən cinayət törədilməsinə son qoymaq və restitusiyanı təmin etmək tələbinə adekvat cavab almadıqda, dövlət əks tədbirlər görmək hüququna malikdir. Cavab tədbirləri beynəlxalq cinayətin ağırlıq dərəcəsini aşmamalıdır.[72]

İnsan hüquqlarına hörmət insan hüquqları sahəsində dövlətin üzərinə qoyulan minimum tələbdir. Bu halda dövlətdən, xüsusi nəzərdə tutulmuş hallar istisna olmaqla, fərdi maraqlar sahəsinə müdaxilə etməməsi tələb olunur. İnsan hüquqlarını təmin etmək öhdəliyi isə dövlətdən yurisdiksiyası altında olan şəxslərin hüquqlarını azad surətdə həyata keçirmələri üçün zəruri şərait yaradılması məqsədilə tədbirlər görülməsini tələb edir.[73]

İnsan hüquqlarının pozulmasının qarşısını almaq dövlətin həmin hüququ təmin etmə öhdəliyini yerinə yetirməsinin mühüm tərkib hissəsidir. Amerika İnsan Hüquqları Məhkəməsi Velasquez Rodriguez v. Honduras işində Amerika İnsan Hüquqları Konvensiyasının 1-ci maddəsinə istinad edərək qeyd etmişdir ki, "insan hüquqlarının pozulmasının qarşısını almaq üzrə zəruri tədbirlər görmək kimi hüquqi vəzifə" dövlətin üzərinə düşür.[74] Məhkəmə daha sonra qeyd etmişdir ki, "bu öhdəliyə insan hüquqlarının hər hansı pozuntusunun hüquqazidd akt kimi qiymətləndirilməsinin təmin olunması ilə yanaşı, təqsirli şəxslərin cəzalandırılması, pozuntu qurbanlarına zərərə görə kompensasiya verilməsi də daxildir".[75]

BMT-nin İnsan hüquqları komitəsi də insan hüquqlarının pozulmasının qarşısının alınmasının təmin edilməsi üçün dövlətin zəruri tədbirlər görməli olmasını qeyd etmişdir.[76]

Dövlət öz orqanlarının hərəkətlərinə görə də məsuliyyət daşıyır. Dövlət orqanlarının fəaliyyətinin dövlətin beynəlxalq hüquqi məsuliyyətini yaratması insan hüquqlarının müdafiəsi sahəsində də tanınmışdır.[77]

İnsan hüquqlarının pozulması ilə əlaqədar dövlətin məsuliyyətinin yaranması əsaslarından biri də onun fəaliyyətsizliyi ilə bağlıdır. İnsan hüquqları komitəsi təcridxanada şəxsin ölümü ilə əlaqədar qeyd etmişdir ki, belə halda dövlət ya fəaliyyətinə, ya da fəaliyyətsizliyinə - qurbanın həyatının müdafiəsi üzrə adekvat tədbirlər görmədiyinə görə məsuliyyət daşıyır. Komitə oxşar faktlarla əlaqədar dövlətin məsuliyyət daşımasını dəfələrlə qeyd etmişdir.[78]

Avropa İnsan Hüquqları Məhkəməsi də dövlətin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətsizliyi ilə əlaqədar məsuliyyət daşımasını təsdiq etmişdir.[79]

Beləliklə, Ermənistan dövləti aşağıdakı faktlara görə beynəlxalq məsuliyyət daşımalıdır:

1. Azərbaycan dövlətinin ərazisinə təcavüz və onun müəyyən hissəsinin işğalına görə (BMT tərəfindən 1974-cü ildə qəbul ediimiş "Təcavüzün anlayışı haqqında" qətnaməyə əsasən);

2. Azərbaycanın işğal olunmuş ərazilərində mülki əhalinin deportasiyasına görə ("Mülki əhalinin mühafizəsi haqqında" 1949-cu il Cenevrə Konvensiyasına əsasən);

3. Hərbi əsirlərlə qeyri-insani rəftar, onlara işgəncə verilməsi və onların həyatdan məhrum edilməsinə görə ("Hərbi əsirsərlərlə rəftar haqqında" 1949-cu il Cenevrə Konvensiyası);

4. Silahlı münaqişələr zamanı yaralı və xəstələrlə qəddar rəftar, onlar üzərində tibbi eksperimentlərin aparılmasına görə ("Quru müharibələrində yaralı və xəstələrin mühafizəsi haqqında" Genevrə Konvensiyasına və 1977-ci il I əlavə protokoluna əsasən);

5. Azərbaycanlılara qarşı soyqırım siyasətinin həyata keçirilməsinə görə (Xocalı soyqırımı, 1948-ci il "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyasına əsasən);

6. Azərbaycanlıların vətənlərində sərbəst hərəkət etmək azadlığını məhdudlaşdırmaq, onların öz mülkiyyətindən istifadə etmək hüququnu pozmasına görə ("insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa konvensiyasına əsasən);

7. Ermənistanın hərbi cinayətkarları tərəfindən törədilmiş beynəlxalq cinayətlərin qarşısının alınmaması və cinayət törətmiş şəxslərin məsuliyyətə alınmamasına görə (Genevrə Konvensiyarına 1977-ci il I əlavə protokolun 91-ci maddəsinə əsasən);

8. Ermənistan dövlətinin maddi və siyasi məsuliyyəti ilə yanaşı münaqişə zamanı beynəlxalq cinayət törətmiş şəxslər də beynəlxalq cinayət məsuliyyəti daşımalıdırlar.

### *9. Fiziki şəxslər beynəlxalq cinayətlərə görə hansı formada məsuliyyət daşımalıdır?*

Fiziki şəxslərin beynəlxalq cinayət törətməsi onlar tərəfindən beynəlxalq cinayət hüquq normalarının qəsdən pozulmasının nəticəsidir.

Fiziki şəxslərin beynəlxalq cinayətlərə görə məsuliyyət institutunun əsasında Nürnberq Beynəlxalq Hərbi Tribunalının müəyyən etdiyi aşağıdakı müddəa durur: "Beynəlxalq hüquqa qarşı cinayətlər mücərrəd kateqoriyalar tərəfindən deyil, insanlar tərəfindən törədilir və yalnız belə cinayətləri törətmiş ayrı-ayrı şəxsləri cəzalandırmaq yolu ilə beynəlxalq hüquq normalarının yerinə yetirilməsini təmin etmək olaf.

Dövlət özü-özlüyündə mücərrəd kateqoriya kimi cinayət törədə bilməz. Onun siyasəti, fəaliyyəti, davranışı müxtəlif səviyyədə dövlət orqanı kimi çıxış edən ayrı-ayrı şəxslərin siyasəti, fəaliyyəti və davranışıdır. Bütün bunlar isə fiziki şəxslərin beynəlxalq hüquqi məsuliyyəti üçün əsas yaradır.

Sülh və Bəşəriyyətin Təhlükəsizliyi Əleyhinə Cinayət Məcəlləsi layihəsinin 2-ci maddəsinin 1-ci bəndində deyilir: "sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər fərdi məsuliyyət dogurur".

Məlum olduğu kimi, Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 91-ci maddəsinə əsasən delikvent dövlət silahlı qüvvələrin tərkibində olan şəxslərin törətdikləri cinayətə görə məsuliyyət daşıyır və zəruri hallarda ziyanı ödəməlidir.

Beynəlxalq Cinayət Məhkəməsi Statutunun 25-ci maddəsi fiziki şəxslərin cinayət məsuliyyəti haqqında daha geniş müddəa nəzərdə tutur. Belə ki, Məhkəmənin yurisdiksiyasına aid olan cinayəti törətmiş şəxs fərdi məsuliyyət daşıyır və Statuta müvafiq olaraq cəzalandırılmalıdır. Eyni zamanda Statutda deyilir: "Statutun fərdi cinayət məsuliyyətinə aid heç bir müddəası dövlətin beynəlxalq hüquq üzrə məsuliyyətinə təsir göstərmir" (mad.25, hissə 4).

Deməli, vəzifəli şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi həmin şəxsin beynəlxalq və ya milli məhkəmə tərəfindən mühakimə edilməsindən asılı olmayaraq, dövləti beynəlxalq hüquqi məsuliyyətdən azad etmir. Eyni zamanda, dövlətin siyasi və maddi məsuliyyəti fiziki şəxsin beynəlxalq cinayətə görə fərdi məsuliyyətini istisna etmir.

Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyəti iki aspektə malikdir. O, bir tərəfdən dövlətin siyasi məsuliyyətinin formasıdır, digər tərəfdən isə konkret fiziki şəxslərin beynəlxalq hüquq normalarını pozmasından törəyən cinayət məsuliyyətidir.

Beləliklə, fiziki şəxslər tərəfindən istər silahlı münaqişə, istərsə də dinc dövrdə törədilmiş beynəlxalq cinayətlər dövlətin siyasi və maddi məsuliyyəti ilə yanaşı, onların da beynəlxalq cinayət məsuliyyətinə səbəb olur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı beynəlxalq cinayət törətmiş fiziki şəxslərin delikvent dövlətin məsuliyyətindən asılı olmayaraq beynəlxalq cinayət məsuliyyəti daşıması beynəlxalq hüququn tələbidir.

Fiziki şəxslərin dövlətdə hər hansı vəzifəni icra etməsi onların cinayət məsuliyyətindən azad olunması üçün əsas ola bilməz. Münaqişə zamanı beynəlxalq cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilə bilər.

Ənənəvi olaraq milli məhkəmə orqanlarının yurisdiksiyası dövlətin ərazisində cinayət törətmiş şəxslərlə məhdudlaşır. Hazırda beynəlxalq hüquq beynəlxalq cinayətlərin dövlətin ərazisindən kənarda törədilməsindən, cinayəti törədənin və ya zərər çəkmişin həmin dövlətin vətəndaşı olmamasından, eyni zamanda həmin cinayətlərin ölkənin dövlət maraqlarına ziyan vurub-vurmamasından asılı olmayaraq, milli məhkəmə orqanlarına həmin cinayətlərlə

bağlı yurisdiksiyanı həyata keçirməyə imkan verir. Hətta beynəlxalq hüquq milli məhkəmə orqanları üzərində bu cür öhdəlik qoyur, yəni universal yurisdiksiya tələb edir.

Cenevrə Konvensiyaları yurisdiksiyanın cinayətin törədilmə yerindən asılı olmamasını birbaşa nəzərdə tutmasa da, onun müddəaları şərh edilərkən universal yurisdiksiya özünü təzahür etdirir. Bu cəhətdən Konvensiya müqavilə hüququnda universal yurisdiksiyanı nəzərdə tutan ilk nümunələrdəndir.

Yurisdiksiyanın universallığı "aut judicare aut dedere" (ya cəzalandır, ya da ver) prinsipindən irəli gəlir.[80] Müharibə cinayətləri ilə bağlı həmin prinsip I CK-nın 49, II CK-nın 50, III CK-nın 129, IV CK-nın 146-cı maddələri və I Əlavə Protokolun 85-ci maddəsinin 1-ci bəndində öz ifadəsini tapmış müddəaların tələblərindən irəli gəlir. Bu prinsipə müvafiq olaraq dövlət müharibə cinayətini törətməkdə şübhəli bilinən və ya bu cinayətin törədilməsi barədə əmr vermiş şəxsi axtarmalı və vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq məhkəmə məsuliyyətinə almalıdır. Eyni zamanda, dövlət həmin şəxsi məhkəmə məsuliyyətinə cəlb etmək üçün daha çox əsası olan dövlətə mühakimə edilməsindən ötrü verə bilər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı beynəlxalq cinayət törətmiş şəxslərin mühakimə edilməsi üçün beynəlxalq məhkəmə yaradılmasa da, cinayətkarların məsuliyyətə alınması üçün hüquqi əsas vardır. Universal yurisdiksiya prinsipinə müvafiq olaraq hər bir dövlət genosid, müharibə cinayəti və digər beynəlxalq cinayət törətmiş şəxsləri mühakimə etməyə borcludur. Əlbəttə, ilk növbədə həmin cinayətləri törətmiş şəxslər müəyyən edilməli və aşkara çıxarılmaldır.

Münaqişə zamanı beynəlxalq cinayət törətmiş şəxslərin universal yurisdiksiya qaydasında cinayət məsuliyyətinə alınmasına nail olunması istiqamətində fəaliyyət canlandırılmalıdır.

Dövlətin aktları onun vəzifəli şəxslərinin fəaliyyəti olduğundan, təqsirə görə yalnız dövlətə sanksiya tətbiq edilməsi ilə kifayətlənmək olmaz. Belə hallarda cinayətkar əməlin təşkilatçıları, rəhbərləri, icraçıları - konkret fiziki şəxslər də cəzalandırılmalıdır.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı beynəlxalq cinayət törətmiş şəxslər cinayət məsuliyyətindən yaxa qurtarmaq üçün əmri icra etdiklərinə istinad edə bilməzlər. Mülki əhalinin öldürülməsi, deportasiyası, mədəni mülkiyyətin dağıdılması, hərbi əsirlərlə qəddar rəftar, işgəncələr və sair bu kimi cinayətlərin törədilməsi barədə əmr vermiş şəxslər onların icraçıları ilə birlikdə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar.

Komandirin məsuliyyət prinsipi onun tabeliyində olan şəxs tərəfindən beynəlxalq humanitar hüququn pozulmasının qarşısını almaq və ya aradan qaldırmaq üçün tədbir görmədiyi hallara şamil edilir.

Milli və ya beynəlxalq hüquqa əsasən şəxsin vəzifə səlahiyyəti ilə bağlı ola bilən immunitetlər və xüsusi prosessual normalar Məhkəmənin bu cür şəxslər barəsində yurisdiksiyasının həyata keçirilməsinə maneə törətməməlidir.[81]

Beləliklə, belə bir nəticə hasil olur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı təkcə birbaşa beynəlxalq cinayət törətmiş şəxslər deyil, həm də həmin cinayətlərin qarşısını almaq üçün tədbir görməmiş mülki hakimiyyət və hərbi rəis heyəti də cinayət məsuliyyəti daşıyır.

Cenevrə Konvensiyaları və I Əlavə Protokol müharibə cinayətlərinə məsuliyyətə cəlb etmə müddətinin tətbiq edilməməsi ilə bağlı heç bir norma nəzərdə tutmamışdır. Beynəlxalq hüquq cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi ilə əlaqədar cinayət məsuliyyətindən azadetmə haqqında müddəaların tətbiq edilməməsini tələb edir. BMT Baş Məclisinin 26 noyabr 1968-ci il tarixli 2931 (XXIII) saylı qətnaməsi ilə qəbul edilmiş "Müddətin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyasının 1-ci maddəsinə əsasən müharibə cinayətləri törədildiyi vaxtdan asılı olmayaraq, onlara cinayət məsuliyyətinə cəlb etmə müddəti tətbiq edilmir.[82]

Beynəlxalq cinayətlərə məsuliyyətə cəlb etmə müddətinin tətbiq olunmaması ona dəlalət edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilmiş beynəlxalq cinayətlərdən nə qədər vaxt ötsə də, həmin cinayətləri törətmiş şəxslər cinayət məsuliyyətinə alınmalıdırlar.

Dövlətdaxili qanunvericilikdə nəzərdə tutulmamasından asılı olmayaraq, beynəlxalq aləm tərəfindən qəbul edilmiş hüquq prinsiplərinə əsasən cinayət sayılan hər hansı əmələ görə cinayət məsuliyyətinə cəlb edilmənin zəruriliyi Nürnberq Hərbi Tribunalının Nizamnaməsində və həmin Tribunalın qərarlarında ifadəsini tapmış və beynəlxalq hüququn prinsipləri kimi tanınmış müddəalarda nəzərdə tutulmuşdur.[83]

Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsinin 1-ci hissəsinə əsasən heç kəs qüvvədə olan ölkədaxili qanunvericiliyə, yaxud beynəlxalq hüquqa əsasən törədildiyi vaxt cinayət olmayan hansısa hərəkət, yaxud səhv üstündə hansısa cinayət törətməkdə müqəssir sayıla bilməz. Eləcə də, şəxsə cinayət törədildiyi vaxt tətbiq edilməli olan cəzadan ağır cəza təyin edilə bilməz. Əgər cinayət törədildikdən sonra qanunla daha yüngül cəza müəyyən edilirsə, bu qanunun təsiri həmin cinayətkarlara da şamil olunur.

Maddənin 2-ci hissəsində göstərilir ki, bu maddədə heç nə hər hansı bir şəxsin törədilərkən beynəlxalq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə əsasən cinayət olan hər hansı bir əməlinə, yaxud xətasına görə məhkəməyə verilməsinə və cəzalandırılmasına mane olmur.

Qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilmiş bir sıra cinayətlər onların törədildiyi dövrdə Azərbaycan Respublikası Cinayət Məcəlləsində beynəlxalq cinayət kimi ifadəsini tapmamışdı. Lakin bu heç də həmin cinayəti törədən şəxslərin cinayət

məsuliyyətini istisna etmir. Çünki yuxarıda qeyd olunan beynəlxalq cinayətlərə görə məsuliyyətin zəruriliyi barədə müddəa artıq Beynəlxalq Birlik tərəfindən qəbul edilmiş və beynəlxalq hüququn adət norması kimi fəaliyyət göstərir. Ona görə də azərbaycanlılara münasibətdə törədilmiş vəhşiliklər beynəlxalq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə müvafiq olaraq beynəlxalq cinayət kimi tanınmış və həmin cinayət əməllərinə görə heç nə həmin cinayəti törətmiş şəxsləri cinayət məsuliyyətindən azad edə bilməz.

Beynəlxalq hüquq və cinayət hüququnda cinayətkarların verilməsi dedikdə, cinayət törətmiş və ya onu törətməkdə şübhəli hesab edilən şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ya ona münasibətdə ittiham hökmünün icra olunması üçün bir dövlət tərəfindən başqa dövlətə verilməsi başa düşülür. Müharibə cinayəti törətmiş şəxslərin verilməsi ilə əlaqədar beynəlxalq səviyyədə bağlanmış müqavilələrdə nəzərdə tutulan məsələlər milli qanunvericilikdə də öz əksini tapmışdır. "Müddətin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyanın 2-ci maddəsinə müvafiq olaraq iştirakçı dövlətlər müharibə cinayəti törətmiş şəxslərin beynəlxalq hüquqa müvafiq olaraq təhvil verilməsi üçün şərait yaradılmasına yönəldilmiş qanunvericilik və digər xarakterli bütün lazımi daxili tədbirləri görməyi öhdələrinə götürürlər. BMT Baş Məclisinin qəbul etdiyi Müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törətməkdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsiplərində də müharibə cinayətləri törətmiş şəxslərin verilməsi barədə müddəalar öz əksini tapmışdır.[84]

Cinayətkarların verilməsi haqqında beynəlxalq müqavilələr çoxtərəfli [məsələn, Avropa Şurasının “Cinayətkaıiarın verilməsi haqqında” 1957-ci il Avropa Konvensiyası, Müstəqil Dövlətlər Birliyi üzvü olan dövlətlərin qəbul etdiyi "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1994-cü il Konvensiyası] və ya ikitərəfli [məsələn, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22 dekabr 1992-ci ildə bağlanmış müqavilə] ola bilər.

Dövlətlərarası müqavilələrlə yanaşı cinayətkarların verilməsi məsələləri milli qanunvericiliklə də tənzimlənir. Belə ki, cinayət törətmiş şəxsin verilməsinə dair Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" 15 may 2001-ci il tarixli Azərbaycan Respublikası Qanununun müddəaları tətbiq olunmalıdır.[85]

Cinayətkarların verilməsi məsələsi ilə əlaqədar Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı müqavilələrin sayı getdikcə artır. Həmin məsələlərə ədəbiyyatda da xüsusi diqqət yetirilir.[86]

Deməli, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı beynəlxalq cinayət törətmiş şəxslərin tələb olunması və mühakimə edilməsi üçün hüquqi baza mövcuddur. Həmin hüquqi əsaslara söykənərək müharibə cinayətləri və insanlıq əleyhinə cinayət törətmiş şəxslərin axtarılıb tapılması, tələb olunması və mühakimə edilməsi istiqamətində fəaliyyət canlanmalıdır.

***1.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı II.
***2.*** Yenə orada.
***3.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı II.
***4.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51 -ci sessiya, Üçüncü komitə, bənd 100. 30 okfyabr 1996-cı il.
***5.*** Yenə orada.
***6.*** Действующее международное право, т.2, М., Издательство Московского Независимого Института Международного Права, 1997, с. 22, 30.
***7.*** Yenə orada.
***8.*** Заявление МИД Азербайджанской Республики по поводу чрезвычайной гуманитарной ситуации в Азербайджане. 19. 11.93г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с.15-16; Заявление МИД Азербайджанской Республики но поводу расселения армянского населения в оккупированном армянскими вооруженными силами г. Лачине. 23.11.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с. 37-38.
***9.*** Действующее международное право, т.2, М., Издательство Московского Независимого Института Международного Права, 1997, с. 68.
***10.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı il.
***11.*** Khodcaly its last day. Baku. Publishing House Azerbaican. 1992.
***12.*** Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***13.*** Yenə orada.
***14.*** Report of the International Law Commission on the 48-th session, 6 May-26 Culy, 1996.New-York.-1996.-P.93-94.
***15.*** Khodcaly its last day. Baku. Publishing House Azerbaican. 1992.

***16.*** Yenə orada.
***17.*** Yenə orada.
***18.*** Газета Свобода 12 июня 1992 г.
***19.*** Azərbaycan qəzeti, 1998,[1] 68.
***20.*** Reservations to the Convention on Genocide, Advisory Opinion. I.C.Reports. 1951.
***21.*** Гомьен Д., Харрис Д., Звaак Л. Европейская Конвенция о правах человека и Европейская Социальная хартия: право и практика, М., МНИМП, 1998, с. 137.
***22.*** Заявление МИД Азербайджанской Республики по поводу суда в Ереване над азербайджанскими военнослужащими, попавшими в плен в Кельбаджарском районе Азербайджана. 2.05.94 г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997. с.27-28.
***23.*** Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***24.*** Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***25.*** Yenə orada
***26.*** Трибунский А.В. Защита грасданского населения во время вооруженных конфликтов. Московский журнал международного права, № 1/98/29, Январь-март, с.119-131.
10. Заявление МИД Азербайджанской Республики в связи с событиями в зоне армяно-азербайджанского конфликта обострением ситуации на границе двух государств. 25.11.93г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с.16-18; Заявление МИД Азербайджанской Республики в связи с новой эскалацией вооруженной агрессии Республики Армения против Азербайджанской Республики. 10.01.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с.18-19; Заявление МИД Азербайджанской Республики в связи с Заявлением МИД Республики Армения от 18.06.94г. о якобы имевших место фактах обстрела территории Республики Армения со стороны Азербайджана. 22.06.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с.30-31.
***28.*** Yenə orada.
***29.*** HRC Coom. № 320/1988. CCPR/C/47/D/320/1988.

***30.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***31.*** Европейский Суд по правам человека. Избранные решения, т.I, М., НОРМА, 2000, с.383, 640-641, 767, 811; Европейский Суд по правам человека. Избранные решения, т.2, М., НОРМА, 2000, с. 75, 167, 221, 226, 325, 447, 469.
***32.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***33.*** Давид, Э. Принципы права вооруженных конфликтов. М., МККК, 2000, с.511.
***34.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***35.*** Azərbaycan qəzeti, 1999-cu il,[1] 77.
***36.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***37.*** Yena orada.
***38.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***39.*** HRC Comm[1]107/1981; Ameyda de Kvinteros Uruqvaya qarşı, 21 iyul 1983-cü il rəyi. UN. Doc. A/38/40, (1983), Annex XXII, paraqraf 14
***40.*** Платтнер Д. Дети и война // Защита детей в международном гума нитарном праве. - МККК, 1995.С. 9-10.
***41.*** Дутли М.Т. Дети и война // Дети- комбатанты, захваченные в плен - МКККЛ995.- с.71.
***42.*** insan hüquqları. Beynəlxalq müqavilələrtoplusu. Bakı. "Azərbay-can".s.287; Действующее международное право.М.1997. т.2.с.48.
***43.*** Azərbaycan Respublikası. XİN cari arxivi. Faks '596/GN 28 noyabr 1994-cü il.
***44.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı maktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.
***45.*** Nur. US Mil. Trib., 20 Aug. 1947, Brandt et al. (Medical Trial), AD, 1947, pp. 296-298
***46.*** Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-ci il.

***47.*** Yenə orada
***48.*** Yenə orada
***49.*** Давид Э. Принципы права вооруженных конфликтов. М., МККК, 2000, с.508.
***50.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı II.
***51.*** İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı. 1998. s.308.
***52.*** Respublika qəzeti, 2001,' 256.
***53.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı il.
***54.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51 -ci sessiya. Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı II.
***55.*** Yenə orada.
***56.*** Yenə orada.
***57.*** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 5 iyul 1999-cu il tarixli 2601/9 saylı məktubu. BMT 51-ci sessiya, Üçüncü komitə, bənd 100. 30 oktyabr 1996-cı il.
***58.*** Yenə orada.
***59.*** Yenə orada.
***60.*** Давид Э. Принципы права вооруженных конфликтов. М..МККК, 20ОО,с.500-522
***61.*** Заявление МИД Азербайджанской Республики по поводу расстрела 23 азербайджанских военнопленных в концентрационном лагере близ г. Спитак Республики Армения. 18. 02. 94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку. 1997, е.21-22: Заявление МИД Азербайджанской Республики по поводу расстрела 8 азербайджанских военнопленных на территории Республики Армения. 14.04.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г- декабрь 1996г). Баку, 1997.С.24-25.
***62.*** Azərbaycan Respublikası XİN-nin cari arxivi (1992-1970-ci illər). BMT yanında Daimi Nümayəndəliyin Baş katibə 27 iyun 1994-cü il tarixli məktubu.
***63.*** Azərbaycan Respublikası XİN-nin cari arxivi (1992-1970-ci illər). Sənəd [1] 122/ 7-11-22 fevral 1994-ci il.
***64.*** Заявление МИД Азербайджанской Республики по поводу суда в Ереване над азербайджанскими военнослужащими, попавшими в плен в Кельбаджарском районе Азербайджана. 2.05.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г-декабрь 1996г). Баку, 1997.С.27-28; Заявление МИД Азербайджанской Республики по поводу

смертного приговора в отношении военного летчика Ю. Бличенко. 22.06.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г-декабрь 1996г), Баку. 1997,с.29; Заявление МИД Азербайджанской Республики в связи возбуждением в Армении уголовного дела против жителя Баку Э. Дсафарова. 8.06.95г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г, Баку, 1997, с.57-58.

***65.*** Decision 94/697/PESC du Consil, relative a la postion commune, definie sur la base de l'article C.2. du traite sur I'Union europeenne, Concermant les obcectivs et priorites de Taction de I'Union europeenne vis-a-vis du Rwanda, Bulletin de I'Union europeenne, Commission.n 10,24 octobre 1994, p.54.

***66.***Сообщение Пресс-центра МИД Азербайджанской Республики но поводу доклада Верховного Комиссара ООН по делам беженцев о деятельности Управления Верховного комиссара ООН по делам беженцев в Азербайджане в 1993-1994 гг. 31.07.94г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997, с. 32-33; Заявление МИД Азербайджанской Республики по поводу чрезвычайной гуманитарной ситуации в Азербайджане. 19.11.93г. Заявления и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г - декабрь 1996г), Баку, 1997. с. 15-16.

***67.*** Полосение беженцев в странах мира. Найти решение, УВКБ ООН Интердиалект, 1996, с. 73.

***68.*** Положение беженцев в странах мира. Найти решение, УВКБ ООН Интердиалект, 1996, с. 73.

***69.*** Руководство для НПО но международным и региональным документам, касающимся беженцев и прав человека. Европейская серия. УВКБ ООН Региональное Европейское Бюро. т. 4. № 2. Июль 1998. с. 402.

***70.*** Краткие отчеты о заседаниях сорок третьей сессии 29 апреля-19 июня 1991 года. Ежегодник Комиссии Международного права 1991, т. 1, ООН, Нью-Йорк, 1993.

***71.***Давид Э. Принципы права вооруженных конфликтов. М., МККК. 2000. с. 470.

***72.*** E/CN.4/1997/58, para.39; E/CN.4/1998/66, paras. 35 and 36; Special Representative on Sudan, E/CN.4/1996/62 paras. 39 and 40.

***73.*** Лукашук И.И., Наумов А.В. Международное уголовное право, М., Спарк. I999, с. 70.

***74.*** Сборник важнейших документов по международному праву, Часть I, Общая, М., Институт Международного права и экономики, 1996, с. 18-19.

***75.***Buergenthai T. To Respect and to Ensure: State Obiligations and Permissidle Degorations. The International Bill of Rights: The Covenant on Civil and Political Rights (Ed.by LHenkin). New York. 1981. p. 78.

***76.***Velasquez Rodriguez v. Honduras, Cudgment of 29 Culy 1988. - Inter-American Court of Human Rights. - Ser.C: Decisions and Cudgments. - No.4. - Para. 175.
***77.***Velasquez Rodriguez Case, Cudgement of culy 28, 1988, Series C No.4(1988)
***78.*** Human Rights Committee, General Comment No. 6, Article 6 (Sixteenth session, 1982). // Compilation of General Comments and General Recommendations Adopted by Human Rights Treaty Bodies. - Un Doc.HRI/GEN/Rev.l.-1994-p.6.
***79.*** Report of the European Commission of Human Rights, Yearbook of the European Convention on Human Rights. - Vol. 11, Part. I. - P.13; ECHR(1987). - Ser. A. - Vol. 124-B. - P. 18.
***80.*** Human Rights Committee Report, 1983.[1]181/1981. - P. 132; Herrera Rubio v. Colombia. - Human Rights Committee Report , 1988.[1] 161/1983.- - P. 197; Human Rights Committee Report, 1990.-Vol II.[1] 181Л984- P. 3S36.; Hunan Ridnls Committee Report, 1990. - Vol. II.[1] 195/1985.-P. 47-48.
***81.*** Case of Platform "Arzte fur das Leben" (1988). ECHR, Ser. A. No. 139. p. 12.
***82.*** Anne-Marie La Roza. Dictionnaire de droit international penal, Termes choisis. Paris, Presses universitaires de France, 1998, 118 pp.
***83.*** Материалы региональной конференции. Пресечение военных преступлений на национальном и международном уровне, М., 29-31 мая 2000. с.22-30.
***84.*** İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı. 1998. s.33.
***85.*** Международное публичное право. Сборник документов, т. 2, М., БЕК, 1996, с. 103
***86.*** İnsan hüquqları. Beynəlxalq müqavilələr toplosu. Bakı. 1998. s.33.
***87.*** Сафаров Н. Комментарий к закону Азербайджанской Республики "О выдаче (экстрадиции) лиц, совершивших престуатения". Баку. Юридическая литература, 2001.
***88.*** Лукашук И.И., Наумов А.В. Международное уголовное право, М., Спарк, 1999, с. 288.

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ PROBLEMİNİN KONFLİKTOLOJİ ASPEKTLƏRİ

**FUAD HƏSƏNOĞLU**

**POLİTOLOQ**



***1. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin baş verdiyi Cənubi Qafqaz regionunun geostrateji mövqeyi necədir?***

Cənubi Qafqaz bölgəsi Qara dənizlə Xəzər dənizi arasında yerləşir. Bölgənin şimalında Qara dənizdən Xəzər dənizinə qədər, təxminən 1200 km. uzunluqda Böyük Qafqaz sıra dağları uzanır. Bu dağların yüksəkliyi 5000 metrdən çoxdur. Bölgənin cənubuna getdikcə yüksəklik azalır, mərkəzi hissə ovalıq və düzənliklərlə, cənubi hissə isə, Kiçik Qafqaz dağları və yaylalarla səciyyələnir.

Siyasi baximdan bu bölgə Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarını əhatə edir. Cənubi Qafqaz, şimaldan Rusiya Federasiyası, cənubdan isə Türkiyə və İran dövlətləri ilə həmsərhəddir. Cənubi Qafqazın belə bir rəngarəng təbiəti, onun müxtəlif qitələrin qovuşduğu yerdə yerləşməsi, hələ qədim zamanlardan müxtəlif xalqların həm keçid yerinə, həm də sığınacağıa çevrilməsinə səbəb olub. Bu bölgə Rusiya ilə Yaxın Şərqi, Kiçik Asiya ilə Mərkəzi Asiyanı birləşdirən körpü rolunda çıxış edir. Eyni zamanda, hələ qədim dövrlərdən Cənubi Qafqaz özünün enerji ehtiyatları ilə bir çox xarici dövlətlərin diqqətini cəlb edib. Xüsusilə, Azərbaycanın Xəzər dənizi hövzəsi neft və qaz yataqları ilə zəngindir.

Cənubi Qafqazın mühüm geostrasteji mövqeyi tarix boyu bu bölgəni güclü dövlətlərin geopolitik rəqabət obyektinə çevirib. Yeni dövrlərdən başlayaraq, bölgəyə geopolitik nəzarət uğrunda mübarizə aparan başlıca dövlətlər - Səfəvi, Osmanlı, Qacar, Rusiya və İran dövlətləri olmuşlar. Bunlardan başqa, zaman keçdikcə, Böyük Britaniya, Fransa, Almaniya və ABŞ kimi dövlətlər də Cənubi Qafqazda öz mənafelərini həyata keçirməyə çalışır və bölgə ətrafında gedən geopolitik rəqabətlərə ciddi şəkildə müdaxilə etməyə başlayırlar. Bütün bu geopolitik rəqabətlər həm də Cənubi Qafqaz dövlətlərinin milli mənafelərini təmin etmək uğrunda apardıqları fəaliyyətlərlə müşayiət olunur. Beləliklə, bölgənin geostrateji mövqeyindən irəli gələn, bir-birilə çulğalaşan bu geopolitik maraqlar, bölgədəki münaqişələrin dərəcəsini daha da artırır.

***2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra Mərkəzin, yəni SSRİ ali hakimiyyət orqanlarının tutduğu mövqe necə idi?***

Hələ 1987- ci ildə Ermənistanda müxtəlif çıxışlarda Dağlıq Qarabağ Muxtar Vilayətinə qarşı ərazi iddialarının səsləndirilməsi ilə bağlı Moskvada kifayət qədər məlumat var idi. 1988-ci ildə münaqişənin açıq şəkildə başlanmasından sonra o vaxtkı mərkəzi hakimiyyət orqanları Azərbaycanın parçalanmasına yönəlmiş bu iddiaların qarşısını almaq üçün heç bir qəti tədbirlər görmədilər.

Onlar yalnız qərarlar və bəyanatlar vasitəsi ilə problemin həllinə təsir göstərmək istədilər. Məsələ ilə bağlı 2001-ci il il fevralın 1- də Moskvanın “Trud-7” qəzetində çap olunmuş "10 bal Siyasi Büro şkalası üzrə" məqaləsində SSRİ DTK-sının 3-cü İdarəsinin əməkdaşları V. Lyutsenko və V. Xmelyovun xatirələrinə istinad etmək maraqlıdır. Qeyd edək ki, 3-cü idarədə SSRİ-də baş verən millətlərarası münaqişələr barədə məlumatlar toplanırdı. Bu, yeganə mötəbər

struktur idi ki, onun əməkdaşları ölkədəki milli münaqişələrin vəziyyəti barədə tam informasiyaya malik idilər. V.Lyutsenko yazır ki, "münaqişənin yetişməsi və onun mümkün nəticələri barədə biz Siyasi Büroya və Ali Sovetə ətraflı məlumat çatdırırdıq, hətta Stepanakertdə ilk iğtişaşlar və açıq çıxışlar barədə xəbər verirdik, lakin heç bir tədbir görülmürdü. Sovet siyası elitasının hələ 1987-ci il oktyabrın 6-da Abovyan və Yerevanda baş vermiş yürüşlərdən, məhz bu dövrdə açıq-aşkar şəkildə Qarabağı Azərbaycandan qoparıb, Ermənistana birləşdirmək uğrunda çağırışların səslənməsindən xəbəri var idi. “Lenin, Partiya, Qorbaçov”, “Qarabağa müstəqillik verək” şüarlarının minlərlə insanların iştirak etdiyi azğın kütlənin dilindən düşməməsi faktı belə, "yeni təfəkkür" fəlsəfəsi ilə silahlanmış yuxarı dairələrdə lazımi əks - səda oyatmadı. Partiya liderləri özlərinin köhnə bürokratik idarəçiliyinə sadiq qalaraq, yerlərə emissarlarını - fərqi yoxdur kimi, problemdən başı çıxır - çıxmır, təki aparat adamı olsun - göndərirdilər. O zaman Moskvadan Cənubi Qafqaza Sov. İKP MK-nın katibi G. Razumovski və mədəniyyət naziri P. Demiçev ezam edildilər. Qorbaçovun “yeni təfəkkür”ündən bəhrələnmiş bu partiya funksionerləri gördükləri millətçilik eyforiyasından çaşqınlıq keçirmişdilər. Moskvadan gəlmiş "yüksək qonaq" Razumovski Stepanakertdə dizi üstə duran mitinqçilərin Qarabağa müstəqillik verilməsi barədə çığırtılarından vahiməyə qapılaraq, Bakıya qaçmışdı. Bu birdaha göstərir ki, Sovet gerçəkliyini dərindən bilməyən aparat məmurları artıq Qarabağda ayaq tutub yeriməyə başlayan ekstremizmin və separatizmin acınacaqlı perspektivlərini qətiyyən təsəvvür etmirdilər."

***3. Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı SSRİ ali hakimiyyət orqanlarının qəbul etdiyi başlıca qərarlar hansılardır?***

1988-ci il martın 23- də SSRİ Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarda Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-yə verilməsi təklifi rədd edilir.

1988-ci il iyulun 18- də SSRİ Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarda Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-nin tərkib hissəsi olması bir daha təsdiqlənir. Bu qərar DQMV-nin yerli Sovetinin Azərbaycanın tərkibindən çıxmaq barədə 12 iyul tarixli qərarı ilə əlaqədar olaraq qəbul edilmişdir.

1988-ci il sentyabrın 21- də Moskva DQMV- də fövqəladə vəziyyət elan etdi. Bu tədbir vilayətin Azərbaycanın idarəçiliyindən faktiki çıxarılması istiqamətində atılmış ilk və yanlış addım oldu.

1988-ci il noyabrın 23- də SSRİ- də ictimai asayış yaradılması sahəsində təxirəsalınmaz tədbirlər haqqında fərman qəbul edildi.

1988-cu il yanvarın 12- də Moskva DQMV-də Arkadi Volskinin rəhbərliyi altında Xüsusi İdarə Komitəsinin (XİK) yaradılması haqqında qərar qəbul etdi. Bu

qərar Vilayətin Azərbaycanın tabeçiliyindən çıxarılması yolunda növbəti qeyri-qanuni addım oldu.

1989-cu il noyabrın 28-də SSRİ Ali Soveti “Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında” qərar qəbul etdi.

1989-cı ilin yanvarın 10-da SSRİ Ali Soveti Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989- cu il dekabrın 1- də və 1990 - cı il yanvarın 9-da qəbul etdiyi aktların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etdi. Burada göstərilirdi ki, Ermənistan SSR Ali Sovetinin "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" 1989-cu il 7 dekabr tarixli və "1990- ci ildə DQMV - nin sosial - iqtisadi inkişaf planını Ermənistan SSRİ iqtisadi və sosial inkişafına dair dövlət planına daxil etmək haqqında" 1990 - cı il 9 yanvar tarixli qərarları SSRİ Konstitusiyasına uyğun deyildir və SSR-i Konstitusiyasının 74 - cü maddəsinə əsasən respublika ərazisində qüvvədə ola bilməz.

1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman qəbul etdi. Bu fərmana əsasən DQMV-nin, Azərbaycan SSR-in ona bitişik rayonlarının, Ermənistan SSR Gorus rayonunun ərazisində, habelə Azəbaycan SSR ərazisində SSRİ-nin dövlət sərhədi boyunca sərhədyanı zonada fövqəladə vəziyyət elan edildi.

1990-cu il martın 5-də SSRİ Ali Soveti "Azərbaycan SSR-də və Ermənistan SSR- də vəziyyət və şəraiti normallaşdırmaq tədbirləri haqqında qərar" qəbul etdi.

### *4. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ermənilərin həyata keçirdikləri strategiyanın əsas mahiyyəti nədən ibarətdir?*

Həm münaqişə başlamadan öncə, həm də münaqişənin gedişatında erməni tərəfi sistemli fəaliyyət göstərməyə çalışırdı. Bu fəaliyyətin əsas cəhətlərini göstərmək üçün onun sahələr üzrə təhlilini aparmaq daha məqbuldur.

İlk öncə, ermənilər siyasi - ideoloji təbliğat, informasiya müharibəsi sahəsində güclü fəallıq nümayiş etdirirdilər. Ölkə daxilində əhalini milli ideya ətrafinda birləşdirmək, Azərbaycana qarşı olan ərazi iddialarını tarixi və hüquqi baxımdan əsaslandırmaq, müxtəlif ölkələrdə kök atmış erməni diasporalarının gücündən səmərəli istifadə edilməsinə çalışmaq, beynəlxalq hüququn millətlərin öz müqəddaratını təyinetmə prinsipi ilə manipulyasiya edərək, Qarabağ ermənilərini müstəqil subyekt kimi təqdim etmək bu ideoloji fəaliyyətin əsas ünsürlərindəndir.

1988-ci il iyunun 15-də, Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistan SSR-nin tərkibinə daxil olmasına razılıq verilməsi haqqında qərar qəbul edir. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul edir.

1990-cı il yanvarın 9-da Ermənistan SSR Ali Soveti "1990-cı ildə DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in iqtisadi və sosial inkişafına dair planına daxil etmək haqqında" qərar qəbul edir.

Eyni zamanda, həmin dövrdə Ermənistanda ərazi iddiaları ilə bağlı planların həyata keçirilməsi uğrunda mübarizə aparan "Qarabağ", "Krunk" (tərcüməsi: Durna) təşkilatları, Erməni Ümummilli Hərəkatı (EÜH) yaradılır, Erməni Milli Ordusu formalaşdırılır. EÜH 1990-cı ilin mayında ölkə parlamentinə keçirilən seçkilərdə qələbə qazanır, onun lideri Levon Ter-Petrosyan 1990-cı ilin avqustunda parlamentin sədri, 1991-ci ilin sentyabrında isə ölkə prezidenti seçilir. Qarabağ erməniləri də öz növbəsində Azərbaycanın parçalanmasına yönəlmiş addım ataraq, 1991-ci il sentyabrın 2-də "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini elan edirlər.

Hərbi sahədə ermənilər Azərbaycan ərazisini silahlı yolla işğal etmək, ölkə daxilində azərbaycanlıların zorla etnik təmizlənməsini həyata keçirmək xətti tutdular. Nəticədə Dağlıq Qarabağın ərazisindən əlavə Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

Xarici siyasətdə Yerevan Rusiya ilə hərbi-siyasi əməkdaşlıq yolunu tutdu. 1992-ci il aprelin 6-da iki dövlət arasında imzalanmış "Dostluq və əməkdaşlıq haqqında" Müqavilənin 3-cü maddəsi Ermənistana hərbi yardım göstərilməsini nəzərdə tutur. 1995-ci il martın 16-da Rusiya ilə Ermənistan arasında 25 il müddətinə imzalanmış müqaviləyə görə, Ermənistandakı Rusiya hərbi bazalarına rəsmi status verildi. Bununla da Rusiya qoşunlarının Ermənistandakı fəaliyyəti hüquqi cəhətdən tənzimləndi.

### *5. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müstəqil Rusiya dövlətinin mövqeyi necə idi?*

1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra müstəqil Rusiya Federasiyası yaranır və beynəlxalq səhnədə fəal xarici siyasət yeritməyə çalışır. İlk dövrdə Rusiyanın əsas məqsədi keçmiş sovet respublikalarını 1991-ci ildə yaranmış Müstəqil Dövlətlər Birliyinə cəlb etmək idi. Moskva bu qurum vasitəsilə keçmiş Sovet məkanında təsir mexanizmlərini saxlamaq istəyirdi. Azərbaycan dekabrda MDB yaradılması haqqında sazişi imzalasa da, Parlament bunu təsdiqləməmişdi. Eyni zamanda münaqişə dövründə Moskvanın Yerevana dəstək verməsi müşahidə olunurdu. 1992-ci il fevralın 26-da erməni silahlı dəstələrinin Rusiya ordusunun 366-cı motoatıcı alayının qüvvələri ilə birlikdə Xocalını işğal etməsi və dinc əhalini kütləvi şəkildə qətlə yetirməsi buna bir nümunədir. Yuxarıda qeyd etdiyimiz kimi 1992-cı il aprelin 6-da Rusiya ilə Ermənistan arasında imzalanan "Dostluq və əməkdaşlıq haqqında" Müqavilənin 3-cü maddəsinə əsasən, Ermənistana hərbi yardım göstərilməsi nəzərdə tutulurdu. 1995-ci il martın 16-da iki ölkə arasında imzalanmış müqaviləyə görə isə Rusiyaya Ermənistanda hərbi

bazalar saxlamaq hüququ verilirdi. Beləliklə, Moskva Cənubi Qafqazda Ermənistanı özünün dayaq məntəqəsinə çevirərək, onunla strateji tərəfdaşlıq xəttini götürdü. Müharibə bölgəsində Azərbaycanın uğursuzluqlarından istifadə edərək Moskva Bakıya təzyiqlər göstərməklə, 1993-cü ilin sentyabrında Azərbaycanın MDB-yə daxil olmasına nail oldu.

Sonrakı dövrdə də münaqişənin nizamlanması ilə bağlı təkliflərində Moskva Yerevanın mövqelərini nəzərə alırdı. 1997-ci ilin əvvələrində isə Rusiyanın MDB ölkələri ilə əməkdaşlıq naziri A. Tuleyev məlumat verərək bildirdi ki, 1994 - 96-cı illər ərzində Rusiyadan Ermənistana pulsuz 1 milyard dollarlıq silah və sursat göndərilib.

Hazırda Rusiya 1994-cü ilin dekabrından bəri münaqişənin nizamlanmasına dair ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyət gösiərir.

### *6. Ermənistan - Azərbaycan. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiyanın irəli sürdüyü vasitəçilik təşəbbüsləri hansılardır?*

1991-ci il avqust qiyamından sonra Rusiya Federasiyası fəal şəkildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə başlayır. Rusiya və Qazaxıstan rəhbərliyinin birgə vasitəçilik missiyası bu istiqamətdə ilk cəhd olur. Azərbaycan və erməni tərəflərinin razılığı ilə hər iki dövlət vasitəçilik missiyasını öz üzərinə götürdü. 1991-ci il sentyabrın 20-23 - də Rusiya prezidenti Boris Yeltsinin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin başçılığ etdikləri vasitəçilik missiyaları Bakı, Gəncə, Stepanakert (indiki Xankəndi) və Yerevanda səfərdə oldu. Münaqişənin nizamlanması istiqamətindəki vasitəçilik səylərinin nəticəsində Şimali Qafqazın kiçik kurort şəhərciyi Jeleznovodskda dörd tərəfli birgə kommünike imzalanır. Kommünikeni Rusiya tərəfindən B.Yeltsin, Qazaxıstan tərəfindən N.Nazarbayev, Azərbaycan tərəfindən Ayaz Mütəllibov, Ermənistan tərəfindən isə Levon Ter-Petrosyan imzalamışdılar.

Kommünikeyə görə, tərəflər aşağıdakıları münaqişənin nizamlanmasının zəruri və məcburi şərtləri kimi qəbul edirdilər: atəşin dayandırılması, Azərbaycan və Ermənistanın DQMV - yə dair bütün qeyri-konstitusion aktlarının 1992-ci il yanvarın 1-nə qədər ləğv edilməsi, qanuni hakimiyyət orqanlarının səlahiyyətlərinin tanınması, SSRİ DİN-in Daxili Qoşunlarının və SSRİ Müdafiə Nazirliyinin hissələri istisna olmaqla, münaqişə bölgəsindən bütün silahlı dəstələrin çıxarılması. Bu tədbirlərin icrası məqsədi ilə Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələrindən ibarət müvəqqəti işçi müşahidəçilər qrupunun yaradılması nəzərdə tutulurdu. Bundan əlavə, tərəflər deportasiya olunmuş əhalinin öz yerlərinə qayıtmasını təmin etməli, girovların azad edilməsinə başlamalı, dəniz yolu və hava nəqliyyatının, rabitə və kommunikasiya sistemlərinin normal fəaliyyətini təmin etməyi öz öhdələrinə götürdülər. Eyni zamanda Azərbaycan və Ermənistan ali dövlət hakimiyyəti orqanları daimi əsasda dərhal ikitərəfli

danışıqlar prosesinə başlamaq üçün səlahiyyətli nümayəndə heyətləri təyin etməli idilər. Lakin münaqişənin sonrakı gərginləşməsi səbəbindən Jeleznovodsk kommünikesinin müddəalarının həyata keçirilməsi mümkün olmadı.

1992-ci ildə münaqişənin gedişi zamanı Rusiya və Gürcüstanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan müdafiə nazirləri arasında sentyabrın 19-da Soçi sazişi imzalandı. Sazişə görə sentyabrın 25-dən hərbi əməliyyatların dayandırılması, 2 ay müddətində qoşunların geri çəkilməsi, iki ölkə arasında dövlət sərhədlərində və Dağlıq Qarabağ ərazisində Rusiya, Gürcüstan, Belorus, Ukrayna və Qazaxıstandan gələn müşahidəçilərin yerləşdirilməsi və tərəflərin qarşılıqlı razılığına əsasən, zəruri hallarda bölgəyə sülhməramlı qüvvələrin gətirilməsi nəzərdə tutulurdu. Soçi sazişini Azərbaycan adından müdafiə naziri R.Qazıyev, Ermənistan adından A.Sarkisyan, Rusiya adından müdafiə naziri P. Qraçov, Gürcüstan adından müdafiə naziri T. Kitovani imzalamışlar. Lakin bu sazişin müddəalarını həyata keçirmək mümkün olmadı.

1994-ci il əvvəllərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində iki mühüm vasitəçi - ATƏM və Rusiyanın rolunun artması özünü daha qabarıq şəkildə göstərdi. Rusiya ATƏM-in Minsk qrupunun üzvü olsa da, hələ 1993-cü ildə özünün müstəsna rolunu israr etməklə, istər BMT, istərsə də ATƏM-in çərçivəsində regionda "sülhün və sabitliyin təminatçısı" statusunu almağa səy göstərirdi. Rusiya ATƏM-in çərçivəsində vasitəçiliyi birtərəfləşdirməklə, özünün münaqişənin nizamlanması planına aşkar üstünlük verirdi.

1994 - cü ilin fevralın 18-də Moskvada Rusiya, Ermənistan və Azərbaycanın nümayəndələrinin görüşündə Rusiyanın hazırladığı plan müzakirə edildi. Rusiyanın təklif etdiyi "Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" saziş tərəflərin müzakirəsinə verildi. Sənədin əvvəlində "tərəflərin BMT TŞ-nin 822,853,874,884 saylı qətnamələrinin tamamilə həyata keçirilməsinə kömək göstərmək" nəzərdə tutulurdu. Sənəddə deyilirdi ki, Dağlıq Qarabağın hüquqi statusu güzəştli zəmində sonralar müəyyən ediləcəkdir. Sənədin işğal olunmuş ərazilərin boşaldılması ilə bağlı olan hissələrində Şuşa və Laçının adı çəkilmirdi. Sənəddə Laçınla bağlı deyilirdi ki, Laçın rayonundan qüvvələrin çıxarılması müddətləri və qaydaları bu danışıqlarda Dağlıq Qarabağa Ermənistandan olan yolun beynəlxalq nəzarət altında təhlükəsiz işləməsini təmin edən rejimin yaradılması ilə eyni vaxtda müəyyənləşdiriləcəkdir. Şuşanın taleyi haqda isə heç bir fikir söylənilmirdi. Azad edilən ərazilərdə hərbi qüvvələrin yerləşdirilməsi məsələsi Birləşmiş Qərargaha həvalə olunurdu. Lokal təhlükəsizlik zonasında Birləşmiş Qərargahın tərkibindən ibarət qruplar yerləşdirilməsi nəzərdə tutulurdu. Həmin qrupların tərkibi haqda bir söz deyilməsə də, qruplara Rusiya Müdafiə Naziliyi nümayəndələrinin başçılıq edəcəyi bildirilirdi. Sənəddə münaqişədə bilavasitə iştirak edən üç tərəf göstərilirdi: Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan.

1994-cü il mayın 4-5-də MDB Parlamentlərarası Məclisinin təşəbbüsü ilə Bişkekdə münaqişənin nizamlanmasına dair növbəti görüş keçirildi. Bu görüşdə imzalanan Bişkek protokolunu Azərbaycan tərəfi mayın 8-də imzaladı. Sənəddə işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasının zəruriliyi bildirilir, lakin bu qoşunların kimə mənsub olmaları göstərilmir. Tutulmuş ərazilər termini münaqişədəki real siyasi şəraitə uyğun gəlmirdi. Burada söhbət işğal olunmuş Azərbaycan ərazilərindən getməli idi. Dağlıq Qarabağın erməni icmasına sənədi imzalamaq hüququ verilsə də, azərbaycanlı icmasına bu hüquq verilmirdi. 1994-cü il mayın 12-dən ATƏM-in Minsk Qrupu ilə birgə əməkdaşlıgda Rusiyanın vasitəçiliyi ilə razılaşdırılmış atəşkəs qüvvəyə mindi.

Bu dövrdə Qərblə Rusiya arasında münasibətlərin bir qədər də gərginləşməsi nəzərə çarpırdı. Rusiya ATƏM-i münaqişənin nizamlanması prosesindən uzaqlaşdırmaq və məsələni MDB çərçivəsində öz maraqlarına tam uyğun şəkildə həll etmək niyyətində idi. Rusiyanın məqsədi Böyük Si-yasi Sazişin imzalanması, münaqişə bölgəsinə rus qoşunlarının gətirilməsi və gələcəkdə bu problemin həllini öz nəzarəti altına alıb, bütövlükdə Qafqazda möhkəmlənmək idi. Hələ 1993-cü ilin oktyabrında ABŞ Rusiyanın bu iddialarına qarşı birmənalı şəkildə çıxış etməyə başladı. Əvvəlcə Rusiya hərbi qüvvələrinə BMT sülhməramlı qüvəlləri statusu verilməsinə qəti etiraz edildi. Sonra isə Rusiya bu məsələni 1993-cü ilin dekabrında Romada ATƏM-in Xarici İşlər Nazirləri Şurasının iclasında həll etməyə çalışmış, lakin orada da istədiyi mandatı ala bilməmişdir. ABŞ Dövlət Departamentinin bəyanatında da qeyd olunurdu ki, ABŞ münaqişənin yalnız ATƏM çərçivəsində həllinə üstünlük verir.

ATƏM-in nümayəndələri də münaqişənin nizamlanmasında Rusiya planı ilə razılaşmadıqlarını dəfələrlə bildirmişlər. ATƏM-in Minsk qrupunun sədri Yan Eliasonun münaqişə regionuna səfəri zamanı yeni sülh təşəbbüsü ilə çıxışı danışıqlarda yeni mərhələnin başlanğıcı oldu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hazırlanan planlarda ATƏM ilə Rusiya arasında yaranan fikir ayrılığı bundan ibarət idi ki, ATƏM münaqişənin nizamlanmasında çoxtərəfli vasitəçiliyin olmasını istəyirdi. ATƏM sülh prosesinin beynəlxalq müşahidəçilərin nəzarəti altında aparılmasına və beynəlxalq sülhməramlı qüvvələrin formalaşdırılmasına çalışırdı. Rusiya isə əksinə, münaqişəni öz ixtiyarında saxlamaq və özünün geosiyasi maraqlarını təmin etmək üçün münaqişə bölgəsində yalnız rus qoşunlarının yerləşdirilməsini istəyirdi.

1994-cü il oktyabrın 17-də ATƏM-in Minsk qrupunun Vyanada keçirilən görüşündə İtaliya nümayəndə heyəti çoxmillətli qüvvələr yaratmağı təklif etdi. Nəhayət, oktyabrın 24 - də ATƏM-in xüsusi iclasında ATƏM-in sədri, İtaliya xarici işlər nazirinin müavini A. Martininin sülhməramlı qüvvələr yaradılması təklifi qəbul edildi. Bu plana görə, danışıqların aparılması və münaqişə bölgəsinə sülhməramlı qüvvələrin göndərilməsinin bütün məsuliyyətini Minsk qrupu öz üzərinə götürürdü.

***7. ABŞ Konqresinin qəbul etdiyi "Azadlığı müdafiə aktı"nın və ona 907-ci düzəlişin mahiyyəti nədən ibarətdir?***

Ermənilərin xarici dövlətlərdə Azərbaycana qarşı apardıqları informasiya müharibəsinin nəticələrindən biri də Azərbaycanı ABŞ yardımından məhrum edən, ABŞ Konqresinin qəbul etdiyi "Azadlığı müdafiə aktı"na "907-ci düzəlişdir". "Azadlığı müdafiə aktı" (tam adı: "Rusiyada azadlığın, Avrasiyada demokratiyanın, açıq bazar müdafiəsi haqqında akt) 1992-ci il oktyabrın 24-də ABŞ Konqresi tərəfindən qəbul edilmişdir. Bu qanun SSRİ-nin dağılmasından sonra yeni müstəqil dövlətlərə yardım haqqında ABŞ Konqresinin ilk qanunvericilik aktıdır. "Azadlığı müdafiə aktı" azadlığa dəstəyin aşağıdakı bölmələrini əhatə edir:

- yardımı təmin etmək üzrə əsas tədbirlər;
- ikitərəfli iqtisadi yardımı fəallaşdırmaq;
- işgüzarlığın və ticarətin inkişafı;
- yeni demokratiyalara kömək üçün qeyri - hökumət təşkilatlarının yaradılması;
- təşkilat planı və onun həyata keçirilməsi;
- kosmos sahəsində əməkdaşlıq;
- kənd təsərrüfatı sahəsində ticarət;
- ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Dövlət Departamenti, onlarla qohum təşkilatlar və onların fəaliyyəti;
- yardımı təmin etmək üzrə digər tədbirlər;
- beynəlxalq maliyyə təşkilatları.

"Azadlığı müdafiə aktı" çərçivəsində ABŞ hökumətinin həyata keçirdiyi proqramlar aşağıdakı istiqamətlər üzrə qruplaşdırılır:

- ABŞ hökumətinin MDB - də işgüzar fəaliyyətə, idxal və ixracın inkişafına yardım proqramları;
- ABŞ hökumətinin maliyyəşdirilmə proqramları.
- Texniki yardım proqramları.

"Azadlılığı müdafiə aktı"na 907-ci düzəlişi (1992-ci ilin dekabrında qəbul olunmuşdur) isə senator Kerri (Massaçusetss ştatı) irəli sürmüşdü. 907-ci düzəliş Azərbaycana verilən yardımı məhdudlaşdırırdı və burada göstərilirdi ki, Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadaların və hərbi gücdən istifadənin ləğvi sahəsində nümayişkaranə addımların atılmadığını prezident müəyyən etməyincə və bunu Konqresə bildirməyincə, Azərbaycan hökumətinə yardım göstərilməyəcəkdir.

2001-ci il sentyabrın 11-də ABŞ-da baş vermiş terror aktından sonra beynəlxalq siyasi vəziyyət dəyişikliklərə məruz qaldı. Bu hadisədən sonra ABŞ prezidenti Corc Buş beynəlxalq antiterror koalisiyasının üzvü olan Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin dayandırılması məsələsini qaldırdı. Nəticədə

2002-ci ilin yanvarından "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişin qüvvəsi dayandırıldı.

***8. BMT TŞ - nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrin mahiyyəti nədən ibarətdir?***

a) Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 29-da Birləşmiş Millətlər Təşkilatına və dünya dövlətlərinə müraciət edərək, bu təşkilata qəbul olunmaq məsələsinin nəzərdən keçirilməsini xahiş etdi. 1992-ci il martın 2-də Azərbaycan bərabərhüquqlu üzv kimi təşkilata qəbul olundu. 1992-ci il martın 6-da Nyu - Yorkda Azərbaycanın BMT yanında daimi Nümayəndəliyi açıldı. Həmin ilin noyabrından isə BMT-nin Azərbaycanda Daimi Nümayəndəliyi fəaliyyət göstərir. Təşkilata üzv qəbul olandan sonra Ermənistanın açıq-aşkar təcavüzünün güclənməsi ilə bağlı Azərbaycan BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının Sədrinə müraciət edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü dərhal dayandırmağa, beynəlxalq hüquq normalarının və BMT Nizamnaməsinin açıq-aşkar pozulmasının qarşısını almağa, münaqişənin dinc siyasi yolla nizamlanmasına kömək göstərməyə çağırdı.

1993-cü il martın 27-dən aprelin 2-dək Ermənistan silahlı qüvvələri Azərbaycanın Kəlbəcər rayonunu işğal etdilər. Bu isə açıq-aşkar təcavüz aktı idi. Bundan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyət barədə BMT Baş Katibi və Təhlükəsizlik Şurasının sədrinə məlumat verdi. Azərbaycan Təhlükəsizlik Şurasının təcili iclasının çağırılmasını və Azərbaycana qarşı təcavüzün pislənməsini tələb etdi. Aprelin 30 - da BMT TŞ-nin 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi.

Qətnamənin həm müsbət, həm də mənfi cəhətləri var idi. Müsbət cəhətlərdən aşağıdakıları sadalamaq olar:

- Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə bağlı ciddi narahatlıq hiss olunur, bununla da Ermənistanın münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu;
- Qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəslənildiyi, sərhədlərin pozulması və zor gücünə ərazilərin ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiqlənirdi;
- BMT səviyyəsində rəsmən Azərbaycan ərazilərinin işğal olunması faktı etiraf olunurdu.

Qətnamənin mənfi cəhəti ondan ibarət idi ki, sənəddə "yerli erməni qüvvələri ifadəsi işlədilirdi. Qətnamədə “yerli erməni qüvvələri”nin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna son müdaxiləsindən narahatlıq ifadə olunurdu. Bu ifadə isə Ermənistanın rəsmən təcavüzkar dövlət kimi tanınması məsələsində müəyyən maneə yaradırdı. Eyni zamanda Azərbaycan ərazilərinin işğal olunması faktı etiraf edilsə də, işğalçının kim olduğu göstərilmirdi.

b) 1993-cu il iyulun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam rayonunu işğal etdilər. Ağdamın işğalından sonra BMT TŞ-nin iyulun 29-da keçirilən 3259-cu iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 853 saylı qətnamə qəbul olundu.

Qətnamənin müsbət cəhətləri:

- BMT TŞ münaqişə bölgəsində hərbi əməliyyatların daha da güclənməsinə və Ağdam rayonunun işğal edilməsinə Kəlbəcərin işğalına nisbətən daha tez reaksiya verdi;
- bu qətnamədə Ermənistan Respublikası ilə Azərbaycan arasında gərginliyin olduğu göstərilir, yəni dolayı yolla olsa da, Ermənistanın bu və ya başqa formada iştirakı təkrar olaraq etiraf edilirdi;
- beynəlxalq sərhədlərin pozulmazlığı və zor gücünə ərazilər ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunurdu;
- bölgədə gələcəkdə bütün düşmənçilik hərəkətləri, o cümlədən mülki şəxslərə hücumlar və yasayış rayonlarının bombalanması və top atəşlərinə tutulması pislənirdi;
- işğalçı qüvvələrin Azərbaycanın Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün başqa rayonlardan dərhal və tamamilə qeyd-şərtsiz çıxarılması tələb olunurdu;
- qətnamədə Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərilməsi və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək edilməsi xahiş olunurdu;
- əvvəlki qətnamədən fərqi olaraq, bu qətnamədə “yerli erməni qüvvələri” ifadəsi ləğv edilmişdi.

Məhz 822 saylı qətnamədə Kəlbəcər rayonunu işğal etmiş Ermənistan tərəfinə qarşı qətnaməni yerinə yetirmədiyi təqdirdə, hansı tədbirlər görüləcəyinin nəzərdə tutulmaması və onun üçün cəzasızlıq şəraitinin yaradılması erməni qüvvələrinin Ağdam şəhərini işğal etməsinə imkan verdi. 853 saylı qətnamənin ümümilikdə bir müsbət və iki mənfi cəhəti var idi. Müsbət cəhət ondan ibarət idi ki, BMT TŞ işğalçı qüvvələrin Azərbaycanın Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş başqa rayonlardan dərhal və tamamilə, qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Mənfi cəhət: Qətnamənin 9-cu bəndində Ermənistan Respublikası ilə Dağlıq Qarabağ ermənilərinin ayrı-ayrı tərəflər kimi göstərilməsi və bu sənəddə də Azərbaycan ərazisinin kim tərəfindən işğal edilməsinin göstərilməməsi 853 saylı qətnamənin əsas mənfi cəhəti idi.

c) 1993-cü ilin yayında Ermənistan BMT TŞ-nin qətnamələrinə məhəl qoymaraq, Azərbaycanın digər ərazilərini işğal etmək məqsədi ilə genişmiqyaslı hücum əməliyyatlarını həyata keçirdi. Bunun nəticəsində həmin ilin avqust ayında Azərbaycanın Cəbrayıl, Füzuli və Qubadlı rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu.

1993-cü il oktyabrın 14-də BMT TŞ özünün 3292-ci iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 874 - cü qətnaməsini qəbul etdi.

Qətnamənin müsbət cəhətləri:

- Ermənistanla Azərbaycan arasında gərginliklə əlaqədar ciddi narahatlığın ifadə olunması ilə Ermənistanın münaqişə tərəfi olması, dolayı yolla olsa da, etiraf olunurdu;

- sənəddə bir daha dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi təsdiq olunurdu;

- təşkilat regiondakı bütün dövlətləri münaqişənin genişləndirilməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən və ya hərbi müdaxilədən çəkinməyə çağırırdı;

- qətnamədə zərər çəkmiş mülki əhaliyə fövqəladə humanitar yardım göstərmək və qaçqınlara təhlükəsizlik şəraitində öz evlərinə qayıtmağa kömək etmək nəzərdə tutulurdu.

Qətnamənin mənfi tərəflərinə gəldikdə, yenə də bu sənəddə işğalçı dövlətin adı çəkilmirdi, işğal olunmuş ərazilərdən Ermənistan qoşunlarının çıxarılmasının dəqiq müddəti göstərilmirdi və qətnaməni yerinə yetirməyən tərəfə qarşı sanksiyalar tətbiq edilməsi nəzərdə tutulmurdu.

d) 1993-cü il oktyabrın 23-də Ermənistan silahlı qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq, Azərbaycanın cənub-qərb rayonlarına hücuma keçdilər. Bu hücum nəticəsində Azərbaycanın Zəngilan rayonu erməni qoşunları tərəfindən tamamilə işğal olundu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi və Zəngilan rayonunun işğalı ilə əlaqədar Azərbaycan dövlətinin xahişi ilə BMT TŞ vəziyyəti müzakirə edərək, 1993-cü il noyabrın 12-də 884 saylı qətnamə qəbul etdi.

Qətnamənin müsbət cəhətləri: Ermənistanla Azərbaycan arasında münasibətlərin gərgin olaraq qalmasını ifadə etməklə, Ermənistanın münaqişə iştirakçısı olması dolayı yollarla təsdiqlənirdi;

- Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsi pislənilirdi;

- qətnamə regiondakı dövlətlərin suverenliyini və ərazi bütövlüyünü, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiqləyirdi;

- işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılması və bu yaxınlarda işğal olunmuş rayonlardan qəsbkar qüvvələrin çıxarılması tələb edilirdi.

BMT TŞ Baş Katibdən və müvafiq beynəlxalq təşkilatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin, Azərbaycanın cənub sərhədlərinin ərazisinə təcili humanitar yardım göstərilməsini,

qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmağa kömək etməyi xahiş edirdi.

Ümumiyyətlə, BMTTŞ-nin qəbul etdiyi qətnamələrdə Ermənistan təcavüzkar dövlət kimi tanınmadı. Qəbul edilən bütün bu sənədlərdə münaqişə Ermənistan-Azərbaycan münaqişəsi kimi yox, Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə kimi qiymətləndirildi. Təcavüzkara qarşı qətnamələrdə sanksiyaların nəzərdə tutulmaması Ermənistanın işğalçılıq siyasətini davam etdirməsinə və nəticədə Azərbaycan ərazilərinin 20 % hissəsini işğal etməsinə gətirib çıxardı. Başqa sözlə, Ermənistan tərəfi BMTTŞ-nin qətnamələrinin heç birinə məhəl qoymayaraq onları yerinə yetirmədi. (bax: I, sual 57; III, sual 7)

***9. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair ATƏT-in Minsk qrupu (yaradılan zaman ATƏM-in Minsk qrupu) nə vaxt yaradılıb və ona rəhbərlik necə həyata keçirilir?***

1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropa Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-də ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında onun sənədlərini imzaladı.

1992-ci ilin fevral ayından başlayaraq Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in diqqət obyektinə çevrildi. Fevralın ortalarında ATƏM-in xüsusi missiyası Azərbaycanda oldu. Fevralın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərti ilə, münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı.

ATƏM-in YVŞK-nin martın 13-14-də Helsinkidə keçirilən 8-ci iclasında münaqişənin davam etməsi və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə olundu. Bu görüşdən sonra ATƏM-in YVŞK-nin sədri Yan Kubişin (Çexoslovakiya) başçılıq etdiyi nümayəndə heyəti martın 19-23 - də ikinci dəfə münaqişə bölgəsinə səfər etdi. Dağlıq Qarabağ, Bakı və Yerevanda olan nümayəndəliyin məqsədi Qarabağda atəşin dayandırılması, ATƏM-in müşahidəçilərinin münaqişə bölgəsində yerləşdirilməsi imkanlarını öyrənmək idi.

1992-ci il martın 23-24-də Helsinkidə ATƏM-in YVŞK 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal dayandıraraq münaqişə edən bütün tərəfləri ATƏM-in çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. ATƏM-in Nazirlər Şurası YVŞK-nin zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh kofransının çağırılması haqqında qərar qəbul etdi. Nazirlər razılaşdılar ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə,

Fransa, Almaniya, İtaliya, İsveç, Çexoslovakiya (onu sonradan Macarıstan əvəz etdi), Belorus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin.

1992-ci il mayın 1-də ATƏM-in YVŞK-nin Helsinkidə keçirilən 10-cu iclasında Dağlıq Qarabağa dair konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında YVŞK-nin qərarı qəbul edildi. Minsk Konfransının reallaşması üçün yaradılan eyni adlı Minsk qrupu münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə həll ediləndən sonra isə məsələnin həllində neytral, regionda maraqlı dövlət olmadığını nəzərə alaraq, Belorusun paytaxtı Minsk şəhərində konfrans üzvü olan dövlətlər toplanmalı və Yekun sənədi qəbul etməli idilər.

1994-cü ilin dekabrında keçirilən Budapeşt zirvə toplantısında Minsk Konfransında və Qrupunda həmsədrlik institutu yaradıldı. Qəbul edilən qərara əsasən, həmsədrlik funksiyası Rusiya və Finlandiyaya tapşırıldı. 1997-ci ilin yanvarında isə Minsk Konfransında və Qrupunda üçtərəfli həmsədrlik təsis edildi və hazırda ABŞ, Rusiya və Fransa həmsədrlik funksiyasını həyata keçirirlər.

***10. ATƏT-in Budapeşt zirvə toplantısı Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı sənədi qəbul etdi?***

1994-cü il dekabrın 5-6-da Budapeştdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısı ATƏT -in tarixində yeni bir mərhələ oldu. Budapeştdə qəbul edilən qərarın birincisi Avropada sülhün və təhlükəsizliyin təmin edilməsində ATƏT-in rolunun daha da gücləndirilməsinə həsr edilmişdi. Zirvə toplantısında "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı bəyannamə qəbul edildi. Qərara alındı ki, bu təşkilat 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırılsın. Qəbul edilən bu sənəd ATƏT-in təşkilati cəhətdən yeniləşməsi, onun fəaliyyətinin genişlənməsi prosesinin başlanğıcı idi.

Budapeşt zirvə toplantısında ATƏT-in gələcək fəaliyyəti ilə bağlı məsələlərlə yanaşı regional münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə olundu. Qəbul edilən sənədin "Regional məsələlər" hissəsində "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" adlı bölmə öz əksini tapdı. Sənəddə deyilirdi ki, iştirakçı dövlətlər münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12 də ATƏM-in Minsk qrupu ilə birgə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışlayırlar. Bununla əlaqədar ATƏT-in fəaliyyətdə olan sədrinə tapşırıldı ki, iştirakçı dövlətlərlə məsləhətləşərək, danışıqlarda ümumi və razılaşdırılmış əsasın təmin olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsi üçün Minsk Konfransının həmsədrlərini təyin etsin. Qərara alındı ki, ATƏT-in prinsiplərini və razılaşdırılmış mandatı əldə rəhbər tutan həmsədrlər Minsk Qrupunun iclaslarında birgə sədrlik edəcək və fəaliyyətdə olan sədrə birgə hesabat

veriləcək. Onlar mütəmadi olaraq Daimi Şuraya öz işlərindəki irəliləyişlər barədə ətraflı məlumat verəcəklər.

Sənəddə daha sonra deyilirdi ki, iştirakçı dövlətlər Minsk Konfransının həmsədrlərinə tapşırırlar ki, Rusiya Federasiyası və Minsk Qrupunun digər dövlətlərinin köməyi ilə mövcud atəşkəsin davam etdirilməsi və silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirsinlər.

Onlar BMT TŞ - nin uyğun qətnaməsi ilə silahlı münaqişə bitərkən, tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏT - in çoxmillətli sülhməramlı qüvvələrini görmək barədə siyasi iradələrini bəyan etdilər. Fəaliyyətdə olan Sədrdən xahiş olunurdu ki, o, mümkün qədər tez bir zamanda, 1992-ci il Helsinki sənədinin üçüncü bəndinə əsasən və BMT nizamnaməsinə tam uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar fəaliyyətdə olan Sədrə Minsk Konfransının həmsədrləri, Minsk Qrupu və Baş Katib tərəfindən köməklik və yardım göstərilməli, sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası, həcmi, onlara rəhbərlik və nəzarət, arxa təminat, hissələrin və ehtiyatların paylanması, davranış və sazişlərin qaydalarına dair tövsiyələr vermək üçün Vyanada yüksək səviyyədə planlaşdırma qrupu yaradılmalı idi. Sənəddə deyilirdi ki, bu qrup BMT-nin texniki məsləhət və ekspertiza təminatına hazır olduğu barədə bəyanata əsasən BMT-dən yardım və BMT TŞ-dən ATƏT-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi barədə siyasi dəstək almağa çalışacaqdır.

Sənədin sonunda qeyd olunur ki, Minsk Konfransının həmsədrləri vasitəsi ilə fəaliyyətdə olan Sədrin rəsmi müraciətinə əsasən Daimi Şura ATƏT-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul edəcəkdir.

### *11. ATƏT-in Lissabon zirvə toplantısı Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı sənədi qəbul etdi?*

1996 - cı il dekabrın 2-3 - də Lissabonda Avropanın 52 dövlətinin, ABŞ və Kanadanın, habelə müşahidəçi sifəti ilə 10 Asiya və Afrika dövlət başçılarının iştirakı ilə ATƏT-in Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında yekun sənəd - 27 maddədən ibarət bəyannamə qəbul edildi. Bəyannamə "Avropada 21-ci əsrdə ümumi və hərtərəfli təhlükəsizlik modeli" adlanırdı. Toplantıda Avropada və dünyada baş verən proseslər, o cümlədən, qarşılıqlı təhlükəsizlik və əməkdaşlıq, insan haqlarının qorunması, demokratikləşmə və münaqişələrin həlli ilə bağlı məsələlər müzakirə obyektinə çevrildi. Bəyannamədə Bosniya və Herseqovinada daimi sülhün təmin olunması, Qazaxıstan, Ukrayna, Belorusun ərazilərindən nüvə silahının çıxarılması, Gürcüstan, Moldovanın suverenliyi və ərazi bütövlüyünün təmin olunması, Çeçenistan məsələsi, ATƏT - in Orta Asiya respublikalarının demokratik strukturlarının inkişaf etdirilməsində rolu, qaçqınlar problemi, mətbuat azadlığı, iqtisadi sosial və s. problemlər öz əksini tapdı.

Lissabonda həm də Qafqazda gedən proseslər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları geniş müzakirə olundu. Keçirilən bütün görüşlərdə Azərbaycan ATƏT-in prinsiplərini əsas götürərək, özünün ərazi bütövlüyünü qorumaq şərtilə Dağlıq Qarabağa öz tərkibində ən yüksək status verilməsi mövqeyindən çıxış edirdi. Azərbaycanın bu təklifi Ermənistandan başqa ATƏT-in Minsk qrupunun bütün üzvləri tərəfindən müdafiə olundu. Göstərilən bütün səylərə baxmayaraq, Lissabon zirvə toplantısının yekun bəyannaməsinin layihəsində Azərbaycan təklif etdiyi maddənin yox, başqa bir maddənin salınmasının şahidi oldu. Vyanada, daha sonra Lissabonda, işçi qrup tərəfindən hazırlanmış bəyannamə layihəsində əks olunan izahatda göstərilirdi ki, Ermənistan bu layihəyə konsensus vermədiyinə görə ümumi bəyannamədən çıxarılmışdır. Buna baxmayaraq Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə müzakirəyə çıxarılarkən əsas mübahisə sənədin 20-ci maddəsi uğrunda oldu. Azərbaycan nümayəndə heyətinin səyləri və təkidi ilə Lissabon sənədinə 20-ci maddə adı altında həmin prinsipləri əks etdirən bir maddə daxil edildi. Bu maddəyə əsasən Azərbaycanın ərazi butövlüyü tanınırdı. Lakin Ermənistan tərəfi konsensus qaydasından istifadə edərək, yekun qətnamənin 20-ci maddəsinə veto qoydu. Azərbaycan tərəfi buna cavab olaraq, sammitin sənədlərinə imza atmayaraq, veto hüququndan istifadə etdi. Nəticədə Lissabon sammitinin yekun bəyannaməsinin 20-ci maddəsi Azərbaycanın təklif etdiyi prinsiplər olmadan qəbul edildi. Bunun əvəzində ATƏT-in sədri Flavio Kotti Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən bəyanat verdi. Bəyanatda deyilirdi ki, son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin həllində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində heç bir tərəqqi əldə edilməmişdir. Minsk konfransı həmsədrlərinin tənzimləmə prinsipləri məsələsində tərəflərin mövqelərini yaxınlaşdırmağa yönəldilən səyləri uğursuz olmuşdur. Daha sonra bəyanatda münaqişənin tənzimlənməsinin tərkib hissəsi olaraq 3 prinsip göstərildi:

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;
- məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikiləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

ATƏT- in üzvü olan dövlətlərin hamısının adından verilən bu bəyanat Ermənistandan başqa bütün digər iştirakçı dövlətlər tərəfindən qəbul edildi.

ATƏT-in sədrinin bəyanatı Lissabon sammitinin sənədlərinə daxil edildi.

Lissabon sammitindən sonra, 1997-ci il yanvarında Fransanın nümayəndəsi ATƏT-in Minsk qrupuna həmsədr təyin olundu. 1997-ci il fevralın 14-də isə ATƏT-in sədri Nils Peterson (Danimarka) ABŞ nümayəndəsini Minsk qrupunun

başqa bir həmsədri təyin etdi. Beləliklə, ATƏT-in Minsk qrupunda ABŞ, Rusiya və Fransanın nümayəndələrindən ibarət üçtərəfli həmsədrlik təsis edildi. (bax: l, sual 60; III, sual 2,3)

***12. Ermənistanın Azərbaycana qarşı təcavüzünü açıq şəkildə tanıyan və pisləyən beynəlxalq təşkilat hansıdır?***

Ermənistanın Azərbaycana qarşı təcavüzünü ilk dəfə açıq şəkildə tanıyan və pisləyən beynəlxalq təşkilat İslam Konfransı Təşkilatıdır (İKT). Azərbaycan Respublikası 1991-ci il dekabrın 8-dən İKT-nın üzvüdür.

1992-ci ilin iyun ayında İstambulda keçirilmiş İKT Xarici İşlər Nazirlərinin 5-ci fövqəladə konfransı, Ermənistanın Azərbaycana qarşı son hücumlarını və Azərbaycan ərazilərinin işğalını qətiyyətlə pisləyərək, BMT Baş Katibindən və Təhlükəsizlik Şurasının Sədrindən Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul edilməsini xahiş etdi.

1993-cü il aprelin 25-29-da Pakistanın Kəraçi şəhərində keçirilən İKT-nın Xarici İşlər Nazirlərinin 21-ci konfransında isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edildi. Qətnamənin birinci maddəsində qeyd olunurdu ki, İKT Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir. Qətnamənin ikinci maddəsində erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb olunurdu. Daha sonra İKT Azərbaycan hökumətinin və xalqının öz ölkəsinin müdafiəsi üçün etdiyi cəhdlərlə həmrəy olduğunu bir daha təsdiq edir, İslam İnkişaf Bankından və digər islam təşkilatlarından Azərbaycana təcili maliyyə yardımı və humanitar yardım göstərməyi xahiş edirdi.

İKT-nin Ermənistanın təcavüzünü pisləyən bu prinsipal mövqeyi təşkilatın sonrakı sənədlərində də, o cümlədən, 1994-cü il dekabrın 13-14-də Mərakeşin Kasablanka şəhərində keçirilən 7-ci zirvə toplantısının qətnaməsində də öz əksini tapmışdır.

***13. Beynəlxalq hüquq normalarına görə təcavüz aktının tərifi necədir?***

Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndinə görə, təşkilatın əsas məqsədi "beynəlxalq sülh və təhlükəsizliyi qorumaq və bu məqsədlə təhlükələrin qarşısını almaq və onları aradan qaldırmaq üçün, təcavüz aktlarının və sülhün pozulmasına yönəlmiş digər pozulmaların ləğv edilməsi üçün səmərəli kollektiv tədbirlər həyata keçirməkdir". Nizamnamə həm də beynəlxalq mübahisələri dinc vasitələrlə həll etməyi tələb edir, hər hansı dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı qüvvə ilə hədələmə və ya qüvvə tətbiq etməni qadağan edir. Nizamnamənin 39-cu

maddəsinə görə isə BMT TŞ sülhə təhlükəni və təcavüz aktını müəyyən edir, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və ya bərpası üçün hansı tədbirlər həyata keçirilməsi haqqında tövsiyələr verir və qərarlar qəbul edir.

Təcavüz anlayışının tərifini müəyyənləşdirmək üçün 1974-cü il dekabrın 14- də BMT Baş Məclisinin 29-cu sessiyasında bu məsələ ilə bağlı 3314 saylı qətnamə qəbul edildi. 8 maddədən ibarət olan bu qətnamədə təcavüz aktının nədən ibarət olması müəyyənləşdirildi. Qətnamənin:

1 - ci maddəsində göstərilirdi ki, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyası müstəqilliyinə qarşı silahlı qüvvə tətbiq edilməsi BMT nizamnaməsinə ziddir və təcavüz hesab olunur.

2- ci maddəsində deyilir ki, dövlətin BMT Nizamnaməsini pozaraq, birinci silahlı qüvvə tətbiq etməsi təcavüz aktına sübutdur. 3 - cü maddəsində:

a) bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə müdaxilə və ya hücum etməsi, yaxud müvəqqəti xarakter daşımasından asılı olmayaraq, həm hərbi işğal və ya müdaxilə nəticəsində ərazinin işğalı;

b) bir dövlətin silahlı qüvvələri tərəfindən digər dövlətin ərazisinin bombardman edilməsi;

c) bir dövlət tərəfindən və ya onun adından silahlı qüvvələrin, qeyri-nizami dəstələrin və ya muzdluların göndərilməsi və s. təcavüz aktı kimi qiymətləndirilir.

Qətnamənin 5 - ci maddəsində göstərilir ki, heç bir siyasi, iqtisadi, hərbi və ya başqa mülahizələr təcavüzə haqq qazandıra bilməz; təcavüz beynəlxalq sülhə, əmin-amanlığa qarşı cinayətdir və bu cinayəti törədənlər beynəlxalq məsuliyyət daşımalıdırlar; təcavüz nəticəsində ərazi əldə edilməsi və yaxud hər hansı mənfəət qazanılması qeyri-qanunidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilən silahlı fəaliyyətləri yuxarıdakı qətnamənin müddəaları ilə müqayisə etdikdə, Ermənistanın hərəkətlərinin təcavüz aktı olduğu sübuta yetirilir. Başqa sözlə desək, Ermənistan silahlı qüwələrinin Azərbaycan ərazilərinə (Kəlbəcər, Qubadlı, Zəngilan və s. rayonlara) məhz Ermənistan ərazisindən hərbi müdaxilə etməsi, Ermənistan ərazisindən Azərbaycan ərazilərinin bombardman edilməsi, Ermənistandan Dağlıq Qarabağa silahlı dəstələrin göndərilməsi, yuxarıdakı qətnamənin müddəalarına uyğun olaraq, Ermənistan Respublikasını təcavüzkar dövlət kimi qiymətləndirməyə əsas verir.



Qarabağ  xalçası. 1892. Xalça qalereyası. London.



Qarabağ xalçası. XVII-XVIII əsrlər. Xalça muzeyi. İstanbul



Qarabağ xalçası. XVII əsr. Metropoliten muzeyi Nyu-York



“Xanlıq” xalısından fraqment



“Qarabağ” xalısından fraqment (XIX əsr)



Qarabağın süjetli xalısı (XIX əsr)



“Çələbi” xalısı (1897)





Gəncəsər (Qanzasar monastrı).

Şuşa məscidi. 1865-ci il.
V.Vereşaginin çəkdiyi şəkil.



Xudafərin körpüsü



“Qoç qəbir” abidəsi.



Qadın geyimi-arxalıq (XIX əsr)



Araxçın (XIX əsr)



Qubadlı rayonu, Cicimli kəndində kümbəz.



Füzuli rayonu, Babı kəndində kümbəz.



Qarabağ xanlığının banisi Pənah xanın sarayı (Şuşa şəhəri).



Qarabağ xanlığının dövlətçilik rəmzlərindən. Gümüş abbası. Pənahabad(Şuşa).



Pənah xanın qəbir daşı (Azərbaycan tarixi muzeyinin kolleksiyalarından).



Şahbulaq qalası.
(Qaynaq: Авалов Э., Архитектура города Щущи. Б., 1977, с.12).



Şuşa qalası.



Bürüncdən öküz başı (IX əsr) Ağdam rayonu



Əsgəran qalası XVIII əsr.




Rusiyanın Azərbaycan torpaqlarını işğalının gedişi.



Şuşa qalasının gümüş açarları. İbrahim xan tərəfindən Rusiyaya təqdim edilmişdir. 1805-ci il.



Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun ermənilərin köçürülməsi haqqında İ.F.Paskeviçə təliqəsi.






Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri general Səməd bəy Mehmandarov.



Mehmandarovun yaşayış evi. Təzə məhəlləsi (Qaynaq: Авалов Э., göstərilən əsər, s.92).



1990, 20 yanvar qan günü, Bakı.




Qarabağa erməni iddialarına qarşı ümumxalq hərəkatı. Bakı, 1988, noyabr.




Ermənilərin Azərbaycanlılara qarşı soyqırımına dair beynəlxalq toplunun üz qabığı.



Azərbaycan əsgəri vətənin müdafiəsində.




Erməni işğalının törətdiyi faciələr



Erməni işğalının törətdiyi faciələr




Xəritə. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqları.



Görkəmli
Azərbaycan şairəsi
Xurşidbanu Natəvan
(1830-1897).



Görkəmli
müğənni Bülbül
(1897-1961).



Dünya şöhrətli bəstəkar Üzeyr Hacıbəyov (1845-1948).



Ağdamda Cümə məscidi



Qarabağ ərazisindən tapılan pullar (orta əsrlər)



Zəngilan rayonundakı Məmmədbəyli kəndində kümbəz



Bina divarında bəzək (fraqment)



Gənzəsar alban kilsəsindən bir görüntü



Saxsı qab (arxeoloji tapıntı)



Cəbrayıl rayonundakı "Qız qalası"nın ümumi görüntüsü



Cəbrayıl rayonunda kümbəz



Şuşa şəhərində M.P.Vaqifin məqbərəsi



Ağdam qəbristanlığında kümbəz



Bulaq. Şuşa şəhəri



Şuşada xan evi




ХОДЖАЛЫ





# KİTABIN İÇİNDƏKİLƏR

QARABAĞ TARİXİ ........................................................................ 5
YAQUB MAHMUDOV .................................................................. 5
KƏRİM ŞÜKÜROV ...................................................................... 5
QARABAĞIN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİ .............. 54
ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ .......... 76
MÜNAQİŞƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ ................................ 76
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ ERMƏNİSTANIN .... 89
TÖRƏTDİYİ BEYNƏLXALQ HÜQUQ POZUNTULARI ............ 89
VƏFAƏDDİN İBAYEV ................................................................ 89
ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ ........... 122
PROBLEMİNİN KONFLİKTOLOJİ ASPEKTLƏRİ .................. 122
FUAD HƏSƏNOĞLU ................................................................. 122

# QARABAĞ
# SUALLAR VƏ CAVABLAR

***Azərbaycan dilində***

***Bakı, "Qismət", 2005***

Yığılmağa verilmişdir 18.11.2004.
Çapa imzalanmışdır 15.02.2005.
Şərti çap vərəqi 13,0. Ölçüsü 84x108 $^{1}/_{16}$.

"Qismət" mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Azərbaycam, Bakı, AZ 1122, H.Zərdabi pr.78.
Tel: (+994 12) 497 57 61, 497 70 22,
E-mail: qismetaz@yahoo.com.